**Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyi**

**Nazim QƏHRƏMANOV**

# I DÜNYA MÜHARİBƏSİNDƏ QAFQAZ CƏBHƏSİNDƏ ERMƏNİ AMİLİ

**Bakı – 2008**

**Elmi redaktor: İradə BAĞIROVA,**
**AMEA Tarix İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru**

**Rəyçilər: S.ƏHMƏDOV,**
**İ.BAĞIROVA**

**QƏHRƏMANOV N.**
**I DÜNYA MÜHARİBƏSİNDƏ ERMƏNİ AMİLİ.**

Bakı, "E.L." Nəşriyyat və Poliqrafiya
Şirkəti MMC, 2008, səh.296

Kitabda ötən əsrin əvvəllərində Azərbaycan torpaqları uğrunda gedən dövlətlərarası mübarizə və onların nəticələri, düşmən dövlətlərin məkrli siyasəti və bu siyasətin həyata keçirilməsində ermənilərin oynadıqları mənfi rol aydın şəkildə göstərilmişdir. Müəllif arxiv sənədləri, habelə bir çox türk və avropalı tədqiqatçıların əsərlərindən istifadə etməklə erməni millətçiləri və havadarlarının xalqımıza qarşı törətdikləri çirkin əməllərini ifşa etmişdir.

İSBN: 978-9952-438-41-3

© N.Qəhrəmanov

**MÜNDƏRİCAT**

ÖN SÖZ
REDAKTORDAN
RƏYLƏR
GİRİŞ

**I FƏSİL.** ANTANTA DÖVLƏTLƏRİ TƏRƏFİNDƏN ERMƏNİLƏRİN QAFQAZDAKI HƏRBİ-SİYASİ PROSESLƏRƏ CƏLB EDİLMƏSİ
1.1.Qarşı duran tərəflərin Qafqaz və həmsərhəd bölgələrlə bağlı niyyətlərində erməni amilinin yeri
1.2. Qafqaz cəbhəsindəki əməliyyatlara qoşulmaqda erməni millətçilərinin məqsədləri
1.3.Müharibə ərəfəsində erməni təşkilatlarının Osmanlı dövlətinin siyasi proseslərində iştirakı

**II FƏSİL.** ERMƏNİ TƏŞKİLATLARININ XARİCİ DÖVLƏTLƏRLƏ ƏLAQƏSİ VƏ ERMƏNİ SİLAHLI QURUMLARININ QAFQAZ CƏBHƏSİNDƏ FƏALİYYƏTİ
2.1. Müharibə ərəfəsində erməni təşkilatlarının xarici dövlətlərlə əlaqəsi
2.2.Qafqaz cəbhəsində erməni silahlı qurumlarının formalaşdırılması
2.3. Erməni silahlı qurumlarının Osmanlı ordusunun arxa cəbhəsində fəaliyyəti
2.4. Osmanlı ordusu arxasında erməni qiyamları
2.5. Rus, ingilis, fransız qoşunları tabeliyində olan erməni silahlı qurumlarının hərbi fəaliyyəti

**III FƏSİL.** I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ QAFQAZDAKI HƏRBİ-SİYASİ ŞƏRAİTİN MÜRƏKKƏBLƏŞMƏSİNDƏ ERMƏNİ AMİLİNİN ROLU
3.1. 24 aprel 1915-ci il tarixli «Təhcir qanunu» və ermənilərin köçürülməsi
3.2. Cənubi Qafqazda Ermənistan dövlətinin yaradılması
3.3. 1918-ci ildə Cənubi Qafqazda vəziyyətin mürəkkəbləşməsində erməni amilinin rolu
NƏTİCƏ
ƏDƏBİYYAT
QEYDLƏR
ƏLAVƏLƏR
Erməni quldurlarının fəaliyyəti fotoşəkillərin dili ilə

# ÖN SÖZ

Azərbaycan qədim diyardır. Vətənimiz yerləşdiyi siyasi məkana görə tarixən yadellilərin işğal obyekti olmuşdur. Azərbaycan xalqının qəhrəmanlıqlarla zəngin olan şərəfli tarixi vardır. Bu tarixlə həqiqətən də qürur duymaq olar. Bu tarixdə vətən oğullarımızın hərbçilik, sərkərdəlik bacarıqları, milli vətənpərvərlik ruhu da bugünkü baxımdan çox önəmlidir.

Monoqrafiyada Azərbaycan torpaqları uğrunda gedən dövlətlərarası mübarizə və onların nəticələri, düşmən dövlətlərin məkrli siyasəti və ermənilərin bu siyasətin həyata keçirilməsində oynadıqları mənfi rol göstərilmişdir. Bu siyasətin ifşa olunmasına dair kifayət qədər tarixi faktlar gətirilmiş və onlar ətraflı təhlil olunmuşdur.

Monoqrafiyada Türkiyə Silahlı Qüvvələrinin, Daxili İşlər Nazirliyinin arxiv sənədlərindən istifadə edilmiş, istər ermənilərin və istərsə də onların havadarlarının yeritdikləri məkrli niyyətlər üzə çıxarılmışdır.

600 il Anadolu torpaqlarında türklərlə yanaşı, əmin-amanlıq şəraitində yaşayan mənfur qonşular daim inkişaf etmiş, Osmanlı dövlətində ən imtiyazlı xalqı kimi dövlətin onlara etibarından istifadə edərək hökumətin idarəetmə orqanlarında yüksək vəzifələrə yüksəlmişlər. Lakin ermənilərin mənfur niyyətləri, havadarlarının dəstəkləri və bəzi Avropa dövlətlərinin erməni amilindən istifadə edərək türk torpaqlarını parçalamaq istəkləri nəticəsində ermənilər türklərin əleyhinə mübarizəyə sövq edilmişlər.

XIX əsrin 60-cı illərindən öz separatçı təşkilatlarını formalaşdırmağa başlayan ermənilər yarım əsr ərzində böyük təşkilatlanma yolu keçərək öz milli ordularını yaratmağa nail olmuşlar. Böyük dövlətlər, xüsusi ilə də çar Rusiyası, sonradan isə bolşevik Rusiyası hər vəchlə ermənilərə böyük yardımlar edirdi. Çar Rusiyasının rəhbərliyi isə daha irəli gedərək öz ordusu tərkibində Erməni Milli Ordusu (EMO) yaratmaq haqqında sərəncamlar imzalamışdır.

Əsarət altında yaşayan Azərbaycan milli ordu yarada bilməmiş və bunun nəticəsidir ki, ermənilər tərəfindən qətliamlara məruz qalmışdır. Azərbaycanlıları kütləvi surətdə məhv etmək, onların yaşadıqları əraziləri zəbt edərək "Böyük Ermənistan" adlanacaq dövlətin tərkibinə daxil etmək planlarının qarşısı yalnız Azərbaycan Demokratik Respublikası tərəfindən alınmışdır.

Çar Rusiyasının köçürmə siyasəti nəticəsində Qafqaz bölgəsində məskunlaşdırılan və heç bir zaman dövlət qurumuna malik olmayan ermənilər yalnız 1918-ci ildə böyük dövlətlərin yeritdikləri siyasət nəticəsində «Ermənistan» adlı dövləti yaratmağa müvəffəq oldular.

Göstərilən bütün bu faktlar arxiv sənədləri ilə oxucuların diqqətinə təqdim edilir.

Monoqrafiya AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu elmi şurasının iclasının 2007-ci il 30 may tarixli 6 saylı qərarı ilə çap olunur.

Yazılan monoqrafiyanın çap olunmasında böyük köməklik göstərən Azərbaycan Respublikası müdafiə sənayesi naziri Yavər Camalova, nazir müavini Yəhya Musayevə, şöbə müdiri Fərrux Vəzirova və İstehsalat Birliyinin rəhbəri Səlahəddin Əsgərova öz minnətdarlığımı bildirir və xeyirxah yardımlarına görə bir daha təşəkkür edirəm.

***Müəllif***

## REDAKTORDAN

Sovet imperiyasının dağılmasında milli məsələnin ən mühüm yer tutduğunu indiki zamanda heç kəs şübhə altına qoymur. Bunun səbəbkarlarından biri olan erməni separatizmi millətçi hissləri ifrat dərəcəsinə çatdırmış, bu da ölkəmiz üçün faciəli nəticələrə, torpaqlarımızın düşmən tapdağı altında qalmasına gətirib çıxarmışdır. Bu hadisələrin kökü nə son illərin tarixinə, nə də sovet dövrünə bağlıdır, onların bir əsrdən çox tarixi vardır. O zamandan həm Azərbaycan, həm Türkiyə torpaqlarına göz dikmiş bədnam qonşularımız hələ XIX əsrin sonunda yaratdıqları hərbi və siyasi təşkilatların vasitəsilə öz məqsədlərinə çatmaq üçün bütün üsullardan istifadə etməyə çəkinmirdilər. Bir əsr bundan əvvəl baş verən hadisələrə toxunmaq məhz bu gün bütün dünyaya öz məkrli niyyətlərini «tarixi ədalətin qələbə qazanması uğrunda mübarizə» pərdəsi altında qələmə verən ermənilərin iç üzünü və əsl məqsədlərini ifşa etmək zərurətindən yaranır. Bu mənada Nazim Qəhrəmanovun oxucularımıza təqdim etdiyi monoqrafiyası Azərbaycan, Qafqaz və Ümumi tarix sahəsində görülmüş əhəmiyyətli işlərdən biri sayıla bilər. Mövzunun aktuallığı tariximizlə məşğul olan və mövcud reallığı dərk edən heç bir tədqiqatçıda şübhə yarada bilməz. Bu gün baş verən Azərbaycan torpaqlarına qarşı erməni təcavüzünü və bunun nəticəsində bütün Qafqazın müharibə səhnəsinə çevrilməsini dərindən təhlil etmək üçün yaxın və uzaq tariximizə üz tutmalıyıq. Hələ XIX əsrin ikinci yarısından həm Cənubi Qafqazda, həm Türkiyədə, həm də Qərbi Avropada fəaliyyətə başlayan erməni partiyaları qısa müddət ərzində terrorçu təşkilatlara çevrildilər və «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün, demək olar ki, bütün üsullardan, o cümlədən hərbi qruplaşmalardan istifadə etməyə başladılar. N.Qəhrəmanov öz monoqrafiyasında məhz bu hərbi təşkilatların fəaliyyətini öyrənməklə yanaşı, onların Cənubi Qafqazda və Osmanlı imperiyası ərazilərində Avropa və Rusiya dövlətlərinin dəstəkləri nəticəsində geniş torpaqları zəbt etmək cəhdlərinin və I Dünya savaşı zamanında riyakarcasına «beşinci kolon» rolunu oynamasını əsaslı faktlarla sübut edə bilmişdir.

Qeyd etmək lazımdır ki, son vaxtlar bu mövzu bir sıra tədqiqatçılarda böyük maraq doğurmuş, kifayət qədər əsərin yazılmasına səbəb olmuşdur. Lakin N.Qəhrəmanovun əsərinin bu vaxta qədər yazılanlardan əsaslı fərqi ondan ibarətdir ki, o, olduqca çox türk arxiv materiallarından və ədəbiyyatından, həmçinin bu

mövzuya həsr olunmuş avropalı tədqiqatçıların əsərlərindən dolğun məlumat toplayıb, onların təhlilini vermişdir. N.Qəhrəmanov həmçinin, erməni mənşəli müəlliflərin kitablarından da istifadə etmişdir, onların tarixi faktların saxtalaşdırılmasını təhlil edib, vətəndaşları olduqları Osmanlı dövlətinə qarşı xəyanətkar siyasəti qəhrəmanlıq salnaməsi kimi təqdim etdiklərini ifşa etmişdir. Təqdirəlayiq hal kimi qeyd etmək lazımdır ki, mövzu ilə bağlı bir sıra yeni mənbələr müəllif tərəfindən aşkar edilib, ilk dəfə elmi dövriyyəyə gətirilmişdir. Belə ki, Türkiyə Cümhuriyyəti Hərbi, Daxili İşlər və Xarici İşlər nazirliklərinin arxivlərindən götürülmüş tarixi mənbələr, o cümlədən ermənilərin köçürülməsi haqqında 1915-ci il 24 aprel tarixli qərar və s. ilk dəfə olaraq əlavələrində verilmişdir ki, bu da işin məzmununu daha da zənginləşdirir və müəllifin obyektiv dəlillərə əsaslanaraq nəticələr çıxarmasını göstərir. Bu əlavələr, fikrimcə, işin ən uğurlu tapıntılarından biri olmuşdur.

Monoqrafiyanın əsas vəzifələrindən biri Birinci Dünya müharibəsi dövründə çar Rusiyasının və digər Antanta dövlətlərinin Osmanlı imperatorluğunu parçalamaq məqsədi ilə erməni amilindən istifadə etmələri və erməni hərbi birləşmələrinin fəaliyyəti nəticəsində həm qonşu xalqların, həm də öz xalqının faciəsinə səbəb olmasını göstərmək olmuşdur. Müəllif, həmçinin I Dünya müharibəsinin başa çatması dövründə Antanta dövlətlərinin yeritdiyi siyasət nəticəsində Ermənistan dövlətinin (1918-1920 ilbr) yaradılması faktı arasında olan bilavasitə əlaqəni də göstərə bilmişdir. Yetərli mənbələr əsasında monoqrafiyada Rusiya siyasətinin əsas məqsədinin Türkiyənin şərq vilayətlərinin imperiyaya birləşdirilməsi və bununla da rusların əsrlər boyu arzusu olan İsgəndərun vasitəsilə Aralıq dənizinə çıxa bilməsi olduğu göstərilmişdir. N.Qəhrəmanov, həmçinin, İngiltərənin ermənilərə «muxtar Ermənistan» dövlətini yaradacağını vəd edərək Rusiyanın buradakı təsirini azaltmaq istəyini, Fransanın isə ermənilər vasiləsi ilə Kilikiyanı əldə etmək məqsədini açıqlamışdır. Bütün bu faciəli zaman çərçivəsində ermənilərin bir tərəfdən hərbi birləşmələr yaradaraq dəhşətli təxribatlar törətməsi, digər tərəfdən isə böyük dövlətlərin əllərində bir oyuncağa çevrilməsi müəllif tərəfindən ciddi şəkildə təhlil edilmişdir. Monoqrafiyanın bir üstün cəhəti də arxiv faktlarına söykənərək dəqiq rəqəmlərlə ermənilərin həm Şərqi Anadoluda, həm də Cənubi Qafqazda türklərə və başqa xalqlara nisbətdə azsaylı xalq olmasının göstərilməsidir. Şərqi Anadoluda onların 1.300.000-dən artıq olmadığını göstərməklə müəllif erməni müəlliflərin guya yalnız öldürülənlərin sayının 2 milyondan çox olması haqqında uydurmalarını heçə endirir.

Kitabda millətçi ideyalarının yayılmasında Erməni Qriqorian Kilsəsinin rolu da qabarıq şəkildə göstərilmişdir, bu kilsənin dini işlərlə yox, ilk növbədə siyasətlə məşğul olduğu və demək olar ki, terrorçu təşkilatların əsas maliyyə bazasını təşkil etdiyi vurğulanmışdır. Faktiki olaraq hərbi-siyasi təşkilatlara çevrilmiş «Daşnaksutyun» və «Hnçak» partiyalarının sülh və müharibə dövründə təxribatçı fəaliyyəti də kifayət qədər geniş işıqlandırılmışdır.

Peşəkar hərbçi olmağını nəzərə alaraq, N.Qəhrəmanovun monoqrafiyasının yüksək elmi tələblərə cavab verməsi təqdirəlayiq haldır. Bəzi yerlərdə müəllif özünü saxlaya bilməyib, emosiyalara yer verir və bu da başa düşüləndir, çünki həmin faktlarla yaxından tanış olan hər bir Azərbaycan vətəndaşı kimi, o, hisslərini cilovlamaqda çətinlik çəkir. Lakin buna baxmayaraq, fikrimcə, müəllif qarşısına qoyduğu məqsədlərə uğurla çatmışdır və hörmətli oxucularımıza təqdim olunan kitab tarix elmini zənginləşdirən əsərlərin sırasında öz layiqli yerini tuta biləcək.

**İradə BAĞIROVA,**
**AMEA Tarix İnstitutunun**
**Qafqaz tarixi şöbəsinin müdiri,**
**tarix elmləri doktoru**

**Qəhrəmanov Nazim Nəriman oğlunun «I Dünya müharibəsi Qafqaz cəbhəsində erməni amili» adlı monoqrafiyasına elmi redaktor, Qafqaz tarixi şöbəsinin müdiri, t.e.d. İ.S.Bağırovanın**

## RƏYİ

N.N. Qəhrəmanovun «I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili» adlı monoqrafiyası Azərbaycan, Qafqaz və Ümumi tarix sahəsində görülmüş əhəmiyyətli işlərdən biri sayıla bilər. Mövzunun aktuallığı tariximizlə məşğul olan və mövcud reallığı dərk edən heç bir tədqiqatçıda şübhə yarada bilməz. Bu gün baş verən hadisələri, Azərbaycan torpaqlarına qarşı erməni təcavüzünü və bunun nəticəsində bütün Qafqazın müharibə səhnəsinə çevrilməsini dərindən təhlil etmək üçün bir əsr bundan əvvəl baş verən hadisələrə müraciət etmək zərurəti yaranır. Hələ XIX əsrin ikinci yarısından həm Cənubi Qafqazda, həm Türkiyədə, həm də Qərbi Avropada fəaliyyətə keçən erməni partiyaları qısa müddət ərzində terrorçu təşkilatlara çevrildilər və «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün demək olar ki, bütün üsullardan, o cümlədən hərbi qruplaşmalardan istifadə etməyə başladılar. N. Qəhrəmanov öz kitabında məhz bu hərbi təşkilatların fəaliyyətini öyrənməklə yanaşı, onların Cənubi Qafqazda və Osmanlı imperiyası ərazilərində Avropa və Rusiya dövlətlərinin dəstəkləri nəticəsində böyük əraziləri zəbt etmək cəhdlərini və I Dünya savaşı zamanında riyakarcasına «beşinci kolon» rolunu oynamasını əsaslı faktlarla sübut edə bilmişdir.

N.Qəhrəmanovun əsərinin bu vaxta qədər yazılanlardan əsaslı fərqi ondan ibarətdir ki, o, çox sayda türk arxiv materiallarından və ədəbiyyatından, həmçinin bu mövzuya həsr olunmuş avropalı tədqiqatçıların əsərlərindən dolğun məlumat toplayıb, dissertasiyasında onların təhlilini vermişdir.

Monoqrafiya müəllifinin əsas vəzifələrindən biri Birinci Dünya müharibəsi

dövründə çar Rusiyasının və digər Antanta dövlətlərinin Osmanlı imperatorluğunu parçalamaq məqsədi ilə erməni amilindən istifadə etmələri və erməni hərbi birləşmələrinin fəaliyyəti nəticəsində həm qonşu xalqların, həm də öz xalqının faciəsinə səbəb olmasını göstərmək olmuşdur. Kitabda I Dünya müharibəsinin başa çatması dövründə Antanta dövlətlərinin yeritdiyi siyasət nəticəsində Ermənistan dövlətinin (1918-1920 illər) yaradılması faktı arasında da bilavasitə əlaqə göstərilmişdir. Müəllif yetərli mənbələrə əsaslanaraq Rusiya siyasətinin əsas məqsədinin Türkiyənin şərq vilayətlərinin Rusiyaya birləşdirilməsi və onların vasitəsi ilə İsgəndərun və Aralıq dənizinə çıxa bilməsi olduğunu, İngiltərənin ermənilərə «muxtar Ermənistan» dövlətini yaradacağını vəd edərək Rusiyanın buradakı təsirini azaltmaq istəyini, Fransanın isə ermənilər vasitəsi ilə Kilikiyanı əldə etmək məqsədini açıqlamışdır. Bütün bu faciəli zaman çərçivəsində ermənilərin bir tərəfdən hərbi birləşmələr yaradaraq dəhşətli təxribatlar törətməsi, digər tərəfdən isə böyük dövlətlərin əlində bir oyuncağa çevrilməsi müəllif tərəfindən ciddi şəkildə təhlil edilmişdir.

Monoqrafiyada millətçi ideyalarının yayılmasında Erməni Qriqorian Kilsəsinin rolu da qabarıq şəkildə göstərilmişdir, bu kilsənin dini işlərlə yox, ilk növbədə siyasətlə məşğul olduğunu və demək olar ki, terrorçu təşkilatların əsas maliyyə bazasının olması vurğulanmışdır. Faktiki olaraq hərbi-siyasi təşkilatlara çevrilmiş «Daşnaksutyun» və «Hnçak» partiyalarının sülh və müharibə dövründə təxribatçı fəaliyyəti də kifayət qədər geniş işıqlandırılmışdır.

Peşəkar hərbçi olmağını nəzərə alaraq N.Qəhrəmanovun «I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili» adlı monoqrafiyasının yüksək elmi tələblərə cavab verməsi təqdirəlayiq haldır. Bəzi yerlərdə emosiyalara uymasına baxmayaraq, müəllif qarşısına qoyduğu məqsədlərə uğurla çatmışdır.

**Qəhrəmanov Nazim Nəriman oğlunun**
**«I Dünya müharibəsində Qafqaz cəbhəsində**
**erməni amili» adlı kitabına**

## RƏY

Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasında olan erməni millətçiləri 1988-ci ildən başlayaraq zor gücü ilə Dağlıq Qarabağ və ona bitişik ərazilərimiz hesabına bu ideyanı reallaşdırmaq istəyirlər. Erməni siyasətbazları Ermənistanda (əzəli Qərbi Azərbaycan torpaqlarında), Qarabağ və ətraf ərazilərdə yaşayan azərbaycanlıları doğma torpaqlarından qovduqdan sonra boşaldılmış ərazilərdə başqa ölkələrdən gətirilən erməniləri yerləşdirir və burada «Dağlıq Qarabağ Respublikası» adlı qondarma müstəqil dövlət yaratmaq, bu, mümkün olmadıqda isə zəbt edilən əraziləri Ermənistana birləşdirmək niyyətindədirlər. Bugünkü hadisələrin tarixdə kökü var. Buna görə də bu gün baş

verən hadisələri dərindən və düzgün təhlil edə bilmək üçün dünənki faktlara dönə-dönə müraciət etmək zərurəti yaranır. Bu baxımdan Türkiyənin arxiv sənədlərində öz əksini tapan XIX əsrin ortalarından başlayaraq Osmanlı imperiyası ərazisində yaşayan ermənilərin partiyalar və cəmiyyətlər halında formalaşması, Avropa dövlətləri və Rusiyanın dəstəyi sayəsində boyük ərazilərin zəbt edilməsi və bu ərazilərdə «Ermənistan» yaratmaq iddialarını araşdıraraq çağdaş günlərimizdə baş verən hadisələrlə müqayisə etmək olduqca zəruridir. Bu mənbələrdə XIX əsrin ikinci yarısından başlayaraq Türkiyənin şərq vilayətlərində baş verən hadisələr əks olunmuşdur.

Müəllif əsərinin girişində Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevskinin sözlərinə istinad edərək yazır: "Həqiqət ona görə yoxdur ki, erməni müəllifləri həmin həqiqətdən düşünülmüş şəkildə qaçırlar. Onların bütün fəaliyyəti ağlasığmaz, görünməmiş, hələ eşidilməmiş qəddarlıqlar uydurmağa əsaslanmışdır ki, başqalarında ermənilərə rəğbət, türklərə nifrət hissi yaransın". Bunların qarşısını almaq, erməni təbliğatını susdurmaq isə ilk növbədə tarixi həqiqətə əsaslanan kitabların yazılması ilə mümkündür.

Bu baxımdan N.N.Qəhrəmanovun oxuculara təqdim etdiyi kitabı vacib əhəmiyyət kəsb edir.

İlk növbədə müəllif «Erməni məsələsi» adlı uydurma problemin meydana çıxmasını izləmişdir. XIX əsrin ortalarından avropalılar səfirliklər və konsulluqlar vasitəsi ilə milli azlıqları himayə altına almağa başlayıb, onlarda millətçi hissləri oyadıb imperatorluğu parçalamağa çalışırdılar. İmperatorluğun parçalanmasında Rusiya, İngiltərə, Fransa, Avstriya və Almaniya öz maraqlarını güdürdü. Osmanlı dövlətində yaşayan milli azlıqlar arasında avropalılar böyük diqqəti ermənilərə yönəltdilər. Osmanlı dövlətində imtiyazlara malik olan ermənilər bununla belə dövlətin parçalanmasına can atırdılar. Avropalıların erməniləri dəstəkləməsi «Şərq məsələsi»nin tərkib hissəsi kimi «Erməni məsələsi»ni ortaya gətirdi.

Ermənilər arasında millətçi ideyaların yayılması ilə ilk növbədə Erməni Qriqorian Kilsəsinin xadimləri məşğul olurdular. Avropa dövlətləri ermənilərlə əlaqələrini ilk növbədə dini kanallar vasitəsi ilə yaratmağa başlayır, erməni kilsə xadimlərinin fəaliyyətini Avropa səfir və konsulları ilə bərabər missionerlər də dəstəkləyirdi. Ermənilər «Hnçak», «Daşnak», «Ermənistan» cəmiyyətlərini yaratdılar; türklərə və müsəlmanlara qarşı nifrət, kin-küdurət hissləri təbliğ edilirdi. Osmanlı dövlətində ermənilərin inkişafı üçün yaradılmış fondlar əslində millətçi cəmiyyətləri maliyyələşdirirdi. Avropalılar və Rusiyanın köməyi ilə ermənilər öz tələblərini konkretləşdirmiş və Türkiyənin 6 vilayəti (Ərzurum, Van, Diyarbəkir, Sivas, Bitlis, Xarput) ərazisini əhatə edən torpaqlarda «Ermənistan» dövlətini yaratmaq niyyətini bildirmişlər. Müəllif bütün bu məqamları tutarlı faktlara əsaslanaraq göstərə bilmişdir.

Daha sonra müəllif ermənilərin ümumi sayını və təşkilatlanma prosesini təhlil etməyə çalışmışdır. Mənbələrə əsasən, ermənilərin Şərqi Anadoluda əhalinin

ancaq 1/5-ni təşkil etdiyi, dövlətdə ən çoxu 1,3 milyona qədər erməninin yaşadığı müəyyən edilmişdir. Say baxımından çox olmayan ermənilər ticarət və sənətkarlıqda aparıcı yerləri tutur, yüksək dövlət və ictimai vəzifələri tuturdular. Millətçi təşkilatlar aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirdilər: silah və sursatın toplanması; hərbi təlimlərin keçirilməsi; təbliğatın genişləndirilməsi; Osmanlı dövlətinə qarşı təxribatların həyata keçirilməsi; silahlı dəstələr təşkil edərək qiyam hazırlanması. "Türk, kürd kim olursa olsun vur, hər cür şəraitdə öldür. Erməni xəfiyyələri və xainlərini öldür. İntiqamını al!" şüarı populyarlaşırdı. Erməni komitə və cəmiyyətləri xarici dövlətlərlə əlaqələr yaradılmasına xüsusi əhəmiyyət verirdi. N.Qəhrəmanov komitələrin yaranma tarixi, fəaliyyət proqramlarını arxiv sənədləri əsasında ətraflı araşdırmışdır.

Müharibə ərəfəsində erməni liderləri öz mövqelərini belə açıqlamışdılar. "Ümumiyyətlə, ermənilər gələcəklərinin Rusiya ilə bağlı olduğunu düşünür və Türkiyəyə qarşı nələr edəcəkləri haqqında Rusiyadan təlimat gözləyirlər". Döyüşlər ərəfəsində Şərqi Anadoluda erməni komitələri fəaliyyətlərini artırmış, silah anbarları və emalatxanaları təsis etmişlər. Çar Rusiyası Qafqazda məskunlaşan və Anadoludan Rusiyaya qaçan erməniləri silahlandıraraq birləşmələr yaratmağa başladı. Dünyanın hər yerindən bu hissələrə ermənilərdən maddi yardım olunurdu. Səfərbərlik elanından sonra əsgərliyə gedən ermənilər silahlarını da götürərək fərarilik edir və komitə dəstələrinə qoşulurdular. Ərzurumda keçirilən «Daşnak» konfransında erməni təşkilatlarının müharibə dövründə necə davranmaları haqqında qərar qəbul edildi: müharibə elan edilənə qədər boyun əymək; Rusiyadan gələn silahlarla silahlanaraq hazır vəziyyətdə gözləmək; türk ordusu irəlilədiyi halda «səssizliyi mühafizə etmək»; türk ordusu geri çəkildiyi halda arxada təxribatlara başlamaq. Müəllif öz kitabında ermənilərin bu mənfur siyasətlərini necə qəddarlıqla həyata keçirmələrini göstərmişdir.

Müharibə başlayan kimi erməni komitələri rus ordusu tərəfinə keçərək silahsız müsəlman əhalisinin üzərinə basqınlar edərək günahsız adamları qətlə yetirirdilər. Erməni dəstələri təxribatlarla bərabər Müttəfiq Dövlətlərin xeyrinə casusluq edir, türklərin mənəvi birliyini pozmaq üçün təbliğat aparırdılar. Erməni-rus əməkdaşlığı Körpüköy, Azap, Sarıqamış əməliyyatlarında Osmanlı qüvvələrinin məğlubiyyətinə aparan şərtlərdən olmuşdur. Ermənilər özlərinin törətdiyi qanlı hadisələrin türklər tərəfindən törədildiyini «isbat etdirmək» üçün saxtalaşdırmalara əl atırdılar. Van, Bitlis, Sivas, Muş ərazilərində erməni əhalisi qiyam qaldıraraq türk ordusuna arxadan zərbə vurmuş, təchizatı çətinləşdirmişdir. Arxada Osmanlı hərbi hissələrinin azlığından istifadə edən erməni komitələri rus ordusunun növbəti hücumu başlayanda strateji məntəqədə qiyam qaldırır və bu məntəqənin tutulmasını asanlaşdırırdı. Belə qiyamlar türk-müsəlman əhalisinin məqsədyönlü qətlləri ilə müşayiət olunurdu. Ermənilər Van bölgəsində say üstünlüklərinə malik olmalarını iddia edirlər. Statistik məlumatlara arxalanan N.Qəhrəmanov bunun yalan olmasını, erməni əhalisinin müsəlman əhalisinə

nisbətən 2-3 dəfə az olmasını təsdiqləyir.

Erməni hərbi hissələri Şərqi Anadoluda gedən döyüşlərdə iştirak etmiş, dinc əhaliyə qarşı onların törətdikləri vəhşiliklər, hətta, rus zabitlərini də hiddətləndirmişdir. Fransa ordusu tərkibində 5 min erməni Leqion d'Orient (Şərq Legionu) tərkibində olmuş, sonra ermənilərin sayı 70 minə çatdırılmışdır. Fələstin və Kilikiyada ermənilər dinc əhaliyə qarşı vəhşiliklər törətmişdilər. "Ərəbçilik türk islamçılığına cavab olduğu kimi, erməni məsələsi də turançılığa qarşı güclü bir tədbirdir" şüarını rəhbər tutan İngiltərə də erməni hərbi hissələrinə köməklik göstərirdi.

24 aprel 1915-ci il tarixində komitələrin və cəmiyyətlərin bağlanması, onların sənədlərinin müsadirə edilməsi və rəhbərlərinin həbs edilməsi ilə əlaqədar «Təhcir» (köçürmə) fərmanı imzalanmışdır. Bəzi tarixçilər bu kəlməni "deportasiya" mənasında işlədirlər, lakin «Təhcir» ilə sürgün arasında fərq vardır: tarixi faktlara arxalanan müəllif sübut edir ki, hal-hazırda ermənilərin iddia etdikləri kimi, «Təhcir», soyqırımı siyasəti deyil. Xüsusi əmr və göstərişlərin verilməsi ilə ermənilərin təhlükəsizliyini, səhhətini, əmlaklarını qoruması da bunu təsdiqləyir. 1915-ci il mayından başlanan köçürülmə 15 mart 1916-cı il tarixində başa çatmışdır. Hal-hazırda ermənilər köçürülmə zamanı milyonlarla ermənini öldüyünü iddia edirlər. Müəllifin aşkar etdiyi və tədqiqata cəlb edilən statistik mənbələrdən ermənilərin necə böyük şişirtmələr və yalanlar söyləməsi aydın olur.

1917-ci il Fevral burjua inqilabından sonra Rusiyada hakimiyyətə gələn Müvəqqəti Hökumət erməni hərəkatını dəstəklədi. Tiflisdə keçirilən erməni konfansında Qafqazı və Şərqi Anadolunu əhatə edəcək "Böyük Ermənistan" yaratmaq planı qəbul edildi. 1917-ci il Oktyabr çevrilişindən sonra hakimiyyətə gələn bolşeviklər ermənilərə münasibətlərində Müvəqqəti Hökumətin siyasətini davam etdirdilər. 1917-ci ilin dekabr ayının 29-da Rusiya XKS-in «Türkiyədə yaradılacaq erməni dövləti haqqında» 13 №-li Dekreti imzalandı. Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar Stepan Şaumyanın köməkliyi ilə müvəqqəti erməni milli hökuməti yaradılmalı idi.

Türkiyə Qafqazda Azərbaycan və Gürcüstanla bərabər Ermənistan dövlətinin də yaradılmasına etiraz etmədiyini bildirdi. Osmanlı imperatorluğu ilə Ermənistan Respublikası arasında imzalanan "Sülh və dostluq müqaviləsi"nə (4 iyun 1918-ci il) görə Yeni Bəyazid, Gümrü, İrəvan və Şərur-Dərələyəz ermənilərə təhvil verilirdi. Ermənilərin bu ərazidə yaşayan müsəlman əhalisinin hüquqlarını tanıması, dini və mədəni azadlıqlar verməsi, həmçinin Bakıdan bütün erməni silahlı birləşmələrinin çıxarılacağı kimi məqamlar müqavilədə öz əksini tapmışdır. Müqavilə Ermənistanın müstəqilliyini tanıyan ilk beynəlxalq sənəd idi və Türkiyə Ermənistanın müstəqiliyini tanıyan ilk dövlət olmuşdur. İmzalanmış müqaviləyə əsasən, Ermənistanın ərazisi 9 min $km^2$, əhalisi 326 min nəfər təşkil edirdi. Müqaviləni pozaraq erməni ordusu Ermənistana verilən torpaqlarda müsəlman əhalisinin sayının kütləvi qırğınlar yolu ilə azaldılmasına başladı. Göyçə gölü

ətraflarını, Naxçıvanı, Zəngəzuru və Dağlıq Qarabağı gələcək Ermənistan dövlətinin ərazilərinə çevirmək üçün erməni millətçiləri yeni-yeni planlar hazırlayırdılar. Bakıda bolşeviklər öz tabeliyində olan hərbi hissələrlə daşnakların silahlı dəstələrini birləşdirdilər.

1918-ci ilin martın 31-də Bakıda əməliyyata başlayan və bir neçə gün ərzində şəhərin azərbaycanlı hissəsini viranəyə çevirib, əhaliyə divan tutan erməni-daşnak dəstələri bolşeviklərlə əlbir hərəkət edirdilər. Müsəlman əhalisinin qırğınları Şamaxıda, Qubada və digər Azərbaycan ərazilərində baş verdi. 1918-ci ilin mayın 28-də müstəqil Azərbaycan dövlətinin yaradılması xəbəri bolşevik-daşnak qüvvələrini təlaşa saldı. Gəncəyə və oradan da Tiflisə doğru hücumunda S.Şaumyan Andranikin əməli yardımına bel bağlayırdı. Mövcud elmi ədəbiyyata arxalanan müəllif 1918-ci il may-sentyabr aylarında gedən döyüşlərə də nəzər salmışdır.

Qarabağda ermənilərin yaratdığı silahlı dəstələr xəyanətkar tədbirlər planlaşdırırdılar. Erməni millətçiləri Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırmağa çalışırdılar. Azərbaycan qoşunları bunun qarşısını aldıqda isə erməni millətçiləri beynəlxalq aləmdə səs-küy salaraq Qarabağda "günahsız" ermənilərin qırılması barədə xəbərlər yayırdılar. Ermənistan dövlətinin yarandığı andan ermənilər Naxçıvana qarşı təcavüz edərək müsəlman əhalisini amansızcasına qətlə yetirməyə başlamışdılar. Naxçıvan əhalisi silahlanmağa başladıqda Avropa dövlətlərinin təzyiqi ilə üzləşən Osmanlı hökuməti bunun qarşısının alınmasını tövsiyə etdi, çünki «günahsız» ermənilər Avropa ölkələrinə müraciətlər göndərirdilər. Ermənilər törətdikləri bütün qətllərə baxmayaraq, istədiklərinə nail ola bilməmişlər. Azərbaycan hökuməti qüvvətləndikcə Ermənistan hökumətinə layiqli cavablar verir, onların Arpaçayın qərbinə keçmək istəklərinin qarşını alaraq geriyə doğru otuzdururdular.

Beləliklə, müəllifin oxuculara təqdim etdiyi tarixi əsər bu vaxtadək Azərbaycan tarixşünaslığında zəif işıqlandırılmış məsələni aşkara çıxarır. 600 ildən çox Osmanlı torpaqlarında normal şəraitdə yaşayan ermənilər nəticədə İngiltərə, Fransa və xüsusilə Rusiyanın təhriki ilə öz dövlətlərinə qarşı xəyanət etdilər. Osmanlı ordusunun müharibə meydanlarında döyüşlər apardığı zaman ermənilər arxada çətinlik çəkmədən geniş əraziləri ələ keçirərək orada öz idarəçilik rejimlərini yaradırdılar. Tarixi təcrübə göstərir ki, dövlətin çətin anlarından sui-istifadə edərək arxadan ona ağır zərbə endirmək erməni millətçi ünsürlərinə xas olan bir xüsusiyyətdir və müəllif bu xüsusiyyəti tarixi faktlara əsaslanaraq göstərə bilmişdir.

Azərbaycan Rusiya tərəfindən işğal ediləndən zəmanəmizə qədər imperiya başımıza gətirilən müsibətləri bizə unutdurmağa çalışıb. Buna nail də olub, çünki yeridilən unutdurma siyasəti münbit zəminə düşürdü: yaxşılıqları unutmayan millətimiz ona qarşı edilən pislikləri unutmaq meylindədir. N.N.Qəhrəmanovun kitabı azərbaycanlı oxucuya bir daha onun tarixini xatırladır, bugünkü hadisələrin

dərin tarixi köklərə malik olmasını göstərir.

**S.Ə. ƏHMƏDOV,**
**Milli Azərbaycan Tarixi Muzeyinin**
**Heraldika şöbəsinin müdiri vəzifəsini**
**müvəqqəti icra edən, tarix elmləri namizədi**

## GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq xülyasında olan erməni millətçiləri 1988-ci ildən başlayaraq zor gücü ilə Dağlıq Qarabağ və ona bitişik ərazilərimiz hesabına bu niyyəti reallaşdırmaq istəyirlər. Öz məqsədlərinə nail olmaq üçün onlar hər cür iyrənc və amansız vasitələrə əl atırlar. Erməni siyasətbazları Ermənistanda (əzəli Qərbi Azərbaycan torpaqlarında), Qarabağ və ətraf ərazilərdə yaşayan azərbaycanlıları doğma torpaqlarından qovduqdan sonra, boşaldılmış ərazilərdə başqa ölkələrdən gətirilən erməniləri yerləşdirir və burada «Dağlıq Qarabağ Respublikası» adlı qondarma müstəqil dövlət yaratmaq, bu mümkün olmadıqda isə zor gücünə zəbt edilən əraziləri Ermənistana birləşdirmək niyyətindədirlər.

Bugünkü hadisələrin tarixdə kökü var. Buna görə də bu gün baş verən hadisələri dərindən və düzgün təhlil edə bilmək üçün dünənki faktlara dönə-dönə müraciət etmək zərurəti yaranır. Bu baxımdan Türkiyənin arxiv sənədləri əsasında XIX əsrin ortalarından başlayaraq Osmanlı İmperiyası ərazisində yaşayan ermənilərin partiyalar və cəmiyyətlər halında təşkilatlanması, Avropa dövlətləri və Rusiyanın dəstəyi sayəsində böyük ərazilərin zəbt edilməsi və bu ərazilərdə «Ermənistan» yaratmaq cəhdlərini araşdıraraq çağdaş günlərimizdə baş verən hadisələrlə müqayisə etmək olduqca zəruridir. Bu mənbələrdə XIX əsrin ikinci yarısından başlayaraq Türkiyənin şərq vilayətlərində baş verən hadisələr əks olunmuşdur.

XIX əsrin 90-cı illərindən başlayaraq ermənilər millətçi partiyalarını təsis edərək, əsasən, Türkiyə torpaqları hesabına «Ermənistan dövləti» yaratmaq planını qarşılarına məqsəd qoymuşlar. Yaradılan millətçi partiyalar ermənilərdə başqa millətlərə, xüsusilə də türklərə qarşı nifrət hissi oyatmağa çalışırdılar. Varam adlı bir erməni cəlladı yazırdı: "...hərdən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, onları döyüşdən sonra diri-diri quyuya tullayıb, üstlərinə daş doldurasan... Mən belə də edirdim... Əlimə keçən sağlam və xəstə kişi, qadın və uşaqları bu yolla öldürürdüm" [100, s.5]. Bugünkü ermənilərin törətdikləri əməllər o dövrdə erməni quldur birləşmələrinin törətdikləri cinayətlərdən çox da fərqlənmir.

Erməni millətçilərinin cızdıqları planların həyata keçirilməsində Erməni Kilsəsinin fəaliyyəti olduqca böyük və səciyyəvidir. O dövrdə də, indi də Erməni

Kilsəsinin dini fəaliyyəti olduqca zəifdir, lakin bunun əvəzində kilsə həmişə şovinist ideyalarını həyata keçirməkdən ötrü əlindən gələni əsirgəməyib. Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevski öz xatirələrində yazırdı: "Həqiqət ona görə yoxdur ki, erməni müəllifləri həmin həqiqətdən düşünülmüş şəkildə qaçırlar. Onların bütün fəaliyyəti ağlasığmaz, görünməmiş, hələ eşidilməmiş qəddarlıqlar uydurmağa əsaslanmışdır ki, başqalarında ermənilərə rəğbət, türklərə nifrət hissi yaransın" [93, s.19]. Təxminən yüz il bundan əvvəl yazılmış bu sətirlərin bu gün də aktual olduğunun canlı şahidiyik.

Erməni qurumlarının XIX əsrin 90-cı illərindən başlayaraq Osmanlı dövlətinə qarşı xarici qüvvələrin dəstəyi ilə qiyamlar qaldırdığı və dinc əhaliyə qarşı geniş soyqırımı siyasəti yürütdüyü rəsmi arxiv sənədləri ilə öz təsdiqini tapmışdır. Xalqın rifah halının yüksəldilməsi naminə, humanist məqsədlə yaradıldığı, elan edilən erməni millətçi partiyaları, əslində azğın millətçi olduqlarını və rus, ingilis, fransızların maliyyə yardımları ilə silahlanaraq qanuni dövlətə qarşı silahlı üsyanlar təşkil etdiklərini, dinc əhalini normal insan ağlına sığmayan qəddarlıqla qətlə yetirdiklərini əyani surətdə göstərdilər. Erməni dini liderləri, ziyalılar separatçı hərəkatlərdən çəkinməmiş və bu separatçılığın ideoloji rəhbərlərinə çevrilmişdilər. I Dünya müharibəsindən əvvəl ermənilər tərəfindən aparılan təşkilati hazırlıqları və müharibənin gedişində ermənilərin əməli fəaliyyətləri və onların törətdikləri vəhşiliklər arxiv sənədlərində öz əksini tapmışdır.

I Dünya müharibəsi illərində ermənilər vətəndaşı olduqları dövlətə xəyanət edərək Antanta tərəfindən könüllü olaraq müharibəyə qoşulmuş, «intiqam alayları» adı ilə cəza dəstələri yaratmış, Osmanlı dövlətinin düşmənləri xeyrinə casusluq etmiş, arxada yerləşən hərbi təyinatlı obyektlərə basqınlar təşkil etmişlər. Bununla kifayətlənməyərək bir çox şəhərlərdə qiyam qaldırır, idarəçiliyi öz əllərinə keçirərək Osmanlı ordusunun arxasında təhlükəli vəziyyətlər yaradırdılar. 600 ildən çox Osmanlı torpaqlarında normal şəraitdə yaşayan ermənilər nəticədə İngiltərə, Fransa və xüsusilə Rusiyanın təhriki ilə öz dövlətlərinə xəyanət etdilər. Osmanlı ordusunun müharibə meydanlarında döyüşlər apardığı zaman ermənilər arxada çətinlik çəkmədən böyük əraziləri ələ keçirərək orada öz idarəçilik rejimlərini yaradırdılar. Tarixi təcrübə göstərir ki, dövlətin çətin anlarından sui-istifadə edərək arxadan ona ağır zərbə endirmək erməni millətçi ünsürlərinə xas olan bir xüsusiyyətdir.

«Erməni məsələsi»ni və xüsusilə də XX əsrin son rübündə Azərbaycanda baş verən hadisələri araşdırmaq üçün erməni təşkilatlarının, erməni xalqı üzərində böyük nüfuzu olan ruhani rəhbərlərinin və ziyalıların iştirakını, davranışlarını addımbaaddım öyrənmək vacibdir. Erməni Qriqorian Kilsəsi dini vəzifələrini icra etməklə yanaşı, millətin taleyində əhəmiyyətli rol oynadığını göstərirdi. Buna görə də kilsə baş verən tarixi proseslərdə erməni xalqının taleyində öz töhfəsini vermiş və bütün fəaliyyətlərdə özünü avanqard kimi göstərmişdir. Ermənilər XIX əsrin

sonlarında kilsələrinin güclü dəstəyi ilə terrora başladılar və qanlı hadisələr törətdilər. XX əsrin birinci rübünə qədər türklərə qarşı yeridilən soyqırımı məhz kilsə xadimlərinin xeyir-duası nəticəsində baş verirdi.

**XX əsrin 80-ci illərinin sonundan başlayaraq erməni məsələsi aktuallaşdırılaraq Avropa dövlətlərinin siyasətçiləri tərəfindən gündəmə gətirilmiş və öz mənafeləri naminə «erməni kartı»ndan istifadə edərək erməni millətini separatçılığa sövq etmişlər. Avropa dövlətlərinin və xüsusilə də Rusiya dövlətinin hər cür dəstəyindən ruhlanan erməni separatçıları Azərbaycanın Dağlıq Qarabağ ərazisində qiyam qaldırmış, milli münaqişələr törədərək Azərbaycan Respublikasının 20% ərazisini işğal etməyə müvəffəq olmuşdur. Oyuncaq Ermənistan dövlətinə minnətdarlığını bildirmək üçün bir sıra dövlətlər qondarma «erməni soyqırımı»nı öz ölkələrinin parlamentlərində tanımış, Fransa parlamenti isə daha irəli gedərək Erməni soyqırımını inkar edənlərə cəza verilməsi haqqında» Qanun qəbul etmişdir.**

Azərbaycan Rusiya tərəfindən işğal ediləndən indiyə qədər imperiya başımıza gətirilən müsibətləri bizə unutdurmağa çalışıb. Buna nail də olub, çünki yeridilən unutdurma siyasəti münbit zəminə düşürdü: yaxşılıqları unutmayan millətimiz ona qarşı edilən pislikləri unutmaq meylindədir. Əlbəttə ki, başqa xalqa qarşı həmişə kinlə yaşamaq düzgün deyil. Lakin edilən pislikləri, tarixi yaddaşı unutmamalı, hiyləgər və çevik olan qonşunun törətdiklərini və düşündüklərini əvvəlcədən bilmək hər birimizin borcudur. Əgər biz bunları unudarıqsa, Azərbaycan dövlətinin torpaqları hesabına öz ərazilərini genişləndirən Ermənistan zamanla Azərbaycanı dünyanın xəritəsindən silməyə çalışacaq.

Beləliklə, araşdırılan mövzu çox aktual olduğundan onun xüsusi tədqiqat şəklində daha dərindən öyrənilməsinə böyük ehtiyac var.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiq edilən mövzuya indiyədək Azərbaycan tarixşünaslığında ayrıca elmi işlər həsr edilməsə də, problemin müəyyən tərəfləri xarici və ölkə tarixşünaslığında əks olunmuşdur.

Problemlə bağlı Azərbaycan tarixşünaslığına nəzər saldıqda aydın olur ki, Vətən tarixçiləri əsasən, 1914-1920-ci illərdə bilavasitə Şimali və ya Cənubi Azərbaycan ərazisində baş vermiş hadisələri xırdalıqlarına qədər işıqlandırmış, lakin Şərqi Anadoluda baş verən proseslər diqqətdən kənarda qalmışdır. Halbuki, bu hadisələrin kökü sonralar Azərbaycanda baş vermiş hadisələrə gedib çıxır. SSRİ dövründə fəaliyyət göstərmiş tarixçilərimiz əsasən, hadisələrə sovet tarixşünaslığı prizmasından baxmış, bolşeviklərin müsbət, onların rəqiblərinin isə mənfi obrazlarını yaratmışlar [99; 122; 128; 134; 157; 158; 161]. Təsadüfi deyil ki, 1918-ci il sentyabrın 15-də Bakının türk-Azərbaycan qoşunları tərəfindən azad edilməsi o dövr tarixşünaslığında «türk imperialistləri və müsavatçıların işğalçılıq aktı» kimi qələmə verilmişdir. Müstəqillik illərində Azərbaycanda çap edilmiş tarixi əsərlər problemə baxışların köklü dəyişməsini sübut edir. Real tarixi faktlara əsaslanaraq ermənilərin Azərbaycan torpaqlarında işğalçılıq siyasəti, törətdikləri

vəhşiliklər açıq-aydın göstərilmişdir [120; 136; 141; 143]. Bu qəbildən olan əsərlərə türk tədqiqatçısı H.Bayqaranın əsərini də əlavə etmək olar [100a].

Hadisələr Türkiyə ərazisi olan Şərqi Anadoluda baş verdiyindən problemlə bağlı çoxsaylı ədəbiyyat Türkiyə tarixşünaslığında mövcuddur. O.Arıman «Çar Rusiyasının Türkiyədəki oyunları» adlı kitabında Rusiya ilə Avropa dövlətlərinin danışıqlar apararaq Osmanlı dövlətini parçalamaq planları və bu istiqamətdəki fəaliyyətlərini göstərmişdir [95]. T.Ataov öz əsərində Osmanlı dövlətinin son dövründə ermənilərin tutduğu vəzifələri, məşğuliyyətləri, sosial statusu təhlil edir və belə qənaətə gəlir ki, onlar bir çox imtiyazlardan istifadə edirdilər [96]. Eyni mövzuda yazan N.Göygöz statistik məlumatlardan istifadə edərək Anadoluda yaşayan erməni əhalisinin say tərkibini göstərmişdir [118].

İ.Barmaqsızoğlu erməni komitələrinin təşkilatlanmasına, onların tədricən ermənilərin bütün həyat sahələrinə müdaxilə etməsinə toxunmuş, komitələrin antitürk məqsədlərini sənədlər əsasında göstərmişdir [100]. Erməni komitələrinin fəaliyyətinə A.Dəliorman da toxunmuşdur [108]. Tunaya öz əsərində «Gənc türklər»in yürütdükləri siyasəti araşdırır, onların fəaliyyətlərinin ilk dövründə səhvən erməni təşkilatları ilə bərabər mübarizə aparmasını bildirir. O, Türkiyədə avropasayağı islahatların keçirilməsinin tərəfdarları olan «Gənc türklər»in bir çox səhvlərini sadalayır[163]. H.Aytəkin fransızların Kipr adasında «Erməni legionu» yaratmasını araşdırmış, legionun türklərə qarşı törətdikləri qırğınları göstərmişdir [98]. Y.Bildirici, həmçinin K.Çelik də əsərlərində Fransa rəsmi dairələrinin ermənilərə hərtərəfli yardımını, ermənilərin türklərə qarşı törətdikləri əməlləri, Adanada minlərlə müsəlmanın qətlə yetirilməsini sübut etmişlər [102; 107]. F.Dəmiroğlu Van bölgəsində ermənilərin törətdikləri vəhşilikləri təsvir edir [109]. A.Göydəmir ermənilərin Naxçıvan, İğdır və Zəngəzurda törətdikləri vəhşiliklərə diqqət yetirmişdir [117a]. M.Kırzıoğlu ermənilərin Qars və ətraflarda törətdikləri vəhşilikləri araşdırmışdır [126]. A.Süslü Van, Bitlis, Muş və Qarsda ermənilərin törətdikləri qətlləri tədqiq etmişdir [155].

A.Qazigiray erməni terrorunun qaynaqlarını araşdırarkən belə qənaətə gəlir ki, o, dərin köklərə malikdir və arxasında ayrı-ayrı Avropa dövlətləri dayanır [113]. Elitər erməni terrorçularının arxasında kilsə xadimlərinin dayanmasını sübuta yetirmişdir [131]. Z.Özkan ermənilərin öz məqsədlərinə nail olmaq üçün terroru bir siyasi vasitə kimi istifadə etmələrini göstərmişdir [168].

Erməni məsələsinin dərin tədqiqatçısı kimi tanınan K.Gürün öz əsərlərində bu məsələnin süni olaraq yaradılmasını, avropalıların Osmanlı dövlətini parçalamaq niyyətlərini və bu yolda ermənilərdən istifadə etməsini sübuta yetirmişdir [116-117]. A.Kurat XIX və XX əsrin əvvəllərində Türkiyə-Rusiya münasibətlərinə diqqət yetirmiş, Rusiyanın Osmanlı torpaqlarında daim gözü olmasını sübut etmiş, ermənilərin vasitə kimi istifadə edilməsi nəticəsinə gəlmişdir [129]. İ.Sakarya və S.Sonyel son dövr tədqiqatları zamanı aşkar edilmiş tarixi sənədlərin bir daha ermənilərin torpaq iddialarının əsassız olmasını göstərmişlər

[153; 154]. E.Urasın «Tarixdə ermənilər və erməni məsələsi» adlı kitabı erməni mövzusunu ətraflı araşdıran əsərlər sırasındadır [165]. Məsələyə eyni tərzdə, hərtərəfli yanaşan M.Ökə, həmçinin, H.Yıldırım «Erməni məsələsi»nin süni yaradılmaqla «Şərq məsələsi»nin tərkib hissəsi olmasını sübuta yetirmişlər [166-167;172]. E.Şahin Trabzon və Batumi konfransları, orada qəbul olunan qərarları ətraflı şərh etmişdir [156].

2 cildlik «Birinci dünya harbinde türk harbi Kafkas cebhesi. 3-cü ordu harekatı» adlı əsərdə hərbi xarakterli materiallar verilmiş, döyüş əməliyyatlarının gedişi geniş şərh edilmişdir [103]. N.Yücəər Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatını təsvir edərkən hərbi məsələlər ətraflı şərh olunmuşdur [174].

Avropa müəlliflərinin əsərlərinə diqqət yetirəndə onların da «Erməni məsələsi»nin süni məsələ olması fikrinə gəlməsi görünür. E.Qranvil açıq-aydın yazır ki, bu məsələnin yaradılması Rusiyanın oyunlarından biri idi [114]. Problemin tanınmış tədqiqatçılarından olan Makkarti ermənilərin əhali sayı baxımından çoxluq təşkil etdikləri iddialarını puça çıxarır [137-138]. Tədqiqatçılar P. de Vo və R.Zeydner fransız ordusu tərkibində fəaliyyət göstərən «Erməni legionu»nun vəhşiliklər törətmələrindən, bu vəhşiliklərin dinc türk-müsəlman əhalisinə qarşı yönəlməsindən yazırlar [169,176]. R.İmbert Türkiyədə avropasayağı islahatların keçirilməsindən bəhs edir [132]. L.Evans, R.de Noqales öz əsərlərində avropalıların Osmanlı dövlətini bölüşdürməsi planlarından danışır, bu planları həyata keçirmək yollarından biri kimi «Erməni məsələsi»nin yaradılmasını bildirirlər [145-146].

Erməni mənşəli müəlliflərin yazdıqları kitablara nəzər yetirəndə bu müəlliflərin türklərə olan nifrətləri özünü göstərmişdir. Burada erməni silahlı dəstələrinin dinc türk əhalisinə qarşı apardıqları soyqırımı siyasəti «milli-azadlıq mübarizəsi» kimi göstərilmiş, erməni silahlı dəstələrinin törətdikləri cinayətlər isə böyük bir fəxrlə qələmə alınmışdır. Türklər içərisində cəllad kimi qəbul edilmiş "kannibal" Andranik ermənilərin «milli qəhrəmanı» kimi göstərilmiş və erməni tarixçiləri öz əsərlərində onu tərənnüm etmişlər. K.Aslan «tarixi erməni torpaqlarını» müəyyənləşdirərkən Türkiyə və Azərbaycanın əzəli torpaqlarını göstərmişdir [95a]. Osmanlı dövlətinə qarşı qiyamlar S.Avakyanın, C.Kirakosyanın əsərlərində əks olunmuşdur [97; 124-125]. Ermənilərin Rusiya və Avropa dövlətləri ilə əlaqələrini B.Boryan, E.Yesayan, M.Nersesyan tədqiq etmişlər [104;111;144]. A.Xatisyan, R.Hovanesyan öz əsərlərində «Ermənistan dövləti»nin yaradılmasını əks etdirmiş, S.Karapetyan erməni-bolşevik əlaqələrini geniş şərh etmişdir [119; 121; 123]. A.Arutyunyan və O.Korqanov erməni hərbi hissələrinin I Dünya müharibəsində iştirakını təsvir etmişlər [94;126a].

Həmçinin, tədqiqatda ümumi xarakterli əsərlərdən istifadə edilmişdir ki, onlar da əsasən, XX əsrin əvvəllərində beynəlxalq siyasi əlaqələr, bu əlaqələrdə Türkiyənin yeri və rolu, Rusiyanın xarici siyasəti, Cənubi Qafqazın durumu, «Şərq məsələsi»nin tarixinə həsr edilib [106; 133; 139; 150;-160;164; 170-171; 173].

Beləliklə, tədqiq olunan mövzu ilə bağlı əsərlərin təhlili göstərir ki, müəlliflər bu və ya digər tərəfdən problemə toxunmuş, lakin onu kompleks şəkildə tədqiq etməmişlər.

**Tədqiqatın mənbə bazası.** Araşdırma zamanı müxtəlif xarakterli tarixi mənbələrdən istifadə edilmişdir. İlk növbədə Türkiyə Cümhuriyyəti Genelkurmay ATASE Başkanlığının (Baş Qərargah Əsgəri Tarixi və Strateji Etüd İdarəsi) arxivlərində qorunan hərbi raportlar qeyd olunmalıdır. Raportlarda erməni millətçilərinin əlaqələri, planları, həyata keçirdikləri qiyamlar, qətllər, həmçinin onlara qarşı tətbiq edilən tədbirlər öz əksini tapmışdır [45-89a]. Sənədlərdən aydın olur ki, Osmanlı dövlətinin hərbi idarə və təşkilatları ermənilərin planları barəsində kifayət qədər məlumatlı olmuş, lakin dövlət rəhbərlərinin Avropa dövlətlərinin təsiri altında olması qabaqlayıcı tədbirlər həyata keçirməyə imkan verməmişdir. Arxivdə saxlanılan və problemlə bağlı bir çox sənədlər toplular halında çap edilmişdir [67; 71].

Erməni millətçilərinin hansı daxili və xarici təsirlərə məruz qaldığını, törətdikləri üsyanları, köçürmə qanunu və bu qanun nəticəsində hansı tədbirlərin görüldüyünü Türkiyə Cümhuriyyəti Nazirlər Kabinetinin Daxiliyə Nəzarətinə (DİN) aid olan arxivində qorunan sənədlər sübut edir [34-44a]. Onlardan bəziləri toplu halında çap edilmişdir [148]

Birbaşa Azərbaycan əraziləri ilə bağlı olan məqamların bir qismi Azərbaycan Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində qorunmaqdadır [31-33]. Qeyd etmək lazımdır ki, Azərbaycanda baş verən prosesləri işıqlandıran sənədlərin bir qismi hələ SSRİ dövlətinin mövcudluğu illərində müxtəlif toplular şəklində nəşr etdirilmişdir. Lakin bu toplular tərtib edilərkən bolşevik-daşnak qüvvələrini müsbət tərəfdən işıqlandıran sənədlər çap edilmiş, bəzən isə tarixi sənədlər ixtisarla verilmişdir [24-25, 29-30a]. Bu baxımdan, toplularda çap edilən sənədlər araşdırılarkən onların tərtibatçılarının siyasi sifariş yerinə yetirdiklərini nəzərə almaq lazımdır.

Onlardan fərqli olaraq hələ XX əsrin əvvəllərində nəşr edilmiş sənəd topluları obyektivliyi ilə seçilir. Belə ki, 1919-cu ildə Gürcüstanda çap edilən topluda Cənubi Qafqazda müstəqil respublikaların yaradılmasına səbəb olmuş şərait, daşnakların bolşeviklərlə işbirliyi qurmaları öz əksini tapmışdır [26]. 1915-ci ildə Petroqradda çap edilən digər topluda Osmanlı dövlətinə edilən təzyiqlər və ermənilər üçün islahatlar proqramları göstərilmişdir [30a]. 1916-cı ildə çap edilmiş «Erməni komitələrinin amal və hərəkət-i ihtilaliyəsi» adlı əsər də ermənilərin iç üzlərini açmaqda köməklik edən vacib mənbələrdəndir.

Arxivlərdə qorunan rəsmi sənədlərlə bərabər saxlanılan dövri mətbuat nümunələri də böyük maraq doğurur. Ermənilər tərəfindən nəşr edilən qəzetlərdə onlara edilən müraciətlər, erməni vəhşiliklərinin böyük qələbə kimi qələmə verilməsi, qaniçən cəlladların «bəşər qəhrəmanları» kimi göstərilməsi öz əksini tapmışdır [3-4; 6;7;13;14; 16; 18; 21]. Azərbaycan hökuməti tərəfindən çap edilən

qəzetlərdə ermənilərin vəhşilikləri tam açıqlığı ilə göstərilmişdi [1;2]. Əksinə, Bakı Sovetinin bolşevik qəzetlərində erməni daşnaklarının hərəkətlərinə necə bəraət qazandırılmasının şahidi oluruq [15; 17; 18a].

Mənbə xarakterli əsərlər sırasında memuarlar və xatirələr qeyd olunmalıdır. Belə ki, onlar sırasında bilavasitə döyüş əməliyyatlarının iştirakçıları olmuş hərbçilərin memuarları [91; 110; 152], siyasi xadimlərin xatirələri [142; 149; 151; 159; 162] vacib əhəmiyyət kəsb edir. I Dünya müharibəsi ərəfəsində Almaniyanın Türkiyədəki səfiri olmuş H.Morqentau öz xatirələrində Avropanın siyasi oyunlarına «erməni kartı»nın necə atılmasını sənədlərlə göstərir [142]. Digər Almaniya siyasətçisi P.Rorbax müharibədən qabaq ermənilərin təhlükə törədəcəyini əvvəlcədən görərək onların köçürülməsi planını təklif etmiş, lakin o dövrdə onun ideyaları ciddi qarşılanmamışdı. Müharibə başladıqda ermənilərin törətdikləri cinayətlər Osmanlı hökumətini Rorbaxın planını həyata keçirməyə vadar etdi [151]. Osmanlı dövlətinin sükanı arxasında dayananlardan biri olan Tələt paşanın xatirələrində erməni qiyamları və digər cinayətlərinin dövlətin ümumi durumuna necə mənfi təsir göstərdiyini görmək mümkündür [159]. Bakıya gəlmiş ingilis qoşunlarının komandanı Denstervilin gündəliyində verilən məlumatlar ermənilərin öz müttəfiqləri olan, lakin sonradan məğlub edilən bolşeviklərdən üz döndərməsi, «Sentrokaspi diktaturası» adlı qurumda ermənilərin oynadığı rol, türk-Azərbaycan qoşunlarının fəaliyyəti, Avropa dövlətlərinin Bakının nəyin bahasına olursa olsun milli qüvvələrə təslim etməmək üçün göstərdiyi fəaliyyət əyani surətdə göstərilmişdir [110]. Görkəmli Azərbaycan diplomatı Ə.Topçubaşovun qeydlərində gənc Azərbaycan diplomatiyasının səyləri öz əksini tapmışdır[162].

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi I Dünya müharibəsi zamanı Qafqaz cəbhəsində erməni amilinin rolunun araşdırılmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün tədqiqat prosesində aşağıdakı vəzifələrin həlli məsələsi ortaya qoyulmuşdur:

1. Türkiyə Cümhuriyyəti Hərbi, Daxili İşlər və Xarici İşlər naziriliklərinin arxivlərinə əsaslanaraq çar Rusiyasının və digər Antanta dövlətlərinin Osmanlı imperatorluğunu parçalamaq məqsədi ilə erməni amilindən istifadə etmələrini açıqlayan arxiv materiallarını aşkarlamaq;
2. Ermənilərin separatçılıq və terror əməliyyatlarının mərhələli fəaliyyətlərini açıqlamaq;
3. Erməni milli hərbi birləşmələrinin formalaşmasını və onların müharibə etmək metodlarını göstərmək;
4. 24 aprel 1915-ci il hadisələrini araşdıraraq onları obyektiv işıqlandırmaq;
5. I Dünya müharibəsinin gedişində Antanta dövlətlərinin siyasəti və Ermənistan dövlətinin yaradılma faktı arasındakı əlaqəni aşkarlamaq.

**Tədqiqatın metodoloji əsasları.** Dissertasiyanın məqsəd və vəzifələrini

yerinə yetirmək üçün bir sıra tarixi tədqiqat metodlarından istifadə edilmişdir. Dissertasiyanın elmi-metodiki əsasını mənbələrin tənqidi təhlil metodu təşkil edir ki, onun da köməyi ilə tarixi həqiqətin obyektiv əks etdirilməsinə nail olunmuşdur. Həmçinin, tədqiqat zamanı müqayisəli tarixi və təsviri metodları istifadə edilmişdir. Bəzi hallarda mənbələrin genetik və funksional təhlili metodları da istifadə edilmişdir. Arxiv mənbələrinin zənginliyi və mövzunun xüsusiyyəti statistik təhlil metodundan istifadə etməyə imkan vermişdir.

**Tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti.** Təqdim edilən dissertasiya işi Azərbaycan tarixinin aktual problemlərindən birinə - I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amilinin rolunun işıqlandırılmasına həsr edilmişdir. İndiyə qədər problemlə bağlı tədqiqatlarda bu məsələyə Azərbaycan tarixi prizmasından yanaşılmamış, xarici tədqiqatçılar tarixşünaslığımız üçün maraqlı və vacib olan məsələnin ayrı-ayrı tərəflərini işıqlandırmışdılar. Bu baxımdan, təqdim edilən dissertasiya işi Qafqaz cəbhəsində erməni amilinin rolunun işıqlandırılmasına, ermənilərin Rusiya imperiyasının mövcudluğunun son illərində apardıqları siyasəti və Azərbaycan ərazilərində öz dövlətlərini yaratmaq planlarına hansı yollarla can atmalarını, kimlərin köməyindən yararlandıqlarını göstərən ilk kompleks tədqiqat əsəridir. Dissertasiyanın elmi yeniliyi bu məqam, həmçinin Türkiyə Respublikasının müxtəlif arxivlərində qorunan nadir mənbələrin araşdırılması, onların Azərbaycan Respublikasının arxivlərində saxlanılan sənədlərlə tutuşdurulması, Avropa, Rusiya, Türkiyə müəlliflərinin ən son əsərlərinin belə tədqiqata cəlb edilməsi, erməni müəlliflərinin yalançı uydurmalarının ifşa edilməsi ilə şərtlənir. Dissertasiyanın elmi yeniliyi həmçinin, onunla bağlıdır ki, burada Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq çar Rusiyasının və digər Antanta dövlətlərinin Osmanlı dövlətinə qarşı siyasətdə erməni amilindən istifadə etmələrini açıqlayan arxiv materialları aşkarlanıb, erməni millətçilərinin təxribat xarakterli əməliyyatlarının mərhələli fəaliyyətləri göstərilib, erməni milli hərbi birləşmələrinin formalaşması və onların hərbi siyasəti işıqlandırılıb. Bununla yanaşı, 24 aprel 1915-ci il hadisələri araşdırılaraq ermənilərin guya genosidə məruz qalmaları barədə uydurmaları ifşa olunub, 1914-1918-ci illərdəki müharibənin gedişində Antantanın siyasəti və Ermənistan dövlətinin yaradılması faktı arasındakı əlaqə göstərilib.

Beləliklə, tədqiqatın nəticələri Azərbaycanın ümumi tarixinin yazılmasında, həmçinin Azərbaycanın siyasi tarixi ilə bağlı ali təhsil ocaqlarında ümumi və xüsusi mühazirələrin hazırlanmasında istifadə edilə bilər. Bundan başqa, tədqiqat işi Qafqaz xalqlarının, türk xalqlarının, Rusiyanın, Osmanlı imperiyasının, I Dünya müharibəsinin tarixini əks etdirən əsərlər üzərində iş zamanı istifadə edilə bilər. Dissertasiyanın materialları Azərbaycan tarixini saxtalaşdıranlara qarşı mübarizədə müəyyən əhəmiyyət kəsb edə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın əsas müddəaları müəllifin respublika və xarici elmi nəşrlərində çap edilmiş 4 məqaləsində öz əksini tapmışdır.

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun Qafqaz tarixi şöbəsində 2 dəfə müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür.

**Tədqiqatın strukturu.** Dissertasiya giriş, 3 fəsil, 11 paraqraf, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

# I FƏSİL

# ANTANTA DÖVLƏTLƏRİ TƏRƏFİNDƏN ERMƏNİLƏRİN QAFQAZDAKI HƏRBİ-SİYASİ PROSESLƏRƏ CƏLB EDİLMƏSİ

## 1.1. Qarşı duran tərəflərin Qafqaz və həmsərhəd bölgələrlə bağlı niyyətlərində erməni amilinin yeri

XIX əsrin ortalarından Osmanlı imperiyasına qarşı artırılan təzyiqlər nəticəsində Şərqdə hakimlik mövqeyi Qərb dövlətlərinin əlinə keçməyə başladı. Hadisələrin gedişi Osmanlı dövlətinin rifahı naminə dövlətin idarəetmə sisteminin dəyişdirilməsi və islahatlar keçirilməsi lazım olduğunu göstərirdi. Artıq Osmanlı dövləti ancaq Qərbin yardımı ilə ayaq üstə dayana bilirdi. Yıxılmaqda olan bu imperiyanın ərazilərini Avropa dövlətləri arasında bölmək həvəsləri və ölkədəki millətçi cərəyanların mövcudluğu qüvvələr balansının pozulduğunu göstərirdi. Buna görə də Avropa dövlətləri "xəstə adamı" nəzarət altına almaq zərurətini bildirdilər. Beləcə, Osmanlı dövləti Qərb dövlətləri sisteminə daxil edilirdi.

Durmadan artan Avropa təsiri qarşısında Osmanlı dövləti yavaş-yavaş çökməyə başlamışdı. Hərbi qüvvələrin artırılması məqsədi ilə iqtisadi və sosial qurumlarda dəyişikliklər edilməsi belə, bu çöküntünü dayandıra bilməmiş və rəhbərlərin bacarıqsızlığı özünü hiss etdirmişdi. Osmanlı dövləti bir tərəfdən torpaqlarını itirir, digər tərəfdən isə Avropa ölkələrinin müstəmləkəsinə çevrilmək təhlükəsi qarşısında qalırdı. [132, s.83].

Böyük Avropa dövlətləri Şərq ölkələrindəki mövcud sistemi öz mənafelərinə uyğun dəyişdirmək məqsədi ilə öz ölkələrinin sistemlərinə bənzətmək uğrunda mübarizə aparırdı. Osmanlı imperiyasının coğrafi mövqeyi, strateji vəziyyəti və iqtisadi potensialı dünya siyasətində aparıcı oyunçular olan dövlətlərin diqqətini özünə cəlb edirdi. 1914-cü ildə 1,7 milyon km$^2$ ərazisi olan Osmanlı imperiyası Avropa, Asiya və Afrika qitələrini birləşdirən və dəniz yollarına nəzarət etməsi ilə dünyada bərabəri olmayan bir geostrateji mövqeyə malik idi. İmperatorluğun Asiyanı Avropaya birləşdirən quru yolları və İstanbul boğazı - Mərmərə dənizi, Çanaqqala boğazı - Qara dəniz və Aralıq dənizini, Suriyadan Süveyş kanalını və İraqdan Hind yollarını nəzarətdə saxlaması strateji əhəmiyyətə malik idi.

Qərb dövlətləri Osmanlı imperatorluğunda yaşayan milli azlıqların təzyiq altında yaşadığını iddia etməyə başlamışdı. Vaxtilə osmanlıların xristian Avropanı təhlükə altında saxlaması Qərb dövlətlərini türklərə qarşı mübarizəyə qalxmağa məcbur etmişdi. İki din arasında yaxınlıqlarla və fərqlərlə maraqlanmayan Qərb dövlətləri İslamı olduğu kimi deyil, məqsədlərinə xidmət edəcək şəkildə göstərirdilər. Bu düşüncələrin yanlış olduğunu göstərən Əhməd Cavad bəy yazırdı: "Əgər türklər hakimiyyətləri altına aldıqları millətlərə, xristianların elədiyi kimi, məcburən İslam dinini qəbul etdirmiş olsaydı ... bu gün nə «Erməni məsələsi», nə də «Şərq məsələsi» olmazdı. Türklər bunu etmədilər. «Quran-i Kərimə» uyğun hərəkət edərək hər bir adamın öz dininə görə ibadət etməsinə icazə verirdilər. Xristian Avropa başqa məzhəbdən olan xristianların qanını axıtdıqları, vəhşicəsinə zülmlər verərək həzz aldıqları zaman Osmanlı imperatorluğu inkvizisiyanın insanların diri-diri yandırılması halları olmadığı yeganə dövlət idi" [105, s. 71-72].

Osmanlı dövlətində çoxluqda olan türklər imperatorluğun himayəsində olan azsaylı xalqlara qarşı xoşməramlı olmuşlar. Çoxmillətli Osmanlı imperatorluğunda ümumi qaydalar sistemini formalaşdıran və onu işlək vəziyyətdə saxlayan "millət sistemi" mövcud idi. Burada «millət» dedikdə yalnız müsəlmanlar nəzərdə tutulurdu, azlıqda qalan digər xalqlara isə dini, mədəni və iqtisadi azadlıqlar verilmişdi və imperiyanın sərhədləri daxilində onlar muxtar olaraq yaşayırdılar, ancaq hökmran ola bilməzdilər. 1914-cü ildə Osmanlı imperiyasında yaşayan aşağıdakı azlıqlar qeydə alınmışdı:

1. İstanbul Ortodoks Patriarxlığına tabe olan yunanlar; 2. Şimali Afrika və İtaliya tacirlərinin qalıqları olan katoliklər; İstanbul Patriarxlığına bağlı qriqorian ermənilər; 4. Katolik ermənilər; 5. Suriyalı katoliklər; 6. Mosul Patriarxlığına bağlı kadeli katoliklər; 7. Mardin Patriarxlığına tabe olan suriyalı yaqubçular; 8. Protestantlar; 9. Yəhudilər; 10. Bolqar Kilsəsinə tabe bolqar katoliklər. Göstərilənlərin dini liderləri onların səlahiyyətli nümayəndələri və dövlət qarşısında cavabdeh olan məsuliyyətli şəxslər idi [115, s. 142-143].

İmperatorluqda yaşayan azsaylı xalqlar Qərb təsiri altında iqtisadi güclərinə siyasi don geyindirməyə başlamışdılar. Avropadakı inkişafın əksinə olaraq imperatorluqda millətçilik birləşdirici deyil, separatçı rol oynamağa başladı. Azsaylı xalqlar Osmanlı dövlətinin həyata keçirdiyi islahatları özləri üçün məqbul saymadıqlarından öz dövlətlərini yaratmaq iddiasında idilər. Bu da ancaq Osmanlı dövlətinin yıxılması ilə mümkün ola bilərdi. Mərkəz qarşısında gücsüz qalacağını bildiklərindən məqsədlərinə nail olmaq üçün onlar böyük Avropa dövlətlərindən dəstək alacaqlarına inanırdılar. Onlar üçün xarici dövlətlərin himayəsinə girmək müstəqillik yolunda atılmış ilk addım idi. Böyük dövlətlər səfirliklər və konsulluqlar vasitəsilə Osmanlı imperatorluğunda yaşayan azsaylı xalqları himayə altına aldılar [163, s.18].

Dünyada "Şərq məsələsi" Osmanlı imperatorluğunun müxtəlif səbəblərlə zəiflədikləri dövrlərdə təsirli olmuşdur. Onun müəlliflərindən biri çar Rusiyasıdır.

"Erməni məsələsi" 1860-ci ildə planlaşdırılmış və «Şərq məsələsi»nə daxil olan son problemdir. E. Qranvil yazırdı: "Müsəlmanlar içində yaşayan ermənilər qərb dövlətlərinə yaxınlaşmaq məqsədi ilə yüz il boyunca mübarizə apararaq "Erməni məsələsi"ni yaratmışlar. Həqiqətdə isə bu düşmənçilik xarici ölkələrin intriqalarının süni yaradılmış məhsuludur... Osmanlı tarixini dərindən bilənlər imperatorluqdakı bütün milli zəmində yaranmış münaqişələrin xarici ölkələr tərəfindən törədildiyinə, müxtəlif millətlərin əmin-amanlıq şəraitində yaşadıqlarına əmindirlər" [114, s.33]. Jorj Klemanso 1913-cü ildə yazırdı: "İki-üç dövlət arasında «Erməni məsələsi» ilə əlaqədar toqquşmalar baş verir. İngiltərədə bir çox komitələr yaradılır və bu komitələrdən ermənilərə çox şirin vədlər verən müraciətlər ünvanlanır. Bununla əlaqədar Fransada bir çox məqalələr dərc edildi. Sonra bir ara sükut hökm sürməyə başladı və hər şey xristian sivilizasiyasının normalarına uyğunlaşdı" [125, s.117].

Avropa dövlətlərinin Osmanlı xalqlarını öz himayəsi altına almaqda öz məqsədləri vardır. Himayə altına aldıqları xalqların osmanlılardan ayrılması millətlərarası münaqişə yaratmaya bilməzdi. Osmanlı hakimiyyətindən ayrılan bu yeni «dövlətcik»lər mübarizələrində onlara yardım edən qüvvəyə minnətdarlıq hissləri ilə yaxınlıq edəcəkdilər. Bu dövlətlərlə inkişaf etdirilən dostluq münasibətləri son nəticədə Osmanlı imperatorluğuna qarşı bir qüvvəyə çevriləcək və imperatorluqda gözü olan dövlətlər bu yerlərə hakim olacaqdı. Rusiya və Avstriya bu niyyətlə Balkanlarda fəaliyyət göstərmişdi. Rusiya bu ərazilərdə əvvəlcə millətçilik hisslərini oyadır, daha sonra isə qiyamçı cəmiyyətləri dəstəkləyirdi. Qiyamı yatırtmaq məqsədilə bölgəyə yeridilən Osmanlı ordusu qarşısında Avropa dövlətlərindən birini görürdü. Daxili çəkişmələr kimi başlanan qiyam hami dövlətlərin hərbi müdaxiləsi ilə millətlərarası böhran vəziyyətini alır, başqa dövlətlərin bu vəziyyətə müdaxilə etməsi ilə komissiyalar təşkil edilir, dövlətlərarası müzakirələr nəticəsində qiyam edən əyalətlərdə dövlətin hüquqlarını məhdudlaşdıran bəzi tədbirlər həyata keçirilir, qiyamçı əyalətlər imtiyazlı elan edilirdi. Dəyişən status-kvonun qorunması üçün bu əyalət Avropa dövlətlərindən birinin himayəsinə keçir. Avropa dövlətləri Osmanlı dövlətini tamamilə parçaladıqdan sonra bu əyalətləri bəhanə gətirərək Türkiyə ərazilərinə öz iddialarını irəli sürəcəkdi. İmperatorluğun parçalanmasını istəyən dövlətlərə görə bu əyalətlərdə yaşayan xalqları dövlətə qarşı qiyama qaldırdıqlarında imperatorluğu daxildən dağıtmaq mümkün olmalı idi [117, s.30].

XIX əsrin sonlarında texnoloji inkişaf mövcud qüvvələr bərabərliyini pozmuşdu. Bu texnoloji inkişafın sürəti və təsirinin nəticəsində XIX əsrin hakim geopolitik strategiyasında köklü dəyişikliklər yaratmaqla qlobal müharibənin yaranması şəraiti getdikcə artmaqda idi. Məşhur "Dənizlərə hakim olan dünyaya hakim olacaqdır" düsturuna riayət edən qitə dövlətləri dəmiryollarını və digər nəqliyyat vasitələrini ələ keçirmədən, dəniz limanlarına və sahillərinə sahib olmadan beynəlxalq səviyyədə hökmranlıq yarada bilmək inamını itirməyə

başlamışdılar. Bu cür dəyişikliklər İngiltərə və Fransa kimi donanmaları olan dövlətləri narahat edərkən Rusiya və xüsusilə də Almaniyanın xeyrinə işləyirdi. Almaniyanın qüvvətli bir donanma yaratmaq istəyi, milli gücünü artırması da ayrı bir narahatçılıq mənbəyi idi.

Osmanlı imperiyası əhalisinin artan sayı və Almaniyanın günü-gündən güclənərək Osmanlı hökumətini öz təsir dairəsinə alması təhlükəsi qarşısında qalan İngiltərə və Rusiya birləşərək Osmanlı imperiyasını bölüşdürmək qərarına gəldilər. Alman hökumətinin yeritdiyi geosiyasətdə Osmanlı dövlətinə xüsusi yer ayrılmışdı. Almaniya Şərqə doğru öz sərhədlərini bir tərəfdən Baltik dənizindən Bəsrə körfəzi sahillərinə qədər, digər tərəfdən isə Balkanlar vasitəsi ilə Mesopotamiyaya qədər genişləndirmək istəyirdi. Şərq, Uzaq Şərq və Asiya dövlətlərindəki təbii sərvətləri ələ keçirmək Almaniya, eyni zamanda Anadolunun dağlıq ərazisini və Mesopotamiya ovalığını da zəbt etmək niyyətlərini gizlətmirdi. Böyük bir ərazini işğal etmək istəyən Almaniya bu ərazilərə yeni xammal mənbəyi və geniş ixrac bazarı kimi baxırdı. Berlinin "Şərqə açılma siyasəti" (Drang Nach Osten) alman millətçiləri tərəfindən dəstəklənmiş və hərtərəfli müdafiə edilmişdi.

Osmanlı torpaqlarının müstəmləkəyə çevrilməsi siyasəti 1899-cu ilin yazından almanların Mərmərə dənizi sahillərindən Bəsrə körfəzinə qədər uzanacaq dəmiryol xəttinin çəkilməsi layihəsinin maliyyələşdirəcəyinə razılaşdıqdan sonra başlanmışdır. Berlin-Bağdad dəmiryolu layihəsi Almaniyanın Şərqin təbii sərvətlərindən, neft yataqlarından, içməli su mənbələrindən və ticarət yollarından güzəştli şəkildə istifadə edərək külli miqdarda vəsait əldə edəcəyinə zəmin yaradırdı.

Almaniya Türkiyənin əleyhinə olsa belə Avropa tarazlığının qoruna biləcəyinə inanır və İngiltərənin Rusiya ilə müharibəyə başlamasına tövsiyələr verirdi. Almaniya İngiltərənin Rusiya üzərində qələbə çalacağı halda təzminat olaraq Süveyş kanalını və İsgəndərunu işğal etməyi təklif edirdi. London hökuməti isə Osmanlı imperiyasının bölüşdürüləcəyi halda Türkiyə torpaqlarının böyük bir qisminin Rusiyaya verilməsinin əleyhinə idi. Buna görə də Osmanlı imperatorluğunu bölüşdürmə layihəsi İngiltərənin təşəbbüsü ilə qeyri-müəyyən bir müddətə təxirə salınmışdı [142, s.321].

Osmanlı imperatorluğunun Avropa dövlətləri arasında bölünə bilməməsinin səbəbi onun torpaqlarından kimin nə qədər pay alacağının qeyri-müəyyən olması idi. Rusiya və Avstriyanın Balkanlarda, İngiltərə və Fransanın Şimali Afrika və Suriyada, İngiltərə və Almaniyanın Anadolu və Mesopotamiyada, İtaliya və Fransanın Liviyada üst-üstə düşən mənafeləri var idi. Ancaq Qərb dövlətləri öz aralarında razılığa gələrək Osmanlı dövlətinin bəzi əyalətlərini faktiki olaraq hakimiyyətləri altına almış, öz hərbi bazalarını yaratmışdılar. İngiltərə Kipr və Misirə, Fransa isə Tunisə girmişdi.

Bu dövrdən başlayaraq "Milli hökumət" prinsipləri əsasında hər milli azlığa aid olan dövlətin yaradılması xüsusiyyətləri vurğulanmağa başlandı. Bütün

bunların Avropa siyasətinə təsir etməsi 2 istiqamətdə olmuşdur. Birincisi, millətin idarəetmədə iştirak etməsi və bu istiqamətdə xarici siyasətdə daha çox xalqın rəyinin nəzərə alınması. İkincisi, xarici dövlətlər tərəfindən idarə edilən millətlər "öz müqəddəratlarını təyin etmək" üzrə fəaliyyət göstərərkən ayrı-ayrı bölgələrdə yaşayan eyni millətə mənsub adamların bir bayraq altında birləşməsini istəyirdilər.

Fransanın siyasətində "aşağı irqlərin mədəniləşdirilməsində üstün irqlərin təsiri həm haqqı, həm də vəzifəsidir" prinsipi əsas rol oynayırdı. "Fransa sadəcə demokratik bir ölkə olmaqla kifayətlənməməli, eyni zamanda böyük bir ölkə olmalıdır; Avropada hökmranlığı ələ alaraq, dilini, bayrağını, silahlarını hər tərəfə yayaraq bütün dünyaya təsir etməlidir" [106, s. 121-122]. Fransa Şərq ölkələri ilə ticarət əlaqələri yaratmış, onun ticarət və gəmiçilik şirkətləri Avropa və Osmanlı arasında keçid yolu salmış, bankirlər isə Süveyş kanalı layihəsinin sənədləri uğrunda mübarizə aparırdılar. 1899-1903-cü illər arasında Fransa Berlin-Bağdad dəmiryolu başda olmaqla Osmanlı imperatorluğunda nəqliyyata qoyulacaq sərmayələrdə iştirak etməyə çalışır, hətta, Almaniya ilə müştərək layihədə iştirak etmək istəyirdi. Bu cəhdlər boşa çıxdıqdan sonra Bağdad dəmiryolunun çəkilişini əngəlləmək məqsədilə başqa nəqliyyat vasitələrinə sərmayə qoymağa başladı. Strateji mövqedən Fransa Şimali Afrikada Əlcəzairi, Tunisi və Mərakeşi işğal edərək Aralıq dənizində əhəmiyyətli hərbi baza əldə etmişdi. Fransa Ön Asiyadakı itirilmiş mövqelərini geri qaytarmaq üçün «Erməni məsələsi»ni himayə etməyə başladı. Əslində Fransa Osmanlı imperatorluğundakı ermənilərlə maraqlanan, Anadolu torpaqları üzərində nüfuzunu davam etdirən, Ön Asiya və Aralıq dənizdə tarazlığı saxlamaq üçün erməni hərəkatını yaradan bir ölkədir. Fransa ermənilərə «Böyük Ermənistan» vəd edirdi [112, s.38].

Fransanın bu "mədəniləşdirmə missiyası"na qarşı olaraq Almaniya "Dünya siyasəti"nə eyni düşüncələrlə ortaya atılmışdır. Dünyanın yenidən bölüşdürülməsi yarışına gec girən Almaniyanın millət vəkilləri söyləyirdilər: "Biz Almaniya olaraq barmağımızı hər şirniyyata salmamaqla yanaşı, vəd edilən torpaqları ələ keçirməkdə digər dövlətlərdən geri qalmayacağımızı da göstərməliyik. Dünyanın hər yerində digər dövlətlərə göstərilən inam və etibarı biz alman missionerlərinə, alman mallarına, alman bayrağına və alman gəmilərinə eyni səviyyədə qazandırmalıyıq» [151, s.18].

Bu yarışlarda geri qalmaq istəməyən Rusiya da panslavyanizm maskası altında bütün pravoslavları bir araya yığmaq istəyirdi. Panslavyanizmi yayanlar deyirdilər: "Biz gecikirik, lakin bu gecikmə bizim təcrübəsizliyimizdən irəli gəlir. Slavyanlar güclənəcək və mövcud sərhədlərini aşacaqlar. Slavyan dili dünyanın dörd tərəfində eşidiləcək və düşmən dodaqları bu dildə danışacaq" [173, s.9].

1895-ci ildə çar Rusiyası hökumətinin hazırladığı islahat layihəsində erməni dövlətinin yaradılması haqqında xarici işlər naziri (qeyd 1) Lobanov-Rostovski yazırdı: "Ermənilər dağınıq haldadırlar, ermənilərə veriləcək və tətbiq edilə biləcək xüsusi idarəetmə üçün ayrıca bir ərazi yoxdur. Türkiyədəki ermənilər Qafqaz

ermənilərinin təhriki ilə ayağa qalxmağa təşəbbüs edirlər. Lakin müstəqil bir «Ermənistan»ın yaranması və ya muxtariyyət verilməsinin əleyhinəyəm. Avropa dövlətlərinin səfirləri Anadolunun yarısını ermənilərə vermək istəyirlər. Mən və çar bu mövzuda Osmanlı padşahına heç bir təzyiq göstərmək istəmirik və başqa dövlətlərin də padşaha təzyiq göstərmələrinə xoş baxmırıq. Biz ermənisiz Ermənistan istəyirik" [114, s.22]. XX əsrin əvvəllərində Rusiyanın İstanbuldakı səfiri Nelidov çarı inandırmışdı ki, Rusiya dövlətlərarası münaqişə yaratmadan boğazları və İstanbulu ələ keçirə bilər. Lakin Rusiyanın bu layihəsinə Almaniya mane olmuşdu. Almaniyanın xarici işlər naziri Holsteyn demişdir: "Bizim iki dostumuz bu torpaqlardan paylarını almadan Osmanlı süqut etməyəcək. Avstriya və İtaliyaya veriləcək torpaqlar müəyyən edilməyənə qədər İstanbulun gələcəyi haqqında verilən bütün təklifləri rədd edirik" [166, s.38].

1905-ci ildə erməni yazıçısı Aknuni ermənilərə xitab edərək xarici dövlətlər tərəfindən onlara vəd edilən muxtariyyət haqqında Rusiya çarı ilə razılaşma əldə edildiyi barədə 24 məktubdan ibarət olan bir məcmuə çap etdirdi. Erməni Qiyamçı Federasiyası tərəfindən bu məcmuə ermənilər arasında yayıldı. Rusiya çarı ilə əldə edilən razılaşmada deyilirdi: 1. Erməni vilayətləri Rusiyanın himayəsi altında muxtariyyət təşkil edəcək; 2. Ermənilər Rusiyaya vergi verəcək və müharibə dövründə ruslara canlı qüvvə ilə yardım edəcəklər; 3. Erməni vilayətləri öz qanunları ilə idarə ediləcək; 4. Erməni xalqını qorumaq və təhlükəsizliyini təmin etmək məqsədi ilə Rusiya əsgərləri bir müddət bu ərazilərdə qalacaqlar; 5. Erməni kralını Rusiya çarı təyin edəcək. Kralın Petroqradda öz nümayəndəliyi olacaq; 6. Yerevan və ya Vaqarşapat paytaxt seçiləcək, erməni bayrağı üçrəngli olacaq; 7. İki ölkə arasında tətbiq edilən ticarət və gömrük müqavilələri imzalanacaq [114, s.23].

Rusiya erməni mövzusuna başqa dövlətlərin müdaxilə etməsinə razı deyildi. Bu fikri şərh edən E.Qranvil yazırdı: "Kəlmələrlə oynamağın heç bir mənası yoxdur. Bu hərəkətlərin məqsədi Türkiyənin şərq vilayətlərini Rusiyaya birləşdirməkdir" [114, s.23]. Bu mövzu ilə əlaqədar araşdırılan bütün mənbələrdə Rusiyanın erməniləri öz mənfəətləri naminə istifadə etməsini və onların müstəqil dövlət yaratmalarının məqsədəuyğun olmadığını göstərən tarixi həqiqətlər ortaya çıxmışdı.

Rus-yapon müharibəsində məğlub olduqdan sonra Uzaq Şərqdə öz mövqelərini itirən Rusiya "Avropaya qayıdış" üçün bəhanələr axtarmağa başladı. O, "Şərq məsələsi"ndə köhnə üsullara qayıdaraq özünü Avropaya Ön Asiyada haqqı tapdanan xristianların müdafiəçisi kimi göstərməyə çalışırdı. Bu məqsədlə çar Rusiyasında erməni məktəbləri açdırmış, ermənilərin haqlarını müdafiə etmək üçün bir sıra tədbirlərə əl atmışdır. Anadolu torpaqlarının bir qismini gələcəkdə Rusiya çarının himayəsi altında yaradılacaq «müstəqil Ermənistan» dövlətinə (Qeyd 2) qatmaqla Qafqazda yaşayan ermənilərin müstəqil dövlət yaratmaq ideyalarını daha da inkişaf etdirməyə başladılar. Rus imperatoru "bütün ermənilərin çarı» adını qazanmaq uğrunda fəaliyyətlərini genişləndirməyə başladı.

1913-cü ildə Qafqazın general-qubernatoru Vorontsov-Daşkov çara göndərdiyi raportunda yazırdı: "Ermənilər getdikcə çarlığa daha sıx bağlanırlar" [114, s.32]. Həmin ildə M.Kovalevski "Rusiya və Erməni məsələsi" məqaləsində yazırdı: "Ermənilərin düşüncə və hisslərində ciddi dəyişikliklər baş vermişdir. Onların liderləri ana qucağına dönmüş kimi Rusiyaya qayıtdılar" [17, 1913 il, may]. Qafqazdan Rusiya Dumasına millət vəkili seçilən erməni Papacanov Türkiyədə baş verən qiyamların Rusiyanın nəzarəti altına alınmasını istəmişdir. Melinkov adlı digər millət vəkili isə Fərat çayının şimalındakı bütün torpaqların Rusiyanın tərkibinə qatılmasını tələb edirdi [M.Pavloviç. "Rusiya və ermənilər"- 17, 1914 il, may].

Rusiya hökumətinin Şərq siyasətinə dəstək verənlər Balkanlarda və Suriyada yaşayan pravoslav qardaşlarını osmanlılardan xilas edərək Aralıq dənizi hövzəsində böyük bir "Rus-pravoslav imperatorluğu" yaratmağı düşünürdülər. Panslavyanistlər boğazlardan sərbəst keçmək hüququnu qazanmağa çalışmaları ilə yanaşı, digər dövlətlərin hərbi gəmilərinin bu boğazlardan keçməməsinə təkid edirdilər. Hər hansı bir Avropa dövlətinin donanması Çanaqqalaya gəlməsi ilə Rusiyanın cənub sahillərini təhlükə altına alırdı. Rusiya iqtisadiyyatı da ticarət gəmilərinin boğazlardan keçməsindən asılı idi. Rusiyanın Avropa ölkələri ilə ticarət əlaqələrinin 80%-i bu boğazlar vasitəsilə həyata keçirilirdi. Almaniyanın Osmanlı imperatorluğundan Bağdad dəmiryolunun çəkilişinə icazə alması Rusiyanın iqtisadi maraqlarına cavab vermədiyindən bu layihə onu narahat edirdi. Şərqi Anadolunun öz nüfuz dairəsində olduğunu bəyan edən Rusiya bölgənin inkişaf etməməsi üçün əlindən gələni əsirgəmirdi. İqtisadi cəhətdən zəif olan Rusiya bölgəyə sərmayə qoymaq istəmirdi və əlində olan zəif imkanlarla hərbi gəmilərdən istifadə edərək Qara dənizə hakim olmaq niyyətində idi. Bununla əlaqədar 1913-cü ildə Fransada çap edilən "Bulliteni du Komite de l'Asiye Franca" jurnalında, R.Pinon "Asiya Türkiyəsi və erməni vilayətləri" adlı məqaləsində yazırdı: "Boğazların ələ keçirilməsində bolqarlarla yeridilən siyasət uğursuzluqla nəticələndiyindən eyni siyasət ermənilər vasitəsilə həyata keçirilir. İstanbul yolu üzərində müstəqil Bolqarıstan bir maneə olduğundan boğazların Qara dənizin şimal sahilləri vasitəsilə ələ keçirilməsi Rusiyanın siyasətində prioritet yer tutmağa başladı".

Beləliklə, «Erməni məsələsi»nin baş qaldırılmasında 3 səbəbi göstərə bilərik: 1. Rusiya İstanbulu tutmaq üçün Balkan xalqlarını üsyana sövq edərək milli məsələ halına gətirdiyi kimi, erməniləri xəyali "Ermənistan" yaratmaq üçün mübarizəyə qaldırması və ermənilərin də rus ssenarisinin könüllü aktyorları olmaları; 2. Rusiyanın Türkiyənin şərq vilayətləri vasitəsilə İsgəndəruna - Aralıq dənizinə çıxa bilməsi və erməni dövlətinin yaradılması üçün erməniləri bu işə sövq etməkdə siyasi mənfəətlərin əldə edilməsi; 3. Rus siyasətini dəstəkləyən İngiltərənin ruslara qarşı ermənilərdən istifadə etmək taktikasını seçərək Osmanlı dövlətinə qarşı bəzi siyasi mənfəətlər əldə etmək niyyətləri.

Fransa da bu işdə öz payına düşəni qoparmaq istəyirdi. Osmanlı dövlətini bölmək asanlıqla baş tutmayacaqdı. Ancaq Kilikiyadakı erməni mövcudluğu Fransa üçün ümidverici sayılırdı.

«Açıq dənizlərə çıxış qapıları» axtarmaq Rusiyanın dəyişməz siyasətidir. "Erməni məsələsi"ndə də Rusiya bu məqsədlə gözlərini İsgəndərun körfəzinə dikmişdi. Ermənilərin Türkiyədə məskunlaşdığı bölgələrin coğrafi mövqeyinə görə strateji əhəmiyyəti olduqca böyük idi. Qafqaza hakim olduqdan sonra Anadolunun şərqinə göz dikən Rusiya ermənilərlə razılığa gələrək bu bölgələri ələ keçirmək üçün onları gizli şəkildə silahlı qiyama hazırlamağa və təhrik etməyə başlamışdı. Ermənilər çarı himayədar kimi qəbul edərək bolqarların yerini almışdılar. Bir tərəfdən Rusiyanın ehtimal edilən müdaxiləsinə bəhanə yaratmaq, digər tərəfdən beynəlxalq cəmiyyətləri hazırlamaq üçün ermənilərin gələcəyi ilə maraqlanan çar Rusiyasının «Erməni məsələsi»nə müdaxilə etmək istədiyini göstərmək lazım idi. "Erməni vilayətləri" deyilən bölgələrdə rus konsullarına göndərilən silah və sursatlar bu məqsədlə erməni qiyamçılarına paylanmışdı. Çar Rusiyasının bütün səfirləri Avropa hökumətlərini inandırmağa çalışırdılar ki, Ön Asiya və Şərq ölkələrində məskunlaşan xristianların bütün problemlərinin həll edilməsi çar Rusiyasına həvalə edilsin. Doğrudan da, erməni qətllərinin baş verməsi Avropanı hərəkətə gətirə bilərdi. Türklərin İngiltərədə az da olsa mövcud olan simpatiyası yox edilir və Rusiyanın müdaxiləsi «xristianlığın xilaskarı» kimi təqdim olunurdu. Həqiqətən də Rusiya hadisələrin içində olduğuna görə hərəkətə keçə bilər və daha sonra bu haqda Avropa ölkələrini məlumatlandırardı.

Ortaya çıxa biləcək xaos zamanı Rusiyanın "Erməni məsələsi"ndən istifadə edərək 6 vilayətə yiyələnməsi ehtimalı İngiltərəni təşvişə salırdı. İngiltərə protestant fəaliyyətini istiqamətləndirməklə həm Rusiya və Fransanın imperiya daxilindəki fəaliyyətlərini neytrallaşdırmaq, həm də dünyanın yenidən bölüşdürülməsində öz payını ala bilmək üçün ermənilərdən vasitə kimi istifadə etmək istəyirdi. Şərqi Anadoluda İngiltərənin təsiri altında «müstəqil Ermənistan» yaradaraq Rusiyaya qarşı təsirli silah kimi istifadə edilməsi planlaşdırılmışdı. Ancaq Rusiya da öz bazarlarını genişləndirmək üçün ermənilərə ehtiyac duyurdu. İngiltərə və Rusiyanın siyasi və iqtisadi təsir dairələrini genişləndirmək arzuları mifik "Erməni məsələsi" problemini yaradacaqdı. Qüvvələr balansının pozulması təhlükəsi artmağa başlamışdı. Uzun illər sistemin "tarazlayıcısı" rolunu oynayan İngiltərə başqa dövlətlərlə rəsmi yazışmalarda tarazlığın qorunmasının lazım olduğunu vurğulamasına baxmayaraq, artıq özü də bu balansı pozmağa başlamış və öz mənafeyinə uyğun təhlükəsizlik tədbirləri həyata keçirirdi.

Antanta dövlətləri ermənilərdən iki yolla istifadə etmək istəyirdilər: 1. Türkiyədə yaşayan ermənilər ayağa qalxaraq Osmanlı imperatorluğuna qarşı mübarizəyə başladıqları halda onlara muxtariyyət verilsin; 2. rus ordusunda xidmət edən ermənilərdən istifadə edərək türk ordusu arxasında təxribat işləri aparılsın, sonda isə 6 vilayət və Kilikiya ermənilərə verilsin [112, s.15].

Anadoluda yaşayan ermənilər müxtəlif ərazilərdə məskunlaşmışdılar. İstanbulda, Anadolunun şərqində və cənub-şərqində saylarının çox olmasına baxmayaraq, onlar türklərə nisbətdə azsaylı idilər. Əhalinin siyahıyaalınma statistikasına nəzər saldıqda bu fakt aşkarcasına görünür. Ermənilər Şərqi Anadoluda əhalinin 1/5-ni təşkil edir, imperatorluq ərazisində ən çoxu 1,3 milyona qədər erməni yaşayırdı [118, s.95]. Hətta, ermənipərəst statistiklər ermənilərin heç yerdə çoxluq təşkil etmədiklərini qeyd edirdilər. E. Qranvilin əsərində Robert de Kaiks adlı tədqiqatçının yazısına istinadən deyilirdi: "Burada erməni kəndlərinə, şəhərlərdə tamamilə ermənilərin yaşadığı məhəllələrə rast gəlmək mümkündürsə də, ermənilərin çoxluq təşkil etdikləri bir vilayət tapmaq mümkün deyil" [114, s.83].

## 1.2. Qafqaz cəbhəsindəki əməliyyatlara qoşulmaqda erməni millətçilərinin məqsədləri

Osmanlı dövlətinin müsəlman imperiyası olması, Avropa dövlətlərinin onun ərazisində öz maraqlarının mövcudluğu Avropa siyasətçilərinin osmanlılara qarşı düşmənçiliyini durmadan artırır və erməni hərəkatlarının başlanmasına təkan verirdi. Ermənilərin kilsənin güclü təzyiqi altında olması düzgün dəyərləndirildiyindən əsas diqqət erməni kilsəsinin ələ alınmasına yönəldilmişdi. Erməni ruhanilərinin dini fəaliyyəti olduqca zəif idi. Bunun əvəzində onlar həmişə millətçilik ideyalarını himayə etmək zəminində əlindən gələni əsirgəmədən çalışırdılar. Şərqin başqa xristian xalqlarında olduğu kimi, ermənilərdə də millətçilik ideyaları yüzilliklər ərzində bir-birindən uzaq, lakin saysız-hesabsız monastrların himayəsi altında olmuşdur. Həmin monastrlarda keşişlər "Allah kəlamları"nın təbliğindən daha çox xristianlarla müsəlmanların milli ədavətini müdafiə etmək üçün çalışırdılar. Kilsə məktəbləri və ümumiyyətlə, məktəblər bu sahədə ruhanilərə fəal kömək göstərirdi. Məktəblərdə ermənilərə tarix və mədəniyyətləri haqqında erməni dilində dərslər verilirdi. Varlı erməni ailələri övladlarını Fransaya və başqa Avropa ölkələrinə göndərirdilər. Bu gənclər orada millətçilik ideyalarının təsiri altında təhsil alır və qayıtdıqları zaman radikal islahat tərəfdarları olurdular. Beləliklə, missionerlər sayəsində ermənilər arasında millətçilik ideyaları ilə bağlı bir oyanış nəzərə çarpmaqda idi.

Osmanlı imperatorluğu müstəmləkəçi dövlətlərin nəzərində dağıdılmalı idi, onun mirasından hər dövlət özünə pay ala bilməsi üçün müxtəlif siyasi oyunlara baş vururdu. Buna görə də onlar erməni millətçiliyinin oyanmasında kilsəyə böyük yardım edirdilər. İmperiyanın dağılmasında öz mənafeləri olan din adamlarının bəziləri siyasi məqsədlər, digərləri isə xristian olduqlarından savab iş görmək düşüncəsi ilə erməniləri dəstəkləmişdilər.

İngilislər ermənilərlə dini kanallar vasitəsilə əlaqə yaratmağa çalışırdılar. Osmanlı dövlətinə gələn protestant missionerləri müsəlman və yəhudilərin

etiqadlarını dəyişə bilməyəcəklərini anlamış, qüvvələrini ermənilərin dini, mədəni və səhiyyə sahələrinə yönəltmiş, onları öz kilsələrinə cəlb etmək üçün məktəblər və xəstəxanalar açmışdır. Missionerlər erməni komitəçilərinə maaş da ödəyirdilər. İngiltərə dövləti məqsədlərinə nail olmaq üçün missionerlərə bu işdə hərtərəfli yardım göstərirdi.

İstər Patriarxlığın məktəblərində, istərsə də missionerlərin açdıqları məktəblərdə erməni gəncləri Fransa inqilabçılarının ideyaları ilə tanış olurdular. Siniflərdə Ermənistan coğrafiyası, ədəbiyyatı və əfsanələşdirilmiş tarixləri öyrədilirdi. Məktəblərdəki dərs kitabları türkçülüyə qarşı nifrətlə dolu idi. Erməni əhalisinin cəmləşdiyi bütün məntəqələrdə inqilabi cəmiyyətlərin - «Hnçak», «Daşnaksutyun», və «Ermənistan» cəmiyyətlərinin üzvləri peyda olmuşdular və öz ideyalarını təbliğ etməyə, əhalini qarşıdakı qanlı hadisələrə hazırlamağa girişmişdilər. Ali məktəbdən başlamış ibtidai məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdi. Vətənpərvərlik mahnıları, kəskin satira və təmsillər müəllimlər mühitindən yeniyetmələrin qəlbinə keçirdi, onlarda müsəlmanların hakimiyyətinə qarşı qəzəb, kin-küdurət hissini, gələcəyin fantastik illüziyalarının bütöv bir silsiləsini alovlandırdı. Beləliklə, qısa vaxt ərzində onların yaratdığı illüziyaların müdafiəsi üçün qanlı fədakarlığa hazır olan qudurğan, inadkar gənclər yetişdi. Ermənilərin təbliğat orqanı olan "Pro Armenia" qəzetində açıqca deyilirdi: "Ermənilərin mübarizəyə başlamağa tamamilə hazır olan müəyyən sayda qüvvələri var. Əgər Avropanın rəsmi dairələri öz elementar, adi vəzifələrini icra etməsələr, onda fədainlər özlərinin cəzasız boğulmalarma imkan verməyəcəklər. Komitə dara düşmüş erməniləri təhlükə qarşısında qoymayacaq, onların köməyinə gələcək" [19, 1903 il, № 66]. Qəzetin digər nömrəsində yazılmışdı: "Əgər yaxın gələcəkdə soydaşlarımız bizə köməyə gəlməsələr, onda bizi biçəcək, qoyun kimi kəsəcəklər... Biz daim Avropanın müdaxiləsinə ümid bəsləyə bilmərik. Özünü müdafiə etmək üçün biz hər şeydən əvvəl öz qüvvəmizə arxalanmalıyıq. İnanırıq ki, sinəmiz düşmən gülləsinə tuş gəldiyi zaman qardaş və bacılarımız bizə kömək göstərəcəklər" [19, 1903 il, № 65].

Osmanlı dövlətində ermənilərə dini, mədəni və təhsil işlərini düzgün şəkildə davam etdirə bilmələri üçün maliyyə fondu yaratmaq icazəsi verilmişdir. Təsis edilən fondların maliyyə büdcələri az olanda Osmanlı hökuməti lazımi qədər maliyyə yardımı göstərirdi. Ermənilərə verilən bu müstəsna hüquqdan onlar bacarıqla istifadə edərək qısa bir müddət ərzində rifah vəziyyətlərini xeyli yüksəltmiş, türk-osmanlı mədəni həyat tərzini və rəhbərlik etmək tərzini mənimsəyərək qısa bir zamanda osmanlıların ən etibarlı təbəəsi olmuşdular. Osmanlı tarixində ermənilərdən 29 general, 22 nazir, 33 millət vəkili, 7 səfir, 11 baş konsul, 41 yüksək rütbəli dövlət məmuru yetişmişdir. Dövlətin ən mühüm strukturlarından olan Xarici İşlər Nazirliyi, Maliyyə Nazirliyi, Ticarət və Poçt Nazirliyi erməni mənşəli adamların əlində idi. Ermənilər imperatorluğun bütün

millətləri ilə sülh və təhlükəsizlik içində yaşamış, Osmanlı hökumətindən heç bir şikayətləri olmamışdır. Bu dövrdə Osmanlı imperatorluğunda «Erməni məsələsi» deyilən problem yox idi. Ermənilər dövlətin ən sadiq, ən çox etimad edilən və ən imtiyazlı təbəqəsi sayılırdı.

Rusiyada ermənipərəst qüvvələr, İngiltərədə isə Liberal Partiyası hakimiyyətə gəldikdən sonra «Erməni məsələsi» pərdəsi ilə «Hnçak» partiyası dəstəklənməyə başlandı. «Hnçak»ın üzvləri Rusiyadakı ermənilərin gücsüz vəziyyətləri haqqında məlumatları olduqlarından Rusiyadan heç bir şey qopara bilməyəcəklərini düşünərək Avropanın köməyi ilə Türkiyədəki 6 vilayətdə (Ərzurum, Van, Diyarbəkir, Sivas, Bitlis, Xarput (Elazığ) «müstəqil Ermənistan» yaratmaq niyyətindəydilər. Adı çəkilən vilayətlər bütün Şərqi Anadolunu əhatə edirdi. Erməni inqilabçı komitələri silahlı mübarizə metodunu əsas vasitə olaraq qəbul etmiş, onların ilk qurbanları «Hnçak»ın üzvləri olmuşdur. Bu vəziyyət ermənilərin osmanlılar arasındakı etimadları, imtiyaz və mövqelərini itirmələrinə səbəb olmuşdur. E. Qranvil yazırdı: "Bu iş ermənilərdən törənməyib. Ruslar ermənilərlə əməkdaşlığa başlayana qədər Osmanlıda heç bir erməni hərəkatı olmamışdır. Rusların ssenarisi ilə yazılan Balkan müharibəsinə qədər ermənilər öz aralarında məzhəb mübarizələri aparırdılar. Hətta, daxili çaxnaşmaları həll etmək üçün türklərdən yardım istəyirdilər" [114,s.43].

İngiltərə parlamentinin üzvü, şərqşünas M. Syukes "Xəlifin son tövsiyələri" əsərində türklərə qarşı olan nifrətini göstərməklə yanaşı, onlara qarşı yönəldilən iradları rədd edir: "Türkiyədə məskunlaşan ermənilər digər xristianlar kimi öz imkanlarını qabarıq şəkildə göstərərək onlara verilən haqların məhdud olduğunu iddia edirdilər. Bu qənaət düşüncəsiz bir hərəkətlərlə birləşincə onları siyasi cinayətlərə sövq edərək həm özlərinə və həm də uşaqlarına fəlakətlər gətirir... Erməni komitəçiləri öz dindaşlarını düşmənlə savaşmağa hazır olmağa çağırırdılar. İstanbuldakı erməni anarxistləri öz dindaşlarını bombalarla öldürmüşlər. Keşişlərin hər hansı bir cinayətinə digər keşişlər göz yumurdular. Kilsə ikiyə bölünmüş vəziyyətdədir. Qiyamçıların əl atdığı üsullar ən düşünülmüş yaramaz üsullardır. Onlar həm müsəlmanları, həm də qiyamçılara maddi yardım göstərməyən xristianları öldürürdülər" [96, s. 114].

XIX əsrin ikinci yarısından başlayaraq Erməni Qriqorian Kilsəsinə sitayiş edənlər arasında narazılıq artmağa başladı. Narazılığa əsas səbəb erməni məzhəbləri arasında olan rəqabət idi. Qriqorian kilsəsi bütün cərəyanlardan ayrılaraq Eçmiədzində quruldu. Eçmiədzin Katolikosluğu nəzəri olaraq bütün dünya ermənilərinin dini rəhbəri sayılmağa başlandı. 1847-ci ildə Eçmiədzinə sitayiş edən ermənilər "Milli Nizamnaməni" hazırlayıb erməni mənşəli bütün şəxsləri öz idarələri altına almaq istədilər. Nizamnaməyə bəzi dəyişikliklər edildikdən sonra 1863-cü il martın 29-da Osmanlı imperatorluğundakı ermənilərin vəziyyətini daha da yaxşılaşdıran, onlara bəzi əlavə imtiyazlar verən və ermənilərə muxtariyyət gətirməli olan "Nizamname-i Milləti Erməniyan" adı ilə hazırlanan

sənəd qəbul edildi. Osmanlı hökumətinin razılığı alınaraq Erməni Patriarxlıq Məclisi tərəfindən hazırlanmış bu Nizamnamədə ermənilərə "dövlət içində dövlət", "rəhbərlik içində rəhbərlik" deyilə biləcək qədər imtiyazlar verilmişdi. Bu dövrdə qriqorian erməniləri İstanbuldakı patriarxlığın rəhbərliyi altında 26 yepiskopluqda birləşir, əksəriyyəti böyük şəhərlərdə yaşayan katolik ermənilər isə bir Patriarxlığın rəhbərliyi altında 13 yepiskopluk idarəsini təşkil edirdilər. Qagik Ozanyan adlı erməni yazıçısı Nizamnamənin ermənilərdə qiyamçılıq hisslərinin oyatdığını və «Erməni məsələsi»nin" gündəliyə çıxarıldığını ifadə edirdi [165, s .42].

"Erməni Milli Nizamnaməsi" (99 maddə) Erməni Patriarxlığına rəhbərlik etmək üçün geniş səlahiyyətlər vermiş, bundan başqa, ermənilər sanki "müstəqil bir millət" kimi 140 nümayəndədən ibarət «Ümumi Məclis» adlanan (Milli Məclisi Ümumi) bir dini məclis yaratmışdılar. Yaradılan bu Məclisin 20 üzvü İstanbul kilsə rəhbərləri arasından, 40 üzvü əyalətlərdən, 80 üzvü isə İstanbulda yaşayan müxtəlif peşə adamları arasından seçilməli idi. Əvvəlcədən yaradılmış 14 üzvdən ibarət Dini Məclis (Məclisi-Ruhani) ilə 20 üzvdən ibarət Siyasi Məclis (Məclisi Cismani) qorunub saxlanılır, ancaq bunların seçilməsi haqqında qərarı Milli Məclis həll edirdi. Patriarxın seçilməsini də Milli Məclis qərar verirdi. Beləliklə, «Erməni Milli Nizamnaməsi»ni nəzərdən keçirdikdə patriarxın mütləq iqtidarına son verilərək, hakimiyyətin erməni xalqı ilə bölüşdürülməsi və ermənilərin idarə edilməsinə aid qərarları xalqın özünün verəcəyini görürük. Ümumiyyətlə, "Erməni Milli Nizamnaməsi"nə görə iqtidarda olan patriarxla yanaşı, zadəganlar mütləq hakimiyyəti «erməni milləti» ilə bölüşdürməli idilər. Erməni kilsəsi ilə erməni xalqı o dərəcədə iç-içədir ki, birisi olmadan digərini düşünmək belə mümkün deyil [114, s.23]. Ermənilərə buna bənzər bir təşkilatlanma imkanını çar Rusiyası vermişdir. Burada təsdiq olunan «Polojeniya» Qanunu Rusiyada yaşayan ermənilərin təşkilatlanmasına kömək edirdi. Bu qanun Osmanlı imperatorluğunda təsdiq olunan qanuna nisbətən erməni xalqını «çarın marionetkası» vəziyyətinə gətirir və lazım olan hallarda onlardan istifadə etmək hüququnu verirdi.

Beləliklə, islahatlardan və bütün qeyri-müsəlman millətlərin hüquq və imtiyazlarından istifadə edən ermənilər Osmanlı dövlətində bu Nizamnamə ilə konstitusiya yaratmaq imkanına sahib olmuşdular. 1863-cü il Nizamnaməsi ilə Konstitusiya da hazırlanmışdı. Bu konstitusiyaya görə, Osmanlı imperatorluğu sərhədləri daxilində bir əraziyə sahib çıxmaq, burada ictimai hərəkatları daha da qüvvətləndirərək Ermənistan dövlətini və erməni millətini formalaşdırmaq maddələri önə çəkilmişdi. Dövlətin yaradılmasında kilsənin oynadığı əhəmiyyətli rol aşağıdakı şəkildə qiymətləndirilmişdir: «Erməni kilsəsi, erməni millətinin kilsə tərəfindən can verilən ruhun yenidən dünyaya gəlməsi üçün yaşadığı vücuddur. Əslində erməni millətindən, erməni dövlətindən, erməni tarixindən deyil, erməni kilsəsi dövlətindən bəhs etmək doğru olardı. Erməni kilsəsinin mövcudluğunu qoruya bilməsi üçün bir qüvvəyə, bir dövlətə ehtiyacı vardır. Erməni dövləti fikrini doğuran erməni milləti deyil, erməni kilsəsidir" [131, s.14].

Geniş imtiyazlardan istifadə edən ermənilər təşkilatlandılar, məktəblər açdılar, qəzet və jurnallar çap etdirməyə başladılar. Ermənilərin siyasi və ictimai varlıqlarına yeni bir dövr açan «Erməni Milli Nizamnaməsi"ndən istifadə edən Patriarxlıq sürətlə muxtariyyət və müstəqillik uğrunda mübarizəyə girişdi. XIX əsrin sonlarına qədər Osmanlı dövlətində "Erməni məsələsi" olmadığı kimi, erməni xalqının Osmanlı rəhbərləri ilə həll etmədikləri hər hansı bir problem yox idi. "Erməni Milli Nizamnaməsi"nin elanından sonra patriarxlar daha çox milli və siyasi sahələrdə çalışmağa başladılar. Başqa sözlə, "diplomat-katolikos" və "diplomat-patriarx" dövrü başlandı. Ermənilər dövlət tərəfindən onlara verilən hüquqlara əsaslanaraq imperatorluq içində bir "Ruhani liderlər təşkilatı"nı yaratdılar.

Osmanlı imperatorluğu sərhədləri daxilində ermənilərə muxtariyyət verilməsi üçün ən böyük canfəşanlığı patriarx Mkırtıç Xrimyan göstərmişdir. 34 yaşında Ağdamar kilsəsində vardabed (Qeyd 3) rütbəsinə yüksələn M.Xrimyan Vanda "Van Qartalı" və Muşda "Muş Qartalı" adlı qəzetlər nəşr etdirmişdir. Öz mübarizliyi və məqsədəyönlü hərəkətləri ilə seçilən Xrimyan 1869-cu ildə İstanbulda erməni patriarxı seçilmişdir. Onun patriarx seçilməsi ilə oyanmaqda olan erməni millətçi mənafeləri uğrunda mübarizə aparmaq öz yüksək zirvəsinə çatmışdır. O, vəzifəsinə başlayan kimi iki əsas məsələ istiqamətində işləməyə başlamışdır: a. «Erməni Milli Nizamnaməsi»ni təkrar təftiş edərək vilayətlərin istəyinə və ehtiyaclarına uyğunlaşdırmaq; b. İstanbulda yaşayan ermənilərin öz Milli Məclisini yaratmaq və Osmanlı hökumətinin diqqətini «Ermənistan» yaratmaq ideyasına yönəltmək. M.Xrimyan Erməni Milli Məclisindəki çıxışlarının birində demişdir: "Mən Ermənistanın dərdini çəkən bir nümayəndəyəm. Məndən əvvəl çalışanların dərman axtarmaq üçün hökumətə hansı şəkildə müraciət etdiklərini bilirəm. Lakin mən daha təsirli və qətiyyətli müdaxilə edəcəyəm" [165, s.413].

M.Xrimyanın yerinə seçilən patriarx Nerses İngiltərənin xarici işlər naziri Lord Salisbura 13 aprel 1878-ci il tarixli məktubda yazırdı: «Ermənilərlə türklərin bir arada yaşamaları artıq mümkün deyil. Bərabərliyi, ədaləti və vicdan azadlığını ancaq bir xristian idarəçiliyi təmin edə bilər. Müsəlman idarəçiliyinin yerinə xristian idarəçiliyi olmalıdır. Ermənistan (Şərqi Anadolu) və Kilikiya (Toros, Amanos dağları və Aralıq dənizi arasındakı torpaqlardır) xristian idarəçiliyinin yaradılması tələb olunan yerlərdir. Türkiyə erməniləri bunu istəyir. Başqa sözlə, Türkiyədə təhlükəsizlik və qarantiyaya alınmış ermənilərin idarə edəcəkləri bir dövlətin yaranmasını istəyirlər" [131, s.38]. Sonra patriarx Nerses İstanbulda İngiltərənin səfiri ilə görüşmüşdür: "Bir il əvvəl bizim Osmanlı idarəçiliyindən heç bir şikayətimiz yox idi, ancaq indi vəziyyət dəyişib, Şərqdə müstəqil Ermənistan dövləti istəyirik. Əgər siz köməklik göstərməsəniz, bunu həyata keçirmək üçün Rusiyaya müraciət edəcəyik". «Siz hansı əraziləri nəzərdə tutursunuz?" sualına patriarx cavab vermişdir: "Van, Sivas, Diyarbəkir və Kilikiya". Səfir demişdir:

"Ancaq bu yerlərdə ermənilər çoxluq təşkil etmirlər." «Bunu bilirik, amma Rusiya Şərqdə torpaqları zəbt edir, Rusiya ilə Osmanlı imperatorluğu arasında qüvvələr balansı dəyişir. Biz gələcəyimizi düşünməliyik" - deyə patriarx cavab vermişdir" [131, s.45].

1878-ci ilin aprelində patriarx Nersesin başçılığı ilə toplanan Erməni Məclisi Rusiya çarı ilə görüşməyə qərar verdi. Çara göndərdikləri müraciətdə Şərqi Anadoluda Fərat çayına qədər olan ərazilərin Rusiya tərəfindən ilhaq edilməsini, bu mümkün olmadıqda işğal edilmiş torpaqlarda erməni idarəçiliyinin yaradılmasını istəyirdilər [165, s.439].

1877-1878-ci il Osmanlı-rus müharibəsi zamanı Plevna şəhərinin ruslar tərəfindən zəbtindən sonra rusların İstanbula yolu açıldı. Bu hadisədən sonra Osmanlı dövləti sülh təklifi ilə müraciət etdi. 31 yanvar 1878-ci ildə Ədirnədə danışıqlar başlanmış, imzalanacaq sülh müqaviləsinin şərtləri isə Ayastefanos (San-Stefano, Yeşilköy) şəhərində müəyyən edilmişdir. Ədirnədə danışıqlar başladığı zaman patriarx Nerses buraya bir heyət göndərdi. Rusların heyətində olan, əvvəllər İstanbulda səfir işləmiş İqnatyev erməni heyətinə demişdir: "Bolqarlara verilən hüquqların ermənilərə də verilməsini gözləməyin, lakin gələcəkdə «müstəqil Ermənistan» yaradılmasına hazır olun" [165, s.440]. Ayastefanosda (San-Stefano) sülh danışıqlarında Nerses Varjabedyan və bəzi erməni liderləri Rusiya heyəti ilə görüşərək müqaviləyə ermənilərlə əlaqədar bir maddə yazılmasına nail oldular. 3 mart 1878-ci ildə Osmanlı dövləti ilə Rusiya arasında imzalanan və çox ağır şərtlər daşıyan «Ayastefanos (San-Stefano) müqaviləsi»nin 16-cı maddəsində "Ermənistan" sözü yazılmaqla belə bir bölgənin varlığı Osmanlı dövlətinə qəbul etdirildi. Ancaq bu müqavilə həyata keçirilmədi. Çünki Rusiya Ön Asiyada mənafeləri olan dövlətlərin müvazinətini poza bilərdi. İmzalanan sənədin adı "Muqaddimati-Sulhiye", yəni əsaslı sülh müqaviləsindən əvvəl imzalanan müqavilə oldu. İmzalanan müqavilənin maddələri ilə tanış olduqdan dərhal sonra İngiltərə, Avstriya və Fransa öz etirazlarını bildirdilər. Bundan sonra, Almaniya kansleri Bismarkın təşəbbüsü ilə yeni bir konfransın çağırılması təklif edildi. Bu Konfrans iyunun 13-də açıldı və iyulun 13-də iştirakçı dövlətlərin imzası ilə sülh müqaviləsi ilə nəticələndi.

«Ayastefanos (San-Stefano) müqaviləsi»nin imzalandığı 3 mart ilə Berlin konfransının toplandığı 13 iyun tarixləri arasında ermənilər boş dayanmırdılar. Beşiktaş baş yepiskopu Xoren Narbəy Rusiyaya gedərək çar II Aleksandr ilə görüşdü. X.Narbəy ondan Osmanlı ermənilərinə himayədarlığı davam etdirməyi və Berlin konfransında erməniləri dəstəkləməsini xahiş etmişdi. 17 mart 1878-ci ildə patriarx İstanbulda İngiltərənin səfiri ilə görüşdü. Osmanlı hökumətinə bu görüş haqqında məlumat verilməsini xahiş edən patriarx İngilis səfiri Layard ilə aşağıdakı məzmunda danışıqlar apardı: «Osmanlı imperatorluğunun rəhbərliyindən keçənilkinə nisbətən bu il şikayətimiz daha azdır. Rusiya himayəsində yaşamaqdansa, Osmanlı imperatorluğunda yaşamağı daha üstün bilirik. Lakin baş

vermiş müharibədə çar Rusiyası qələbə qazandığından və xüsusilə şərq torpaqlarının zəbt edilməsindən sonra vəziyyət xeyli dəyişmişdir. Baxmayaraq ki, bu müharibədə ermənilər ruslara qarşı döyüşmüşlər və rus hökuməti ermənilərə qarşı olduqca qəzəblidir, ermənilər öz haqlarını tələb etməkdə iddialıdırlar" [İngiltərə səfirinin XİN-nə göndərdiyi raport, 424/68, N0639]. Patriarx avropalıların istifadə etdikləri hüquqlardan ermənilərə də verilməsi üçün avropalıların müdaxilə etməsini xahiş edir və onlar bu işə qarışmayacaqları halda Rusiyadan zəbt edilmiş ərazilərdə «Ermənistan» yaradılmasını xahiş edəcəyini bəyan edir. Səfir: «Ermənistan» dedikdə nədən bəhs edilir?" - deyə soruşduğunda, patriarx cavab vermişdir: "Ermənistan" Van və Sivas paşalıqlarını, Diyarbəkirin böyük bir hissəsini, Kilikiya krallığını əhatə edir". Səfir bu böyük ərazidə əhalinin əksəriyyətinin müsəlman olduğunu dedikdə, patriarx bunun həqiqət olduğunu təsdiqləsə də, müsəlman əhalisinin də bugünkü idarəçilikdən razı qalmadığını deyir və buna görə də burada xristian dövlətinin yaradılmasının zəruriliyini vurğulayır. Layard bu layihənin reallaşacağına şübhə etdiyini dedikdə, patriarx «avropalıların onlara kömək etmədikləri halda bu ərazidə yaşayan ermənilərin bütünlüklə toplaşaraq qiyam qaldıracaqlarını və Rusiyaya birləşəcəklərini» bildirdi [İngiltərə səfirinin XİN-nə göndərdiyi raport, 424/68, N0639].

Layard başqa bir raportunda Osmanlı hökumətində əhəmiyyətli vəzifə tutmuş bir erməni məmurun dediklərini qələmə alaraq yazırdı: «Erməni xalqının liderləri «Muxtar erməni əyaləti» üçün təşkilati hazırlıqlar aparıldığını və bunu Berlində gündəliyə çıxaracaqlarını söyləyir. Tələbləri qəbul edilmədiyi halda isə sona qədər mübarizə aparacaqlar" [İngiltərə səfirinin XİN-nə göndərdiyi raport, 424/68, N0639]. Bundan başqa, eks-patriarx Xrimyan ilə baş yepiskop X.Narbəy eyni məqsədlə Parisə və Londona gedirlər. Daha sonra X.Narbəy Rusiyaya gedərək çar tərəfindən qəbul edilir.

Berlin konfransı açılarkən patriarx da Berlinə getmək istədi. Lakin ona icazə verilmədiyindən Xrimyan və Narbəy 13 iyunda Berlinə gəldilər. Bu heyət Türkiyədə «Ermənistan dövləti»nin yaradılması haqqında konfransa layihə təqdim etdi (Əlavə I). Təqdim olunmuş layihədə «Ermənistan dövləti»nin əraziləri, quruluş prinsipləri göstərilmiş, bu zaman tarixi və coğrafi reallıqlara məhəl qoyulmamışdı. Layihəyə ərazinin əhali sayını göstərən statistik məlumatlar əlavə edilmişdi (Əlavə II).

Berlin konfransında ermənilərin müraciətlərinin və tələblərinin bu şəkildə qoyulmasına əsas səbəb ingilislərin onları dəstəkləməsi olmuşdur. 4 iyun 1878-ci ildə İngiltərə səfiri Layard ilə Osmanlı hökumətinin xarici işlər naziri Saffət paşa arasında 2 maddədən ibarət müqavilə imzalandı. 1-ci maddədə göstərilirdi ki, Rusiya Batum, Qars və Ərdəhan ərazilərindən başqa, Anadolunun digər ərazilərini işğal etməyə cəhd göstərərsə, İngiltərə Türkiyəyə hərbi yardım göstərəcək, bunun əvəzində isə Türkiyə şərq vilayətlərində islahatlar keçirəcək. Hərbi yardımın daha asanlıqla təmin olunması üçün Kipr ingilislərin istifadəsinə verilirdi. 2-ci maddədə

müqavilənin bir ay müddətində təsdiqlənəcəyi göstərilirdi. Bu müqavilə ilə İngiltərə ermənilər üçün nəzərdə tutulan islahatların reallaşmasının qarantı rolunu öz üzərinə götürürdü.

Berlin konfransında ermənilərin müraciəti ilk dəfə 4 iyul 1878-ci ildə bəyan edildi. Ancaq müzakirələr erməni təklifi ətrafında deyil, «Ayastefanos (San-Stefano) müqaviləsi»nin 16-cı maddəsinin dəyişdirilməsi və Lord Salisburun təklifi ətrafında aparılırdı. Müzakirələr iyulun 6-na qədər davam etdi və iyulun 8-də «Ayastefanos (San-Stefano) müqaviləsi»nin 16-cı maddəsinin mətninin dəyişdirilməsi ilə nəticələndi. «Berlin müqaviləsi»nin 61-ci maddəsi aşağıdakı şəkildə yazıldı: «Osmanlı hökuməti ermənilərin yaşadıqları vilayətlərdə təxirəsalınmaz islahatlar aparmalı, kürdlər və çərkəzlərin təhlükəsizliyinə zəmanətlə bağlı həyata keçirdikləri tədbirlər haqqında iştirakçı dövlətlərə məlumat verməli, iştirakçı dövlətlər də tədbirlərin həyata keçirilməsinə nəzarət etməlidirlər" [İngiltərə səfirinin XİN-nə göndərdiyi raport, 424/72, N0: 99].

Konfrans başa çatdıqdan sonra patriarx yenidən ingilis səfirini ziyarət etdi. Patriarx ermənilərin verdikləri layihənin konfransın işinə təsir edə bilmədiyini təəssüflə bildirmiş, heç olmazsa ehtiyacları olduqları halda xarici dövlətlərin yardımından istifadə etmək hüquqlarının olması ilə əlaqədar bir maddə əlavə edilməsini tələb etmişdir. Lakin ermənilərin çox böyük fəaliyyətlərinə baxmayaraq, onlar Berlin konfransında «Ermənistan»ın müstəqilliyini tanıyacaq bir maddəni qəbul etdirə bilməmişlər. Ermənilər Berlini tərk edərkən etiraz bildirmiş: Sakit bir millət olduqları üçün kimsənin onların tələblərinə əhəmiyyət vermədiklərini, bunun özləri üçün yaxşı bir «dərs» olduğunu və bu «dərs»dən nəticə çıxaracaqlarını» bəyan etmişlər.

Berlin konfransından dərhal sonra Rusiya da öz tərəfindən fəaliyyətə başladı. Çar Rusiyası ermənilər içində təbliğat apararaq türklərin bu ərazilərdə islahat aparmayacaqlarını söyləyir və onları Rusiyaya köçməyə vadar edirdi. Hətta, son müharibədə zəbt etdiyi ərazilərdə Ani şəhərini yenidən bərpa etdirməklə, «Ermənistan»ın paytaxtına çevirilməsinə dair yalan vədlər verirdi. Rusların bu təbliğatının uğurla nəticələndiyini və ermənilərin kütləvi surətdə köçməyə başladığını İngiltərənin Ərzurumdakı konsulu öz ölkəsinin XİN-ə göndərdiyi raportunda bildirirdi. Ancaq Rusiya bir tərəfdən ermənilərin Rusiyaya köçməsi üçün işlər gördüyü halda, digər tərəfdən bu kütləvi köçün qarşısını almağa çalışırdı. Səbəbi isə aydındır. Müəyyən təzyiqlər altında yaşayan ermənilərdən Rusiya istədiyi anda Osmanlı ölkəsinə qarşı istifadə edərək onları üsyana qaldıra bilərdi, çünki ermənilər barıt çəlləyinin partlamasına səbəb ola bilən qığılcıma bənzəyirdi.

Berlin konfransında heç bir nəticə əldə edə bilməyən patriarxdan Erməni Milli Məclisi izahat tələb etməyə başladı. 27 iyul 1878-ci ildə Erməni Milli Məclisində çıxış edən patriarx səylərini davam etdirəcəklərini bildirmiş, avropalıların vədlərindən daha çox ermənilər yaşayan ərazilərdə təbliğat işlərinin

aparılmasına bel bağlamağın vacibliyini qeyd etmişdir (Əlavə III).

Patriarx Xrimyanın rəhbərliyi altında olan başqa bir heyət isə Avropa dövlətlərinin paytaxtlarını gəzərək «Erməni davası»nı (Hai Tahd) öz xeyirlərinə həll etmək üçün siyasi xadimlər arasında təbliğat aparırdı. Bu heyətin əlində ermənilərin istəklərini göstərən və türk torpaqlarında «Ermənistan» qurulması üçün 7 maddədən ibarət bir layihə var idi. Patriarx Nerses «Mançester erməni komitəsi» rəhbəri Karagin Papazyana göndərdiyi məktubda Rusiya siyasətinə minnətdarlığını bildirir, İngiltərədən ümidlə danışır və onun sayəsində maddi və mədəni rifah halına nail olduğunu göstərir, digər tərəfdən, İstanbulda ingilis səfiri Layardı ziyarət edərkən layihələrini konfransa verdiyini bidirərək İngiltərənin bu layihəni dəstəkləməsini istəyirdi [117, s.104].

Patriarx Nerses Osmanlı imperiyasında yaşayan erməni əhalisinin sayı haqqında böyük dövlətlərə şişirdilmiş xəbərlər göndərirdi. Beləliklə, «Erməni məsələsi» böyük dövlətlərin nəzarətində olmaqla Osmanlı dövlətində tətbiq ediləcək bir "İslahat məsələsi" halında müəyyənləşdi. 61-ci maddə ermənilərə umduqları müstəqillik əvəzinə islahat vədindən başqa bir şey vermədi. Ermənilər bu vəziyyətdən razı qalmamışdılar. Buna görə də az sonra onlar məqsədlərinə nail olmaq üçün kilsənin rəyasət heyətində dəyişiklik etmək üçün Avropa və Rusiyanın müdaxiləsini istədilər. Berlin konfransına patriarx Xrimyan ilə birlikdə gedən tərcüməçi E.Nuryan 1879-cu ildə nəşr etdirdiyi broşurda yazırdı: "Berlin konfransında az da olsa əldə edilmiş nailiyyətlərə görə ruhdan düşmək olmaz. Bu konfrans gələcəkdə quracağımız milli binanın («Erməni dövləti»nin) əsaslarını qoydu. Avropa silahları bizə verdi, paslanmadan əvvəl bu silahlardan istifadə edəcəyik. Berlin konfransında sanki bir «qızıl yataqları» əldə etdik, bu «qızıl mədəni»ni işlətmək və onun yataqlarından faydalı istifadə etmək bizim üzərimizə düşür" [104, s.43]. Göründüyü kimi, ermənilərə silahlı mübarizə metodunu məsləhət bilən Avropa dövlətləri onları hər zaman dəstəkləyəcəklərini bəyan edirdilər. Patriarx Nerses məsələnin qiyam yolu ilə həll olunacağına inanmış və qiyamı hazırlamaq üçün Patriarxlıqda "İslahat komissiyası"nı yaratmışdır. Bu komissiya tərəfindən 1879-cu ildə yepiskopluqlara göndərilən çağırışlarda erməniləri qiyama dəvət edirdilər (Əlavə IV).

Ermənilərin iddia etdikləri "6 vilayət"dən biri Sivas vilayəti idi. Bura yaradılacaq "Ermənistan dövləti"nin qərb torpaqları idi, buna görə də erməni iddiaları nöqteyi-nəzərindən vilayətin strateji əhəmiyyəti vardı. Sivas valisi Hakkı paşanın DİN-ə göndərdiyi və Patriarxlığın dövlət əleyhinə çalışdığını göstərən raportlarında deyilirdi: «Patriarxliq yepiskoplara qiyama hazırlaşmaları haqqında çağırışlar göndərməyə başlayıb. Patriarxlıqda çalışan yaşlı din adamları qiyamın çıxış yolu olmadığını və bundan ermənilərin ancaq zərər görəcəyini bəyan etdikləri halda onu dərhal vəzifəsindən uzaqlaşdıraraq (onlardan bəziləri öldürülüb) yerinə gənc və qiyamçı biri təyin edilir. Patriarxlıq göndərdiyi gizli çağırışlarda əhalinin sayını səhv göstərərək Avropa dövlətlərinə "6 vilayət"də ermənilərin əksəriyyət

təşkil etdiklərini iddia etməyə başlamışlar. Patriarxlıq müxtəlif adlar altında ermənilərdən vergi toplayaraq Avropa mətbuatında ermənilərin lehinə və türklərin əleyhinə geniş şəkildə təbliğata başlamışdır. Real hadisələrlə heç bir əlaqəsi olmayan məlumatlar nəşr etdirib, hadisələri əksinə çevirərək yalan və böhtana əsaslanmış kampaniyaya başlamışlar. Patriarxlığın ermənilərdən "yardım" adı ilə topladığı yüz minlərlə qızıl pulu vardır. Bu pulun bir hissəsi Rusiyadan Şərqi Anadolunun hər tərəfinə göndərilən silahlı dəstələr, yerli fədainlərlə birlikdə terrora başlayanlara xərclənir. Keşişlər iki-üç ildir ki, erməni məktəblərində təhsil alanların hamısının beyinlərini zəhərləyərək hökumətin fərmanlarına hörmət göstərməməyə və dövlətə itaətsizlik etməyə çağırırlar. Patriarxlıq komitələrin yaradılmasına böyük əhəmiyyət verərək onlara maddi cəhətdən köməklik edir» [131, s.48].

Erməni millətçiliyinin oyanmasında kilsəyə ən böyük yardımı böyük Avropa dövlətləri etmişlər. Erməni din xadimlərinin Rusiya, İngiltərə və Fransa ilə əməkdaşlığı nəticəsində Osmanlı dövləti daxilindəki katolikləri Fransa, protestantları İngiltərə, ortodoksları (pravoslavları) Rusiya öz himayədarlığına almış və dini bəhanə edərək Osmanlı dövlətinin daxili işlərinə qarışmağı adət halına gətirmişlər. Bu siyasətləri onlara Osmanlı dövlətinin müdaxilə qapılarını açmağa imkan vermişdir. Bu dövlətlər içində Rusiya ermənilərlə əlaqəli bütün fəaliyyətlərini Eçmiədzin Katolikosluğu vasitəsilə həyata keçirirdi. Türkiyədəki hər hansı bir qriqorian erməni keşişi ola bilmək üçün Eçmiədzin katolikosu tərəfindən təsdiq olunmalıydı, yəni Rusiyanın erməni kilsəsi yeni keşişləri qəbul edərək xeyir-dua verirdi. Keşişlərin Rusiya ilə əlaqəsi bu şəkildə ifadə edilirdi: "Erməni ölkəsinin çara sədaqətli olması andiçmə ilə təsdiqlənir və bununla da bu keşişlər çarlığın adamı olurdular" [114, s.34]. Göründüyü kimi, ermənilər Rusiya çarını öz çarları kimi qəbul edirdilər. Bütün bunlara əlavə olaraq Eçmiədzin katolikosu hər tərəfə təbliğatçılarını göndərərək, Türkiyənin bütün şəhərlərində varlı və nüfuzlu ermənilərə məktublar yazaraq üsyana köməklik göstərmələrini tələb etmişdir.

Xeyriyyəçilik görüntülərini verən bu millətçi və separatçı cəmiyyətlər içində ən vacibləri «Hnçak» («Kilsə zəngi») və «Daşnaksutyun» (Erməni Qiyamçı Cəmiyyətləri Birliyi) cəmiyyətləridir. «Hnçak» cəmiyyəti 1887-ci ildə Qafqaz mənşəli Avetis Nazarbekyan və onun həyat yoldaşı Mora adında erməni qadını tərəfindən İsveçin Cenevrə şəhərində yaradılmışdı. Bu cəmiyyətin rəhbərləri və üzvlərinin çoxu Rusiya mənşəli ermənilər idi. Cəmiyyətin liderlərindən Sıvamyan, Maqovaqan, Danielyan, Ruben Xanazad 1890-cı ildə İstanbula gələrək Türkiyədəki fəaliyyətlərinə buradan rəhbərlik etməyə başladılar. «Hnçak»ın maksimum proqramı aşağıdakı planlardan formalaşırdı: 1. Şərqi Anadolu torpaqları hesabına müstəqil «Ermənistan dövləti» yaratmaq; 2. İrandan Azərbaycana və Rusiya vilayətlərinə keçmək, Xəzər dənizinə qədər olan ərazini zəbt edərək «Böyük Ermənistan» dövlətini qurmaq [113.s.99].

Maksimum proqramın reallaşması üçün Minimum proqramın həyata

keçirilməsi tələb olunurdu (Əlavə V). Minimum proqrama əsasən, təbliğat işləri ilə yanaşı, terror həyata keçirilməli, "partizan alayları" adı ilə alaylar təşkil edilməli, «Ümumi Üsyan Təşkilatı" yaradılaraq münasib şərait olan kimi türklərə qarşı qiyam qaldırılmalı idi.

Göründüyü kimi, komitənin proqramı üsyan və qiyam yolu ilə «Ermənistan dövləti»ni yaratmaqdan ibarət idi. Bu fəaliyyətlərlə əlaqədar olaraq 1910-1913-cü illərdə komitə tərəfindən aşağıdakı qərarlar verilmişdir: 1. Silah, sursat və partlayıcı maddələr toplanmalı; 2. Silahlı təlimlər keçirilməli; 3. Təbliğatı sürətləndirməli; 4. «Daşnak» komitəsi ilə əlaqələr yaradılmalı; 5. Üsyançılarla əlaqə yaradılmalı; 6. Vanda silahlı dəstələr təşkil edilməlidir [27, s.84]. Təbliğat sahəsində «Hnçak» komitəsi türkləri təxribata sövq edəcək və sonra da "Ermənilər qətlə yetirilir!" iddiası ilə Rusiyanın işə qarışmasını istəyəcəkdir. «Hnçak» komitəsinin planlarını Poqos və Vahab Mkırtıçyan keşişlərin yazıb imzaladıqları sənədlər göstərir (Əlavə VI). Göründüyü kimi, ruhani olan şəxsləri dini məsələlər deyil, silahlar, onların qiymətləri, silahları əldə etmək yolları maraqlandırırdı.

Müharibə ərəfəsində "Hnçak" komitəsi güclü təbliğata başlamışdı. Məsələn, Bakıda çap olunan "Areve" qəzeti 1914-cü ilin 11 sentyabr tarixində "Mühüm dəqiqələr ərəfəsində" başlıqlı məqalədə erməniləri qiyama hazırlaşmağa çağırır, çünki "sərhədlərdə tarixi hadisələr baş verə bilər və dünya nıüharibəsinin gurultuları Ermənistan dövlətini yarada bilər". Müharibə ərəfəsində «Hnçak» komitəsi Mərkəzi Şurasının yaydığı bəyannamədə ermənilərin Üçlər İttifaqını (İngiltərə, Fransa, Rusiya nəzərdə tutulur) dəstəkləməsinin vacibliyi, ilk növbədə Rusiya ordusu ilə əlbir olaraq türklərə qarşı mübarizəyə qalxmağın vaxtı çatdığı vurğulanır, ermənilərin «Ermənistanda, Kilikiyada və Azərbaycanda qələbə qazanaraq Ermənistan dövlətinin yaradılması»nın məhz bununla bağlı olması qeyd edilir, gələcəkdə «üsyan naminə tökdükləri qanla iftixar edəcəkləri" vurğulanırdı (Əlavə VII).

Hnçakçıların işindən razı qalmayan kiçik bir qrup "Tatuşak" adlı qəzet çap etdirməyə başladıqdan sonra Tiflisdə Xristofor Mikaelyan tərəfindən 1890-cı ildə «Daşnaksutyun» komitəsi təsis edildi. «Daşnaksutyun» ermənicə «federasiya» mənasında olub, təşkilat müxtəlif erməni qruplarının bir araya gəlməsi ilə yarandığından bu cür adlanmış və zaman keçdikcə bu kəlmə qısaldılaraq "daşnak" adını almışdır. Daşnak adının "Truşak" («Bayraq») adından da gəldiyi iddia edilir. Balkanlardakı partizan dəstələrinin taktikası əsasında yaradılan bu komitələr daha sonra «Daşnak» komitəsi (Erməni İnqilabçı Cəmiyyətləri İttifaqı) adıyla Rusiya tərəfindən birləşdirildi.

Rusiyanın himayəsində Ermənistan yaratmaq ideyasını irəli sürən «Hnçak» partiyasından fərqli olaraq «Daşnaksutyun» partiyasının ən yaxın məqsədi «müstəqil Ermənistan» yaratmaq idi. «Daşnak» komitəsi Karl Marksın "Gözəl bir proqram yaratmaq yerinə real bir addım atmaq daha vacibdir" şüarını "Gözəl bir proqram yaratmaqdansa, sistemli şəkildə silahla təmin edilə biləcək dəstə yaratmaq

daha vacibdir" şüarı ilə dəyişərək ilk üç ildə heç bir proqram irəli sürməmişdi. Qiyamçı cəmiyyətlərin ittifaqı olan bu cəmiyyət ermənilərin silah və qiyamlar yolu ilə məqsədlərinə nail olacaqlarını iddia etmiş və bunun üçün əvvəlcədən silahlanmağa başlamış, məqsədlərınə nail olmaq üçün heç bir maneə tanımamış, hətta, öz millətinin nümayəndələrini belə çəkinmədən qətlə yetirmişdir. «Daşnak» komitəsinin şüarı: "Türk, kürd kim olursa olsun vur, hər cür şəraitdə öldür. Erməni xəfiyyələri və xainlərini öldür. İntiqamını al!" şəklindədir. «Daşnak» komitəsi siyasi və iqtisadi müstəqilliyini əldə etmək üçün Türkiyəyə dəstələr göndərmək, erməniləri silahlandırmaq, silahlı dəstələr formalaşdırmaq, dəstə komandirlərini yetişdirmək, yerli idarəedici təşkilatları yaradaraq üsyana başlamağı özünün əsas məqsədi olaraq görürdü [27, s.86]. Bunun üçün komitə aşağıdakı metodlardan istifadə etməyə qərar vermişdi: 1. Üsyan komitələri təşkil edib bir-biriləri ilə sıx əlaqə yaratmaq; 2. Erməni gənclərini rus inqilabi fikirləri ilə yetişdirmək; 3. Çaxnaşmaların meydana gəlməsi üçün təxribat törətmək, yalançı şahidlər taparaq hadisələri öz istədikləri axarda istiqamətləndirmək; 4. Xalqı silahlandırmaq üçün bütün imkanlardan istifadə etmək və dəstələr yaratmaq; 5. Hökumət əleyhinə birləşmiş qüvvələri göstərmək, xalqın mənəviyyatını və üsyançı fəaliyyətlərini artırmaq; 6. Hökumət müəssisələrini dağıtmaq və təxribatlar etmək [27, s.86].

«Hnçak» və «Daşnak» komitələrinin proqram və fəaliyyətləri arasında bəzi fərqli cəhətlər olmaqla yanaşı, bəzi müştərək xüsusiyyət və məqsədlərinin olduğu bir həqiqətdir. Bu müştərək xüsusiyyət və məqsədlər erməni siyasətini sistem halına gətirmişdir. Bu sistemi aşağıdakı şəkildə təsvir etmək olar: a. Partizan dəstələri yaradaraq qorxu və qətllər törətmək; b. Partizan dəstələri ilə gərginlik və terror törətmək; c. Böyük dövlətlərin müdaxiləsini təmin etmək; ç. 6 Anadolu vilayətində əhalinin əksəriyyətini təşkil edən müsəlmanları öldürərək və ya zorla köçürərək bu vilayətlərdə erməni çoxluğunu təmin etmək; d. Sosialist Ermənistan Respublikasını yaratmaq.

Təbliğat sahəsində «Daşnaksutyun» partiyası aşağıdakı maddələrə xüsusi əhəmiyyət verirdi: 1. Eyni mövqedən mübarizə aparan millətlərlə dostluğu inkişaf etdirmək; 2. Bitərəf ölkələrlə dostluq əlaqələri yaratmaq və mümkün olduğu qədər onların dəstəyini qazanmaq; 3. Düşmən mənəviyyatını pozmaq və düşmən millətlərini bir-biri ilə savaşdırmaq; 4. Düşmənə qarşı nifrət hisslərini oyandırmaq.

«Daşnaksutyun» Trabzon, İstanbul və Vanda mərkəzlərini təsis edərək təşkilati quruluşlarını yaratmağa başladı. İlk qurultayını 1892-ci ildə Tiflisdə keçirən «Daşnaksutyun» Nizamnaməsini burada qəbul etdi. Bu Nizamnaməyə görə təşkilatlanmanın əhatə etdiyi sahələr Şərq və Qərb olmaqla iki qrupa bölünürdü. Fəaliyyətində xüsusi olaraq təbliğata üstünlük verən Qərb qrupu əvvəlcə Parisdə, daha sonra Londonda, Brüsseldə, Berlində, Cenevrədə, Roma və Milanda formalaşaraq istər Avropa, istərsə də başqa ictimai rəylər üzərində öz təsirini göstərməyə başladı. Şərq qrupu isə Osmanlı imperatorluğunda üsyanları planlaşdırmaq və tətbiq etməklə məşğul olurdu. Daşnaklar öz məqsədlərinə çatmaq

üçün terroru əsas mübarizə vasitəsi kimi görürdülər. Bu haqda İstanbuldakı Fransa səfiri Kambon ölkə XİN-ə göndərdiyi raportunda yazırdı: "Londonda ermənilər yaxşı sığınacaq tapdılar. Qladston kabineti narazı erməniləri topladı, onları qruplaşdırdı, intizam, qayda-qanun öyrətdi və öz köməyini vəd etdi. Həmin vaxtdan təbliğat komitəsi Londonda bərqərar oldu və burada müvafiq işlər görüldü. Erməni əhalisi içərisinə olduqca sadə iki ideyanı yeritmək zəruri idi: millətçilik ideyası və azadlıq ideyası» [176, s.18]. Bunların yayılması ilə komitələr məşğul oldu və beləliklə, gizli cəmiyyətlər bütün Regionda fəallaşdı: Türkiyə inzibati üsul-idarəsinin qüsur və çatışmazlıqları təbliğ edilir, erməni xalqında isə millətçilik və istiqlaliyyət ideyaları oyadılırdı.

Yazılan raportdan göründüyü kimi, erməni komitələri kənddə yaşayan erməni əhalisi arasında millətçilik, azadlıq və muxtariyyət ideyalarını yeritmək vəzifəsini öz üzərlərinə götürmüşdü. Bununla əlaqədar İstanbuldakı "Daşnaksutyun" komitəsi yazırdı: «Bilirik, biz öləcəyik!.. Lakin erməni millətinin iliyinədək işləmiş inqilab ruhu biz insan hüquqları əldə edənədək və tək bircə erməni də sağ qalanadək Sultan taxtını hədələməkdən usanmayacaq. "Daşnaksutyun" Erməni İnqilabçıları Federasiyasının Mərkəzi Konstantinopol (İstanbul) Komitəsi"[108,s.81].

### 1.3. Müharibə ərəfəsində erməni təşkilatlarının Osmanlı dövlətinin siyasi proseslərində iştirakı

Erməni komitələri baş verən proseslərdə öz xalqının xilaskarı deyil, məhz cəlladları rolunu oynamışlar. Özünü "sosialist" partiyası kimi qələmə verən "Daşnaksutyun"un dünya müharibəsinin başlamasına münasibəti necə idi? Hələ müharibə başlamazdan əvvəl bu partiya Osmanlı torpaqlarının bir qismini ələ keçirərək "Dənizdən dənizə Böyük Ermənistan" dövlətinin yaradılması planlarını hazırlamışdı. Bu müharibənin başlanması "Erməni məsələsi"nin həll edilməsinə və "Günəş altında yer" əldə edilməsinə köməklik edəcəkdi.

"Daşnaksutyun"nun xarici əlaqələr şöbəsinin rəhbəri Zavriyev Rusiyanın Londonda və Parisdəki səfirlərinə göndərdiyi yazılarında deyirdi: "Rusiya erməniləri ümid edirlər ki, Türkiyə müharibənin elə ilk günlərindən döyüşlərə cəlb ediləcək. Hadisələrin bu yolla gedişi bizlərə ümid verir ki, müharibə bitdikdən sonra «Erməni məsələsi» yenidən gündəliyə gələcək və öz həllini son formada tapacaq. Buna görə də ermənilər gələcək hadisələrə biganə qalmamalı və bu hadisələrdə yaxından iştirak etməlidir!" [139, s. 45].

Erməni komitələrinin fəaliyyəti Avropada nə qədər böyük səs-küyə səbəb olsa da, hökumətlərə təsir göstərə bilmirdi. Sankt-Peterburqdakı alman müşaviri yazırdı: "Rusiya xarici işlər naziri ilə son görüşümdə «Erməni məsələsi»ndə mənə Rusiyanın maraqlarının siyasi deyil, sadəcə mənəvi olduğunu, başqa sözlə, məsələyə maraqsız olmasalar da, lakin passiv mövqedə durduqlarına işarə etdi.

«Berlin müqaviləsi»nin ermənilərlə əlaqəli maddəsinin hələ də qüvvəyə minmədiyini və Rusiyanın buna heç bir maraq gösdərmədiyini və heç nə etməyəcəyini söylədi. «Erməni məsələsi»ndə siyasi marağı olan dövlət bir tək İngiltərədir" - deyən xarici işlər naziri ingilislərin Rusiya sərhədində Bolqarıstan kimi müstəqil bir «Ermənistan» yaratmaq istədiyini açıqladı: «Ancaq Rusiyanın ikinci bir Bolqarıstan yaratmaq arzusu olmadığı kimi, «muxtar Ermənistan» Rusiyadakı ermənilər üçün bir cazibə təşkil edəcək təhlükə yaradar" [Die Grosse Politik, (Böyük siyasət) Band 9, № 2177]. "Daşnaksutyun" partiyasının xadimi Zavriyev qarşıdan gələn müharibədə öz partiyasının hansı rol oynayacağı haqqında heç bir söz demir. Əksinə, o, partiyanın fəaliyyətini kölgədə qoyaraq müharibədə erməni xalqının iştirakından ağızdolusu danışır. Göstərdiyimiz sitatdan aydın olur ki, bu müharibə «Daşnaksutyun» partiyasının planlarına daxil idi. Daşnaklar bu müharibədə Türkiyədə yaşayan qardaşlarının "xilas edilməsi" və "Müstəqil Türkiyə Ermənistanı"nın yaradılması şüarını irəli sürmüşdülər.

Patriarxlığın rəhbərliyi altında fəaliyyət göstərən erməni üsyan komitələri Avropa və Amerikada şöbələrini açmağa başladılar. Artıq erməni millətçiliyi muxtariyyət istəyən qiyamçı hərəkatlar kilsənin nəzdində fəaliyyət göstərən erməni qiyamçı partiyaları şəklində formalaşmağa başladı. Patriarxlıq isə komitəçilərin yuvasına çevrilmişdi. Müəllimlər və vilayətdəki yepiskoplar arasından gənc keşişlər seçilərək komitələrin xeyrinə çalışırdılar. Komitəçilər ermənilərin yaşadıqları yerlərdə hakimiyyəti və üstünlüyü qorumaq məqsədi ilə yepiskopluqları ələ almağa çalışırdılar. Bitlisdəki rus konsulunun 1910-cu ilin 3 dekabr tarixində İstanbuldakı Rusiya səfirliyinə yazdığı 602 №-li raportda kilsə ilə daşnakçılar arasındakı əlaqələri, daşnakların məktəblərə kömək adı ilə yığılan pulların təbliğat və silahlanma işlərinə sərf edilməsi açıq göstərilirdi (Əlavə IX). Raportdan göründüyü kimi, ermənilərin qəlbində dini hisslər çox az yer tutur. Ona görə də erməni komitəçiləri din xadimlərini öz aralarına almaqda bir o qədər çətinlik çəkməmişlər. Artıq I Dünya müharibəsi ərəfəsində Erməni Kilsəsi komitə üzvlərinin məclislərə seçilməsinə köməklik göstərir, xarici ölkə səfirləri və hökumət rəhbərləri ilə görüşlərini təşkil edirdi. Kilsə qiyam bayrağı altında komitə üzvlərinin sayını artıraraq erməni qiyamçılıq ruhunu canlandırmaq üçün çox böyük fəaliyyət göstərirdi.

Ermənilər Türkiyənin daxili siyasətini düzgün dəyərləndirdiklərindən «Gənc (Jön) türklər» təşkilatı ilə əməkdaşlıq yaratmışdılar. Avropameyilli olan bu təşkilat Osmanlı idarəçiliyini dəyişmək üçün ermənilərlə əməkdaşlığa başlamışdı. 4-9 fevral 1902-ci ildə Parisdə öz konfranslarına toplanan «Gənc türklər» təşkilatı bir bəyannamə yayımlamışdı. Konfransda «Gənc türklər» ermənilər üçün ediləcək islahatlarda xarici dövlətlərin müdaxiləsi fikrinə qarşı çıxmış və öz aralarında «Müdaxiləçilər» və «Adem-i Müdaxiləçilər» kimi iki qrupa bölünmüşdülər. [112a, s.77].

27-29 dekabr 1907-ci ildə Əhməd Rza, Şahzadə Sabahaddin və «Daşnak»

komitəsindən Malumyanın müştərək rəhbərliyi altında Parisdə II «Gənc türklər» konfransı (Osmanlı liberallar konfransı) toplandı. Konfransın sonunda yayılan bəyannamənin əsas xətti belə idi:

1. Sultan Əbdülhəmidin taxtdan endirilməsi;
2. Mövcud rejimin dəyişdirilməsi;
3. Məşrutiyət (İslahatçılar) və Məşvərət üsullarının qurulması, yəni Millət Məclisinin və İslahatçılar Məclisinin yaradılması [112a, s.77].

# II F Ə S İ L

# ERMƏNİ TƏŞKİLATLARININ XARİCİ DÖVLƏTLƏRLƏ ƏLAQƏSİ VƏ ERMƏNİ SİLAHLI QURUMLARININ QAFQAZ CƏBHƏSİNDƏ FƏALİYYƏTİ

## 2.1. Müharibə ərəfəsində erməni təşkilatlarının xarici dövlətlərlə əlaqəsi

I Dünya müharibəsi başlayarkən osmanlılar ermənilərin tutacaqları mövqedən şübhələnmişdilər. "Xəstə adam" deyilən Osmanlı imperatorluğunu süquta uğrada bilməyən Avropa dövlətləri onu içəridən dağıtmaq qərarını verdilər. Ermənilərin haqlarının müdafiəsi bəhanəsi onlar tərəfindən istifadə olunurdu. İngiltərə humanist anlayışlarla Osmanlı dövlətinin daxili işlərinə müdaxilə edərək erməniləri himayəsi altına almışdır. Bu məqsədlə İngiltərə onlardan istifadə etmək imkanlarını axtarır və Osmanlı dövlətinə daxildən zərbə vurmaq üçün istiqamətləndirirdi. İngiltərə Şərqi Anadoluda «müstəqil Ermənistan» yaradaraq Rusiyaya qarşı təsirli bir silah kimi istifadə etməyi planlaşdırırdı [165, s.500].

Erməni patriarxlığı Avropa dövlətlərinin maraqlarını ermənilərə tərəf yönəltməyə çalışırdı [165, s.500]. Ermənilər Osmanlı dövlətini zəiflətmək və xarici dövlətlərin müdaxiləsini hazırlamaq üçün hər cür imkanlardan istifadə edir və bu siyasətlərini açıqlamaqdan çəkinmirdilər. Çar daxil olmaqla Rusiya rəhbərlərinin bir çoxu ermənilərin ingilis təsiri altında olduğuna inanırdılar. Rusiya yaradılacaq «Ermənistan»ın anarxiya yuvası olacağına və Rusiyadakı ermənilərin də bu «Ermənistan»a birləşmək istəyəcəklərinə əmin idi. Rusiya müstəqil bir «Ermənistan» yaradılmasına etiraz edir, İngiltərənin ermənilərlə əlaqədar təklif etdikləri islahat layihəsini rədd edir, başqa layihələrlə İstanbul və boğazları işğal etmək istəyirdi.

Osmanlı imperatorluğunun parçalanmasından mənfəətlər əldə etmək istəyən Rusiya, İngiltərə və Fransa arasında mənafe birliyinə əsaslanan əlaqələr yarandı. Ortaq mövzu olaraq erməni mövzusu işlənməyə başlandı. Şərqi Anadoluya hakim olmaq istəyən Rusiya bəzən ermənilərə qarşı kürdlərdən istifadə edir, ermənilərin hüquqlarını müdafiə etmək onun üçün bir o qədər əhəmiyyət kəsb etmirdi. Əsas məqsəd ermənilərdən istifadə edərək Şərqi Anadoluya sahib olmaq idi. Rusiyanın erməni üsyanlarında nə dərəcədə rol oynadığını general Mayevski xüsusi ifadə edirdi (Əlavə X). İsgəndərundakı rus müşaviri hələ müharibə ərəfəsində deyirdi ki, ermənilərə vədləri manifest formasında verməklə Rusiya tərəfinə çəkmək lazımdır (Əlavə XI).

Başda Almaniya olmaqla Üçlər İttifaqı da özünü ermənilərin mənafeyinin müdafiəçisi kimi göstərməyə çalışırdı. Alman-türk layihəsinə görə Türkiyə erməniləri üçün islahatlar aparılaraq üçlər onların vəziyyətləri xeyli yaxşılaşdırılacaq, Rusiya erməniləri üçün isə "muxtariyyət" veriləcək.

Antanta İttifaqı ilə Üçlər İttifaqı arasında ermənilәri öz tərəflərinə çəkmək uğrunda mübarizə gedirdi. Beləliklə, ermənilər dilemma qarşısında qalmışdı: ya Antanta dövlətlərinə qoşulacaq, ya da Üçlər İttifaqına birləşəcək. "Daşnaksutyun" bu dilemmanı birincinin xeyrinə həll edir. Çarizm ermənilərə tərəf addım ataraq onlara hədiyyə olaraq Şərqi Anadolu (Van, Baqeş, Diyarbəkir, Xarbed, Sivas, Qarin və Trabzon) əyalətlərində, həmçinin Kilikiyanın beş sancağına (Maraş, Sis, Cəlal, Bərəkət, Adana) muxtariyyət verəcəyini və eyni zamanda Rusiya erməniləri üçün islahatlar keçirəcəyini vəd edir. Təbiidir ki, «Daşnaksutyun» partiyası Rusiyanın təklifini qəbul edir və müharibədə ermənilərin Rusiya tərəfində vuruşmaları üçün ciddi təbliğata başlayır.

İsgəndərundakı rus səfirinin müşaviri Qulkeviç müharibə ərəfəsində yazırdı ki, «Ermənistan»ın Türkiyə tərkibində muxtariyyət alması və ya Rusiya protektoratlığı altında olacağı məsələsi hələlik öz həllini tapmayıb. Lakin hər iki halda «Ermənistan» bizim təsir dairəmiz altında olmalıdır və bu halda müttəfiq dövlətlərin maraqları nəzərə alınmayacaq» (Əlavə XII). Rusiyanın xarici işlər naziri Sazonov Nazirlər Sovetinin sədri Qoremıkinə 30 avqust 1914-cü il tarixli məktubunda yazırdı: "Hər halda vacibdir ki, Türkiyə ilə müharibə Rusiya tərəfindən deyil, məhz Türkiyə tərəfindən başlamalıdır. Türkiyə ilə razılaşma olsa belə ermənilərə zəmanət verilməlidir ki, bu razılıq «Erməni məsələsi»nin hesabına əldə edilməmişdir" [139, s.181]. Cavab məktubunda xarici işlər naziri 3 məsələni qeyd edirdi: 1) Çar hökumətinin mənafeyini nəzərə alaraq Türkiyə ermənilərinin qiyam məsələsini həll etmək; 2) Ermənilərin çara sədaqətlərini nümayiş etdirmək; 3) Türkiyəyə qarşı müharibədə erməniləri hazır vəziyyətə gətirərək onların silahlandırılması məsələsini həll etmək [139, s.181].

Bu dövrdə çap edilən erməni nəşrlərində Ararat dağından İsgəndəruna qədər olan ərazilərin Rusiya tərəfindən işğal edilərək «Ermənistan» muxtariyyətinin yaradılması məsələsi geniş müzakirə olunurdu. "Mışak" qəzetinin redaktoru A.Arakelyan yazırdı: "Elə bir məqam gəlib çatmışdır ki, bütün sivilizasiyalı dünya, xüsusilə də Rusiya «Erməni məsələsi»nin həllini öz üzərinə götürməlidir. [16, 11 sentyabr 1912, №: 220]. 1912-ci ildə erməni burjuaziyası və ziyalıları Tiflisdə toplanaraq «Erməni məsələsi»nin dünya siyasətçilərinin diqqət mərkəzində olacağını və Rusiya hökumətinin ermənilərə xoş niyyətlərini bildirəcəyini nəzərə alaraq qarşıda dayanan ümummilli məsələlərin həll edilməsi üçün toplanmağı təklif etdilər. Oktyabrın sonunda ermənilərin I ümummilli qurultayı çağırıldı. Bu qurultaya Tiflisdən, Bakıdan, Naxçıvandan, Axalkalakidən, İrəvandan, Armavirdən, Batumidən nümayəndələr gəldilər. Qurultay qərara aldı ki, ermənilərin yaşadığı bütün ərazilərdən nümayəndələr seçilsin və yeni qurultay çağırılsın. Qurultayda «Erməni məsələsi» ilə əlaqədar daimi işlək orqan yaradıldı: 7 nəfərdən ibarət müvəqqəti büro seçildi (S.Arutyunyan, A.Xatisyan, A.Kalantar, A.Arakelyan, A.Poqosyan, O.Tumanyan, N.Aqbalyan). Büro gündəlik cari işləri və noyabrın 25-də Tiflisdə keçiriləcək yeni qurultaya hazırlıq işlərini həll edəcəkdi.

Qurultayda diplomatik əlaqələndiricilik vasitələri və müdafiə məsələləri həll olunaraq aşağıdakı qərarlar qəbul edildi: 1. «Erməni məsələsi»nin həlli üçün katolikosun fəaliyyətlərinə mümkün olan bütün köməklikləri göstərmək; 2. «Erməni məsələsi» ilə əlaqədar işləyən bütün erməni komitələri ilə əlaqə yaratmaq; 3. Təbliğatın köməyi ilə Rusiyanın hakim dairələrində ermənilərə və «Erməni məsələsi»nə rəğbət yaratmaq.

Qurultay müdafiə məsələsinə böyük əhəmiyyət versə də, bununla əlaqədar heç bir məcburi sənəd qəbul etmədi. Yaradılan büro məşhur erməni adamlarının siyahısını tərtib edərək onların katolikosa yardım göstərmələri üçün Avropa ölkələrinə göndərilməsinə qərar verdi. Nubar paşanın adı bu siyahının başında idi. Büro tələb olunan bütün sənədləri hazırlayaraq ümumi toplantıda təsdiqlədi və Rusiya hökumətinə müraciət kimi göndərdi. Büro daimi olaraq 1 və ya 2 nümayəndəni məşvərət üçün katolikosun yanına göndərirdi. Büro yığıncaqlarının əksəriyyətində ermənilərin tələblərini müzakirə edirdi. Katolikosun nümayəndəsi Nubar paşa Parisdə ermənipərəst V.Berarla birlikdə ermənilərin proqramlarını hazırladı. Eyni zamanda, İstanbul patriarxı alternativ bir proqram hazırladı. Patriarxın nümayəndəsi proqramların büroda toplanaraq son varianta salınmasını təklif etdi. Bu məsələ ilə əlaqədar büro yığıncaqlardan sonra Paris proqramını minimum, patriarx proqramını isə maksimum proqramlar kimi qəbul etdi. Bu yekun proqramlar katolikosa göndərildi. Çar Rusiyasının İstanbuldakı səfiri bu proqramlarla tanış olduqdan sonra düzəlişlər etmiş və onlara xeyir-dua vermişdir. Büro katolikosa bildirdi ki, erməni patriarxının qəbul etdiyi proqram ermənilərin mənafeyinə cavab verdiyindən Rusiya səfirinin fikirləri də nəzərə alınaraq əsas proqram kimi qəbul edilməlidir. Büro təklif edirdi ki, ermənilərin ancaq bir proqramı olmalıdır və bu proqramda Rusiyanın maraqları da əks olunmalıdır, çünki rus hökumətinin göstərəcəyi yardımdan asılı olaraq «Erməni məsələsi» müvəffəqiyyətlə həll edilə bilər. Katolikos «Erməni məsələsi»nin həllində rəhbər kimi qəbul edildiyindən proqram dövlətlərə katolikosun adından təqdim edilə bilər[131,s.28].

1912-ci ilin dekabrın 24-də katolikos Qafqazın general-qubernatoru Vorontsov-Daşkov vasitəsilə çar II Nikolaya müraciət edərək ondan "əzabkeş erməni xalqını öz himayədarlığına götürməyi" xahiş edirdi [131, s.39]. Çar Rusiyasının «Türkiyə Ermənistanı» üzərində təsir dairəsini artırılması üçün rus burjuaziyası Osmanlı hökumətindən ermənilərin xeyrinə islahatların keçirilməsini tələb edirdi. Bunun ardınca 1912-ci ildə çar hökuməti erməni xalqının rifah durumunun yaxşılaşdırılması üçün Türkiyədən islahatların aparılması, 1913-cü ildə isə «Ermənistan»a muxtariyyət verilməsi tələbləri ilə çıxış etdi [133, s.764].

Lakin Avropa dövlətləri bu ərazilərdə Rusiyanın təkbaşına hegemonluğuna icazə verəcəkdimi? Bu ərazilərdə Fransa və İngiltərənin maraqları mövcud idi, əsrin əvvəllərində Almaniya burada öz mənafeləri olduğunu bəyan etdi. Almaniya Yaxın Şərqdə siyasi hegemonluğu ələ ala bilməsə də, iqtisadi hökmranlığa can

atırdı. Rusiya isə Almaniyanın bu ərazilərdə hakim mövqe tutmasına imkan vermək istəmirdi. 1913-cü ilin yanvar ayında Avropa dövlətlərinin kütləvi informasiya vasitələri Rusiyanın Türkiyənin daxili işlərinə qarışması haqqında yazılar nəşr etdirməyə başladıqda Almaniya Rusiyanı səfərbərliklə hədələməyə başladı və Rusiyaya nota göndərərək xəbərdar etdi: Rusiya ordusunun Türkiyə ərazisinə daxil olması ölkələr arasında müharibəyə başlamaq səbəbi kimi qiymətləndiriləcəkdir [125, s.128]. Rusiya nə diplomatik, nə də hərbi cəhətdən öz maraqlarının bu ərazilərdə müdafiə edilməsinə hazır idi. Sazonov İngiltərə və Fransada olan səfirlərinə təlimat göndərdi: "Balkanların böhranlı vəziyyəti həll edilmədən «Erməni məsələsi»nin gündəliyə gətirilməsi vaxtından əvvəl olar və bundan yalnız Türkiyə faydalanar"[133, s.768].

Bütün bunlara baxmayaraq, Rusiya «Erməni məsələsi»ndə aparıcı mövqe tutmaq üçün bütün vasitələrə əl atırdı. 1912-ci ilin dekabr ayında Rusiyanın İstanbuldakı səfiri Girs «Daşnaksutyun» partiyasının nümayəndəsi Zavriyevlə keçirdikləri danışıqlar haqqında Peterburqa məlumat verirdi: "Zavriyev soruşdu: «Türkiyə ermənilərinin mövqeyi necə olmalıdır, onlar Rusiya və Avropa ölkələrinə kömək üçün müraciət etməlidirlərmi? Cavab: Hökumətimiz ermənilərin taleyi ilə yaxından maraqlanır və onların problemlərinin həll edilməsində yaxından iştirak edir. Ermənilər dəyişən şəraitləri nəzərə almalı və lazımsız çıxışlarla öz vəziyyətlərini daha da pisləşdirməməlidirlər. Ən vacibi odur ki, gərək ermənilər Avropa ictimaiyyəti qarşısında türk özbaşınalığının qurbanları kimi görünsünlər» [30a, s.11-12]. Rusiyanın dövlət strukturları azad erməni hərəkatından və ermənilərin Avropaya müraciət etmələrindən çəkinirdilər. Çar hökuməti istəyirdi ki, «Erməni məsələsi»ni öz əllərində elə bir alətə çevirsin ki, istədiyi anda Türkiyə hökumətinə təzyiq göstərmək üçün istifadə etsin.

1913-cü ilin yanvar ayında Vorontsov-Daşkov katolikosla danışıqlar zamanı «Ermənistan»ın ikiyə bölünməsi - bir hissəsi Rusiyanın, digər hissəsi isə Almaniyanın nəzarəti altında olması fikrinə münasibətini öyrənməyə cəhd göstərdi [17, 1913 il, 28 may]. Onun fikirləri 1913-cü ilin mayında Sazonova göndərdiyi yazıda öz əksini tapmışdır. Qafqaz erməni nümayəndə heyətinin aprel ayının 27-də qubernatorluğa gələrək Rusiya hökumətindən yardım dilədiklərini, müdafiə olunmaları üçün silah, müdafiə işlərinin təşkil edilməsində yardım istədiklərini yazan Vorontsov-Daşkov öz tövsiyələrini verirdi (Əlavə XIII).

1912-ci ilin yazında Eçmiədzin katolikosu Rusiya çarı tərəfindən qəbul edildikdən sonra çar "Erməni məsələsi"ni bütünlüklə öz üzərinə götürdüyünü bəyan etdi. II Nikolaya ermənilərin müqəddəratını həvalə edildiyini göstərən bir rəy lazım idi. Bunun üçün Eçmiədzin katolikosu ermənilər arasında zəmin hazırlamalı idi. Əslən Qarabağdan olan, Misirdə yaşayan erməni Poqos Nubar paşa bu şəraitdə Avropa ölkələrinin bir çoxunu gəzərək erməni təşkilatlarıyla, London və Parisdə yaradılan "İngilis Erməni Komitəsi"lə, Almaniyada "Erməni Dostluq Komitəsi"lə görüşmüş, nəticədə Qahirədə "Ümumerməni Xeyriyyə Cəmiyyəti"

yaratmışdır. Katolikos V Gevorkun təyin etdiyi adamlar bu beynəlxalq nümayəndəliyə rəhbərlik edərək "Erməni məsələsi"ni Avropada təbliğ etməyə başlamışdılar. Katolikosun xüsusi nümayəndəsi Beynəlxalq Nümayəndəliyin muxtariyyət və müstəqillik üçün lazımi tədbirlərin gördüyünün doğru olmadığını bəyan edərək onun "siyasətə qoşulduğunu" təkzib etmişdir [131, s.43]. Yazıçı Mixail Pavloviç erməni hərəkatının çarlıqla yaxın əlaqələrini görmüş və bunun əhəmiyyətini «Rusiya və ermənilər» məqaləsində izah edərək, hətta, erməni katolikosunun belə Rusiyanın icazəsi ilə «durub-oturmasını» qeyd etmişdir (Əlavə XIV).

Anadolunun 6 vilayətində «Ermənistan» dövlətinin yaradılması Osmanlı ərazisinin 1/7-i, Anadolunun 1/3-nin itirilməsi demək idi. Avropada keçirilən bütün görüşlər türk tərkibindəki «Ermənistan»ı Rusiyanın nəzarəti altına almaq üçün Avropa dövlətlərinin razılığını əldə etmək məqsədini güdürdü. 30 dekabr 1913-cü ildə Parisdə general Lakroiksin başçılığı ilə Fransız Asiyası Komitəsi "Beynəlxalq Erməni Komitəsi" adı altında konfrans keçirdi. Konfransda Almaniyanın xarici işlər nazirinin çıxışından ilhamlanan almanlar Lepsius və Rorbax erməni hərəkatlarına tərəfdar olduqlarını bəyan etmiş, hətta, Lepsius daha irəli gedərək «Türkiyə Ermənistanı»nın Rusiya tərəfindən işğal olunmasını istəmişdir [8 yanvar 1914 il, s.455]. Osmanlı imperatorluğunun gələcəyi üçün əhəmiyyətli olan bu mövzu başqa dövlətlərin təsiri altına keçməsin deyə, almanlar ermənilərlə əlaqələrini genişləndirmək niyyətində idilər. 6 vilayəti öz təsir dairəsində saxlayan və bu vəziyyəti böyük dövlətlərə örtülü şəkildə qəbul etdirən Rusiya ermənilərin İngiltərə hökumətinə nümayəndələr göndərilməsinin qarşısını aldı. 1913-cü ilin 26 dekabr tarixində Osmanlı imperatorluğunun xarici işlər naziri Cavid bəy Fransanın "Le Temps" qəzetinə verdiyi müsahibəsində deyirdi: «Əgər siyasi dairələr İngiltərə və Fransadan istədiyimiz nümayəndələrin göndərilməsinin qarşısını alarlarsa, Türkiyə Rusiyanın istəklərini tətbiq etməkdənsə bitərəf ölkələrlə əlaqə yaradacaq» [129, s.39].

1912-ci ilin noyabr ayında Osmanlı imperatorluğunun Balkan müharibəsində məğlub olması ərəfəsində Rusiya diplomatiyası imperatorluğa son zərbəni vurmaq məqsədi ilə erməniləri səfərbər etdi. Noyabrın 21-də Vandakı Rusiya konsulunun müavini İstanbuldakı konsula göndərdiyi teleqramda yazırdı: "Bütün ermənilər Rusiyaya tərəfdardırlar və rus hərbçilərinin gəlişini və ya Rusiyanın nəzarəti altında qiyamlar edilməsini səmimiyyətlə arzulayırlar" [97, s.45]. Eyni tarixdə Bəyaziddəki konsulun müavini İstanbula, rus səfirinə göndərdiyi teleqramda yazırdı: "İstisnasız bütün ermənilər Türkiyəyə tamamilə düşməndir: Rusiyanın himayədarlığını və «Ermənistan»ın işğal edilməsini arzu edirlər" [97, s.45]. Səfirin fikrincə, Rusiyanın müdaxiləsini istəyən müraciətlər Türkiyə «Ermənistan»ında Rusiya lehinə olan duyğuları özündə əks etdirir. Səfir göndərdiyi teleqramda Rusiyanın müdaxiləsi üçün fürsətin əldən buraxılmasından ehtiyat edir, katolikosa və İstanbul Erməni Patriarxlığına hər cür təminatların

verilməsini bildirir. O, ermənilər üçün 6 vilayətin işğalı üçün vaxtın hələ yetişmədiyini, bununla yanaşı, ermənilərin digər dövlətlərə müraciətlərin qarşısını almaq lazım olduğunu vurğulayırdı. Səfir hələlik rusların nəzarəti altında türk torpaqlarında qiyamlar törətməklə kifayətlənməyi təklif edir və bütün bunların nəticə verməyəcəyi halda 6 vilayətə rus hərbçilərinin daxil olmasına ümid edirdi [97, s.47].

1912-ci ilin dekabrında Rusiya səfiri Avropa dövlətlərinə müraciət edərək «Erməni məsələsi»nin ya müştərək olaraq həll edilməsi, ya da bu məsələnin həllini bütünlüklə çarın himayəsinə buraxılmasını istədi. Avropanı gəzən erməni milli nümayəndələri isə bu problemi Rusiyanın həll etməsini istəyirdi. Başqa bir tərəfdən, Rusiya xarici işlər naziri Avropadakı Rusiya səfirlərinə məktublar göndərərək bildirirdi ki, "ermənilər məskunlaşdığı bölgələri Rusiya tərəfindən işğal edilməsi ilə əlaqədar müraciətlər göndərirlər. London və Paris hökumətləri ilə müştərək bir yol tapmaq üçün fikir mübadiləsi edilməli, onların İstanbuldakı səfirlərinə Rusiya səfirlərinin fikirlərini dəstəkləmək üçün təlimat və tövsiyələr verilməlidir" [97, s.78]. «Daşnaksutyun» partiyasının nümayəndəsi Zavriyev İstanbuldakı rus səfiri ilə görüşündə söyləmişdir: «Ümumiyyətlə, ermənilər gələcəklərinin Rusiya ilə bağlı olduğunu düşünür və Türkiyəyə qarşı nələr edəcəkləri haqqında Rusiyadan təlimat gözləyirlər». Zavriyev açıq olaraq rus müdaxiləsini istəyirdi. Patriarxlıq ya Rusiya zəmanətini, ya da beynəlxalq zəmanət tələb edirdi. Səfir XİN-ə göndərdiyi teleqramda yazırdı: "Ermənilər rus işğalını ən effektli zəmanət hesab edirlər" [97, s.82].

1912-ci ilin 21 dekabrında keçirilən Erməni milli qurultayı bütün partiyaların Rusiyaya tərəfdar olduqlarını bəyan etdi. Ermənilər mübarizələrini daha qəti şəkildə aparacaqları barədə Londonda toplanan səfirlərə bildirdilər. Bu addım Qafqazın general-qubernatorunun xoşuna gəlmədi. General-qubernator XİN-ə teleqramda yazırdı: "Katolikosun Avropadakı nümayəndəsi P.Nubar paşa Avropa dövlətlərinin Londonda keçirilən yığıncaqlarına girməməli və fəaliyyətlərini rus müdaxiləsinə əsas hazırlamağa yönəltməlidir" [114, s.85].

1913-cü il martın 13-də Rusiya nümayəndəsi İzvolski P.Nubar paşa ilə apardığı danışıqlar haqqında XİN-ə məlumat verirdi: «Poqos Nubar paşa deyib ki, ermənilər bütün ümidlərini rus himayəsində olacaqlarına bağlamış və onlar Rusiya hökumətinin qərarlarını bütün şərtlərlə qəbul etməyə hazırdırlar. O, müvəqqəti hökumətin yaradılması haqqında bir layihə hazırlamışdır, lakin Rusiyanın razılığı olmadan heç nə tətbiq etməyəcəkdir" [114, s.95]. Mart və aprel aylarında Bitlis, Ərzurum və Vandakı Rusiya konsulluqlarından göndərilən teleqramlar qətllər üçün hazırlıqların aparıldığı haqqında məlumat verirdi. Səfir XİN-ə göndərdiyi teleqramda ermənilərin Bitlis, Ərzincan və başqa yerlərdə baş verən hadisələrdən çox böyük narahatçılıq keçirdiyini və Anadoluda xristianlarla müsəlmanlar arasında bir qırğının törənəcəyi barəsində məlumat verirdi.

Almaniyanın Moskvadakı səfiri B.Holveq 1913-cü ilin 23 yanvarında baş

nazirə göndərdiyi raportunda yazırdı ki, Rusiya xarici işlər naziri ermənilərin yaşadıqları ərazilərdə qətllərin baş verməsi ehtimallarından danışmış və bu halda Rusiyanın dərhal müdaxilə edəcəyini bildirmişdir (Əlavə XV). Rusiya xarici işlər nazirinin müavini Neratov 7 iyun 1913-cü ildə Avropa dövlət rəhbərlərinə göndərdiyi teleqramda Türkiyədə ermənilərin qiyamlar qaldıracağı haqqında açıqca məlumat verirdi. Fransa bu teleqrama dərhal müsbət cavab vermiş, İngiltərə və digər dövlətlər isə cavab verməkdə çətinlik çəkmişdilər. 9 iyunda Üçlər İttifaqının İstanbuldakı səfirlərindən yaradılan komissiya digər ölkələrin səfirlərinə də qiyam təşkilatını yaratmaq haqqında təklif etdi. 10 iyunda Avstriya-Macarıstan Osmanlı imperatorluğunun toxunulmazlığı qalmaq şərti ilə "Erməni məsələsi" haqqında görüşlər təklif etdi. Eyni gün Rusiya xarici işlər naziri İstanbuldakı səfirə göndərdiyi teleqramda "Rus siyasətinin Osmanlı hökumətinə başa salınmasını və bu siyasəti anlayıb-anlamaması Osmanlı hökumətinin işi olduğunu" yazırdı. Lakin Almaniya bunlara mane olmaq məqsədi ilə İstanbuldakı səfiri Vangenheymə danışıqlarda iştirak etmək haqqında təlimat verməklə yanaşı, onlara şübhə ilə yanaşırdı. Berlin və Vyana Türkiyənin nümayəndəsinin bu danışıqlarda iştirak etməsini istəsələr də, Rusiya bu təklifin qarşısını hər vəchlə alırdı. Nəticədə Rusiya səfirliyinin baş tərcüməçisi Andrey Mandelştam tərəfindən Osmanlı hökumətinin devrilməsi planının layihəsi hazırlandı. Bu layihə 1895-ci ildə ingilis, fransız və rus səfirlərinin verdikləri notalara, 1895-ci il 20 oktyabr tarixində Sultanın iradəsinə və 1880-ci il Avropa Komissiyasının yazdığı qanun layihəsinə əsaslanaraq yazılmışdı. «Mandelştam layihəsi» Avropa dövlətləri üçün danışıqlar zamanı prinsip sənədi olaraq qəbul edilmişdir. Layihəsinə qısa məzmunu "Osmanlı hökumətinə tabe olmayacaq valinin rəhbərliyi altında Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput, və Sivas bölgələrində Ermənistan əyaləti yaradılacaq" ifadəsi ilə bildirilirdi. Səfirlər layihə haqqında danışıqlar aparmaq məqsədi ilə İstanbulda görüşdülər. Rus səfiri Osmanlı nümayəndəsinin danışıqlarda iştirak etməsinə qarşı çıxmış, lakin Almaniya və Avstriya-Macarıstan Türkiyənin fikirlərini də nəzərə almaq üçün onun nümayəndəsinin iştirakını təkid etmişdilər. Komissiyanın toplantılarında Almaniya nümayəndəsi «Erməni əyaləti»nin yaradılması təklifini verərək onun sərhədlərini də göstərmişdir. Rusiya adından çıxış edən Mandelştam «Ermənistan»ın bir nəfər tərəfindən idarə edilməsinin çətin olacağını iddia edirdi. Avstriya-Macarıstan nümayəndəsi Osmanlıya tabe olmayacaq valinin təyin edilməsi ilə sultanın hökmranlığına kölgə salacağına işarə etmiş, Almaniya nümayəndəsi isə demişdir: "Təklif edilən ərazilərdə «Ermənistan»ın yaradılması və buranın bir nəfər tərəfindən idarə edilməsi sanki Fransanın bir əyalət tərəfindən idarə edilməsinə bənzəyəcəkdir" [95, s.82].

Alman nümayəndəsi «Mandelştam layihəsi»ni bəyənərək «Ermənistan»ı Osmanlı imperatorluğundan ayırmaq təklifini alqışlayırdı. Layihənin tərtibçisi Osmanlı hökumətindən asılı olmayan «Ermənistan»ın vali tərəfindən idarə edilməsini təkid edirdi. İngiltərə nümayəndəsi də bu layihəni dəstəklədiyindən

Mandelştam Avropa dövlətlərinin nəzarəti altında olmasına baxmayaraq, Osmanlı dövlətinin heç nə itirməyəcəyini sübut etməyə çalışır və deyirdi: «Avropa Türkiyəni xarici dövlətlərin nəzarəti altına almağa çalışır. Lakin buna baxmayaraq, dövlət hökmranlığını itirməyəcək» [95, s.82]. Mandelştam rus oyunlarına qarşı Osmanlı hökumətinin görəcəyi tədbirlərin qarşısını almaq üçün yaradılacaq erməni əyalətinə başqa bölgədən əsgərlərin göndərilməməsi və burada müsəlman köçkünlərinin məskunlaşdırılmaması üçün çalışırdı. Onun Rusiya adından irəli sürdüyü inadlı təklifləri Türkiyənin heysiyyatı ilə oynadığını göstərirdi. Osmanlı dövlətinin rəhbərliyi Məclisdəki erməni deputatları ilə görüşərək problemi həqiqətən həll etməyə çalışsa da, buna nail olmamış, parlamentdəki erməni millət vəkillərinin sayının 15-dən 20-yə artırmağa hazır olduğu bildirilsə də, ermənilər Rusiyadan ayrılmaq istəməmişdilər.

Komissiya yığıncaqlarının müvəffəqiyyətsiz nəticələnməsindən bir neçə həftə sonra Rusiya xarici işlər naziri məsələni Avropa hökumətləri ilə yenidən həll etməyə cəhd göstərdi. Nazir Berlinə məsələnin layihədə göstərildiyi şəkildə həll olunacağını bildirmiş, Almaniyanın xarici işlər naziri Zimmerman cavab olaraq bildirmişdir: «Türkiyənin bölünməyə başlanması çox təhlükəli olacaqdır" [95, s.83]. Uzun müzakirələrdən sonra nazir İstanbuldakı səfirinə təlimatlar vermiş və alman və rus səfirlərinin səlahiyyətli nümayəndələri bu mövzu ətrafında müzakirələrə başlamışlar. Bununla yanaşı, Almaniya XİN-nin 1913-cü il 10 sentyabrında "Erməni məsələsi" ilə əlaqədar verdiyi notada deyilirdi: "Alman hökuməti Türkiyəni qəlbən arzulamadığı bir qərara boyun əyməsinin nə uyğun, nə də mümkün olduğuna inanır" [95, s.83]. Alman hökuməti komissiyanın işinin yenidən başlanmasını istəyirdi. 23 sentyabrda rus və alman səfirləri yaradılacaq bir erməni əyaləti yerinə 2 idarəçilik bölgəsi yaradılması razılığına gəldilər. Rus-alman razılaşmasına görə Osmanlı hökuməti 6 vilayətə təyin olunan məmur və hakimləri dövlətin məmurları kimi qəbul edəcək, onlar on il ərzində dövlət büdcəsindən maliyyələşdiriləcəklər. Yeni 2 bölgənin seçkili qurumlarında isə razılaşmaya görə müsəlman və xristian üzvləri eyni sayda olmalı və vəzifələr də proporsional şəkildə bölüşdürülməlidir.

1913-cü il iyunun 30-da Avropa dövlətlərinin səfirləri Yeşilköydə (San-Stefano, Ayastefanos) Avstriya səfirinin iqamətgahında toplaşdılar. Yığıncaqda rus-ingilis-fransız ekspertlərinin hazırladığı bir layihə təqdim olundu. Ona əsasən, Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput və Sivas vilayətləri bir vilayət halında birləşəcək və əhalisi təkcə ermənilərdən olacaq; bu «Erməni vilayəti»nin baş valisi Avropa dövlətlərinin təklifi ilə sultan tərəfindən osmanlı xristianlarından və ya avropalılardan təyin ediləcək; baş vali vilayətin icra başçısı olub bütün hakimiyyəti öz əlində cəmləşdirəcək, onun tabeçiliyində olan polis və jandarm hissələrinin zabitləri avropalılardan ibarət olacaq; onun rəhbərliyi altında olan məclisin üzvləri - müxtəlif idarə rəhbərləri, müxtəlif millətlərin dini rəhbərləri, idarə rəhbərlərinin texniki müavinləri, 3 müsəlman və 3 də xristian olmaqla Vilayət Məclisi üzvləri

tərəfindən seçilmiş 6 müşavirdən ibarət olacaq; Vilayət Məclisi bərabər sayda müsəlman və xristian üzvlərdən ibarət olacaq, onların sayı əhalinin sayına uyğun nisbətdə müəyyənləşdiriləcək; hər ərazi mərkəzində baş vali tərəfindən təyin olunmuş hakim olacaq, o da çoxluğun dinindən olmalıdır; müxtəlif seçkilərdə seçmək və seçilmək hüququ yalnız yerli əhaliyə məxsusdur (köçərilər bundan məhrumdurlar); ermənilərin əllərindən alınmış torpaqların qaytarılması üçün baş vali komissiya təşkil edəcək; 1863-cü ildə ermənilərə verilmiş hüquqlar qüvvədən düşməyəcək; yuxarıdakı əsaslara uyğun olaraq vilayət xaricində qalan və bilavasitə Kilikiyada yaşayan ermənilərin vəziyyətini düzəltmək üçün tədbirlər görüləcək (Əlavə XVI). Göründüyü kimi, layihə Osmanlı dövlətinin daxili işlərinə qarışmaqdan başqa bir şey deyil.

Almaniyanın səfiri hökumətə göndərdiyi teleqramda yazırdı ki, yığıncaq Rusiyanın təhriki ilə həyata keçirilir və A.Mandelştamın layihəsində (layihəyə əsasən, 6 vilayət sultan tərəfindən təyin ediləcək və ya avropalılar tərəfindən seçilən baş valinin nəzarətində bir əyalət halında birləşdirilməlidir; əyalət idari və hərbi tərəfdən Osmanlı hökumətindən ayrılacaq; məmurlar və hakimlər baş vali tərəfindən seçilib təyin ediləcək; hərbi birləşmələr yalnız ermənilərdən təşkil ediləcək; («layihənin həyata keçməsi ilə «Anadolunun yarısından çoxunun sultanın zəif nəzarəti altında qalması ilə «Ermənistan»ın yaranması reallaşacaq» fikri səslənmişdir ki, bu da Almaniyanın mənafelərinə ziddir (Əlavə XVII).

Osmanlı hökuməti vilayətlərin idarə edilməsi layihəsini hazırlayaraq iyulun 1-də bütün səfirliklərə onun həyata keçirilməsi haqqında məlumat verdi. Belə bir halda iki layihə ortaya çıxdı. Bu layihələr səfirlərin yaratdığı komissiyada 3-24 iyul tarixlərində 8 yığıncaqda müzakirə edildi və heç bir nəticə əldə edilmədi. Almaniya, Avstriya və İtaliya bu yığıncaqlarda Türkiyəni dəstəkləyir, İngiltərənin də onlara meyilli olduğu gözə çarpırdı.

1914-cü ilin 13 yanvarında Rusiyanın İstanbuldakı səfiri XİN-ə göndərdiyi teleqramda yazırdı: "Əgər biz əldə etdiklərimizə nisbətən daha çox uğurlar qazanmağa çalışsaq, o zaman böyük dövlətlər bizə qarşı çıxa bilərlər. Əldə edilən nəticələrlə kifayətlənməyin məqsədəuyğun olduğunu hesab edirəm. Nəticələr əsas ölkələrlə əlaqəli olaraq qazanılıb" [95, s.85].

Türkiyə Diyarbəkir, Xarput və Sivas üçün nisbət təmsil sistemini təklif edirdi. Rusiya buna razılığını bildirməklə yanaşı, ermənilərin azlıq təşkil etdikləri yerlərdə təmsil bərabərliyini saxlamağa və "Erməni vilayətləri"ndə köçkünlərin məskunlaşdırılmamasına səy göstərirdi. Bütün bu danışıqların nəticəsini həyata keçirmək və sənədləşdirmək məqsədi ilə ikitərəfli müqavilənin imzalanması tələbi ortaya atıldı. 1914-cü ilin fevralın 7-də Rusiya XİN-i ikitərəfli müqavilənin imzalanması haqqında səfirliyə təlimat verdi. Belə bir vəziyyətdə Rusiya təklif etdiyi öz layihəsini həyata keçirə bilmək üçün Almaniya ilə razılaşdırılmasının zəruri olduğunu qəbul etdi. Alman səfiri Vangenheym ilə Rusiya səfiri Girs danışıqlara başladı və yeni bir layihə üzərində razılığa gəldilər. Digər dövlətlərin

etiraz etmədiyi mətn ruslar tərəfindən Osmanlı dövlətinə təqdim edildi. 1913-cü ilin sentyabrından 1914-cü ilin fevral ayına qədər Rusiya səfirliyi ilə Osmanlı hökuməti arasında bu mövzu ətrafında danışıqlar aparılıb müxtəlif təkliflər irəli sürülürdü. Rusiya təşəbbüsü öz əlinə almağa başladı və digər dövlətlərə gedən müzakirələr haqqında vaxtaşırı məlumat verirdi. Osmanlı hökuməti digər dövlətlərdən dəstək istədikcə onlar mövzunu bacardıqca tez bağlamağı məsləhət görürdülər. Nəhayət, danışıqlar bitdi və 8 fevral 1914-cü ildə Osmanlı hökuməti ilə Rusiya arasında razılaşma imzalandı (Əlavə XVIII). Ona əsasən, 2 xarici baş müfəttiş Şərqi Anadolunun iki hissəsinə rəhbərlik edəcək (Ərzurum, Trabzon, Sivas və Van, Bitlis, Xarput, Diyarbəkir), bütün səlahiyyətlər (işə təyin etməkdən başlamış qoşunlara rəhbərliyə qədər) onlara veriləcək, hətta valilər belə onların işlərini əngəlləyə bilməzdi: torpaq məsələləri ilə bağlı olan bütün işlər baş müfəttişlik tərəfindən həll ediləcək; Osmanlı hökuməti dini məktəblərə edəcəkləri humanitar yardımlara heç bir yolla mane olmayacaq; bölgələrdə təşkil olunmuş alaylar ehtiyat süvari kimi saxlanılacaq; Vilayət Məclisinin səlahiyyəti 26 mart 1913-cü ildə təsdiq edilmiş qanunların prinsiplərinə görə müəyyən edilmişdir; 1 ili keçməmək şərti ilə baş müfəttişlərin müşahidəçiliyi altında dinlərin və millətlərin say nisbəti müəyyən ediləcək; əhalinin siyahıyaalınması keçiriləna qədər müsəlmanların sayı son seçkilərdə olan nisbətdə, müsəlman olmayanların sayı isə cədvəllərə görə müəyyən ediləcək... [...]. Müqavilə Rusiya ilə imzalandığından onun işlərini müşahidə etmək vəzifəsi təkcə Rusiyanın üzərinə düşürdü. Yəni Qərb dövlətlərinin 5 ölkəsi şərq əyalətləri üzərində Rusiyaya tamamilə sərbəstlik verirdi.

Osmanlı hökuməti bu cür müqavilənin imzalanması haqqında xalqa məlumat verməyə özündə cəsarət tapmırdı. Lakin 1914-cü ilin 11 fevralında "Tanin" qəzeti bu haqda məlumat verdi: "...şərq vilayətlərində tətbiq olunacaq islahat haqqında aparılan müzakirələr nəticələnmiş və islahat əsasları prinsipinə uyğun sənəd imzalanmışdır. Bununla əlaqədar hökumət yaxınlarda mətbuat vasitəsi ilə xəbər verəcəyinə qərar vermişdir. Jurnalistlərimizdən bəziləri bu mövzuda müqavilənin hazırlanaraq imzalanacağı haqqında yazmışdılarsa da, bunun əsası yox idi. Yalnız əsasları hökumət özü dərc etdirməlidir" [22, 11 fevral 1914 il].

Müqavilə imzalandıqdan sonra onun reallaşdırılması üçün müfəttişlərin seçilməsinə başlanıldı. Van, Bitlis, Xarput bölgəsi üçün Norveç ordusundan mayor Hoff, Trabzon, Ərzurum və Sivas bölgələri üçün hollandiyalı Vestenek seçildi. Osmanlı hökuməti 1914-cü ilin mayın 25-də onlarla müqavilə imzaladı.

Rus protektoratlığı altında Türkiyə ermənilərinə muxtariyyət verilməsi haqqında danışıqlar digər yerlərdə də aparılırdı. «Daşnaksutyun»nun nümayəndələri "Erməni məsələsi" ilə əlaqədar məsələləri Petroqradda həll etməyə çalışırdılar. Belə ki, partiyanın nümayəndələrinin XİN-də apardıqları danışıqlar nəticəsində aşağıdakı təkliflərə razılıq verilmişdir: Türkiyə imperiyası torpaqlarında muxtariyyət şəklində idarə olunacaq «Ermənistan»ın yaradılması;

Dövlət bayrağını mühafizə edərək böyük dövlətlər tərəfindən təyin edilmiş sultan general-qubernator tərəfindən idarə ediləcək Türkiyənin mövcudluğu; Türkiyə «Ermənistan»ın daxili işlərinə qarışmayacaq və orada öz ordusunu saxlamaq hüququna malik olmayacaq; «Ermənistan» üzərində Rusiya, İngiltərə, Fransanın protektoratlığı; «Ermənistan» ərazisi özündə 6 erməni vilayətlərini, həmçinin Mərsin limanı olmaqla Aralıq dənizi sahillərini birləşdirməli idi [100, s.142]. Beləliklə, "Erməni məsələsi"ndə Türkiyə ərazisində «Ermənistan» muxtariyyətinin yaradılması razılığını əldə edərək bu pərdə altında Türkiyə torpaqlarının bir qismini işğal altına almağı əhatə edən Lobanov-Rostovski planı "ermənilərsiz «Ermənistan» yaradılması"nı nəzərdə tuturdu. Çar hökuməti «Türkiyə Ermənistanı»nın muxtariyyəti üzərində öz protektoratlığını yaratmaq niyyətində idi. Bu cür siyasət müttəfiq dövlətlərin, ilk növbədə Kilikiyada maraqları olan Fransa dövlətinin siyasətlərinə qarşı yeridilirdi. Buna görə də çar diplomatiyası manevrlər edirdi.

I Dünya müharibəsi ərəfəsində bölgəni öz nəzarəti altında saxlamağa çalışan Almaniya bu ərazilərin Avropa dövlətləri arasında bölüşdürülməsinə mənfi baxırdı. Almaniyanın xarici işlər naziri Yaqov İstanbuldakı səfiri Vangenheymə 1913-cü il iyulun 28-də təlimat göndərmişdi: "Biz öz mövqelərimizi bu bölgədə möhkəmləndirməyincə və Osmanlının parçalanmasına hazır olmadığımız vaxta qədər Türkiyə heç bir vəchlə bölünməməlidir" [151, s.95]. Almaniya Türkiyə üzərindəki nəzarəti bütünlüklə ələ keçirmək niyyətində idi. O, Türkiyədən Yaxın və Orta Şərqə, Fars körfəzinə keçmək üçün tramplin kimi istifadə etmək istəyirdi. 1903-cü ildən çəkilməyə başlanan Berlin-Bağdad dəmiryolu xəttinə böyük əhəmiyyət verilir və bütün çətinliklərə baxmayaraq, müharibə illərində də bu tikinti davam etdirilirdi. Almaniya məhz bu yolun vasitəsilə Şərqi Anadolunu «Hindistan»a çevirmək niyyətində idi. Bu yol Almaniyaya digər dövlətlərlə rəqabət aparmağa böyük imkanlar açırdı. Yaxın Şərqin təbii sərvətlərinə bu yol vasitəsi ilə hakim olacağına düşünən Almaniya İsgəndərun şəhərinin və limanının öz maraqları əhatəsində olduğunu bəyan etdi. "Mışak" qəzeti yazırdı: "Artıq bütün Kilikiya («Kiçik Ermənistan») Almaniyanın nəzarəti altındadır" [16 yanvar 1914-ci il, №14].

Almaniya hökuməti Yaxın Şərq məsələsində erməni probleminə xüsusi əhəmiyyət verirdi. Almaniya-Türkiyə əlaqələrinin inkişaf etdirilməsi üçün yaradılmış komitənin sədri Fon der Qolts 1913-cü ilin fevral ayında Osmanlı hökumətinə müraciət edərək demişdir: "Türkiyəni yeni bəlalardan xilas etmək üçün Rusiyaya yaxın sərhəddə yaşayan yarım milyonluq erməni əhalisini cənuba-Mesopotamiyaya tərəf köçürmək lazımdır, onların yerinə isə ərəblər gətirilməlidir" [151, s.102]. Almanlar ümid edirdlər ki, dəmiryolunun keçdiyi ərazilərdə abadlıq olacaq və yükdaşıma qabiliyyəti artacaq. 1913-cü ildə V.Berar yazırdı: "Almaniya hökuməti «Erməni məsələsi»ni öz siyasi məsələlərinə daxil etməyə başladı. Bununla da Almaniya təkcə Rusiyaya qarşı getdiyini deyil, eyni zamanda,

Anadoluda öz mənfəətləri olduğunu göstərdi. Bu mənfəətlərin reallaşmasının ermənilərdən asılı olduğu məlumdur" [18, 9 may 1913 il №: 100]. «Qərbi Ermənistan»da almanların mövqeyinin qüvvətlənməsini görən Klemanso yazırdı: "Almaniya sistematik olaraq «Ermənistan»ı siyasi (islahatlar), iqtisadi (dəmiryolu), və təhsil sahəsində ələ keçirməyə çalışır" [18, 27 iyun 1913-cü il, №: 165].

Alman diplomatları Türkiyə hökumətini inandırmağa çalışırdılar ki, ermənilər yaşayan ərazilərdə islahatlar aparılarsa, rusların bu ərazilərə olan təzyiqinin qarşısını almaq olar. Almaniya ermənilərin simpatiyalarını qazanmaq üçün müxtəlif vasitələrə əl atırdı. "Mışak" qəzeti yazırdı: "Almaniya Rusiyanın ermənilər üçün islahatlar keçirilməsinə bütün vasitələrlə mane olmağa çalışırdı və təklif edirdi ki, ermənilərin yaşadıqları ərazilər iki sektora bölünsün. Əgər almanlar bu ərazilərdə islahatların keçirilməsinə razılıq verərlərsə, yalnız bu halda ermənilərin simpatiyalarını qazanaraq onları öz tərəflərinə çəkmək məqsədlərini güdəcəklər" [16, 26 yanvar 1914 il, №: 18]. «Erməni məsələsi» adlı məqaləsini çap etdırən "Der Kristlixe orient" jurnalı hökumətin rəyini ifadə edərək yazırdı: «Almaniya yeganə dövlətdir ki, Osmanlı dövlətinin dağılması ilə həll edilən «Erməni məsələsi»ndə heç bir şey qazanmır, əksinə itirir. Ermənilər Almaniyada böyük simpatiya sahibidirlər və heç bir dövlət ermənilərin əzablarını yüngülləşdirmək üçün Almaniya qədər köməklik göstərməmişdir. Əgər ermənilər Türkiyə ilə barışmaq niyyətində olarlarsa, o zaman Almaniya bu işdə vasitəçi ola bilər" [18, 28 iyun 1913 il, №: 141].

1914-cü ilin yazında Berlində Almaniyanın xarici işlər naziri Yaqov və onun müavini Zimmerman tərəfindən «Alman-erməni cəmiyyəti» və onun orqanı olan "Mesrop" jurnalı təsis edildi. Bu cəmiyyətin məqsədi erməniləri rusların təsirindən qopararaq Almaniyaya yaxınlaşdırmaq idi. Almaniyanın 110 dövlət xadimi bu cəmiyyətin üzvü idi, erməni tərəfdən «Daşnaksutyun» partiyasının üzvləri və erməni ziyalıları var idi [16, 13 iyul 1914 il, №: 152].

Berlinə gələn P.Nubar paşa Zimmermanla görüşərək «Erməni məsələsi»nin həll edilməsində Almaniyanın köməklik göstərməsini xahiş etdi. Erməni nümayəndə heyətinin gəliş məqsədini göstərən "Ayrenik" jurnalı yazırdı: "Bizim məqsədimiz aydın idi; «Erməni məsələsi»nin həlli, eləcə də Almaniya hökumətinin və alman ictimai rəyinin, xüsusilə də alman hökumətinə təsir göstərə bilən qüvvələrin dəstəyini qazanmaq" [3, 1959 il, Boston, №: 5, s.20]. Ərzurumdakı alman konsulu Anders Berlindən aldığı təlimnamələrə uyğun olaraq «Daşnaksutyun»nun yerli rəhbərləri ilə görüşərək burada "Alman-erməni cəmiyyəti"nin şöbəsini yaratmaq və alman təsirinin artırılması işinə yardım etmək təklifini irəli sürürdü.

Alman hökumətinin ermənilərlə yaxınlaşmasını diqqətlə izləyən Rusiya hökuməti narahatlıq hissləri keçirirdi. Sazonov 1914-cü il iyunun 1-də deyirdi: "Alman-erməni cəmiyyəti»nin yaradılması haqqında səs-küy qaldıran alman qəzetləri erməni-rus münasibətlərinə mənfi təsir göstərə bilər. Ermənilər vaxtında

dayana bilməsələr, çox böyük siyasi səhv edə bilər və bununla da bizdə böyük şübhələrin yaranmasına əsas vermiş olarlar. Almanların bu ərazilərdə təsirinin artması xoşagəlməz nəticələrlə yekunlaşa bilər"[125, s.151]. 1914-cü ilin iyulunda erməni nümayəndə heyəti ilə görüşündə o, demişdir: "Erməniləri müdafiə etmək bizim bırinci dərəcəli məqsədimizdir. Ancaq biz bunu sizin ala gözlərinizə görə deyil, bizim bu bölgədə siyasi məqsədlərimiz olduğu üçün edirik" [125, s.151].

1914-cü ildə Almaniyanın «Ermənistan»da həyata keçirməli olan planları haqqında çıxış edən geosiyasətçi Paul Rorbax öz mövqelərini və düşüncələrini bildirərək qeyd edirdi ki, Türkiyənin iqtisadi və siyasi həyatında ermənilərin rolu məqbuledicidir və Almaniya dövlətinə məsləhət verirdi ki, ermənilərin yaşadıqları ərazilərdə ciddi islahatlar keçirilməsinə mane olsun və nəticədə ermənilər bu ərazilərdən köçməyə məcbur edilsin. Boş qalmış ərazilərə kürdlər və osmanlılar yerləşdirilsin. Rorbaxın fikrincə, bu addım qısa müddət ərzində Şərqi Anadolunu bütünlüklə türkləşdirə bilər. O, hesab edirdi ki, Mesopotamiyada başlanan bütün dəmiryol tikintiləri müvəffəqiyyətsizliyə uğrayacaq, çünki tikilən bu dəmiryolunun ətrafında köçəri tayfalar məskunlaşıb. Nə qədər ki, bu torpaqlarda daimi məskunlaşan əhali yoxdur, ixrac üçün məhsullar hazırlanmır və dəmiryolunu müdafiə etmir, bu dəmiryolunun tikilməsi müvəffəqiyyətsizliyə uğrayacaq. Dəmiryolunun çəkilməsi ilə yanaşı, Almaniya ətraf ərazilərdəki münbit torpaqların (4 milyon hektar) becərilməsi hüququnu əldə etmişdir. Bu torpaqlarda duz, dəmir, daş kömür əldə edilir və kənd təsərrüfatı məhsulları yetişdirilirdi. Bu bölgədə ilk növbədə köçürülmüş ermənilərin məskunlaşmasına əhəmiyyət verilirdi, çünki bu planın həyata keçirilməsi nəticəsində Rusiya ilə sərhəd zonalarda erməni əhalisinin sayının azalması ilə erməni millətinin yekcins olmasının qarşısını alacaqdı. Bütün bunları nəzərə alaraq köçürüləcək ermənilərə elə bir şərait yaratmaq lazımdır ki, onlar Mesopotamiya ərazisinə - dəmiryolu ətrafındakı torpaqlarda məskunlaşsınlar. Bu məqsədlə köçəcək ermənilərə hərtərəfli köməklik göstərmək lazımdır. Ermənilərin Mesopotamiya ərazisinə köçürülməsi təklifini bildirdikdən sonra Rorbax Almaniya hökumətinə öz qənaətlərini təqdim etdi: 1. Almaniya osmanlılardan Rusiyaya qarşı etibarlı bir sipər çəkmiş olacaq; 2. Türkiyəni daim təlaş və təhlükə içində saxlayan «Erməni məsələsi»ni Almaniya birdəfəlik həll edəcək; 3.Almanlar münbit Mesopotamiya torpaqlarında erməniləri yerləşdirməklə Türkiyədəki siyasi və iqtisadi məqsədlərinin həyata keçməsinə çalışacaq [125, s.155]. Rorbaxın planı konfransda iştirak edən hərbçilər tərəfindən bütünlüklə bəyənildi və onlar bu layihənin real və humanist bir plan olduğunu qeyd etdilər.

Təqdim olunan layihə P.Rorbaxın 1915-ci ildə nəşr etdirdiyi "Müharibə və Almaniyanın siyasəti" kitabında öz əksini tapdı. Rorbax yazırdı ki, Almaniya «Erməni məsələsi»nə yalnız antirus mövqeyindən yanaşmalıdır. Rusiyanın «Qərbi Ermənistan» ərazisini işğal etməsi Almaniyanın Yaxın Şərq planlarına qüvvətli zərbə endirər və müttəfiqi Türkiyənin məğlubiyyətinə səbəb olar. Rorbax öz hökumətini Rusiyanın bu planının həyata keçirilməsinə hərtərəfli mane olmağa

çağırırdı. O yazırdı: «Ermənistan»ın Rusiya tərəfindən işğal edilməsi Osmanlı imperatorluğunun sonunun başlanğıc nöqtəsi olacaqdır. Buna görə də Rusiyanın bu planı bizim tərəfimizdən etirazla qarşılanmalıdır. «Ermənistan»ın coğrafi mövqeyi və relyefi o qədər rəngarəngdir ki, onu Rusiyanın xeyrinə itirdikdən sonra Türkiyə istər siyasi, istərsə də hərbi cəhətdən həyatdaqalma mövqelərini itirəcək. «Ermənistan»a sahib olan dövlət Kiçik Asiyanın şərqinə və eyni zamanda, Mesopotamiyaya nəzarət edəcək" [151, s.88].

İngiltərə imperializmi «Ermənistan məsələsi»ndə incə siyasət yeridirdi. O, almanların bölgədəki siyasətinə və Rusiyanın cənuba doğru irəliləməsinə mane olmağa çalışırdı. "Ermənilərin vəziyyəti ingilisləri qətiyyən maraqlandırmırdı. Onları tamam başqa şeylər - bu ərazilərdə ruslara qarşı güclü müqavimət mövqelərinin yaradılması düşündürürdü" [125, s.160]. Yaxın Şərqə sahib olmaq üçün «Ermənistan»ın coğrafi mövqeyinin çox əlverişli olduğunu ingilis siyasətçiləri dəfələrlə isbat etmişdilər. XIX əsrin sonlarında - XX əsrin əvvəllərində İngiltərə Misirdən Hindistana qədər ərazilərə sahib olmaq planını hazırladı. Bu ərazilər "İngiltərə imperiyasının Yaxın Şərq əraziləri" kimi nəzərdə tutulurdu [125, s.160]. İngiltərə bütün imkanlarından istifadə edirdi ki, Türkiyə öz siyasətini Şərqi Anadoluda yeritsin və bununla da Rusiyanın «Erməni məsələsi»nə qarışmasının qarşısını alsın. Rusiyanın «Qərbi Ermənistan» ərazilərində mövqeyinin güclənməsi ingilislərin Hindistandakı hökmranlığına təhlükə ola bilərdi. Türkiyə ingilis müstəmləkələrinin toxunulmazlığı yolunda bir səddə çevrilməli idi. Türkiyənin mövqeyini möhkəmləndirmək üçün İngiltərə 1913-cü ilin may ayında onunla müqavilə imzaladı. Müqaviləyə görə, İngiltərənin Şərqdə mövqelərinin gücləndirilməsi üçün Türkiyə Küveyt şeyxini İngiltərənin vassalına çevirdi. Əvəzində İngiltərə Osmanlı hökuməti qarşısında öhdəlik götürdü ki, «Erməni məsələsi»nin həllinə xarici ölkələrin qarışmasına imkan verməyəcək, ermənilərin sakitləşdirilməsi üçün əlindən gələni əsirgəməyəcək, Osmanlı ordusunun modernləşdirilməsinə 3 milyon funt-sterlinq verəcək və 40 il ərzində osmanlıların Asiya torpaqlarına kimsənin toxunmayacağı haqqında zəmanət verəcəkdir. Bu müqavilə ilə ingilislər Bağdad və Mosul vilayətlərində yeni hüquqlar əldə etdilər [18, 15 may 1915 il, №:115]. 1914-cü ilin martında İngiltərə parlamentində çıxış edən xarici işlər naziri demişdir: "İngiltərənin siyasəti Osmanlı imperiyasının ərazi bütövlüyünün qorunmasına yönəldilib" [16, 27 iyul 1914 il, №:163].

Yaxın Şərqdə, xüsusilə də Türkiyədə güclü siyasi və iqtisadi maraqları olan ölkələrdən biri də Fransa idi. Müharibə ərəfəsində Fransa Türkiyə dəmiryollarının 4500 km uzunluğuna sahib idi. Osmanlı hökumətinin Fransaya olan borcu bütün borcların 60,3%-ni təşkil edirdi. «Erməni məsələsi» gündəliyə çıxanda Fransa hökuməti Osmanlı hökumətinə təzyiqlər göstərərək öz məqsədlərinə çatmaq niyyətində idi. Məhz buna görə Fransa rəsmi dairələri bu məsələni qabardırdılar. 1913-cü il fevralın 24-də Balkan ölkələri ordusu İstanbula təhlükə yaradarkən

Fransa səfiri Bonner Osmanlı hökumətinə tələblər irəli sürdü. Fransa tələb edirdi ki, Türkiyədə mövcud olan fransız məktəblərinin hüquqları türklərin hüququna bərabər olsun, missionerlərin fəaliyyətinin genişləndirilməsinə icazə verilsin, yeni dəmiryollarının salınmasına maneçilik törədilməsin. Fransızlar Samsun-Sivas-Xarput-Diyarbəkir və Diyarbəkir-Ərzurum-Trabzon xətti ilə Şərqi Anadoluya və Yerusəlim-Rayak-Həms-Hələb istiqamətlərində dəmiryol xəttinin çəkilməsini istəyirdilər. 1914-cü il aprelin 14-də Fransa ilə Türkiyə arasında müqavilə imzalandı. Müqaviləyə görə, Fransa Türkiyəyə borc verəcək, əvəzində Türkiyə Fransaya dəmiryollarının salınmasında mane olmayacaq. Samsun-Diyarbəkir-Trabzon dəmiryolunun salınması Fransa hökumətinin «Qərbi Ermənistan» üzərində təsirini artıracaqdı. Ərzurumda Fransa dəmiryol xətti Rusiya xətti ilə, Sivasda isə Almaniya xətti ilə birləşəcəkdi. Təsadüfi deyil ki, Fransanın tələbləri Rusiya tərəfindən dəstəkləndi.

I Dünya müharibəsi ərəfəsində vəziyyət getdikcə gərginləşirdi. Osmanlı imperatorluğu 1 noyabr tarixində müharibəyə girdiyində Baş Müfəttişlik öz işinə başlamamışdı. 1914-cü il 31 dekabr tarixində Osmanlı hökuməti Baş Müfəttişliyin buraxılması haqqında fərman imzaladı. Ermənilərin lehinə olan islahat başlamamış bu şəkildə qapandı.

## 2.2. Qafqaz cəbhəsində erməni silahlı qurumlarının formalaşdırılması

Osmanlı dövlətinin səfərbərlik elan etdiyi vaxtdan Eçmiədzin katolikosu Gevork Vorontsov-Daşkova riyakarlıq və yaltaqlıqla dolu məktub yazaraq erməniləri himayə etməyini xahiş edir və bunun əvəzində ermənilərin ruslarla birlikdə Osmanlı dövlətinə qarşı savaşacaqlarına söz verirdi. Elə bu tarixlərdə Vorontsov-Daşkov Tiflisdəki Erməni Milli Şurası üzvləri ilə birlikdə şəhərin bələdiyyə rəisi Xatisyan ilə görüşərək demişdir: "Əgər Osmanlı dövlətinin 6 şərq vilayəti ermənilərin köməyi ilə ələ keçirilərsə, burada erməni muxtariyyəti tanınacaqdır" [95, s.53].

Böyük dövlətlər arasında Osmanlı imperatorluğuna qarşı qiyamları ən çox Rusiya dəstəkləyirdi. II Nikolayın köməkliyi ilə Qahirədə P.Nubar paşa tərəfindən Ümumerməni Xeyriyyə Birliyi, Loris Melikov tərəfindən İngilis-Erməni Komitəsi (rəhbəri İngiltərə parlamentinin üzvü Vilyams), alman Lepsius tərəfindən isə Erməni Dostluq Komitəsi yaradılmışdır. Yaradılan bu komitələr Rusiyanın siyasətinə xidmət edirdilər. Çar Rusiyası Qafqazda məskunlaşan və Anadoludan Rusiyaya qaçan erməniləri silahlandıraraq könüllü birləşmələr yaratmağa başladı. Eyni zamanda, «Daşnaksutyun» vasitəsilə ermənilərə maddi yardım edirdi. Bununla əlaqədar 1915-ci ilin fevralında Tiflisdə keçirilən Erməni milli konfransında «Daşnaksutyun»un hərbi məsələlər üzrə nümayəndəsi demişdir: «...müharibənin əvvəlində rus hökuməti Türkiyə ermənilərini silahlandırmaq və onları hazırlamaq, müharibənin gedişində ölkə daxilində qiyam etmələri üçün

242.900 rubl pul vermişdi. Könüllü dəstələrimiz türk ordusuna zərbə vuraraq onların nizamını pozacaq və nəticədə qiyamçılarla birləşəcəklər. Arxa cəbhədə və mümkün olduğu qədər dövlətin içində anarxiya yaratmaq və bütün bunlarla Rusiya ordusunun irəliləməsinə və «Ermənistan»ın yaradılmasına nail olmaq lazımdır" [104, s.360]. Qafqazda və Şərqi Anadoluda dövlətə qarşı mübarizə aparacaq "Erməni könüllü birləşmələri" təşkil edilmişdi. Bu birləşmlərə maddi kömək göstərmək və onlara siyasi rəhbərlik etmək məqsədi ilə ABŞ-da "Milli Müdafiə Komissiyası" yaradılmışdır [108, s.93].

Türkiyə ilə müharibə Zaqafqaziya ərazilərinə yaxın yerlərdə aparılacaqdı. Buna görə də müharibə edən dövlətlər Zaqafqaziyadakı vəziyyətdən narahatlıq keçirirdilər. "Köhnə imperialist diplomatiyasının canavarlarının üzərində baş sındırdıqları «Erməni məsələsi» yenidən gündəliyə gəlmişdir" [18a, 1920, 4 dekabr]. İstər Antanta dövlətləri, istərsə də Üçlər İttifaqı gözəl başa düşürdülər ki, həm Zaqafqaziyada, həm də Türkiyədə yaşayan ermənilər vəziyyətdən asılı olaraq onların işlərinə yarayacaqdır. Hər iki tərəf ermənilərə söz verirdi ki, müharibənin sonunda "Böyük Ermənistan" yaradılacaq, bu şərtlə ki, ermənilər onların mənafeyini bu müharibədə ifadə etsinlər.

Rusiyanın İstanbuldakı səfiri Girs 19 avqust 1914-cü ildə Van qiyamının onunla razılaşdırılmadan başlanmaması haqqında göndərdiyi teleqramda da analoji təlimatlar verirdi: "Bu cür qiyamın başlanması mənim fikrimcə, hələlik tezdir" [109, s.153]. Buradan aydın olur ki, rus silahının köməyi ilə öz "azadlıqlarını" əldə etmək istəyən ermənilər sadəcə çarizmin agentləridir. İndi tamamilə aydındır ki, niyə çar hökuməti və onun diplomatları "Daşnaksutyun"nun nümayəndələrinə bu qədər mehriban münasibət göstərir və «Erməni məsələsi»ndə onlarla danışıqlara getmişdilər. Belə ki, bütün ermənilərin katolikosu V Gevork Erməni Milli Bürosu (Qeyd 5) və "Daşnaksutyun"partiyasının qərarlarını nəzərə alaraq Vorontsov-Daşkova 1914-cü ilin avqustunda etdiyi müraciətində deyirdi: "Müharibənin nəticələrinə görə Rusiya «Türkiyə Ermənistanı»na Rusiyanın protektoratı altında muxtariyyət verilməsi haqqında zəmanət verməlidir". Cavab məktubunda general-qubernator yazırdı: "Rusiya ermənilərin tələbini dəstəkləyəcəkdir" [139, s.456]. II Nikolay 1914-cü ilin noyabrında Tiflisdə olarkən katolikos Gevorku qəbul etmiş və onunla 15 dəqiqəlik görüş zamanı bildirmişdi ki, "müharibənin sonunda sülh danışıqları zamanı "Erməni məsələsi» ermənilərin gözlədiyi kimi həll ediləcək" [139, s.456].

"Daşnaksutyun" və "Milli büro" Vorontsov-Daşkovla danışıqlara girərək ermənilərin bu müharibədə hansı formada iştirak edəcəkləri haqqında razılığa gəldilər. İmperiyanın təbəələri olaraq rus ordusunda artıq xidmət edən ermənilərin sayı ilə "Daşnaksutyun" və "Milli büro" kifayətlənmək fikrində deyildi. Onlar orduda xidmət edən ermənilərin sayını artırmaq məqsədi ilə böyük kampaniya keçirdilər. Nəticədə 2 milyon rubl pul toplanaraq Rusiya Qafqaz ordusuna verildi. Bununla yanaşı, "Daşnaksutyun" və digər radikal erməni partiyaları bu ordunun

tibbi xidməti üçün erməniləri cəlb etdilər. «Milli büro» könüllü erməni birləşmələrinin yaradılması haqqında çar hökuməti ilə razılığa gəlir. "Daşnaksutyun"nun xarici əlaqələr şöbəsinin müdiri Zavriyev Tiflisə gələrək, Vorontsov-Daşkovla görüşərək ona çoxmənalı vədlər verir. O, söz verir ki, "Daşnaksutyun" malik olduğu bütün qüvvələrini onun ixtiyarına verəcək, ermənilər öz daxili imkanları hesabına könüllü dəstələr yaratmaq iqtidarındadır. Razılıq demək olar ki, əldə olunmaq ərəfəsində idi. Lakin Vorontsov-Daşkov bu danışıqlara daha geniş xarakter vermək məqsədi ilə Tiflis palatasının rəhbərlərindən yepiskop Mesropu, Samson Arutyunovu və A.Xatisovu dəvət etdi. Bu tərkibdə aparılan danışıqlarda ermənilər təklif etdilər ki, Türkiyə ilə müharibə aparılarsa, ermənilərdən təşkil edilmiş hər biri 400 nəfərdən ibarət 4 könüllü dəstə yaradılsın və bunlara xmbabetlər komandanlıq etsinlər. Bu dəstələrin vəzifəsi kəşfiyyat aparmaq və ön mövqelərin mühafizəsini təşkil etməkdən ibarət idi. «Milli büro» könüllü dəstələrin yaradılması prsosesinə başladı, Türkiyənin şərqini sürətlə keçmək məqsədi ilə könüllülərin sayını 10.000-nə çatdırdı. «Milli büro»nun və «Daşnaksutyun»un bu "uğurları" Vorontsov-Daşkov tərəfindən böyük razılıqla qarşılandı. Ermənilər Zaqafqaziyada könüllü dəstələrin yaradılması ilə kifayətlənməyərək eyni fəaliyyəti Türkiyənin ərazisində də həyata keçirməyə başladılar. 1915-ci ilin əvvəlində zeytunlu ermənilərin nümayəndəsi Mavi Noxudyan, Mikael Yavordyan və Qasparyan Qafqaz ordusunun komandanlığı ilə görüşərək bu cəbhədə türklərə qarşı Kilikiya ermənilərindən təşkil olunmuş 15.000 nəfərlik bir qüvvə çıxaracaqlarına söz verirlər [139,s.121].

Osmanlı imperatorluğunda müsəlman olmayanlar əsgərliyə çağırılmır, bunun əvəzində «bədəl» deyilən bir vergi alınırdı. Ermənilər vergi vermək əvəzinə əsgərliyə getmək üçün bir çox yerlərə müraciət etmiş və nəticədə bu istəklərinə nail olmuşdular. 1908-ci ilin Konstitusiyasına görə əsgərlik yaşına çatmış ermənilər də türklər kimi əsgərliyə çağırılırdı. Müharibə başlayan kimi şərq sərhədləri boyunca ermənilər rus ordusuna keçməyə başladılar. Rusların irəliləyişlərini asanlaşdırmaq məqsədi ilə erməni komitəçiləri təlimata uyğun olaraq Qafqaz erməniləri ilə birlikdə fəaliyyət göstərəcəkləri barədə razılığa gəldilər. Van vilayəti Azərbaycanla ümumi sərhədə malik olduğundan və coğrafi baxımdan Rusiyaya daha yaxın olduğundan Rusiya bu vilayətə çox böyük əhəmiyyət verirdi. Bu vilayətdən Osmanlı ordusuna çağırılmış ermənilər əvvəlcə tək-tək, sonra isə kütləvi şəkildə silahları ilə birlikdə fərarilik etməyə başladılar. Fərarilik edən ermənilər qatı millətçilər Andranik, muşlu Smbat, vanlı Hamazaspın təşkil etdikləri dəstələrə qoşulmağa başladılar. Andranik və muşlu Smbatın komandanlıq etdikləri dəstələr İranın Xoy və Dilmon vilayətlərində rus hərbçilərinin nəzarəti altında təlim keçirdilər. Hələ müharibə başlamamışdan əvvəl bu dəstələrlə osmanlı ordusunun sərhəd mühafizəçiləri arasında silahlı toqquşmalar baş vermişdi.

"Daşnaksutyun" tərəfindən yaradılan «Milli büro»nun tərkibi aşağıdakı heyətdən ibarət idi: Tiflisdə erməni burjuaziyasının rəhbəri və Vorontsov-

Daşkovun həyat yoldaşının ən yaxın dostu erməni yepiskopu Mesrop, "Daşnaksutyun"un fəal üzvü, 1918-1920-ci illərdə «Daşnaksutyun» hökumətinin başçısı olmuş A.Xatisov, "Daşnaksutyun"un xarici əlaqələr şöbəsinin müdiri Zavriyev, Samson Arutyunov, öz qanlı cinayətləri ilə tanınan xmbabet Dro (xmbabet - daşnakların könüllü döyüşçülərinin rəhbəri), "Daşnaksutyun"un hərbi rəhbəri Andranik. «Milli büro» bütün işləri əllərinə aldıqdan sonra ilk növbədə bütün ermənilərin katolikosu V. Qevorka müraciət edərək Rusiya çarı II Nikolaya "ermənilərin onun ən sadiq təbəələri" olduğunu bildirməsi və onları Türkiyənin əsarətindən xilas edilməsində və oradakı qardaşlarının iztirablarına son qoyulmasında köməklik göstərməsi xahişi ilə müraciət etməsini istədilər. Müraciətdə deyilirdi: "Doğma vətənimizin üzərinə düşən bu ağır sınaqların müvəffəqiyyətlə başa çatmasında qüdrətli rus silahının zəfərinə inanırıq. Qoy rus bayrağı Bosfor və Dardaneldə dalğalansın. Böyük hökmdar, qoy Sizin iradənizlə Türkiyənin zülmü altında inləyən xalqlar azadlığa qovuşsunlar" [95, s.143]. "Daşnaksutyun"nun qəzeti olan "Ayrenik" yazırdı: "Çarın Qafqazdakı köməkçisi Böyük knyaz Nikolay Nikolayeviç dünən Tiflisə gəlmişdir. Biz dərindən əminik ki, Böyük knyaz Türkiyənin hökmranlığına birdəfəlik son qoyacaqdır!" [3, 24 sentyabr 1915-ci il, №: 2].

«Daşnaksutyun» 1914-cü ilin iyununda Ərzurumda konfrans keçirdi. Ərzurum daşnakların rahatlıqla toplaşaraq bütün mövzular ətrafında açıq danışa biləcəyi yer halına gəlmişdi. Konfrans aşağıdakı qərarlar qəbul edilmişdir: «İttihad və Tərəqqi hökumətinin («Gənc türklər») xristianlara və xüsusilə ermənilərə qarşı istər iqtisadi, istər sosial və istərsə də təşkilati baxımdan yeridilən zidd siyasəti, islahatların reallaşdırılması üçün göstərdiyi aldadıcı hərəkətləri nəzərə alan «Daşnaksutyun» partiyasının konfransı qərara alır: İttihad və Tərəqqi hökumətinə qarşı müxalifətə keçsin; bu partiyanın siyasi proqramı yenidən süzgəcdən keçirilsin; hökumətə və partiyaya qarşı şiddətli mübarizəyə başlansın» [165, s.581].

Bu qərarlara münasibətini bildirən Kaçaznuni yazırdı: "1914-cü ilin payızından başlayaraq Osmanlı hökuməti müharibəyə hazırlaşarkən erməni könüllü birləşmələri formalaşmağa başladı. «Daşnaksutyun»un Ərzurum konfransının qərarlarına uyğun olaraq bu birləşmələrin təşkilatlanmasına, silahla təchiz olunmasına və Osmanlı əleyhinə çıxış etməsinə köməkçi oldu...1914-cü ilin payızında erməni könüllü birləşmələri yaradıldı və türklərə qarşı döyüşdülər. Başqa cür ola da bilməzdi. Çünki yarım əsrdir ki, erməni xalqı təyin edilmiş psixologiya ilə tərbiyə edilmişdir" [116, s.196].

Ərzurumda «Daşnak» konfransı ilə əlaqədar millət vəkili Papazyan ilə Varamyan Ərzuruma gəldilər. Burada rusların Türkiyədən zəbt edəcəkləri əraziləri ermənilərə verərək müstəqilliklərini təmin etmələri haqqında ruslarla imzalanacaq müqavilənin maddələri razılaşdırıldı. Konfransda rus-erməni müqaviləsi təsdiqləndi və aşağıdakı maddələr qəbul edildi: 1. Müharibə elan edilənə qədər gözləmə mövqeyi tutaraq dövlətə tabe olmalı, lakin bu müddət ərzində Rusiyadan

gələn və daxildən tədarük edilən silahlarla silahlanaraq hazır vəziyyətdə olmalı; 2. Müharibə elan edildiyi andan türk ordusundakı erməni əsgərləri silahlarla birlikdə rus ordusuna keçməli; 3. Türk ordusu irəlilədiyi halda sükutu qorumalı; 4. Türk ordusu geri çəkildiyi və ya irəliləmədiyi halda erməni silahlı dəstələri dərhal əllərindəki təlimatlara uyğun olaraq ordunun arxasında diversiya fəaliyyətinə başlamalıdırlar. Konfransdan sonra Varamyan Ərzurum valisinə "Osmanlı hökuməti Rusiyaya müharibə elan edərsə və ya Osmanlı ordusu Qafqaza hücum edərsə oradakı ermənilərin türklərlə əməkdaşlıq edə bilmələri üçün Osmanlı hökuməti «Ermənistan dövləti»nin yaranması ilə əlaqədar etibarlı təminat verməli və bunun yerinə yetirilməsini təmin etməlidir" kimi təklif vermişdir (Əlavə XIX). Onun bu təklifi iki səbəbə əsaslanırdı: 1. Osmanlı hökuməti qalib gəldiyi halda millət vəkilliyinə yenidən davam etmək; 2. Osmanlı hökumətini aldadan erməni gizli təşkilatını təqiblərdən qorumaq. Konfransdan sonra daşnak rəhbərlərindən bir neçəsi ilə Muşa bağlı Hankeli monastrına gedib ətrafdakı erməniləri dəvət edərək qərarlarını bəyan etdilər. Papazyan Muş və ətraf ərazilərə rəhbərlik etmək üçün Muşda qaldı, Varamyan silahdaşları ilə birlikdə Vana getdi [23, c.I, s.97-98] (Əlavə XX).

Osmanlı hökuməti səfərbərlik elan etdikdən sonra Eçmiədzin katolikosu 5 avqust 1914-cü ildə Voronsov-Daşkova göndərdiyi məktubda yazırdı: "İstanbul Patriarxlığı və Erməni Məclisindən aldığım məlumata əsaslanaraq qəti əminliklə deyə bilərəm ki, bu gün Türkiyəyə rəhbərlik edən hökumət tərəfindən ermənilərin vəziyyətlərinin düzəlməsi ilə əlaqədar islahatların keçirilməsi uzunömürlü olmayacaqdır... Sizdən imperator həzrətlərinə istərsə mənim, istərsə də Rusiyada yaşayan ermənilərin adından sədaqət duyğularımı bildirməyinizi və eyni zamanda çarın yanında Türkiyə ermənilərinin maraqlarını müdafiə etməyinizi rica edirik" [165, s.583]. Bu məktubdan İstanbul Patriarxlığının Eçmiədzin katolikosu ilə birlikdə Türkiyə erməniləri adından sərbəst danışa bildiyi açıqca görünür. Sentyabrın 2-də Vorontsov-Daşkovun göndərdiyi cavabda deyilirdi: "İstər bizim ermənilərin və istərsə də sərhədin o tərəfində yaşayan ermənilərin bir cərgədə birləşərək mənim təlimatıma uyğun hərəkət etmələrini istəyirəm. Səlahiyyətlərinizdən istifadə edərək xalqınıza bildirin ki, Türkiyənin bugünkü vəziyyətində olduğu kimi, gələcəkdə də rus - türk müharibəsi baş verərsə, nə etmək lazım olduğunu, hansı işləri icra edəcəklərini və bunların reallaşdırılması haqqında təlimatlarımı bildirəcəm» [165, s.585]. Cavab daha çox təlimata bənzəyir və burada müharibə baş verərsə, Osmanlı ermənilərinin hansı təlimat alacaqlarını açıqca göstərilir.

1914-cü ilin avqustunda Fransa erməniləri Marseldə toplanaraq Rusiya ordusunda olan "Qafqazlı qardaşlarımıza, simpatiya bəslədiyimiz Balkan ölkələrinə qarşı vuruşmamaq» haqqında bəyannamə qəbul etdilər [116, s.198] (Əlavə XXI). Müharibə başlayınca ermənilərin ruslarla əməkdaşlığı mənbələrdə öz əksini tapmaqdadır. Fransanın İstanbuldakı səfiri Rafael de Noqales yazırdı ki,

"Müharibə başlayan kimi Məclisdəki Ərzurum nümayəndəsi Qaro Basdırmaçıyan 3-cü ordudakı bütün erməni zabit və əsgərləri ilə birlikdə Rusiya tərəfə keçdi, ... kəndləri dağıtdı, müsəlman əhalisini insafsız şəkildə qılıncdan keçirtdi... Bu qanlı qətllərə cavab olaraq Osmanlı rəhbərliyi hələ qaça bilməyən erməni mənşəli hərbçilərin silahlarını alaraq onları yol inşaatında və yüklərin daşınmasında istifadə etməyə başladı. Erməni fərariləri Başqala, Saray və Bəyazid bölgələrində qətllər törətdi... Türklər ermənilərin Ərzurum və Vanda da eyni qətlləri törədə biləcək ehtimallarını irəli sürdülər...bu həqiqətən də baş verdi. Van vilayətindəki ermənilər kütləvi halda üsyan etdilər" [145, s.45].

Tarixçi M.Filip Pris yazırdı: "Müharibə başlayınca bu bölgədəki ermənilər (şərq vilayətləri) Qafqazdakı rus hökuməti ilə gizlincə əlaqə yaratdı və qeyri-leqal şəraitdə bu türk vilayətlərindən rus ordusuna könüllülər göndərilməyə başlandı..." [150, s.91]. Fransız tarixçisi Filip de Zara yazırdı: "Qocaman Avropa sultanın xristian vətəndaşlarına (ermənilərə) öyrədirdi ki, nə qədər çox itaətsizlik göstərib inadkar olursansa, sonunda müstəqil olmasan da, muxtar ola bilərsən. Türklərin fikrincə, bütün dövlətlərin qanunlarına görə müharibə vəziyyətində düşmənin hərəkətlərinə köməklik göstərənlərə necə «xəyanətkar» deməmək olar?.. Daxildə ixtilaf edən komitələr rus ordularının irəliləyişinə kömək edir, türk birləşmələrinin geri çəkilməsinə əngəllər yaradır, təchizat konvoylarını saxlayır, dəstələrin təşkilinə çalışırdılar... Bu şəkildə ermənilər rus zabitlərinin komandanlığı altında bir çox taborlar formalaşdırdılar. Müxtəlif yerlərdə üsyanlar baş verdi. Türkiyə Məclisindəki iki erməni deputatı Rusiyaya qaçdı. Kin və nifrətlə dolu yazılar yayıldı: "Türk anaları ağlasınlar", "Türklərə bir az iztirab verək". Ermənilərin cinayətkarlığına heç bir şübhə yeri qalmır" [175, s.159-160].

Osmanlı hökuməti fərarilik etməyən ermənilərin sədaqətinə şübhə edərək onları inşaat taborlarına almağa başladı. Aprel ayında Lord Bryus və ermənilərin dostları Londonda bu könüllüləri silahlandırmaq üçün maliyyə toplamağa başladı.

Komitələr bütün qüvvələrini rus ordusunun qüclənməsinə yönəltdilər. Rusiyanın hər tərəfindən erməni könüllüləri rus ordusuna, partizan dəstələrinə, «intiqam alayları»na qəbul olmaq üçün Qafqaza gəlirdilər. Tiflisdə bələdiyyə rəisi Artur Xatisyanın rəhbərliyi altında Erməni Milli Bürosu yaradılaraq könüllüləri təşkilatlandırırdı. İyun ayında Rusiya rəhbərləri erməniləri Osmanlıya qarşı başlanılması ehtimal edilən hərəkata hazırlayırdılar. Vorontsov-Daşkov Eçmiədzin katolikosu ilə görüşündə demişdir: "Osmanlı ermənilərının xilası türk hakimiyyətindən ayrılaraq müstəqil bir «Ermənistan» yaratmaq və Böyük Rusiyanın qüdrətli himayəsinə keçməkdən ibarətdir. Hörmətli katolikos, xalqınıza söyləyin, erməni millətini ən parlaq bir gələcək gözləyir" [95, s.75]. Ermənilərin əsgərliyə getmək istəklərinin silahla Rusiya tərəfinə fərarilik etmələri ilə bağlı olması arxivlərdə qorunan sənədlərdən məlum olur (Əlavə LVII).

Ruslar İran və Qafqazdakı ermənilərdən könüllülər toplamağa və onlara silah paylamağa başlamışdı. Könüllülərin ilk qrupu (1000 nəfər silahlı) Balkan

müharibəsində Bolqar ordusu tərkibində ermənilərə komandanlıq edən Andranikə verildi. Andranikin dəstəsi Şimali İranda rus qüvvələri ilə birləşərkən, ermənilərdən təşkil olunan başqa 3 könüllü alayı da Osmanlı sərhədlərinə doğru irəliləməyə başladılar. 2-ci alaya komandanlıq edən Armen Qro və general Dro İğdırı işğal etmək üçün hərəkətə başladı. Bu alaylar sonradan Vanı işğal edəcək qüvvələrin əsasını təşkil edəcəkdilər. Hamazasp və Kerinin komandanlığı altında 3-cü və 4-cü alaylar qərb istiqamətində hərəkət edərək Qarsı işğal etməyə hazırlaşırdılar. Ərzurum valisi Osmanlı ermənilərinin də sılahlanaraq partizan dəstələri yaratdıqları barədə məlumat verirdi [88]. Osmanlı dövləti müharibəyə girməmişdən əvvəl Rusiyanın, bəzən isə İngiltərənin, Fransanın və hətta İtaliyanın konsulları komitələrə xarici əlaqələrində vasitəçilik edirdilər; onların pul, silah və başqa ehtiyaclarının da təmin edilməsində köməklik göstərirdilər. 12 noyabr 1914-cü ildə Qahirədəki ingilis nümayəndələrinə daşnak P.Nubar paşa əməkdaşlıq barəsində təkliflə müraciət etdi: "Kilikiya erməniləri İsgəndərun, Mərsin və ya Adanada ehtimal edilən hər hansı bir hücumu dəstəkləmək üçün könüllülər hazırlayırlar. Silah və sursat baxımından köməklik edilərsə, Türklərə qarşı üsyanlar baş verəcəkdir" [89a]. Bölgələrdən göndərilən raport və teleqramlarda ermənilərin təşkilatlanması prosesinin sürətlənməsi öz əksini tapmışdır (Əlavə LVIII).

Səfərbərliyin elan edilməsi ilə Eçmiədzin katolikosu Gevork Vorontsov-Daşkova yazdığı məktubunda deyirdi: "Erməniləri himayəniz altına alın, bunun əvəzində ermənilərin ruslarla birlikdə osmanlılara qarşı savaşacaqlarına öhdəlik götürürəm" [129, s.398]. Səfərbərliyin elan edilməsi ilə erməni siyasəti aşağıdakı şəkildə müəyyən edilmişdir: 1. Silah və sursatlarla əsgərlikdən yayınmaq; 2. Qorxu yaratmaqla hadisələr törədin, türk hərbçilərini, ailələrini qorxudaraq evlərinə dönməsinə şərait yaratmaq; 3. Türklərin səfərbərlik sistemini pozmaq, hərbi nəqliyyat vasitələrində problemlər yaratmaq, hərbi sursat və ərzaq konvoylarını arxadan vurmaq; 4. Ruslar sərhədi keçən kimi silaha sarılaraq türk ordusunu ikili atəş altında saxlamaq; 5. Könüllü olaraq hökumət silahları ilə ordunu tərk edərək ruslara qoşulmaq; 6. Boşaldılacaq kəndlərdə kilsələri, evləri, kənd təsərrüfatı məhsullarını yandırmaq və yanğınlar törətmək; 7. Müttəfiq dövlətlərin xeyrinə casusluq etmək; 8. Türklərin mənəvi birliyini pozmaq, əsgərlikdən fərarilik etmələri üçün təbliğat aparmaq.

Türk ermənilərini ayağa qaldırmaq üçün Sibirə sürgün edilən 180-ə qədər erməni inqilabçısı çar tərəfindən əfv edildi. Tiflisdə toplanan erməni könüllüləri sürgündən dönmüş bu inqilabçıların rəhbərliyi altında türklərlə savaşmaq üçün rus ordusu qoşunlarına, partizan dəstələrinə və "intiqam alayları»na daxil olmağa başladılar.

## 2.3. Erməni silahlı qurumlarının Osmanlı ordusunun arxa cəbhəsində fəaliyyəti

"Daşnaksutyun"nun liderlərindən olan Papazyan ermənicə nəşr edilən "Vem" jurnalında "Ümumi müharibə və Muş bölgəsində 1914-1915-ci illərdə Rusiya-Türkiyə müharibəsinin ilk illəri" adlı məqaləsində komitəsinin müharibənin ilk illərindəki hazırlıqlarını, İstanbuldakı vəziyyəti göstərdikdən sonra komitə üçün Osmanlı hökumətinin verəcəyi qərarların əhəmiyyətindən danışmış, bu qərarları öyrənmək üçün ayrıca toplanmağın çox böyük əhəmiyyəti olduğunu qeyd etmişdi. Ərzurumdan və Qafqaz ermənilərindən gələn xəbər və qərarları nəzərdən keçirən Şahrikyan, Hagok, Hrac, Armen, Vartkes, Taşayan, Sarkis Minasyan və Zöhrab kimi daşnak liderləri Qafqazdakı «Daşnaksutyun» liderləri ilə bir nəticə əldə edə bilmək üçün Vana getməyi qərara aldılar. Papazyan yazırdı ki, görüşdə iki məsələ müəyyən edildi. Əgər ruslar müharibədə türklərə güclü zərbə vuracaqlarsa, onda ermənilər Rusiyanı dəstəkləməli və dini başçıları vasitəsilə «Ermənistan dövləti»nin yaradılmasına nail olmalıdırlar (Hagok, Armen Karo, Sarkis Paşayanın fikri). Əgər ruslar Qafqaz cəbhəsini köməkçi cəbhə kimi qəbul edib, heç nə etməyəcəklərsə, onda ermənilər gözləmə vəziyyətində dayanmalı, Osmanlı hökumətinə sədaqətlərini bildirməli, yalnız türk ordusu geriyə çəkilməyə başladıqda ona arxadan zərbələr vurmalıdırlar (S.Minasyan, Vartkes, Şahrikyan və Zöhrabın fikri). Ümumi fikir belə oldu ki, erməni batalyonları rus ordusuna birləşməlidirlər. Görüşdə Hamazasp özünü hərəkatın lideri kimi aparmağa başladı (Əlavə XXIV).

Erməni komitələri bölgələrdəki şöbələrinə verdiyi təlimatda deyilirdi: "Rus ordusu sərhəddən irəliləməyə başlayarkən və Osmanlı əsgəri geri çəkilərkən hər tərəfdən eyni vaxtda əldə olunmuş bütün vasitələrlə baş qaldırılacaq. Osmanlı ordusu iki atəş arasında qalmalı, binalar və dövlət binaları bombardman edilməli, sabotajlar təşkil edilməlidir. Əksinə, Osmanlı ordusu hücuma keçərsə, erməni əsgərləri ruslarla birləşməli və silahlı olanlar hərbi hissələrindən qaçaraq türk silahlı qüvvələrinin arxa cəbhələrinə zərər verməli və ölkə içində müxtəlif hadisələr törətmək üçün partizan dəstələri yaradılmalıdır". Müharibənin ilk günlərindən erməni silahlı dəstələri Osmanlı ordusunu arxasında fəaliyyətə başlamışdılar. Ermənilər türkləri qətlə yetirir və hər gün ruslara daha çox yaxınlaşaraq cəbhədə və cəbhə arxasında böyük təhlükələr yaradaraq "Osmanlı ordusunu iki atəş arasında qoymaq" təlimatını yerinə yetirirdilər. Arxivlərdə qorunan sənədlərdə erməni-rus əməkdaşlığının hansı səviyyədə inkişaf etdiyi əyani surətdə görünür (Əlavə LIX). (DİN-nin Hərbiyyə Nazirliyinə yazdığı 01.09.1914-cü il tarixli 725 №-li gizli raportundan) [47].

Ermənilər yalnız silahla deyil, casusluq edərək Osmanlı dövləti əleyhinə fəaliyyət göstərir və özlərinin törətdikləri qanlı hadisələrin türklər tərəfindən törədildiyini sübut etdirmək üçün saxtalaşdırmalara əl atırdılar: 1. "İstanbul erməni

Kilsəsi İtaliya səfirliyi vasitəsi ilə Eçmiədzin katolikosluğunun xeyrinə casusluq edir" (Təhlükəsizlik İdarəsinin Baş Komandanlığa 31.01.1915 tarixli 2086 №-li raportundan) [55]; 2. "Ermənilər törətdiyi əməllərdə türk hərbi formalarından istifadə edirdilər" (Çakçiyan Gevorkun 22.04.1915 tarixli ifadəsindən) [53]; 3. 1 sentyabr 1914-cü il tarixində trabzonlu Baruter, bağdadlı Antuvan, qumqapılı Zisis, balatlı İlya və ərzincanlı Kirkor ad və rütbələrini dəyişdirərək türkləşmiş və zabit rütbələrini saxtalaşdırmışlar [53].

Erməni-rus əməkdaşlığının Osmanlı-rus müharibəsinin nəticələrinə mənfi təsiri Körpüköy və Azap döyüşlərində də özünü göstərmişdir. Körpüköy döyüşündə Osmanlı ordusu ermənilərin rusların tərəfinə keçməsi və onlara hərbi təyinatlı məlumatların verilməsi nəticəsində döyüşü uduzmuş və noyabrın 11-də Körpüköy Rusiyanın əlinə keçmişdir. Azap bölgəsinə çəkilən Osmanlı ordusu noyabrın 14-də rus ordusuna qarşı hücuma keçmiş, lakin Osmanlı ordusundan fərarilik etmiş ermənilərin xəyanətləri nəticəsində ruslar məğlubiyyətdən yaxa qurtarmışlar.

Rusiyadan gələn könüllü ermənilərin, Osmanlı ordusundan silahları ilə birlikdə fərarilik edən ermənilərin, kilsələrin, komitələrin və yerli ermənilərin fəaliyyətlərinin nəticəsində bölgə «barıt çəlləyi»nə bənzəməyə başladı. Bir tərəfdən Osmanlı ordusuna arxadan zərbələr vuran ermənilər, digər tərəfdən mülki türk vətəndaşlarını vəhşiliklə qətlə yetirirdilər. 1915-ci ilin yanvar ayından başlayaraq bu hadisələr tez-tez baş verməyə başlamış və Şərqdə ruslarla, Qərbdə Antanta dövlətləri ilə savaşan Osmanlı ordusunun təchizat yolları və teleqraf xətlərini kəsməyə və cəbhədən gətirilən Osmanlı yaralılarını, təhlükəsizliyi təmin edən jandarm əsgərlərini öldürməyə başlamışdılar. Şərqi Anadolunun bir çox yerlərində başlayan erməni hərəkatı Vanda qələbə qazandıqdan sonra Muşda və ətrafında hərəkatların sayı daha da artmış və bu dəstələr bir çox qətllər törətmişlər. Muş və ətraf ərazilərdə əvvəlcə 7.000 erməni silahlanmış və kiçik dəstələr halında kəndlərdə yerləşdirilmişdilər. Bu dəstələrə əsgərlikdən fərarilik edən ermənilər də qatılmış və Sasunda əsgərlik çağında olan yeniyetmələr də bu dəstələrə qoşulmuşdular. Bölgəyə əsgər toplamağa gələn Osmanlı məmurları isə öldürülmüşdür. Rus ordusunun bölgəyə gəlməsi ilə «Daşnak» və «Hnçak» dəstələri "ruslara sədaqətlərini və qəhrəmanlıqlarını" göstərmək üçün müharibədə olan türk əsgərlərinin kənd və qəsəbələrini dağıdır, ailələrini isə ağlasığmaz vəhşiliklərlə öldürürdülər. Rusiyadan gələn könüllü dəstələr ilə birləşən yerli erməni dəstələrinin sayı 30.000-ə çatmışdır.

Ermənilərin düşmənçilik hərəkətlərinin artdığını mülki idarələr də DİN-ə bildirirdilər. Adana valisi 26.02. 1915-ci il tarixində 7 erməni əsgərinin fərarilik etməsi, yaxalanması, dindirilmə zamanı ermənilərin silahlı mübarizəyə hazır olmaları və ilk fürsətdə türklərə aman vermədən öldürəcəkləri barəsində məlumat verir. O, həmçinin işıq işarəsi ilə xəbərləşmə cihazı tapılması, Xaçın (Saimbəyli) qəzasında «Hnçak» komitəsi tərəfindən hökumətə qarşı qiyam qaldırmağa sövq

edən çağırışların divarlara yapışdırılmasını göstərirdi [56].

## 2.4. Osmanlı ordusu arxasında erməni qiyamları

I Dünya müharibəsi başlayınca komitələr və Patriarxlıq Osmanlı dövlətinə qarşı yürüdəcəkləri siyasəti müəyyən etdi. İstanbulda Erməni Böyük Mərkəzi məktəbində patriarxın rəhbərliyi altında «Daşnaksutyun», «Hnçak» və başqa komitələrin nümayəndələrindən formalaşan Birləşmiş Milli Erməni Konqresi "Ermənilərin Osmanlı hökumətinə sadiq qalmaq, hərbi borclarını yerinə yetirmək, xarici təsirlərə məruz qalmamaq" qərarını qəbul etdi. 1914-cü ilin iyununda Ərzurumda dünyanın müxtəlif yerlərindən gələn erməni nümayəndələrinin iştirakıyla toplanan «Daşnaksutyun»un VIII qurultayı "parçalanma və bölünməyə qarşı güclü mübarizə aparmaq" əzmkarlığını nümayiş etdirdi. Qurultay yenə də Osmanlı ordusunu «iki od arasında qoymaq» təlimatını qəbul etdi[148, s.9].

Türklərə qarşı mübarizə üçün tələb olunan silahların hansı yolla əldə edilməsinə dair ayrıca təlimat yazılmışdır ki, təlimatda o dövrdə mövcud olan silahlar qiymətləndirilir, onların əldə edilmə yolları göstərilirdi. Silahların tədarük edilməsi təlimatı verildikdən sonra türk yaşayış məskənlərinə hücum etmək təlimatı hazırlandı ki, burada türk kəndlərinə qiyamçıların necə hücum etmələri incəliklərə qədər təsvir edilmişdir (Əlavə XXII).

I Dünya müharibəsi ərəfəsində ruslar Qafqazda yaşayan ermənilər vasitəsi ilə Osmanlı dövlətindəki ermənilərdən istifadə etməyə planlaşdırırdılar. Bunu əllərində əsas tutan erməni komitəçiləri Anadolunun şərqində qiyamlara hazırlıq görmüşdür. Osmanlı hökuməti baş verən ilk qiyamları yerlərdə yatırtmaq istəmiş və görülən bütün tədbirlər müdafiə xarakteri daşımışdır. «Dırnağına» qədər silahlanan ermənilərin bu qiyamlarına mərkəzləşdirilmiş halda dini liderlərin rəhbərlik etmələrinə baxmayaraq, Osmanlı hökuməti sistematik olaraq baş verən bu üsyanların «lokal xarakter daşıdığını» deyirdi. Eyni zamanda Erməni Patriarxlığına asayişin təmin edilməsi üçün müharibə dövrünün tələblərinə uyğun ermənilərin qarışıqlıq yaratdıqları halda dərhal "Ölkənin mənafeyi və müdafiəsi məqsədi ilə sərt tədbirlər görüləcəyi" barədə məlumat verilmişdir. Osmanlı hökumətinin məsələni danışıqlar yolu ilə həll etməsini sübut edən məktub (Osmanlı ordusu Baş Komandanlığından erməni patriarxına göndərilib) ibrət sənədidir (Əlavə XXX). Məktubdan aydın olur ki, komandanlıq qiyamçıların arxasında dini liderlərin dayanmasından xəbərdardır, lakin bununla belə qəti tədbirlərin həyata keçirilməsinə tələsmir.

Ələşgirt sərhəd tabor komandirinin 3-cü ordu komandanlığına göndərdiyi 30.08.1914 tarixli raportda sərhədə yaxın kəndlərdəki evlərdə axatarışlar aparan rusların tapdıqları silahları ermənilərə verdiklərini və bundan başqa, bölgədəki ermənilərin Rusiyaya köçmələri üçün təbliğat apardıqları haqqında məlumat verirdi

[61]. Ərzurum valisi 3-cü ordu komandanlığına 13.09.1914 taprixli raportda rusların ermәnilәri öz tәrәflәrinә çәkәrәk Şәrqi Anadolu vilayәtlәrindә istәdiklәri zaman qiyam etmәk üçün hazır olduqlarını, Sibirә sürgün edilәn vә 101 il cәzaya mәhkum edilәn Aramayıs adlı bir nәfәri rusların azad etmәsini vә onun Qarsda dәstәlәr tәşkil etdiyini, bir dәstәnin Pasinlәr kәndinә gәldiyi haqqında mәlumat verilirdi.

Osmanlı imperatorluğu I Dünya müharibәsinә girdikdәn sonra, ermәni komitәlәrinin düşmәnlә әmәkdaşlıq etdiyinә dair kәşfiyyat mәlumatları әldә etmәyә başladı. Anadoluda bir-birinin ardınca qiyamlar baş verir, lakin Osmanlı hökumәti hadisәlәrin qarşısını almaq üçün tәsirli tәdbirlәr görmürdü. Daxili işlәr naziri Tәlәt paşa Ərzurumdan millәt vәkili seçilәn Vartkes әfәndiyә "ermәnilәr bu cür davranışlarını davam etdirdiklәri halda çox ciddi tәdbirlәrlә qarşıları alınacaqdır" demişdir. Baş komandan vәzifәsini icra edәn Ənvәr paşa da eyni şәkildә patriarxla görüşәrәk ermәni xalqının әmin-amanlıq vә dinc şәraitdә yaşaması üçün xalqına müraciәt etmәyi mәslәhәt bilmiş, әks tәqdirdә isә "hәrbi hökumәtin әn ciddi tәdbirlәr almaq mәcburiyyәti qarşısında qalacağını" vurğulamışdır. Hökumәtin xәbәrdarlıqları bir nәticә vermәmiş, üstәlik ayrı-ayrı bölgәlәrdә üsyanlar geniş xarakter almışdır. Osmanlı hökumәti 6 sentyabr 1914-cü il tarixindә ermәnilәrin sıx yaşadıqları vilayәt başçılarına teleqram göndәrәrәk "ermәni siyasi partiya rәhbәrlәrinin fәaliyyәtlәrini davamlı olaraq nәzarәt altında saxlamaq" haqqında tәlimat verdi [40]. Ermәni liderlәrinin nәzarәt altına alınması ilә ermәnilәrin niyyәt vә mәqsәdlәri açıq surәtdә özünü büruzә vermәyә başladı.

Ermәnilәrin qaldırdıqları әsas qiyamlar Rusiya ordusunun hücumu istiqamәtindә tәşkil edilmişdir. Osmanlı hökumәti 1914-cü ilin 3 avqust tarixindә sәfәrbәrlik elan etdikdәn sonra Zeytun ermәnilәri osmanlı bayrağı altında qalmaq istәmәdiklәrini bildirәrәk «Zeytun fәdain alayı» yaradaraq öz әrazilәrini müdafiә etmәk niyyәtindә olduqlarını bildirmiş, avqustun 30-da qiyam qaldırmışdılar. Osmanlılar tәrәfindәn qiyam yatırıldıqdan sonra 713 tüfәng, 21 pulemyot, 12 mauzer әlә keçirilmiş, keşişlәr daxil olmaqla 61 nәfәr qiyamçı hәbs edilmiş vә vәziyyәt sakitlәşmişdir. Lakin dekabr ayında Zeytun ermәnilәri yenidәn dövlәtә qarşı silahlı mübarizәyә başladılar. 1915-ci ilin fevral ayında Zeytuna Maraşdan hәrbçilәr silah göndәrәrkәn ermәnilәr konvoylara hücumlar tәşkil etmiş, 6 jandarmı öldürdükdәn vә iksini yaraladıqdan sonra qaçmış vә yollarda Maraşla olan teleqraf xәtlәrini dağıdaraq әlaqәlәri tamamilә kәsmişlәr. Bölgәlәrdә silahlanmış ermәnilәrin, demәk olar ki, hamısı fәrarilik etmiş әsgәrlәr olub. Zeytunluların bu qiyamçı hәrәkәtlәri 1915-ci ilin may ayına qәdәr davam etmiş vә sonra onlar bu әrazilәrdәn dağılaraq çıxıb getmişlәr. İngiltәrәdәki Rusiya sәfiri 24 fevralda XİN-ә gedәrәk "Zeytunlu bir ermәni ...Vorontsov-Daşkova müraciәtindә... 15.000 ermәni qüvvәlәrinin rusları gözlәdiklәrini, lakin bu qüvvәnin silah vә sursatlarının olmadığını demişdir. Onların bu ehtiyaclarını tәchiz etmәk çox faydalı olardı. Bu silahların ingilis vә fransızlar tәrәfindәn Antakya limanından göndәrilmәsi

fikrindəyik. İngiltərənin bu fikrə münasibətləri necədir?" - deyə səfir soruşmuşdur. İngilislər bu fikrin ağlabatan olmadığını bildirmişdilər [İngiltərə XİN-nin arxivi, d.2484, sənəd 22083].

Müharibə dövründə Zeytunda baş vermiş hadisələrlə əlaqədar Hələbdəki Amerika konsulu öz XİN-ə raport yazaraq hadisələrin gedişi haqqında məlumat vermiş və bu raporta Amerika missioneri protestant keşişi Con E.Merllinin bir məktubunu əlavə etmişdir: "... Zeytunda münaqişə başlamazdan əvvəl protestant missioner Herr Blank ilə iki qriqoriandan ibarət komitə hökumətin icazəsi ilə sülh razılaşması əldə etmək istədilər. Zeytun əhalisi ilə görüşdükləri zaman əhali qanuna zidd gedənlərə xəbərdarlıq etdiklərini, amma onların bundan bir nəticə çıxarmadıqlarını bildirdilər. Yaradılan komitə müsbət nəticələr əldə edə bilmədi. Qanunu pozanlar təxminən 30 nəfərdən ibarət olub Zeytunla Maraş arasında mövcud olan təpələrdə özlərinə sığınacaq tapmışlar. Suları, silahları və qidaları vardır və sığınacaqlarına bir nəfərin keçə biləcəyi yolla gəlirlər. Daha sonra zeytunlular kəndlərə toxunmamaq şərti ilə bu qaçaqçıları tutub təslim etməyə razı olmuşlar. Lakin sonra kənd əhalisinin bir qismi Maraşa köçürülmüşdür... Maraş bölgəsinin təhsilli və bacarıqlı xristianları buradan köçürülür. 50 ildən artıq bir zəhmətin və minlərcə dollar xərcin nəticəsi təhlükə qarşısındadır" [90].

Hələ 1914-cü ilin fevral ayında Timar əyalətinin mərkəzində törədilən qiyam elə bir həddə çatdı ki, vəziyyət nəzarət altından çıxmağa başladı. Burada ətraf əyalətlərdən gələnlərlə birlikdə silahlıların sayı mini keçmişdi. Silahlı ermənilər Timar əyalətinin Banat kəndində yerləşən jandarm birləşməsinə hücum edərək onu darmadağın etdilər. Qiyam Gevas və Çataq qəzalarına da keçdi. Komitənin hazırladığı "Şəxsi müdafiə üçün təlimat"a uyğun olaraq müsəlman kəndlərində yaşayan ermənilər dərhal erməni kəndlərinə köçməyə başladılar. Məqsəd isə canlı qüvvə itirmədən, onları birləşdirərək hücuma keçmək idi. Ayrı-ayrı kəndlərdən erməni gəncləri komitənin əmr etdiyi nöqtələrdə toplaşaraq ümumi qüvvə halında zərbə vurmağa hazırlaşırdılar.

Ermənilərin çox məskunlaşdığı vilayətlərdən biri də Van vilayətidir. Ermənilərin və onları dəstəkləyən dövlətlərin ən çox təkid etdikləri, təbliğat və formalaşma proseslərinin sürətlə inkişaf etdiyi yer bu vilayət olmuşdur. Komitə rəhbərlərinin, Osmanlı erməni deputatlarının və Qərb konsullarının ən çox ziyarət etdikləri yer bura idi, erməni dəstələrinin toplaşaraq alay şəklində formalaşması və alaylarının tərkibinin artması da bu vilayətdə baş verirdi. Bütün bunlarla yanaşı, bölgədə ermənilər əllərindən işləri alınan, zülm edilən, qətlə yetirilən, müstəqilliklərinə əngəl törədilən millət kimi Avropa dövlətləri tərəfindən qiymətləndirilir və erməni əhalisinin müsəlmanlardan daha çox olduğu iddia edilirdi. Baş vermiş hadisələr tarixçilər tərəfindən araşdırılarkən bütün bu iddiaların səhv olduğu aydınlaşır. Bu dövrdə sənaye və ticarətin böyük bir hissəsi ermənilərin əlində cəmləşmişdi. Həm Osmanlı, həm də xarici statistiklərin məlumatlarına görə, Van və ətrafı ilə birlikdə əhalinin sayı ermənilərin lehinə

deyil, türklərin lehinədir. Osmanlı imperatorluğu DİN-nin 1914-cü ildə hazırladığı statistik məlumatlara əsasən, Van vilayətində və qəzalarında əhalinin sayı tərəfimizdən tərtib edilən əlavədə göstərilib (Əlavə XXV). Cədvəldən göründüyü kimi, Van və Hakkari mərkəzində yaşayan müsəlmanların sayı ümumi əhalinin 70%-ni, erməni əhalisi isə 30%-ni təşkil edir. Digər qəzalarda da müsəlman əhalisi hər zaman erməni əhalisindən 2-3 dəfə artıq olub. O dövrlərdə köçəri həyat tərzi keçirən müsəlman əhalisinin sayı bu statistik məlumatlara daxil edilsəydi, fərqin nə dərəcədə böyük olacağını təsəvvür etmək çətin deyildir. İ.Səlahəddin "Erməni sorununun rakamlarla gerçeği" məqaləsində David Magiyəyə istinad edərək Van vilayətində müsəlman əhalisinin sayının 259.000, erməni əhalisinin sayının isə 190.000 olduğunu göstərir [İstanbul Universitetinin jurnalı, 1984, Sayı 2, səh. 396]. 1928-ci ildə Nyu-Yorkda Castin Mak-Kartinin "Ərəb dünyası, Türkiyə və Balkanlar 1878-1914 illərdə" adlı kitabında 1914-1915-ci illərdə Vanda 179.380 müsəlman olduğu halda ermənilərin sayının 67.792 olduğunu göstərir [137, s.64-72]. Ermənilərin çoxluq təşkil etdikləri iddia edilən bölgələrdə belə müsəlman əhalisinin üstünlük təşkil etdiyi göz qabağındadır.

Erməni əhalisinin müsəlman əhalisinə nisbətən 2-3 dəfə az olmasına baxmayaraq, erməni komitələri Van vilayətində və ətrafda yerləşmiş xarici ölkələrin konsulluqları, məktəbləri, kilsələri və dərnəklərdən istifadə edərək sürətlə təşkilatlanmış və qısa müddət ərzində fəaliyyətə başlamışlar. «Daşnaksutyun» partiyası bölgədəki Ağdamar adasındakı ruhani məktəbini təşkilatın mərkəzinə çevirmişdi. Bu mərkəzə Aram Manukyan rəhbərlik edirdi. Onlar burada topladıqları pullar və yetişdirdikləri gənclər vasitəsi ilə fəaliyyətlərini uzaq kəndlərə qədər genişləndirmişlər. Beləliklə ruhani məktəbi qiyam mərkəzinə çevrilmiş və bölgədə törədilən bütün qanlı hadisələr buradan idarə edilmişdir. Van vilayətində erməni qiyamçı rəhbərlərinin əksəriyyəti toplandığından onlar Vanı idarəetmə mərkəzi halına gətirmək istəyirdilər [59]. Burada komitələrin hədəflərini və yaratdıqları mövqeləri tam aydın görmək olar. Başqa bölgələrdə gizli qalan tədbir burada tam açıq bir şəkildə özünü büruzə verirdi. Ermənilərin fikrincə onlar istər Van, istər də Bitlisdə kəndlilərlə birlikdə əhali sayının böyük əksəriyyətini təşkil edirlər, halbuki yuxarıda göstərilən rəqəmlər bunu təkzib edir. 1913-cü ildə millət vəkilləri seçkiləri zamanı ermənilərin nisbi təmsil sistemini irəli sürdükləri halda ərazidə tezliklə əhalinin siyahıyaalınması keçirilmiş və real vəziyyəti əks etdirən nəticənin erməni komitələri tərəfindən rədd edilməsi o dövrlərə təsadüf edir. Ermənilər, əvvəlki və son əhali siyahıyaalınmasında müəyyən edildiyi kimi, Hakkari və ətrafında əhalinin 25%-indən, Van və ətrafı ilə birlikdə isə əhalının 1/3-dən çox deyildilər.

Səfərbərlik elan edildikdən sonra «Daşnaksutyun»un verdiyi təlimatlara uyğun olaraq Van və Bitlis rəhbərliyi iki bölgəyə ayrıldılar. Qiyam törətmək üçün Vandan olan millət vəkili Papazyan, Varamyan və rus generalı Loris Melikovun oğlu Muş-Bitlis rəhbərliyinə təyin edildilər [63]. Noyabrın 29-da Van üsyanına

dəlalət edən bir xəbər jandarm komandanı Kazım Özalpdan gəldi. Kazım bəy həbs edilən bir casusun ifadəsinə görə, bu günlərdə Van vilayətində üsyan olacağını bildirirdi [59].

Ermənilər bu bölgədə talan, cinayət, işgəncə və zülm gördüklərini bəyan edirdilər. Əgər bu şikayətlərin doğruluğunu yoxlasaq, tam əminliklə demək olar ki, bu reallıq olsaydı bölgədə erməni adlı bir nəfər belə qalmamalı idi. Halbuki o dövrlərdə Van və ətrafında yaşayan ermənilər ticarətdə ha-kim mövqe tutur və müsəlmanlar onlara xidmət etməklə dolanırdılar. Ermənilər burada güclü silahlı dəstələr təşkil edir və bu dəstələrə Rusiyadan qaçıb gələn cinayətkar ünsürlər başçılıq edirdilər. Bölgədə ermənilərə Qafqazdan gələn qarabağlı Aram başçılıq edirdi. O, çar rejimi tərəfindən edama məhkum edilmiş və canını xilas etmək üçün Osmanlı torpaqlarına qaçıb gəlmişdir. O, əvvəlcə Ağdamardakı ruhani məktəbini qiyam işinə sövq etmiş, oradan yığılan pulla erməni təbliğatçılarını kəndlərə müəllim adı ilə göndərərək qiyamı təbliğ etməyə başlamışdır. Ağdamarda dinlə heç bir əlaqəsi olmayan Yeznik adlı birisini katolikos rütbəsinə qədər yüksəltmiş, son dərəcə zalım və qaniçən Daniel adlı ermənini isə onun müşaviri vəzifəsinə təyin etmişdir. Dini mərkəz olan Ağdamar komitəçilərin mərkəzinə çevrilmiş və onlar kilsəyə gələn maliyyədən öz məqsədləri üçün istifadə etməyə başlamışdılar. Beləliklə, Aşxan, katolikos Yeznik, Daniel, Vartapet, İranda komitə üzvü erməni məktəblərinin müfəttişi Rafael, karçanlı Vartan, Ovsep, millət vəkili Varamyan və Papazyan Van «Danaksutyun» şöbəsinə rəhbərlik etməyə başlayaraq qiyama hazırlaşdılar. Van ətrafında ermənilərin milli gələcəklərinə cavabdehliyi öhdəyə alanlar hər şeydən əvvəl təşkilatın şöbələrini kəndlərdə daha geniş şəkildə açmağa və bütün erməniləri silahlandırmağa başladılar. Komitə rəhbərləri ətraf kəndləri gəzərək ermənilərin silaha olan ehtiyaclarını müəyyən edir, əhali sayına görə silah paylamaq cədvəllərini tərtib edir, silah almaqdan və maliyyə yardımı verməkdən imtina edənləri kəndlərdən qovur, evlənmək, vərəsəlik, seçmək və seçilmək kimi hüquqlardan məhrum edərək ölüm hökmünə qədər cəzalandırırdılar. Bu ərazidə komitə təşkilatlandıqdan sonra ermənilər Osmanlı hökumətinə tabe olmaqdan imtina etmiş və bütünlüklə yerli komitələr bağlanmışlar. Silahlar alındıqca, təşkilat genişlənib qüvvətləndikcə ermənilərin hədlərini aşması prosesi daha da artmağa başladı. Van şəhərində gün batdıqdan sonra atəş səsləri adi hal almışdı. Bölgədəki erməni komitəçilərinin ən yaxın dostları ingilis, fransız və rus konsulları idi. Səfərbərlik elan edildikdən sonra bölgədə ermənilər komitələrin verdikləri qərarların icra edilməsi əsasında Qafqaz erməniləri ilə əməkdaşlıq yaradaraq rus ordusunun irəliləyişinə kömək etməyə başladılar. Vilayətin Rusiyanın işğalı altında olan Azərbaycanla eyni sərhədə malik olması bölgənin əhəmiyyətini daha da artırırdı. Elan edilən səfərbərliyi ermənilər icra etmədilər. Əvvəllər silahsız olaraq kəndlərindən qaçan ermənilər sonradan silahlanaraq dəstələr halında formalaşmağa başladılar. Hər tərəfdən, xüsusilə Van və Muş ətrafından Rusiya və İrana köçən komitə üzvlərindən ərzurumlu Andranik, muşlu Smbat, Rusiyada yaşayan

Hamazasp 300-400 nəfərdən təşkil edilmiş taborlar yaratmağa başladılar. İranda yaşayan ermənilər rus zabitlərinin rəhbərliyi ilə Xoy və Dilman ətrafında təlimlərə başladılar. Hökumət nümayəndələri, jandarmlara qarşı hücumlar təşkil edildi. Vanda silahlı ermənilər toplaşdılar. Silahlı dəstələrin hücumlarının daha da təsirli olması üçün bir az da vaxt qazanmaq lazım idi. Ona görə də vilayət şöbələrə təlimat göndərildi: "Ruslar Başqala və Saraya doğru irəliləyəcəklər. Bütün üzvlərimiz öz birləşmələrindədir. Rusların yaxınlaşdıqları yerlərdə silahları ilə onlara qoşulacaqlar. Ruslar çox yaxınlaşdıqdan sonra istədiyimizi edərik. Mərkəzdə qüvvə toplandı. İndidən başlasaq, çox qan tökülər və yollara çoxlu qar yağdığından kömək edə bilmərik. Şəhər içində olanları da təhlükə qarşısında qoyarıq. Ona görə də rusların lap yaxınlaşmasını gözləməliyik [155, s.43].

Vəziyyəti bilən iranlıların dediyinə görə, «Rus zabitləri türk sərhədlərinə doğru hücum edərkən vilayət erməniləri bütünlüklə silahlanaraq söz verdikləri şəkildə ruslara köməklik edirdilər» [155, s.64].

Qiyamçıların və fərarilik edən əsgərlərin ümumi sayı 5000-dən artıq idi. Bu dəstələr hərbi binalara, dövlət binalarına hücum edərək onları dağıdırdı. Gevaş, Çataq, Havasor və Timarda törədilmiş qiyamları yatırmaq məqsədi ilə mərkəzdən hərbi qüvvələrin göndərildiyini eşidən qiyamçılar Vanda "Həmid Ağa kazarmaları"nda yerləşən əlahiddə bölüyə və erməni məhəllələrini mühasirədə saxlayan jandarm və milis postlarına atəş açdılar. «İç şəhər» deyilən ərazidə güclü hücuma keçdilər. Ətrafdan gələ biləcək yardımın qarşısını almaq məqsədi ilə şəhərə gələn yollarda səngərlər və dərin xəndəklər qazıldı. Qiyam Ərciş və Adilcevaz qəzalarına da öz təsirini göstərdi. Müxtəlif silahlarla silahlanmış komitə üzvləri şəhərin içində və cənub-şərqində yerləşən mövqeləri müdafiə edirdilər. Əsgərlərin olduğu yerlər, Osmanlı Bankı, poçt-teleqraf və hökumət binaları bombalanaraq darmadağın edildi. Müsəlman məhəllələri atəşə tutuldu. Müharibənin başlanğıcında ermənilər ruslar ilə döyüşən Osmanlı ordusuna arxadan zərbə vurmaq məqsədi ilə ayağa qaldırılmışdılar, onlar insanları vəhşicəsinə qətlə yetirirdilər. Şəhərin müsəlman əhalisinin yaşadıqları yerlər güclü atəşə tutuldu. Fədainlərin 700 nəfəri əl qumbaraları ilə silahlanaraq Van qalasına hücum etdilər. Aprelin ortalarında rus zabitlərinin komandanlığı altında ən azı 400 nəfərlik erməni fədaini İran sərhədindən keçib Türkiyəyə girməyə cəhd göstərdilər. Van və ətrafdakı erməni dəstələri ilə mübarizə aparılan yerlərdə səngərlər içində "Ermənilərə azadlıq", "Ermənistan xilas oldu" şüarları yazılmışdı. Ermənilər alınlarına "intiqam" yazılmış lentlər bağlamışdır. Van Milli Müdafiə Komitəsi ermənilərə müraciətində onları türkləri qırmağa çağırır, bunu qanuni iş hesab edirdi (Əlavə XXVI).

Feliks Valyi yazırdı: "Aprel ayında erməni qiyamçıları Van şəhərini ələ keçirdilər. Mayın 6-da Van əyaləti müsəlmanlardan tamamilə təmizlənərək rus ordusuna təhvil verildi. Ən məşhur erməni liderləri arasında Türkiyə parlamentinin üzvü, Qaro kimi tanınan, Türkiyə ilə Rusiya arasında müharibə başlayınca erməni

könüllülərinə rəhbərlik edən Karakir Basdırmaçı idi. 1914-cü ilin sentyabr ayında Ərzurumda «Daşnak» qurultayı keçirildi ki, burada baş verə biləcək müharibədə bitərəf qalmaq haqqında qərar qəbul edildi. Partiyanın üzvləri əllərində rus bombaları və silahı ilə bu tərəfsizliyin nə məna ifadə etdiyini açıqca ortaya qoyur və həqiqətən də türklərin dediyi kimi, erməni dəstələri şərq vilayətlərinin rus ordusu tərəfindən işğalına köməklik göstərir" [116, s.200].

Türkiyə arxivlərində qorunan Van valisi Cövdət bəyin və jandarm diviziyasının komandanlığının Baş Qərargaha göndərdiyi teleqramlar Van qiyamının necə inkişaf etdiyini göstərir (Əlavə LX).

1915-ci ilin aprelin 7-dən başlayaraq şəhəri ermənilərdən müdafiə etmək üçün əhali və əsgərlər Qalaya toplaşdılar. Ətraf yerlərdən yardıma gələnlərin qarşısını almaq məqsədi ilə ermənilər ətraf ərazilərdə səngərlər və dərin xəndəklər qazmışdılar. Bundan sonra saman tayalarının içində gizli gətirdikləri ən yeni rus topları ilə şəhəri atəşə tutdular. Aprelin 15-dən Şitak qəzasında başlayan qiyam bütün vilayəti bürümüş və ümumi sayı 10.000 olan erməni qiyamçı qüvvələri bölgəyə gələrək şəhəri tamamilə mühasirəyə almışlar. Ermənilərin vəhşiliklərindən qorunmaq üçün Van valisi Cövdət bəy 1915-ci ilin aprelin 24-də Daxili İşlər Nazirliyinə aşağıdakı teleqramı göndərmişdir: "Asilər (ermənilər) yolu bağlayır, quldurluq edir və ətrafdakı kəndlərə hücum edərək buraları yandırırlar. Onlara mane olmaq imkanımız daxilində deyil. İndidən bir çox qadın və uşaq ev-eşiksiz qalmışdır. Onları erməni kəndlərində məskunlaşdırmaq məqsədəuyğun və mümkün deyil. Onları qərbdəki kəndlərə göndərmək mümkündürmü? [100, s.222]. Şəhəri müdafiə edən mülki vətəndaşlar və azsaylı hərbi qüvvələr yalnız mayın ortalarına qədər müdafiə oluna bilmişlər. 1915-ci il 10 aprel tarixində Erməni Milli Müdafiə Komitəsinin yaydığı xəbərlərdə istər hərbçi, istərsə də mülki türklərin qırılmasına çağırış səslənirdi (Əlavə XXXI). Ermənilərin qəddarlığını onların dəstələrinin tərtib etdikləri gündəliklərdə harada və nə qədər türk öldürdükləri haqqında olan məlumatlar təsdiqləyir (Əlavə XXXII). Rus ordusu Vana artıq xeyli yaxınlaşmışdı. Vandan getməyənlərin təhlükəsizliyini təmin etmək, ermənilərin intiqam və vəhşiliklərindən qorunmaq üçün ruslarla danışıqlara başlandı. Lakin bu danışıqlardan bir nəticə hasil olmadı.

Mayın 8-də ermənilər hücuma keçərək müsəlman məhəllələrini yandırmağa başladılar. Vali əhaliyə Vanı tərk etmək haqqında əmr verdi. 1915-ci ilin may ayının 15-də Van boşaldılmağa başlandı. Şəhərin boşaldılması erməniləri daha da ruhlandırdı. Gecə vaxtı hücuma keçən ermənilər xalq tərəfindən güclü müqavimətə rast gəldiklərindən böyük itkilərlə geri çəkilməyə məcbur oldular.

Mayın 17-də türk əsgərləri Vandan geri çəkildilər, bundan sonra erməni əsgərləri boşaldılmış müsəlman məhəllələrini yandırmağa başladılar. Bunun ardınca rus ordusu Vana daxil oldu. Ermənilər Vana doğru irəliləyən rus bölmələrinə yol göstərmişdilər. Vanda bir jandarm taborunun qalmasından istifadə edən ermənilər 17 may 1915-ci il tarixində Vanı bütünlüklə işğal edərək türk

məhəllələrini tamamilə yandırmış, sakinlərini öldürmüş və şəhəri sevinclə ruslara təslim etmişlər. Ermənilər Van şəhərindən 10.000, ətraf kənd və qəsəbələrdən isə 20.000-ə qədər mülki adam köçürmüşlər. Van bölgəsini ermənilərdən təhvil alan ruslar Bitlisə doğru irəliləyərkən bu şəhərdə Vandan, Muradiyədən, Ərcişdən, Adılcevazdan və Əhlətdən köçmüş türklər ac və səfil vəziyyətdə Diyarbəkirə doğru köçməyə başladılar. Erməni dəstələri bu köçkün türklərə hücum edərək Bitlis dərəsini müsəlman qanı ilə doldurmuşdular [146, s.37-41]. Van valisinin Osmanlı ordusu Baş Komandanlığına göndərdiyi 27 may 1915-ci il tarixli raportunda deyilirdi: "Ermənilərin bu bölgədəki insan qəssablığı isə dövlət qurumlarının ərazini tərk etdikdən bir saat sonra və rus hərbi birləşmələrinin şəhər mərkəzinə girmələrindən iki gün əvvəl başlamışdı. Bu iki gün ərzində baş verən faciəli hadisələr məzlum müsəlman xalqının qara bəxtini artıqlaması ilə doldurmuşdu. Hər hissəsi dərin bir kədərlə yazılan qeyd dəftərinin qadınlara aid hissəsi, insanlığın ruhunu qorxudan, titrədən və nifrət etdirəcək bir alçaqlığın nümunəsidir. Ataların öz əli ilə övladlarının boğub öldürməsini məcbur edən səhnələrin alçaqlığı vicdanlarda yaradan təsirin ifadəsini sözlə anlatmaq mümkün deyil. Ermənilər bu hərəkətləri ilə islamı deyil, islamiyyəti təhqir etmiş və müsəlmanlığın əlaməti olan ağrəngli əmmaməsi olan hər bir adamı ağlagəlməz işgəncələrlə öldürmüşlər. Qəza mərkəzindən başlayaraq kəndlərdəki məscidləri tövləyə çevirmiş, bütün məktəblilərə zorla xristianlığı qəbul etdirmişlər. Ermənilərin dinə və müsəlmanlığa qarşı törətdikləri təhqirlərin sərhədi yoxdur. Şahid olduğum hadisələri şişirtmədən və bir kəlmə belə əlavə etmədən qələmə aldım" [23, I cild].

Şəhəri ələ keçirən ermənilər dərhal "Müvəqqəti hökumət" yaratmış və türklərin burada yaşamaq haqlarını tanımaqdan imtina etmişlər. Dünyanın bir çox ölkələrində yaşayan ermənilər hadisəni təmtəraqla qeyd etdilər. Bir çox qəzetlərdə böyük məqalələr dərc olunmağa başlandı. Ruslarla birgə olduqlarını, «müstəqil Ermənistan»ın əsasını qoyduqlarını, erməni millətinin Qərb mədəniyyəti və xristianlıq dünyası üçün etdiyi xidmətin əvəzində rus, ingilis və fransızlar tərəfindən millətlər arasında layiq olduqları yeri onlara veriləcəyini elan etdilər. Van vilayətinin artıq ermənilərin vətəni olduğunu, bundan sonra rus bayrağının yanında erməni bayrağının da dalğalanacağını, Van şəhərinin işğal edilməsi ilə əlaqədar ermənilər yaşayan bütün ölkələrdə qələbə ziyafətlərinin verildiyi barədə erməni qəzetləri müxtəlif məqalələr çap etdirdi. Ermənilərin çap etdirdiyi qəzet və jurnallar bu dövrdə türklərə qarşı çağırışlarla dolu məqalələr və müraciətlər verirdi (Əlavə XXIX). Ermənilər bütün dünyaya "Xəyal reallaşır" başlığı altında geniş məlumat yaydılar. Bu məlumatda yazılırdı: «15 aprel 1915-ci il tarixindən başlayaraq erməni silahlıları Aramın komandanlığı ilə üsyan etdilər və 30 gün mübarizə apardıqdan sonra Van ərazisini nəzarət altına almışlar. Bir tərəfdən rus ordusunda xidmət edən erməni könüllü diviziyası Vana gəlmək istəyir, digər tərəfdən Hamazasp, Dro, Xaço kimi erməni komandirləri Vana hücum etmək üçün rus komandanlığından icazə almağa cəhd göstərirdilər. Erməni komandirləri Vana

yaxınlaşarkən burada məskunlaşan minlərlə erməni onları təntənəli surətdə qarşıladı. Ən başda isə xüsusi geyimli keşişlər gəlirdilər. Beləcə Van şəhəri müsəlmanlardan və türklərdən təmizləndi» [100, s.270].

Van vilayətinin rəhbəri təyin edilmiş Aram Manukyan 1915-ci ilin 8 may tarixində erməni xalqına müraciət edərək demişdir: "Bu tarixi an ermənilər üçün başlanğıc olmalıdır. Anadolunun şərq vilayəti olan Vanda erməni ideyalarının daim yaşamasına çalışaq və böyük bir sevinclə hökumətimizə kömək edək" [Vanda çap edilən «Aşehedank» qəzeti, 8 may 1915-ci il].

Vanın işğalından bir neçə gün qabaq baş komandan əvəzi Ənvər paşa daxili işlər naziri Tələt paşaya 2 may tarixində aşağıdakı səpkidə yazı göndərmişdir: "Van gölü ətrafında və Van valiliyində məlum yerlərdəki ermənilər üsyanlarını davam etdirmək üçün daima səfərbər və hazır haldadırlar. Bu vəziyyətdə olan erməniləri dağıtmaq və üsyan yuvasını məhv etmək fikrindəyəm. 3-cü ordu komandanlığının verdiyi məlumata görə, ruslar 20 aprel 1915-ci ildə öz sərhədləri daxilindəki müsəlmanları bizim sərhədlərimiz daxilinə qovmuşlar. Həm buna cavab olaraq və həm də yuxarıda göstərilən səbəblərə görə, ya bu erməniləri ailələri ilə birlikdə rus sərhədləri içinə göndərmək, ya da bu erməni və ailələrini Anadolu daxilində müxtəlif yerlərə dağıtmaq lazımdır. Əgər bir zərər yoxsa, üsyançıların ailələrini və üsyan bölgəsindəki əhalini sərhədlərimiz xaricinə göndərmək və onların yerinə xaricdən gələn müsəlmanları yerləşdirmək istəyirəm" [57].

## 2.5. Rus, ingilis, fransız qoşunları tabeliyində olan erməni silahlı qurumlarının hərbi fəaliyyəti

Ermənilərin katolikosu 1914-cü ilin iyununda Vorontsov-Daşkova göndərdiyi məktubda yazırdı: "Xalqın sevinci günü-gündən artaraq əhalinin bütün təbəqəsini əhatə etmişdir. Ermənilərin vəziyyətinin yaxşılaşdırılması yolunda Avropa dövlətləri ilə birlikdə Rusiya dövlətinin böyük səylərinə baxmayaraq, millətimizin vəziyyəti daha da pisləşmişdir. ...yalnız Rusiyanın millətimizin fiziki və mədəni inkişafımıza zəmin ola biləcəyinə inanırıq [94, s. 294]. Katolikosun məktubunu Rusiya Nazirlər Şurasına göndərən Vorontsov-Daşkov bu yazıya öz münasibətini və təkliflərini aşağıdakı şəkildə bildirmişdir: "Mənim və yerli qubernatorların qənaətləri budur ki, Rusiya üçün bu ağır zamanda ermənilər böyük vətənpərvərlik göstərərək səfərbərlik haqqında əmri məmnuniyyətlə qarşılamış və könüllü olaraq orduya gəlirlər. Bir çox ermənilər təəssüflə bildirirlər ki, onları döyüşmək üçün qərb cəbhəsinə göndərirlər, halbuki onlar ümid edirdilər ki, türk cəbhəsinə göndəriləcəklər" [94, s.294].

Rusiya Nazirlər Şurasından general-qubernatora göndərilən 24.11.1914 tarixli təlimatda deyilirdi: "Ermənilərə zəmanət verərək bildirməlisiniz ki, Rusiya Türkiyə ilə razılığa gələrsə belə bu, heç bir halda «Erməni məsələsi»nin həllində öz

mənfi təsirini göstərməyəcək. Bununla yanaşı, ermənilərlə əlaqələrinizi elə qurmalısınız ki, istədiyimiz anda onlardan istifadə edə bilək" [173, s.47]. Təlimatı əldə rəhbər tutan Vorontsov-Daşkov ermənilərə müraciət edərək açıq-aydın göstərirdi ki, ruslar işğalçı məqsədləri ilə Osmanlı torpaqlarına soxulmuş və tutduqları ərazilərdə erməni dövləti yaradacaqlar (Əlavə XXXIII). Müharibənin başladığı ilk günlərdən etibarən rus ordusuna erməni könüllülər nəinki Rusiyadan, həmçinin dünyanın başqa ölkələrindən də gəlməyə başladılar. Misirdən, Fransadan, ABŞ-dan və Kiprdən könüllü dəstələrə qoşulmaq üçün müraciətlər gəlir və müxtəlif maliyyə yardımları göndərilirdi.

1915-ci ilin fevralın 22-də Misirdə olan Rusiya nümayəndəsi Smirnov XİN-ə yazırdı: "Erməni partiyası «Hnçak»a müraciət edərək bildirir ki, Amerikadan, Fransadan və Misirdən toplaşan 1000-ə yaxın erməni Rusiya ordusu tərkibində Qafqaz bölgəsində döyüşmək üçün öz xidmətlərini təklif edirlər" [126a, s.10]. Martın 6-da Sofiyadakı Rusiya nümayəndəsi XİN-ə yazırdı: "Yanıma gah Romada, gah da Parisdə yaşayan ermənilər və "Ermənistan haqqında" («Pro Armenia») qəzetini nəşr etdirən erməni komitəsinin başçısı Vardanyan gələrək Kilikiyada yaşayan ermənilərin türklərə qarşı döyüşlərdə iştirak etməsinə icazə verməyimizi komitə adından xahiş edirdi. Komitə Amerikada və digər ölkələrdə yaşayan ermənilərin xidmətlərindən istifadə etməyi təklif etdi. Lakin bunun üçün o şərt kimi irəli sürürdü ki, Amerikadan ermənilərin gələ bilmələri üçün oraya gəmi göndərilməli və onlar silahlandırılmalıdır. Onlar 15 minə yaxın bir qüvvə ilə «Ermənistan»a gəldikdən sonra yerli ermənilər də onlarla birləşəcəklər" [126a, s.15]. Könüllülərin ilk dəstəsi (komandir-muşlu M.Panduxt) 1915-ci ilin martın 12-də ABŞ-dan çıxdı. Onlar Arxangelskə gələrək oradan Qafqaz cəbhəsinə yollandılar. 1915-ci ilin mayın 10-da 2-ci dəstə (komandir-A.Mnasakanyan), noyabrın 21-də 3-cü dəstə (komandir-S.Şagen) gəldi [94, s.294]. 1915-ci ilin noyabrın 15-də Rusiya nəqliyyat naziri XİN-ə göndərdiyi raportunda yazırdı: "Sizin 10 dekabr 1914-cü il 876 №-li yazınıza cavab olaraq bildirirəm ki, ...razılaşmaya görə xaricdə yaşayan ermənilərin türklərə qarşı döyüşmələri üçün dövlət dəmiryolları vasitəsi ilə III və ya IV növ vaqonlarda biletsiz gəlmələrinə imkan yaradılacaq. Bir şərtlə ki, gələn ermənilər Sofiyadakı Rusiya nümayəndəsindən arayış təqdim etsinlər" [126a, s.10].

1915-ci ildə xaricdə yaşayan ermənilər öz könüllü ordusunun ərzaq, geyim və maliyyə tələbatını ödəmək üçün 1.444.000 rubl, Rusiyada yaşayan ermənilər isə 1.020.000 rubl maliyyə toplayaraq ordunun ehtiyacı üçün göndərmişdilər. Sonralar bu cür maliyyə yardımlarının toplanması davam edirdi.

Müharibə ərəfəsində 4 könüllü drujina formalaşdırıldı. 1914-cü ilin sonuna qədər bütün drujinalar silah, sursat və ərzaqla təmin olunmuşdular. Erməni drujinaları aşağıdakı istiqamətlərdə döyüş əməliyyatlarında iştirak edəcəklər: 1-ci drujina - İran-Başqala-Van; 2-ci drujina - İğdır- Bəyazid-Berkri-Van; 3-cü drujina - Kağızman-Ələşgirt-Malazgirt-Bitlis; 4-cü drujina - Sarıqamış-Qars-Orzan-

Köprüköy-Ərzurum.

1-ci drujina (komandiri Andranik) cəbhənin sol cinahına komandan Çernozubovun əmrinə göndərildi. Drujina noyabr ayından dekabrın 18-ə kimi Qoturun, Sarayın, Asurlinin alınmasında iştirak etdi. Dekabrın sonlarında drujina dincəlmək və sıralarını tamamlamaq üçün Culfaya gəldi. Sonra drujinanı İranda yerləşən rus qüvvələrinin gücləndirilməsi üçün Təbriz və Sofyan ətrafına göndərdilər. Martın 2-də drujina Xoy şəhərinə çağırılır, martın 4-də Nazarbekovun komandanlığı altında olan diviziya da Duzdağ ətrafında baş verən döyüşlərdə iştirak edir. Andranikin drujinası mayın 5-8 arasında 2-ci Qafqaz diviziyası ilə birlikdə Başqalanı ələ keçirir. Bundan sonra drujina Van şəhərinə daxil olur [94, s.299]. Arçavax, Əhlət, Datvan ərazilərində baş verən döyüşlərdən sonra 4-cü Qafqaz korpusunun komandanı general Oqanovski Andranikin drujinasına 500 kazak, 2 top və 2 puleymot verdi ki, bu drujina Bitlis şəhərini qəfil və sürətli hücumla ələ keçirsin.

2-ci drujina 1914-cü ilin noyabrında İğdır-Bəyazid-Berkri-Van istiqamətində döyüşmək üçün general Nikolayevin əmrinə göndərildi. Drujina Təpəriz aşırımında, Van ətrafında, Ələşgirt düzənliyində, Şitak və Moks döyüşlərində iştirak etdi.

3-cü drujina 1914-cü ilin sentyabrın 20-dən oktyabrın 31-dək Kağızmanda formalaşdı və general Prejevalskinin əmrinə verilərək Ələşgirt tərəfə göndərildi. Lakin bu drujina silahla tam olaraq təchiz edilmədiyindən dərhal döyüşlərü girə bilmədi. Drujina sürətlə tam təchiz edildiyindən artıq noyabrın 4-də Dəlibaba kəndinə gələrək polkovnik Kulebyakinin əmri ilə hərbi əməliyyatlara başladı. Sonralar drujina Endek, Tlik-Dağ, Pinoduz, Ordum, Kapanak, Pirsxan, Xosrovverən, Alagöz ətrafında, eləcə də Van ətrafında baş verən döyüşlərdə iştirak etmişdir [94, s.301].

4-cü drujina Sarıqamışa general İstominin əmrinə göndərildi. Drujina noyabrda döyüşlərə girərək Levasur kəndini alaraq Eqrik kəndi istiqamətində irəliləməyə başladı. Lakin yeni əmr alan drujina İstominin mühafizəçi dəstəsi vəzifəsini icra etməyə başladı. Dekabrın 22-də hücuma keçərək Sarıqamış-Menderek xəttini ələ keçirdi. 1915-ci ilin may-iyun aylarında isə Vostan, Zevan, Sorb kəndlərinin ələ keçirilməsi uğrunda döyüşlərdə iştirak edir [94, s.302].

Döyüşlərdən sonra könüllü drujinalar dincəlmək və öz sıralarını yenidən artırmaq məqsədi ilə İğdır və İrəvan ətrafına qayıtdılar. 1915-ci ilin yanvarın sonu fevralın əvvəllərində 4-cü Qafqaz Korpusunun komandiri general Oqaryovski könüllü drujinalarının yenidən təşkilatlanmasını təklif etdi. Təklifə görə hər drujina (əvvəlki adı xumb-«qrup») 1000 nəfərdən ibarət olmalıdır. Bunlardan 750 nəfəri döyüş hazırlığı olan əsgərlərdən, 250 nəfəri isə müxtəlif xidmətlərdə istifadə olunacaq əsgərlərdən təşkil edilməli idi. Hər bir drujinaya kəşfiyyat, xüsusi təyinat və əlaqə yaratmaq üçün 100 nəfərlik atlı süvari verilirdi. Yenidən təşkilatlanmaya görə hər bir drujına öz ərzağını, dəftərxanasını, tibbi xidmətini özü təşkil etməlidir.

Drujinaçılar üçün ümumi bir hərbi geyim olacaqdı. Paqonlar yaşıl rəngdə olub üzərində A.D. (Armyanskaya Drujina) yazılacaqdı. Yüksək komandanlıq hər bir drujinanın tərkibinə ermənilərdən olan aşağı rütbəli zabitləri ezam edəcəkdi. Komandanlıq, eyni zamanda bölük komandirliyinə və ya təlimatçı olaraq yüksək rütbəli zabitlərin ezam edilməsinə də razılıq vermişdi. Drujinaların sıralarını doldurmaq üçün ehtiyatda olanların təlim və tədrisinin keçirilməsi nəzərdə tutulmuşdu.

Layihə Vorontsov-Daşkova təqdim edilmiş, o da fevralın 24-də onu təsdiq etdirmək üçün Petroqrada göndərmişdi. Baş komandan layihəni təsdiq etdikdən sonra onun reallaşdırılması üçün lazımi tədbirlərin həyata keçirilməsinə başlandı. 1915-ci ilin yanvarın 21-də Baş komandanlıq tərəfindən verilən əmrə əsasən, 5 erməni xumbu yaradılmalı idi. 1915-ci ilin aprelin 6-da bu xumblar ləğv edilərək onların əsasında 4 erməni drujinası yaradıldı. Mayın 7-də isə baş komandan tərəfindən verilən əmrə görə daha 5 erməni drujinası formalaşmalı idi. Beləliklə, 1915-ci ilin may ayında erməni drujinalarının sayı 9-a çatmışdı. 1915-ci ilin aprel ayında erməni drujinalarının ştat cədvəli təsdiq edildi. Hər bir erməni drujinası 4 tabordan formalaşacaqdı. Hər tabor 234 nəfərdən ibarət idi. Drujinada 952 nəfər döyüş qabiliyyətli, 32 nəfər isə xidməti əsgərlər olacaqdı. Hər bir drujinada 71 nəfərdən ibarət kəşfiyyat qrupu, bunlardan 1 nəfər komandir, 6 nəfər isə aşağı rütbəli zabitlər olacaqdı. Bütün drujinalarda 4 nəfər usta olmaqla silah emalatxanaları yaradılacaqdı. Siravi əsgərdən başlayaraq hər bir rütbəli hərbçi üçün rütbə və tutduğu mövqeyə uyğun aylıq maaş və döyüş şəraitinə uyğun artırılmış maaş, ərzaq və paltar təminatı nəzərdə tutulurdu. Hər drujinada 36 yük arabası olmalıdır. Bundan başqa, kəşfiyyatçılar üçün 71 at veriləcəkdi. Beləliklə, ştat cədvəlinə əsasən hər bir drujinada 966 sıravi əsgər, 113 atın olması planlaşdırılırdı. 1915-ci ilin yayı üçün erməni könüllü drujinaları yeni ştat cədvəlinə əsasən, formalaşdırıldı. 1915-ci ilin yanvarında Kanakertdə biri Vardanın, digəri Avşaryanın komandanlığı altında drujinalar yaradıldı. Apreldə Erməni Milli Şurasının qərarına əsasən, 2, 3 və 4-cü drujinalar Vardanın drujinası ilə birləşdirilərək "Araratyan zoraxumb" drujinası yaradıldı. Drujinanın komandanı kimi Vardan təyin edildi. Aprelin 16-da bu drujina Eçmiədzinin mərkəzi meydanında toplaşaraq katolikosun xeyir-duasını aldı. Öz dualarında katolikos rus çarına və Rusiya dövlətinə erməni drujinalarının yaradılmasında və erməniləri azadlıq əldə etmək istəklərində hər cür yardım göstərdiklərinə görə təşəkkür edirdi [7, 1915 il, № 5, s.288-300].

1917-ci ilin iyunun 19-da baş komandan tərəfindən imzalanmış 480 №-li əmrə görə tərxis edilən iki erməni taboru əsasında alaylar yaradılırdı. Bu alayların yaradılmasının təşəbbüskarı olan Rusiya müdafiə naziri baş komandanlığa göndərdiyi raportda yazırdı: "Hesab edirəm ki, erməni batalyonlarının (tabor) daha da genişləndirilərək onların bazasında alayların yaradılması və daha sonralar inkişaf etdirilərək diviziyaların formalaşdırılması vaxtında qəbul edilmiş bir

qərardır" [94, s.324]. Xüsusi Qafqaz Komitəsinin üzvü Nazaryans avqustun 4-də Rusiyanın müdafiə nazirinə raport yazaraq erməni alaylarının 2 diviziya halında birləşdirilməsini təklif edirdi. Bu diviziyaların hər birində 4 alay və 3 tabor olmalı və bu diviziyalar bütün yardımçı hissələrlə və 2 piyada alayı ilə bərabər ordu korpusu halında birləşməli idi.

Qafqaz cəbhəsinin qərargah rəisi general-mayor Lebedinski tərəfindən Rusiya Müdafiə Nazirliyinə göndərilən vəsatət nəticəsində baş qərargah rəisi 1917-ci ilin sentyabrın 4-də 460 №-li əmr imzaladı: "Qafqaz cəbhəsi komandanının daxili imkanları hesabına 1910-cu ilin mayın 10-da təsdiq olunmuş ştat cədvəlinə uyğun olaraq erməni dağ atıcı batalyonu yaradılsın» [94, s.326]. Lebedinski sentyabrın 30-da baş qərargah rəisinə göndərdiyi raportunda yazırdı: "Erməni batalyonlarının iki alay şəklində formalaşdırılması bitmək üzrədir və maliyyə imkanlarına bağlı olaraq bu alaylar 3 batalyon şəklində olması planlaşdırılır. Qafqaz cəbhəsinin baş komandanının əmrinə əsasən, digər erməni atıcı briqadasının yaradılması üçün vəsatət qaldırıram. Baş komandanın №:540 əmrinə əsasən, yaradılmış erməni korpusu №:1 olduğundan yeni yaradılacaq korpus №:2 olacaq. Qafqaz cəbhəsinin baş komandanının vəsatətinə əsasən, mövcud olan 6 erməni alayı 2 briqadada yerləşdirilsin». Rusiya Ordusu baş komandanının 23.10.1917 tarixli, 785 saylı əmrində deyilirdi: 1. Qafqaz cəbhəsi baş komandanının əmrinə uyğun olaraq 2-ci erməni atıcı briqadası yaradılsın. 2. 1, 2 və 5-ci erməni atıcı alayları 1-ci erməni briqadasının tərkibinə daxil edilsin, 3, 4 və 7-ci erməni alayları isə 2-ci briqadanın əmrinə verilsin" [94, s.327]. Beləliklə, 2-ci erməni atıcı briqadasının yaradılması haqqında son əmr oktyabrın 23-də imzalandı. Noyabrın 17-də Qafqaz cəbhəsinin qərargah rəisi Baş Qərərgahdan teleqram aldı: "Baş Qərargah İdarəsi iki diviziyalı erməni korpusunun yaradılmasına icazə verir" [94, s.335]. Qafqaz cəbhəsi qərargahı erməni korpusunu aşağıdakı sxem əsasında yaradırdı: 1. İmzalanmış 480 №-li əmrə əsasən, yaradılmış 6 erməni alayı 8 alay şəklində, 12 batalyonu isə 24 batalyon şəklində yenidən təşkil edilsin. Yaradılmış 8 alay iki diviziya şəklində formalaşdırılsın. Diviziyalar aşağıdakı şəkildə təşkil edilsin: komandan və idarə heyəti, diviziya nəqliyyat vasitələri, sanitar-sarğı dəstəsi, dezinfeksiya dəstəsi, səhra tipli iki səyyar çörəkbişirmə kombinatı, 1 mühəndis bölüyü, 1 topçu briqadası. Göstərilən hərbi hissələr bir erməni korpusu halında birləşdirilsin. Bu korpus üçün yalnız ermənilərdən səfərbərliyə alınmaqla göstərilən hərbi hissələr yaradılsın: 3 və ya 4 eskadron alaylarından ibarət olan 1 atlı briqada, 1 divizion ağır artilleriya, 1 mühəndis alayı, radio-teleqraf taqımı və digər xidməti hissələr.

Petroqradda Oktyabr çevrilişi nəticəsində hakimiyyətə gələn Xalq Komissarları Soveti (Qeyd 6) də erməni hərbi hissələrinin yaradılması və inkişaf etdirilməsi işinə hərtərəfli köməklik göstərirdi. Milli məsələlər üzrə xalq komissarı İ.Stalinin 1918-ci il martın 18-də imzaladığı dekretdə deyilirdi: "Bütün inqilabi komitələrin nəzərinə çatdırılır ki, inqilabi erməni təşkilatları sərbəst olaraq erməni

hərbi dəstələrini yaratmaq səlahiyyətinə malikdir. Bu işdə onlara heç bir maneə yaradılmamalıdır. Yaradılan silahlı dəstələr erməni burjuaziyası hesabına maliyyələşdirilsin. Bütün inqilabi komitələr silahlı erməni dəstələrinin hərəkətinə və irəliləməsinə mane olmamalıdır. Cuqaşvili-Stalin" [111, s.139].

1917-ci ilin noyabrın 17-də Zaqafqaziya cəbhəsinin qərargah rəisi Lebedev Petroqrada "Səfərbərlik" şifrəsi altında aşağıdakı teleqram vurmuşdur: "Erməni korpusunun formalaşdırılmasını nəzərə alaraq Rusiyanın ehtiyatda olan digər hərbi hissələrindən erməni süvarilərinin və topçularının Tiflisdəki erməni korpusunun komandanlığına göndərməyinizi xahiş edirəm". Baş Qərargah İdarəsindən cavab teleqramında deyilirdi: "Qafqaz cəbhəsinin baş komandanının əmrinə əsasən, Erməni Milli Korpusu yaradılır. Bunu nəzərə alaraq ehtiyatda olan Qafqaz süvari alayı və topçu batareyasının erməni korpusunun əmrinə göndərməyiniz haqqında əmr verməyinizi xahiş edirəm" [125, s.148]. Dekabrın əvvəllərində Baş Qərargah İdarəsindən 1-ci Qafqaz divizion komandanlığına belə bir əmr göndərildi: "Əmrinizdə olan bütün erməni zabit və əsgərlərinin siyahısını tərtib edərək Tiflisə erməni korpusu komandanlığına göndərin. Bütün erməni zabit və əsgərlərinin 3-cü batareyaya köçürüb, bu batareyanı parkı ilə birlikdə erməni korpusunun əmrinə göndərin" [125, s.151]. 1918-ci ilin yanvarın 10-da Qafqaz cəbhəsinin baş komandanı general-mayor Lebedinskinin imzaladığı 1 №-li əmrdə erməni korpusunun tərkibində 2 erməni atıcı alayı, alay ştat cədvəlinə uyğun olan əlahiddə atıcı batalyonu, piyada ehtiyat batalyonu olmasını göstərirdi (Əlavə XXIII)

1918-ci ilin yanvarın 4-də Qafqaz cəbhəsi baş komandanının verdiyi əmrdə deyilirdi: "1. 1917-ci ilin dekabrın 12 və 22-də imzalanan № 167 və № 872 əmrlərə uyğun olaraq yaradılan 4 erməni atıcı alaylarından əlavə olaraq daha üç alay - Ərzincan, 2-ci Van və nəqliyyat yollarının mühafizəsi üçün əlahiddə alayı formalaşdırılsın. 2. Yuxarıda göstərilən 7 alaydan üç erməni əlahiddə briqadası yaradılsın. Qafqaz cəbhəsində aparılan hərbi əməliyyatların təcrübəsindən nəticə çıxararaq cəbhə komandanı erməni birləşməsinin yaradılmasını məqsədəuyğun hesab edirdi. Belə birləşmə 1918-ci ilin yanvarın 16-da 77 saylı əmrlə yaradıldı: a) Topçu batareyasını əhatə etməklə əlahiddə üç erməni atıcı briqadası; b) Əlahiddə erməni süvari alayı, əlahiddə erməni atıcı alayı, nəqliyyat yollarının və digər əhəmiyyətli obyektlərin mühafizəsi üçün əlahiddə erməni süvari alayı. Eləcə də, 1918-ci ilin yanvarın 18-də imzalanan əmrə əsasən, lazaret, sarğı və dezinfeksiya dəstələri digər birləşmələrdən alınaraq erməni korpusuna verilirdi. Bu əmrlə yaradılacaq bütün hərbi hissələrin qərərgahları təşkil edilirdi [116, s.206]. Beləliklə, iki ay - dekabr 1917-yanvar 1918-ci illər ərzində erməni korpusunun bütün hərbi hissələri formalaşdırılmışdı.

Cəbhələrdə döyüşlər davam edərkən ermənilər "Xəyali Ermənistan" uğrunda könüllü dəstələr təşkil edir, Rusiya ordusu ilə birlikdə Anadolunun işğalını davam etdirirdilər. Amerikada nəşr edilən "Hayastan" qəzeti 1914-cü il 25 iyun tarixli nömrəsində ermənilərin rus ordusunda xidmətlərini əks etdirən məqalədə

yazırdı: "Bu dəqiqədə rus bayrağı altında 80.000 erməni əsgəri, Avstriya və alman cəbhəsində isə 40.000 erməni əsgəri türklərə qarşı döyüşür. Dünyanın hər tərəfindən gələn minlərlə erməni könüllüləri müttəfiqlərin qələbəsi üçün Türkiyə-İran sərhədində qanlarını axıdırlar. Bunlar vətənin strateji əhəmiyyətli mövqelərini rus ordusunda xidmət etməklə müdafiə edirlər. Erməni müttəfiqlərinin mənafeyinə uyğun olan bu mövqe qələbə qazandıqdan sonra dəyərləndiriləcək və erməni məsələsinin həlli millətin əməllərinə uyğun gündəliyə gətiriləcək" [129, s.401].

Fransızlar ingilislərin ermənilər vasitəsilə də olsa öz nüfuz sahələri olaraq qəbul etdikləri Adana və İsgəndərunda hər hansı bir hadisə törətməsindən çəkinirdilər. Əslində fransızlar erməniləri özləri idarə etmək istəyirdilər. Osmanlı ordusu ilə döyüşlərə girmiş Çuxurova erməniləri bu döyüşlərdə məğlub olduqlarından Suriyaya doğru çəkilmiş və buradan Fransa dəniz qüvvələri ilə Port-Səidə getmişdilər. Mühacirlərin (5000 nəfər) yerləşdirilməsi üçün Fransa hökuməti İngiltərə, İtaliya, Rusiya, Əlcəzair hökumətlərinə müraciət etmiş, lakin rədd cavabı aldığından özü ermənilərdən osmanlılara qarşı istifadə etmək üçün Leqion d'Orient (Şərq Legionu) yaratmışdır. P.Nubar paşa Fransa ordusunun əmrinə veriləcək bu legionun yaradılmasına aşağıdakı şərtlərlə razılaşmışdı: 1. Erməni könüllüləri Avropa cəbhəsində döyüşmək üçün istifadə edilməyəcək; 2. Fransa və müttəfiqləri qalib gələrsə, Kilikiyada erməni müstəqilliyini tanıyacaq [98, s.39]. Bu razılaşmadan sonra P.Nubar paşa Qahirədəki oğluna teleqram göndərərək müttəfiqlərlə niyyət protokolu imzaladığını, çoxlu miqdarda könüllü toplanmasını, bu könüllülərə mənəvi dəstək verilməsini tövsiyə edirdi. Bu protokola görə, erməni könüllülərinə təlim vermək üçün fransız polkovniki Romiu komandanlığındakı təlimçi heyəti Qahirəyə gəldi. Ayrıca 3000 erməni könüllüsü də Kiprdə təlim keçirdi.

Fransanın Qahirədəki nümayəndəsi Port-Səiddəki erməni könüllülərinin təlim bazasına gələrkən bu könüllülərin osmanlılara qarşı istifadə olunması fikrini təsdiqlədi. Fransız donanmasının admiralı 1915-ci ilin 22 sentyabrında bu təlim mərkəzinə gələrək Fransa Dəniz Qüvvələri Nazirliyindən bu qüvvələrin Türkiyəyə çıxarılıb-çıxarılmayacağının təcili olaraq bildirilməsini istəyirdi. Fransız admiralının fikrincə, bu erməni könüllüləri bir təlim mərkəzində toplanmalı, silahlandırılmalı, təlim görməli və hərbi ehtiyac olduğunda yaxşı tanıdıqları Çuxurova əyalətinə göndərilməlidir. Əslində Misirdəki erməni komitəçiləri də Qahirədəki fransız nümayəndəsinə hazır olduqlarını bildirmişdilər. İngilislər ermənilərin Çanaqqalaya göndərilmələrini məsləhət bilirdilər. Ancaq fransızların təkidi ilə Osmanlı sualtı qüvvələrinin bazalarını müəyyən etmək və onları məhv etmək üçün bu legionerlərdən istifadə olunacağı bildirildi. Fransızlar Çuxurova və ətraf bölgələri işğal edərkən 10.000-ə qədər ermənidən fransız əsgəri kimi istifadə etmişdir. Bununla yanaşı, erməni qaçqınlarından ümumi sayı 70.000 olan dəstələr təşkil edilmiş və bunlardan Adana və ətrafında, 12000-lik dəstə Dördyolda, 8.000-lik dəstə Saimbəylidə, Osmaniyədə, Qədirlidə və Kozanda mülki şəxslərə qarşı

qırğınlarda istifadə olunmuşdu. Bütün bu müzakirələr aparılarkən Misirdəki ingilis silahlı qüvvələri komandanı bu legionerlərin Selanikə göndərilməsini istədi. Daha sonra, 1917-ci ildə onlar Fələstin, 1918-ci ildə Qafqaz cəbhəsinə göndəriləcək, 1919-cu ildə isə fransız qüvvələri ilə birlikdə Çuxurovanı işğal edəcəkdilər.

İngilislər üçün erməni legionu 1917-ci il Oktyabr inqilabından sonra Rusiyanın Qafqaz cəbhəsini boşaltmağa başlaması ilə əhəmiyyət kəsb etməyə başlamışdı. Rus imperiyasını formalaşdıran türkdilli xalqların da Rusiyaya qarşı qiyam qaldırmaları osmanlıların Qafqaz yolu ilə Orta Asiyaya doğru genişlənməsinin mümkünlüyü qiymətləndirilirdi. Bu dəyişikliklər Turan imperiyasının bərpa olunmasına doğru gedə bilərdi. Osmanlılar Qafqazdakı neft yataqlarına sahib çıxacaqları kimi, türklərin oyanışı digər Asiya millətlərinə də ilham verərək onları milli dirçəliş hərəkatına qaldıracaq, nəticədə Böyük Britaniya öz müstəmləkələrində milli azadlıq üsyanlarını yatırtmaq məcburiyyətində qalacaqdı. Bütün bu narahatçılıqlarla İngiltərə türklərin irəliyə doğru hərəkatlarının qarşısını almaq məqsədi ilə ermənilərdən istifadə etməyə başladı. Ermənilərin türklərlə müharibə vəziyyətində olduğunu və türk düşmənləri ilə əməkdaşlıq etdiyini arxiv sənədləri təsdiqləyir (Əlavə LXI).

İngiltərənin XİN-i yazırdı: "Ərəbçilik türk islamçılığına cavab olduğu kimi, «Erməni məsələsi» də həqiqətən turançılığa qarşı güclü bir tədbirdir. Rusların səhnədən getməsi ilə ermənilər bütün diqqəti özlərinə cəlb etməyə başladılar. İngilislərin «müharibə kabinet»i erməni əsgərlərinin Qafqaz cəbhəsinə gətirilməsi üçün Amerika hökumətinə bu ölkədəki erməni könüllülərinin Qafqaza göndərilməsində vasitəçi olmasını xahiş edirdi. Özü də Qafqazdakı erməni könüllü alaylarını yenidən təchiz edərək türk birliklərinə qarşı savaşdırırdı. Bütün bunlara baxmayaraq, İngiltərə ermənilərə konkret nəsə etməkdən çəkinirdi.

# III FƏSİL

# I DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ QAFQAZDAKI HƏRBİ-SİYASİ ŞƏRAİTİN MÜRƏKKƏBLƏŞMƏSİNDƏ ERMƏNİ AMİLİNİN ROLU

## 3.1. 24 aprel 1915-ci il tarixli «Təhcir qanunu» və ermənilərin köçürülməsi

Şərqi Anadoluda erməni qiyamları başqa vilayətlərə də keçməyə başlamışdı. Türklərin asayişi qoruyan qüvvələri ermənilərin yaşadıqları yerlərdə axtarış aprarkən çoxlu miqdarda silah və sursat tapırdılar. Rus işğalından əvvəl bu ərazilər ermənilər tərəfindən zəbt edildiyindən dövlət qüvvələri bu ərazilərə uzun müddət idi ki, girə bilmirdi. Artıq dövlətə ağır zərbə olan bu vəziyyət bütün bölgənin nəzarətdən çıxmasına səbəb ola bilərdi. Osmanlı hökuməti bu hadisələrin qarşısını almaq üçün gördüyü tədbirlərlə yanaşı, erməniləri başqa yerlərdə məskunlaşdırmaq üçün köçürməyə başlamışdı. Van vilayətində baş verən qiyam məcburi yerdəyişmə əməliyyatını sürətləndirdi. Sarıqamışdakı rus qələbələri daha genişlənir və türk qaçqınları dalğavari halda qərbə doğru köçürdülər. Yaranmış şərait ermənilərə qarşı qəti tədbirlərin alınmasını tələb edirdi.

Erməni komitələrinin liderlərinə xəbərdarlıqlar göndərilmiş və göstərilmişdir ki, bu hallar davam etdiyi təqdirdə tədbirlər görüləcəkdir. Lakin bu cür xəbərdarlıqların verilməsinə baxmayaraq, komitələr və Patriarxlıq öz qiyamçı fəaliyyətlərini nəinki azaltmış, əksinə dinc əhaliyə qarşı qırğınlar törədilməsinə davam etmişlər. Patriarxlıq başda olmaqla İstanbuldakı komitələr də heç nə olmamış kimi işlərinə davam edir və Müttəfiq Dövlətlərə Osmanlı ordusu haqqında məlumatlar ötürürdülər (Əlavə XXXIV).

Qiyamların qarşısını almaq, onların digər bölgələrə keçməməsi üçün tədbirlər görmək üçün Daxili İşlər Nazirliyi 24.04.1915-ci il tarixində komitələrin və cəmiyyətlərin bağlanması, onların sənədlərinin müsadirə edilməsi və rəhbərlərinin həbs edilməsi ilə əlaqədar əmr imzalamışdır. Bu sənəd «Təhcir qanunu» adı ilə tanınır. «Təhcir» ərəbcə köçmə mənasını verir. Bəzi tarixçilər bu kəlməni "deportasiya" mənasında işlədirlər, lakin təhcir ilə sürgün arasında fərq vardır: Təhcir fərmanı ilə yerini dəyişən şəxs köçdüyü yeni ərazidə sərbəst yaşaya bilər, sürgün edilən şəxs isə məhdud bir ərazidə, həbsxanada və ya düşərgələrdə qapalı şəkildə yaşamalıdır. Təhcir kəlməsinin yerinə «yerdəyişmə» kəlməsindən istifadə etmək olar. Bu fərmanla komitələr bağlandıqdan sonra Osmanlı dövləti millətçiliyi ifrat dərəcəyə çatdıran Patriarxlığı separatçılıqda ittiham edərək ondan ayrı - seçkilik fəaliyyətinə son verilməsini tələb etmişdir.

Erməni komitələrinin özbaşınalığının artmasını görən Osmanlı hökuməti 24.04.1915 tarixində erməni komitələrinin bağlanması, onların liderlərinin və fəal üzvlərinin həbs edilərək hərbi məhkəməyə verilməsinə qərar verdi. Yaşadıqları

ərazilərdən qiyamçı ermənilərі daha təhlükəsiz yerlərə göndərilməsi əmr edilirdi (Əlavə XXXV). Bu qərar ermənilərin Bitlis, Ərzurum, Sivas, Adana, Maraş və Hələbdə törətdikləri üsyanların və türkləri öldürmələrinin qarşısını almaq üçün bir müdafiə tədbiri idi. Sənədlərdən göründüyü kimi, hökumət müsəlman və erməni əhalisinin bir-birini öldürməməsi üçün müxtəlif tədbirlərə əl atır. Hökumətin verdiyi bu təlimata uyğun olaraq 26.04.1915 tarixində bütün hərbi birləşmələrə əmr göndərmişdir: "Baş Komandanlıqdan Müdafiə Nazirliyinə 1711 №-li yazı; «Hnçak», «Daşnak» və bu kimi komitələrin istər İstanbulda, istərsə də başqa bölgələrdə mövcud şöbələri dərhal bağlanması, sənədlər müsadirə olunması, komitələrin rəhbərləri və fəal üzvlərinin həbs edilməsi, lazım bilinən yerlərdə silahların axtarışının aparılması, şübhəli şəxslərin məhkəməyə verilməsi hökumət tərəfindən qərarlaşdırılmışdır. Baş komandan vəzifəsini icra edən Ənvər, 13 Nisan 1331 (26.04.1915-ci il)» [45a]. 24.04.1915-ci il tarixində erməni komitə mərkəzlərinin bağlanması və komitəçilərin dağıdılması ilə yanaşı, 16-55 yaş arasındakı ermənilər xaricdən ölkəyə gələ bilmədiyi kimi ölkədən xaricə də gedə bilməyəcəklər; ermənilər məlumatlarını türk dilində yazacaqlar; yeni məktəblər açılmayacaq, erməni uşaqları dövlətin rəsmi məktəblərində təhsil alacaq, vilayətlərdə çap etdirilən erməni qəzetləri bağlanacaq [27, s.223].

24 aprel qərarının «soyqırımı» qərarı olmayıb, müdafiə tədbiri olduğunu həbs olunan ermənilərin sayından müəyyən etmək olar: qərara əsasən, İstanbulda cəmi 235 nəfər həbs edilmişdir [116, s.213]. Bu qədər erməninin həbs olunduğu halda 24 aprel tarixinin ermənilər tərəfindən «soyqırımı» tarixi olaraq nümayiş etdirmələri həqiqəti nə dərəcədə təhrif etdiklərini araşdırmaq baxımından çox vacibdir.

2.05.1915-ci il tarixində Baş Komandanlığın DİN-ə göndərdiyi yazıda 24 aprel qərarının komitələr üçün bir xəbərdarlıq olduğunu ermənilər tərəfindən başa düşülmədiyini göstərirdi. 2049 M saylı məxfi yazıda deyilirdi ki, Van gölü ətrafında ermənilər yeni qiyama hazırlaşır, rusların yeni yürüşü təhlükəli olduğundan erməniləri ailələri ilə birlikdə köçürmək lazımdır (Əlavə XXXVI). Baş Komandanlığın bu fikirlərinin nə dərəcədə doğru, lakin gecikmiş bir qərar olduğunu Van qiyamı əyani olaraq sübut etdi [146, s.37-41].

Ermənilərin bir çox vilayətlərdə qiyam etməsi, xüsusilə Vanda türklərə qarşı soyqırımı törətmələri, böyük bir hissəsinin köçməyə məcbur edilməsi qarşısında onlara qarşı tətbiq edilən köçürmə siyasəti ən humanist bir hərəkət hesab edilə bilər. Əgər bu tədbir həyata keçirilməsəydi, erməni-rus əməkdaşlığı davam edər, bu ərazidə yaşayan xalq ermənilərə qarşı cavab tədbirlərinə başlaya bilərdi. Buna görə də 26 may 1915-ci ildə Baş Komandanlıq DİN-ə aşağıdakı təklifləri verdi: "Ermənilərin Şərqi Anadolu vilayətlərindən, Zeytun və buna bənzər yerlərdən Diyarbəkir vilayətinin cənubuna, Fərat çayı vadisinə, Urfa, Süleymaniyyə ətrafına göndərilmələri şifahi olaraq qərara alınmışdır". Ermənilərin yenidən qiyam təşkilatlarını yarada bilməmələri üçün onların sayı köçdükləri yerdə türklərin

sayından 10% artıq olmamalıdır; ermənilər məskunlaşmamış ərazilərə köçürülərsə, burada yeni yaradılacaq kənddə evlərin miqdarı 50-dən çox olmamalıdır; Köçürülən erməni ailələrinin heç bir şərtlə yaxın yerlərlə evlərini dəyişdirmək hüquqları yoxdur [65a].

Bu təkliflər əsas götürülərək Osmanlı hökuməti tərəfindən əvvəlcə müvəqqəti, sonra isə daimi olan qanun qəbul edilmişdir. Ona əsasən, «ordu, korpus və diviziya komandirləri, bunları əvəz edən şəxslər və müstəqil ərazi komandirləri ...silahlı qiyama qalxan olursa qarşısını almalıdırlar», həmçinin «casusluq və xainlik hiss etdikləri bölgə əhalisini fərdi və ya kütləvi halda məmləkətin digər bölgələrinə köçürərək orada məskunlaşdıra bilərlər». Qanun elan edildiyi gündən - 27.05.1915-ci ildə qüvvəyə minmişdir [27, s.224]. Qanunda "erməni" kəlməsi işlədilməmişdir. Bu qanun silahlı üsyan edənləri, düşmənlə əməkdaşlığa girərək casusluq və xainlik edənləri hərbi anlayışlarla müharibə ərazisindən uzaqlaşdırılmaq üçün qəbul edilmişdir.

24 aprel tarixində qəbul edilən qərarın həyata keçirilməsi üçün Osmanlı hökuməti ermənilərin fiziki və maddi təhlükəsizliyini qorumaq naminə xüsusi tədbirlərin görülməsi ehtiyacını hiss etmiş və bu qanunun çıxarılmasından 4 gün əvvəl köçürmə ilə əlaqədar tədbirləri açıqlamışdır. Bunlar DİN-dən Mosul, Ərzurum, Van, Bitlis, Adana və Hələb valiliyinə, Urfa, Zor, Maraş şəhərlərinə 23 may 1915-ci il tarixində göndərilən teleqramda yer alıb: «1. Köçürülən ermənilər müəyyənləşdirilmiş yerlərdə məskunlaşdırılmalı; 2. Köçürülmə və iaşə xərclərinin yerli idarəetmə orqanları tərəfindən təmin edilməli; 3. Köçürülən ermənilərin fiziki və maddi toxunulmazlığı ilə iaşələri üçün bütün tədbirlər görülməli; 4. Daşınan malların götürülməsinə icazə verilməli; 5. Bu köçürülmə müharibə qanunlarının icazə verdiyi yerlərdə tətbiq edilməlidir» [38].

Göründüyü kimi, türklər qiyamçı ermənilərin köçürülməsi zamanı onları müdafiə etmiş, onların fiziki və maddi toxunulmazlığını təmin etmişdir. Bütün bu tədbirlərin görülməsinə baxmayaraq, 24.05.1915 tarixində İngiltərə, Rusiya və Fransa hökumətləri Osmanlı hökumətinə rəsmi nota göndərərək ermənilərin köçürülməsində bütün məsuliyyəti Osmanlı hökumətinin daşıdığını bəyan edirdi. Notaya cavab olaraq Osmanlı hökuməti iddiaları əsla qəbul etmədiyini və ermənilərə qarşı «soyqırımı»n tətbiq edilmədiyini bildirdi. Qiyam olmayan və sakitliyin pozulmadığı yerlərdə heç bir təhlükəsizlik tədbiri görülməmişdir. Misal üçün, İstanbulda yaşayan 77.735 ermənidən yalnız 235 nəfər həbs edilmişdir. Müttəfiq dövlətlərin bu istiqamətdəki ittihamları açıq bir yalandır. Məsuliyyət bütünlüklə Müttəfiq Dövlətlər olan Rusiya, İngiltərə və Fransa hökumətlərinin üzərinə düşür [155a, s.98].

3-cü ordu komandanı Mahmud Kamil paşa 19.06.1915 tarixində Müdafiə Nazirliyinə göndərdiyi raportda qeyd edirdi ki, şərqdə bir çox ərazilər müharibə zonasına daxildir, burada yaşayan ermənilər düşmən tərəfinə keçir, quldur dəstələri yaradaraq yolları kəsir, buna görə onların Hələb və Mosula göndərilməsi

məqsədəuyğun hesab edilsin (Əlavə XXXVII).

1.05.1915-ci il tarixində DİN-dən Baş Bakanlığa (hökumətə) gələn raportda müharibənin davam etməsi, məntəqələrdə ermənilərin Osmanlı dövlətinə düşmən münasibət göstərərək mülki müsəlman əhalisinə qarşı soyqırımı tətbiq etməsi, qiyamçı dəstələrin sığınacaq kimi istifadə etdikləri kəndlərdən, Vandan, Bitlisdən, Ərzurumdan, Adanadan, Sisdən, Mərsindən, İsgəndərundan, Belendən, Antakyadan ermənilərin cənub vilayətlərinə göndərilməsi yer alırdı [101, s.37]. 30.05.1915 tarixində bölgələrə göndərilən təlimatında DİN ermənilərin məskunlaşdırılması, onların iaşə və tibbi məsələlərinin həllini tələb edirdi [154, s.85].

DİN tərəfindən əvvəllər verilmiş əmr və təlimatların icrasında səhvlərə yol verildiyindən və gələcəkdə bu cür səhvlərin təkrarlanmaması üçün 1.06.1915 tarixində «komitə rəhbərləri ilə ermənilərin ən fəal komitə üzvlərini həbs edərkən səhvən həbs edilənlərin azad olunması əmrini verdi [154, s.85]. Erməni əsgərlərinin orduya zərər verməsinin qarşısını almaq üçün 1 iyunda "erməni əsgərlərinin döyüş birləşmələrindən çıxarılaraq təchizat birəşmələrinə göndərilməsi və cəbhə bölgəsində məskunlaşmış ermənilərin İraqa köçürülməsi» barəsində əmr imzalandı [154, s.91]. Əsgərlər təchizat birləşmələrinə verilərkən erməni zabitləri hərbi sursat və nəqliyyat birləşmələrinə göndərilirdilər. Əhali kütləvi halda Diyarbəkirə köçürülürdü.

1921-ci ildə Almaniyada nəşr edilən "Deutsche Allegemeıne Zeitung" qəzeti yazırdı: "Ermənilərdən çox danışılır. Lakin şaxtalı qışda çoxlu sayda ölən türklərdən heç bəhs edilmir. Ermənilərin türklərə qarşı törətdikləri zülmlərdən və soyqırımından çox az danışılır. Məsələn, bir çox türk kəndləri əhalisinin gözləri ermənilər tərəfindən çıxarılmışdır. Bu cür düşmənə qarşı türklərin münasibəti necə olmalıydı?»

Osmanlı hökuməti başqa yerlərə köçürülən ermənilərin mülk və torpaqlarının qorunması ilə əlaqədar əmrlər imzalamaqla yanaşı, problemi kökündən həll etmək məqsədi ilə 10.06.1915 tarixində 34 maddədən ibarət "Müharibə və fövqəladə siyasi vəziyyətlə əlaqədar başqa yerlərə göndərilən ermənilərə aid mülk və torpaq sahələri haqqında təlimat" adlı sənəd hazırlamışdır. Təlimat ermənilərin mülklərini qeydiyyata almağı və mühafizə edilməsini, satışa qoyulanların pullarını köçkünlərə çatdırılmasını və s. məqamları nəzərdə tuturdu (Əlavə XXXVIII). Ermənilərin dövlət əleyhinə qiyam qaldırmalarına baxmayaraq, çıxarılan bütün qərarlar ermənilərin lehinə olmuş və bunu arxivlərdə qorunan sənədlər təsdiqləyir (Əlavə XXXIX).

Nazirlər Şurasından göndərilən teleqramda köçkünlər üçün dörd məskunlaşma bölgəsinin açıldığı göstərilirdi: 1. Şərqi Ərzurum və Trabzon sahillərindən gələnlər - Ordu, Girəsun, Ünyə, Samsun, və Kastamonuya; 2. Qərb və Cənubi Ərzurum ilə Cənubi Trabzondan Sivas-Tokat yolu ilə gələnlər - Ankaraya, Sivas-Kayseri yolu ilə gələnlər Kayseri və Niğdəyə; 3. Ərzurumun Şərqindən və

Cənub-Şərqindən gələnlər- Kemah yolu ilə Elazığ, Malatya və Maraşa; 4. Van və Bitlisdən gələnlər - Diyarbəkir, Urfa, Antəp və Adanaya göndərilmişdir [91, s.157].

7.06.1919 Osmanlı XİN-nin İngiltərənin Ali Komissarlığına göndərilən teleqramında deyilirdi: "Müharibə ərazilərindən köçürülən ermənilər müxtəlif yerlərdə işləmələrinə baxmayaraq, yenə də 276.075 nəfər 4,5 ay ərzində yeməklə təchiz edilmiş və bütün tələbləri ödənilmişdir. Müsəlman əhali isə müharibə ərazilərində həm rusların, həm də ermənilərin soyqırımına məruz qalaraq 1 milyon tələfat vermişdir. Sağ qalanların səfalət və çətinliklərinin qarşısını almaq üçün bütün imkanlardan istifadə edəcəyik. Evlərinə geri qaytarılan ermənilərə toxumluq, əmək alətləri, tələb olunan ərzaq, paltar və yataq dəstləri ilə təchiz edilməsinə çalışılmışdır" [44].

Bütün bunlara əsaslanaraq köçürmə zamanı görülən tədbirlərə bir daha nəzər salaq: köçürülmə zamanı köçürülənlərin təhlükəsizliyi təmin edildi; məskunlaşma üçün kreditlər verildi; hamilə qadınlar, xəstələr və onlara xidmət edənlər köçürülmədi; Livanda, Urfada, Şamda (Dəməşqdə) yetim evləri açıldı; yetim erməni uşaqları təhsillərini davam etdirmək üçün məktəblərə göndərildi; ehtiyaclarına görə əmlak və torpaq verildi; sağlamlıqları daima nəzarət altında saxlanıldı; yollarda köməklik məqsədi ilə iaşə məntəqələri açıldı; daşınan və daşınmaz əmlakları üçün təlimat yazılaraq təhlükəsizlik altına alındı; yerli rəhbərlər hər cür vəziyyətə görə məsuliyyətli oldular; köçkünlərin məskunlaşma yerlərinə daima müfəttişlər göndərildi; müxtəlif dövlətlərin təmsilçilərindən formalaşan komissiyalar vəziyyəti araşdıraraq hadisələri nəzarət altında saxlayırdılar [42, s.14].

1915-ci ilin mayından başlanan köçürülmə 1916-cı ilin 15 mart tarixində Tələt paşanın əmri ilə başa çatmışdır.

1915-ci ilin 21 dekabr tarixində Berlində çap etdirilən Erməni məsələsi" adlı kitabda deyilirdi: "Ermənilərin çox rahat yaşadıqları ölkə Türkiyə olmuşdur. Buna baxmayaraq, onlar nankorluq edərək ruslarla əməkdaşlıq etməyə başladılar. Heç bir zaman erməni soyqırımı olmamışdır. Türklər çox ciddi tədbirlər görmüşdülər. Köçkünlər arasında əzilmiş insanlar tapmaq olar, lakin bunun üçün Osmanlı hökumətini heç kim günahlandıra bilməz. Çünki dövlətin mənafeyi hər şeydən üstündür. Hökumət təkcə erməni qiyamçılarını deyil, Ərəbistanda qiyama hazırlaşan müsəlman əhalisini də cəzalandırdı. Burada məsuliyyət bütünlüklə ingilis, rus və ermənilərin üzərinə düşür" [49a].

Köçürmə zamanı ölüm halları olmuşdur. Ölənlərin bir hissəsi xəstəlikdən, bir hissəsi ağır iqlim, bir hissəsi ağır köçürmə şəraitindən, bir hissəsi də talançılıq məqsədi ilə edilən hücumlar nəticəsində həlak olmuşlar. Böyük bir hissəsi isə dəstələr şəklində rus ordusu tərəfinə keçərək türk ordusu ilə döyüşlər zamanı həlak olmuşlar. Osmanlı hökuməti ermənilərin ölümünə səbəb olanları məhkəməyə verərək təqsirkarları cəzalandırmışdır. Cəmi 1397 nəfər cəzalandırılıb, bunların 62

nəfəri ermənilərə qarşı qəddarlıq göstərdiklərinə görə edam cəzasına layiq görülmüşdür (Əlavə XXXX).

Osmanlı ordusunun qərargah rəisi vəzifəsində işləmiş general Bronşart Almaniyada nəşr edilən «Deutche Allgemeine Zeitung» qəzetinin 24 iyul 1921-ci il tarixli nömrəsində yazırdı: "Ermənilərin olduqları hər yerdə nəşr edilən məlumatlar, təhrikedici broşurlar, silah-sursat, partlayıcı maddələr və üsyan etmək üçün başqa ləvazimatlar artıq uzun müddətdən bəri hazırlanır, təşkilatları Rusiyanın köməyi ilə yaradılmış, qüvvətləndirilmiş və maliyyələşdirilmişdir. Əli silah tutan müsəlmanların hamısı türk ordusunda xidmətdə olduğu üçün ermənilər tərəfindən dinc əhaliyə qarşı qorxunc bir qətliam törətmək çətinlik yaratmırdı. Çünki cəbhədə ruslara qarşı döyüşən və sonra rusların arxasında qalan Şərq ordusu dinc sakinlərin yardımına gələ bilmədiyindən ermənilər bu bölgədəki müsəlman əhalisini «silib-süpürürdü». Gördüyüm erməni zülmləri iddia edilən türk zülmlərindən daha qəddar idi» [10, 24.07.1921-ci il, №: 184]. Hassan Arfa yazırdı: "1914-cü il Sarıqamış əməliyyatında rus ordusu türk torpaqlarını işğal etdikdən sonra Qafqaz və Türkiyə ermənilərindən yaradılan erməni könüllü taborları öndə irəliləməyə başladılar. Bu taborlardan birinə müsəlman qanına həris Andranik komandanlıq edirdi. Bu ermənilər kürdlər tərəfindən öldürülmüş yerlilərinin intiqamını almaq məqsədi ilə müxtəlif vəhşiliklər törədirdilər. 1915 və 1918-ci illər arasında Türkiyənin şərq vilayətlərində 600.000-dən çox kürdü qanına qəltan etdilər" [92, s.26].

Hal-hazırda ermənilər o dövrlərdə erməni əhalisinin soyqırımına məruz qaldığını və əhalinin sayının xeyli azaldığını iddia etməkdədirlər. Müharibə dövründə tutulan qeydlər, rəsmi rəqəmlər, kilsə qeydləri, xarici missionerlərin raportlarında göstərilən əhalinin sayına baxmayaraq, siyasətbazlar əhalinin sayını üç dəfə artırır və bununla da köçmə zamanı tələf olmuş adamların sayını şişirtməyə çalışırdılar. Rəqəmlər bəzən o dərəcədə şişirdilirdi ki, bu gün yaşayan ermənilərin sayını belə bir neçə dəfə ötüb keçir. Buna görə də əhalinin sayını göstərən rəsmi mənbələri araşdırmaqla həqiqəti üzə çıxarmağa çalışacağıq. Osmanlı dövlətində yaşayan erməni əhalisinin sayı ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu fikirlər tarix səhifəsində aşağıdakı şəkildə yer almışdır:

1. Erməni və xarici mənbələrə görə, Osmanlı dövlətində yaşayan erməni əhalisi: 1917 tarixli ingilis tarixçilərinə görə, 1.056.000 [....]; (1917 «Britannıca» toplusu); Patriarx Ormanyana görə, 1.579.000 [95a; 165]; Anadoluda 920.000; Kilikiya (Adana-Sis-Maraş bölgəsi) 180.000; Osmanlının digər bölgələrində 700.000. Beləliklə, cəmi 1.800.000 nəfər. Bununla bərabər alman rahibi J.Lepsiusa görə, 1.600.000; Cuinetə görə 1.045.018 nəfər; Fransanın statistik məlumatına görə 1.475.011; Patriarx Nerses Varjabedyana görə, 1.150.000 nəfər göstərilir [95a].

2. Osmanlı dövlətinin rəsmi sənədlərinə görə, erməni əhalisinin sayı: xarici tədqiqatçılar Osmanlı sənədlərini araşdırmadan başqa sənədlərə istinad etmiş və 1915-ci il köçürülmə qərarı verilməzdən əvvəl erməni əhalisinin sayını 4, bəzən isə

5 dəfə artıq göstərmişlər. Məsələn, 1878-ci ildə Berlin konfransında «müstəqil Ermənistan» tələb edən ermənilər Şərqi Anadoluda erməni əhalisinin 3.000.000 olduğunu iddia edirdilər, ancaq «Berlin müqaviləsi»ndə xristianlardan vergi yığılacağı haqqında qanun qəbul edərkən erməni əhalisinin sayı məsələsində Osmanlı hökumətinin göstərdiyi saya istinad edilmişdir.

Osmanlı dövlətində Statistika İdarəsi 1892-ci ildə yaradılmışdır. 1892-ci ildə Nuri bəy, 1892-1897-ci illərdə Fethi Franko adlı yəhudi, 1897-1903-cü illərdə Mkırtıç Şinabyan adlı erməni, 1903-1908-ci illərdə Robert adlı amerikalı, 1908-1914-cü illərdə Məhmət bəy bu vəzifəni icra etmişlər [147]. Osmanlı Statistika idarəsində xarici və əcnəbilərin işlədiyinə görə, sənədlərin saxtalaşdırılması və məlumatların səhv olmasına dair heç bir əsas yoxdur. Buna görə də Osmanlı statistik məlumatlarını əsas götürə bilərik: əhalinin ümumi sayına görə ermənilərin sayı -1893-cü ildə -1.001.465 nəfər, 1906-cı ildə -1.120.748 nəfər, 1914-cü ildə -1.221.850 nəfərdir. Müxtəlif tarixlərdə keçirilən statistik hesablama məlumatlarına diqqət etsək, I Dünya müharibəsi ərəfəsində Osmanlı dövlətində yaşayan ermənilərin sayının 1.250.000-ni keçmədiyini görürük.

Osmanlı dövlətində yaşayan əhalinin son siyahıya alınması 1914-cü ildə keçirilmişdir: erməni əhalisinin sayı 1.221.850 nəfər. Erməni əhalisinin köçürülməsi qanunu imzalandıqdan (27.05.1915) sonra 1927-ci ilə qədər Türkiyədə əhalinin siyahıyaalınma prosesi keçirilməmişdir. Bundan başqa, Osmanlı imperatorluğunun ərazisi olan İraq və Suriya bölgələri ingilis və fransızlar tərəfindən işğal edildiyindən köçürmə zamanı buradan nə qədər ermənin köçüb və ya qaldığı haqqında heç bir məlumat yoxdur.

A.Xatisyan ermənilərin köçməsi ilə əlaqədar yazırdr. "Qafqaza 345 min, Suriyaya 140 min, Yunanıstan və Egey adalarına 120 min, Bolqarıstana 40 min, İrana 50 min olmaqla cəmi 695 min nəfər köçmüşdür. Trabzon Konfransında (14.03.-14.04.1918) iştirak edən erməni liderlərindən Xatisov (sonralar Ermənistanın rəhbərlərindən olmuşdur) Osmanlı torpaqlarından Qafqaza 400 min ermənin köçdüyünü bildirirdi" [119, s.123]. R.Hovannesyana görə, ermənilər Suriyadan başqa digər ərəb ölkələrinə aşağıdakı şəkildə köçmüşlər: Liviyaya 50 min, Misirə 40 min, İraqa 25 min, Fransa və Amerikaya 35 min.

Beləliklə, köçürülmə qanunu tətbiq edilərkən Qafqaza 345 min, Suriyaya 140 min, Yunanıstan və Egey adalarına 120 min, Bolqarıstana 40 min, İrana 50 min, Liviyaya 50 min, Misirə 40 min, İraqa 25 min, Fransa, ABŞ və Avstriyaya 35 min olmaqla cəmi 845.000 ermənin köçdüyü aydınlaşır. Türk tədqiqatçıları tərəfindən bu rəqəm 800.000 göstərilir.

Bundan başqa, erməni və xarici tarixçilərin görmək istəmədikləri bir həqiqət vardır. Bu da ölən türklərin sayıdır. C. Mak-Karti yazırdı: "Ölən ermənilərin sayını göstərərkən ölən müsəlmanların sayını da göstərmək lazımdır. Statistiklər 2,5 milyon müsəlmanın öldürüldüyünü, bunların çoxunun türk olduğunu göstərirlər. Ermənilərin yaşadığı 6 vilayətdə 1 milyondan çox müsəlman ölmüşdür. Sivas

bölgəsi müharibə sahəsində deyil. Rus ordusu bu qədər irəliləməmişdi. Lakin Sivasta 180 min müsəlman ölmüşdü" [137a, s.25]. Tələt paşa yazırdı: "Şərq vilayətindəki müsəlmanların erməni vətəndaşlarımız tərəfindən heç də az olmayan sayda öldürülməsi danılmaz faktdır" [159, s.94].

"Tanin" qəzeti (11.09.1916) dövlət içində dövlət sayılan Erməni Milli Məclisi ilə patriarxları və rahibləri erməni komitələrinə köməklik göstərməkdə təqsirləndirir, "dini işlər bir tərəfə buraxılaraq siyasi proqramlar yazılmağa başlanmasında suçlandırırdı (Əlavə XXXXI).

Köçürmə zamanı müsəlman əhalisinin ehtimal olunan hücumlarına qarşı təhlükəsizlik tədbirləri görülməli və bu düşüncələrə malik olanların tapılıb məhkəməyə verilməsi tövsiyə olunurdu. Burada hər hansı bir səhvə yol verməmək üçün Daxili İşlər Nazirliyi köçürmənin məqsədini və tətbiqini bir daha göstərməyə ehtiyac duymuşdu. 29 avqustda Ankara, Konya, Adana, Hələb, Sivas, Diyarbəkir, Ərzurum valiliyinə, İzmit, Maraş, Urfa, Zor, Kütahya, Niydə və Kayseri bölgələrinə göndərilən təlimatda deyilirdi: "Ermənilərin yaşadıqları yerlərdən təyin olunan məntəqəyə köçürülməsində hökumətin əsas məqsədi - bu ünsürlərin hökumət əleyhinə fəaliyyət və ya təşəbbüs göstərmək, «Ermənistan hökuməti»nin təşkili haqqında təbliğatın yayılmasına imkan verməməkdir ...Ailələrə qarşı qətl və ya qarət məqsədilə başqa şəxslər tərəfindən hücum olduğu halda bu cinayətkarlar jandarm tərəfindən həbs edilərək məhkəməyə verilməli və qanuna uyğun olaraq ən sərt cəza almalıdır" [35].

Osmanlı imperiyasının parçalanmasına əmin olan Rusiya, Fransa və İngiltərə müharibənin 2-ci ilində parçalanan ərazilərin bölünməsini təşkil edən əsas xətti yaratmaq üçün danışıqlar aparmağa başladılar. Bu məqsədlə İngiltərə M.Syukesə, Fransa isə J.Piçota "fövqəladə səfir" adlarını verərək onları danışıqlar aparmaq üçün Peterburqa göndərdilər. Türkiyənin bölüşdürülməsi məsələsində «Ermənistan» mövzusu tez-tez xatırlanmış, müxtəlif layihələr nəzərdən keçirilmiş, «ermənilərsiz Ermənistan» yaradılması üçün bütün imkanlar səfərbər edilmişdir. Bu danışıqların sonu "Syukes-Piçot müqaviləsi"nin imzalanması ilə nəticələnmişdir. M.Syukes Ermənistanla əlaqədar fikirlərini açıqlayarkən demişdir: «Ermənilərin vəhşiliklərini gördükdən sonra «Ermənistan» bölgəsini Osmanlı imperatorluğunun hakimiyyətinə tabe etmək lazımdır, buna görə də «Ermənistan məsələsi»ni həll etmək üçün ermənilərə müstəqillik vermək olmaz, çünki onlar Qafqazda intriqalar yaratmağa başlayacaqdır; millətlərarası nəzarət altında erməni dövlətini yaratmaq bir çox intriqa və problemlərə mənbə olacaq; Rusiyanın tabeçiliyində erməni dövlətini yaratmaq başdan başa qiyamçı cəmiyyətlərlə dolu olan Qafqazdakı və İrandakı qiyamçı təşkilatlarla sıx əlaqəsi olan ərazilərin rus siyasi idarəsinə tabe etmək demək olardı. Əvvəllər erməni «Daşnak» komitəsinin üzvlərindən biri ilə görüşümdə mənə bunları demişdir: "Əgər ermənilərlə məskunlaşmış bütün ərazilər Rusiyaya verilərsə, o zaman Qafqazda, Azərbaycanda və Türkiyədəki qiyamçı cəmiyyətlər birləşərək güclənər və bu da ideal bir həll yolu

olardı". M.Syukes təklif etdi ki, Rusiya ermənilərin ən az məskunlaşdığı Ərzurum, Van və Bitlis bölgələrini alsın, Fransa «Ermənistan»ı tam alsın" (Əlavə XXXXII).

1916-ci ilin aprel ayında «Syukes-Piçot müqaviləsi» Peterburqda imzalandığı zaman Türkiyənin bölünməsindən Fransanın Aralıq dənizi ərazisi olan Kilikiya ilə birlikdə Sivas və Xarputa qədər olan bölgəyə sahib olmasını görürük.

### 3.2. Cənubi Qafqazda Ermənistan dövlətinin yaradılması

Osmanlı dövlətinin 1915-ci ildə gördükləri tədbirlərin nəticəsində erməni hadisələri bir qədər səngimiş, lakin 1917-ci ildən yenidən güclü bir hərəkata keçmişdi. 1917-ci ilin Fevral burjua inqilabından sonra Rusiyada hakimiyyətə gələn Müvəqqəti Hökumət erməni hərəkatını dəstəkləməkdə davam edirdi. Rusların Qərb cəbhəsində başlayan anarxiya Qafqaz cəbhəsində də öz təsirini göstərmiş və buradakı rus qüvvələri geri çəkilərək mövqelərini erməni və gürcü qüvvələrinə təhvil verməyə başlamışdılar. «Daşnaksutyun» hər şeydən əvvəl Osmanlı dövlətinin yıxılması istiqamətində çalışır və baş vermiş inqilabın buna mane olacağından ehtiyat edirdi. Daşnaklara görə, ruslar Qafqaz cəbhəsinin döyüş meydanından getməməliydi. 9 may 1917-ci ildə Müvəqqəti Hökumət tərəfindən «Türkiyə Ermənistanı» haqqında» adı altında imzalanmış qərarlar ermənilərin lehinə qəbul edilmiş oldu və Rusiya protektoratlığı altında "Türkiyə Ermənistanı" adlı dövlətin yaradılmasına yönəlmişdi (Əlavə XXXXIII).

Müxtəlif vəzifələrə təyin edilən ermənilər Müvəqqəti Hökumətə rəsmi müraciət edərək 150.000 erməninin qiyam baş vermiş ərazilərə köçürülməsi üçün icazə almış, bundan sonra Van və Bitlis bölgələrində ermənilər çoxluq təşkil etməyə başlamışlar. Rusların himayəsi altında olan ermənilər özlərini çox sərbəst aparır və planlaşdırdıqları fəaliyyətləri həyata keçirirdilər.

Rus ordusu Ələşgirt, Bəyazid, Van, Ərzurum, Trabzon və Ərzincan vilayətlərini işğal etmişdi və 1917-ci ilin sonlarında Rusiya-Türkiyə sərhədi 500 km məsafədə irəli çəkilərək Trabzon-Ərzincan-Xınıs-Van ərazilərindən keçirdi. İmzalanmış qərara görə, Rusiyanın işğalı altında olan Şərqi Anadolu torpaqlarının idarə edilməsinə ermənilərin cəlb olunması məqsədəuyğun bilinirdi. Çünki inqilabdan sonra ordu öz-özünü tərksilah etmiş və Rusiyanın daxilinə doğru geri çəkilməyə başlamışdı. Beləliklə, ruslar Şərqi Anadoludakı Van, Ərzurum, Bitlis və Trabzon vilayətlərinə Rusiyadan gələn ermənilərdən rəhbər təyin edir, ancaq ermənilərin onlara həvalə edilən bu vəzifələrin öhdəsindən gələ biləcəklərinə şübhə edirdilər. Nə edəcəklərini müəyyənləşdirmək üçün Erməni Milli Məclisi oktyabr ayında toplanmağa qərar verdi. 200-dən artıq nümayəndənin iştirak etdiyi bu konfrans Tiflisdə açıldı. Daşnakların çoxluq təşkil etdikləri bu konfransda sosialistlər, demokratlar və bəzi kiçik erməni fraksiyaları da iştirak edirdi. Konfrans əksəriyyəti «Daşnaksutyun»un üzvlərindən ibarət olan Milli Şuranın yaradılması haqqında qərar qəbul etdi. Şuranın ilk işi general Nazarbekyanın

komandanlığı altında erməni ordusunun təşkili haqqında qərarı qəbul etməsi oldu. Şura Kerenskiyə müraciət edərək Almaniya və Avstriya cəbhələrindəki erməni hərbi bölmələrinin Qafqaz cəbhəsinə göndərilməsini xahiş edirdi. Konfransda, həmçinin, aşağıdakı qərarlar qəbul edildi: Qafqazı və Şərqi Anadolu torpaqlarını əhatə edəcək "Böyük Ermənistan" yaratmaq; 25 nəfərlik "Erməni Milli Məclisi" təşkil etmək; veriləcək qərarları tətbiq etmək üçün 15 nəfər üzvü olan "Erməni Şurası"nı formalaşdırmaq [121, V bölmə, s.33-34].

1917-ci il bolşeviklərin Oktyabr çevrilişindən sonra hakimiyyətə gələn bolşeviklər ermənilərə qarşı münasibətlərində Müvəqqəti Hökumətin siyasətini davam etdirirdilər. Bolşeviklər müharibəni sona çatdırmaq və Osmanlı hökuməti ilə sülh imzalamaq qərarını verməklə, Türkiyə ermənilərinin öz taleləri haqqında özlərinin qərar verməsini təklif etdi. Beləliklə, rus ordusunun buraxılmasından sonra Andranik və Zavriyevin rəhbərliyindəki erməni könüllü alayları işğal altında olan Osmanlı dövlətinin 6, indiki Türkiyə Cümhuriyyətinin 9 bölgəsini, yəni Trabzon, Ərzurum, Ərzincan, Ağrı, Rizə, Gümüşxana, Van, Bitlis və Muş bölgələrini yeni yaradılmış Qafqaz seyminə birləşdirməyi planlaşdırmışdılar. Yaradılmış XKS-nin rəhbərləri rus-türk sərhədlərində müstəqil «Ermənistan»ın olmasına Rusiya mənafeyi nöqteyi-nəzərindən olduqca böyük əhəmiyyət verirdilər. Çünki belə bir «Ermənista»nın Rusiyaya bağlı olacağı hesab olunurdu. Bolşeviklər çar ordusu tərəfindən işğal edilmiş Şərqi Anadolu torpaqlarını ermənilərə təhvil verərək oradan tamamilə çıxdılar. Bu torpaqlarda erməni əhalisini yerləşdirdikdən sonra idarəetmə orqanları yaratması, erməni əhalisinin sayını artıraraq referendum vasitəsi ilə Rusiyanın himayəsinə keçməsi və Şərqi Anadolu torpaqlarının bolşeviklər tərəfindən ələ keçirilməsi planlaşdırılmışdı. Beləliklə, Rusiya həm erməni məsələsini Qafqazdan ixrac edəcək, həm də Şərqi Anadoluya sahib çıxacaqdır [129, s.334].

Ermənilərə vəd edilən bölgələrdə müstəqil «Ermənistan» dövlətini yaratmaq üçün bölgədəki müsəlmanların «yox olması» tələb edilirdi. 1917-ci ilin dekabr ayının 29-da (1918-ci ilin yanvarın 11-də) Rusiya XKS-nin «Türkiyədə yaradılacaq erməni dövləti haqqında» 13 №-li Dekreti imzalandı. Ona əsasən, ermənilərin «Türkiyə Ermənistanı»nın müstəqilliyini elan etmək haqqı" tanınır və bundan irəli gələn məsələlər həll edilirdi (Əlavə XXXXIV).

Türkiyə torpaqlarında yaradılacaq «Ermənistan» ərazisində «erməni xalq milisi» yaradılmağa başlandı. Müxtəlif ölkələrə və Türkiyənin daxili torpaqlarına köçən ermənilər Türkiyədə yaradılan «Ermənistan» ərazisinə qayıtmalı idilər. XKS türklərlə sülh danışıqlarına başladığı zaman bunları təkidlə tələb edirdi. Erməni Xalq Nümayəndələri Şurası «Türkiyə Ermənistanı»nda müvəqqəti hökumətin yaradılması haqqında Rusiya XKS-dən təlimat almışdı: "Türkiyə Ermənistanı»nın coğrafi sərhədlərini demokratik əsaslara görə seçilən erməni xalq nümayəndələri, Qafqaz işləri üzrə Müvəqqəti Fövqəladə Komissarlığın nümayəndələri ilə birlikdə müəyyənləşdirib təqdim edəcəklər" [25, s.394].

Ermənilərə daimi yardım etmək məqsədilə Moskvada erməni məsələsi üzrə daim fəaliyyət göstərən Komissarlıq yaradıldı (üzvləri: Varlam Avanesov, Vahan Teryan, Sarkis Lukaşin, Poqos Akinsyan, Artur Karinyan, Aşot Ohanesyan, Ayk Ovsepyan). Komissarlıq Ermənistan haqqında təkliflər, layihələr hazırlayaraq XKS-ə təqdim edirdi. Ermənilərin vəziyyətini öyrənmək və yerindəcə tələb olunan yardımları göstərmək üçün Komissarlığın 30 nümayəndəsi ermənilərin sıx toplaşdıqları ərazilərə ezam olundular. Artıq 1918-ci ilin yanvar ayında XKS-nə Komissarlığın təqdim etdiyi "Ermənilərə təcili təmənnasız yardım göstərmək" haqqında layihəni müzakirə edərək ermənilərə 6.194.784 rubl məbləğində təmənnasız yardım etmək haqqında qərar çıxardı. Eyni zamanda, XKS bütün yerli inqilabi komitələrə və sovet orqanlarına təlimat göndərərək erməni təşkilatlarının, könüllü dəstələrinin yaradılmasında, onların silahlandırılaraq «Ermənistan»a göndərilməsində köməklik göstərmələrini tələb edirdi.

XKS ilə Osmanlı dövləti arasında ilk münaqişə «Erməni məsələsi» mövzusu ətrafında baş verdi. Sovet Rusiyası işğal olunmuş torpaqlarda yaşayan xalqların öz müqəddəratını həll etmək üçün referendum keçirilməsini tələb edirdisə, türklər onlara "Erməni məsələsi" deyilən bir məsələnin olmadığını bəyan edir və Türkiyənin daxili işlərinə qarışmasına qarşı çıxırdılar. Çar Rusiyası tərəfindən zəbt edilmiş Osmanlı torpaqlarından çıxacaqlarını elan edən Sovet Rusiyası bu torpaqlarda erməni əhalisinin sayını artırmaq məqsədi ilə bu ərazilərə çoxlu erməniləri köçürmək niyyətindəydi.

25.12.1917-ci il tarixində XKS Sədri V.İ.Lenin Erməni Komissiyasının üzvü Teryanla görüşündə aşağıdakı səpkidə danışıqlar aparmışdır: Lenin: «Ermənilər nə istəyirlər? Rusiya ilə birlikdə olmağımı, yoxsa Rusiyadan ayrılmağımı?»Teryan: «Rusiya erməniləri ayrılmaq istəmirlər, amma Türkiyədəki ermənilər müstəqillik tələb edirlər». Lenin: «Bu necə olacaq? İki hissəyəmi bölünəcəksiniz?» Teryan: «Hələlik bu cür olacağını düşünürəm. Rusiyanın himayəsi altında idarə ediləcək hər iki Ermənistanın sonradan birləşəcəyinə əminəm» [156, s.93].

1917-ci ilin dekabrın 31-də XKS-nin milli məsələlər üzrə komissarı Stalinin imzaladığı «Türkiyə Ermənistanı» haqqında" məlumatı "Pravda" qəzetində dərc edildi. Yazıda «Erməni məsələsi»nin həll edilməsi üçün ermənilərə təkcə Sovet Rusiyası ilə sıx əlaqə qurmaları məsləhət bilinirdi. Mövzu ilə əlaqədar olaraq Stalin XKS-ə təkliflər göndərmiş və əhəmiyyətli qərarların qəbul edilməsi bildirilirdi. Məqalədə "Türkiyə Ermənistanı"nın öz müqəddəratını həll etməsinə dair bir qərar veriləcəyinə işarə edirdi.

1917-ci il dekabrın 31-də Erməni Milli Şurasının növbəti yığıncağı Brest-Litovskda keçiriləcək sülh danışıqları haqqında oldu. Şura üzvlərinin bir qismi danışıqlara səlahiyyətli nümayəndələrin, digər qismi isə məşvərətçilərin göndərilməsini təklif edirdilər. 1918-ci ilin yanvarın 1-də sülh danışıqlarının iştirakçıları ilə əlaqəli iş aparmaq üçün Petroqrada nümayəndə heyətinin

göndərilməsi haqqında qərar qəbul edildi. Rusiya ilə Almaniya və onun müttəfiqləri arasında 03.03.1918-ci il tarixində «Brest-Litovsk sülh müqaviləsi» imzalandı. Müqavilədə Osmanlı torpaqlarının şərq bölgələri haqqında deyilirdi: "Rusiya dövləti Şərqi Anadolunun boşaldılması və Osmanlı hökumətinə mərhələli şəkildə təhvil verilməsi üçün bütün lazımi tədbirləri həyata keçirəcəkdir. Ərdəhan, Batum və Qars vilayətləri də eyni qaydada və təcili olaraq boşaldılacaq. Rusiya dövləti bu bölgələr üzərində dövlətlərarası hüquq baxımından yeni yaradılacaq rejimə müdaxilə etməyəcək və bu halı sərhəd xaricindəki qonşu dövlətlər də qəbul edəcəklər" (Əlavə XXXXV).

Oktyabr inqilabından sonra rus ordusu müharibə ərzində əldə etdiyi mövqelərini ermənilərə təhvil verməyə başladı. Lakin türk ordusu Ərzincanı (13.02.1918), Trabzonu (24.02. 1918), Ərzurumu (12.03.1918), Sarıqamışı (05.04.1918), Vanı (07.04.1918), Batumini (14.04.1918), Qarsı (25.04.1918) geri aldı. Ermənilər türklərin irəliləyişini silah gücü ilə almaq istəyirdilər. Bu məsələ ətrafında müzakirə aparmaq üçün aprel ayında Erməni Milli Məclisi Aleksandropolda (Gümrü) toplaşdı. Məclis «Brest-Litovsk müqaviləsi»ni tanımadığını və müharibəyə davam edəcəyini bəyan etməsinə baxmayaraq, türk ordusunun hücumunun qarşısını ala bilmirdi. İrəliyə doğru hərəkət edən türk ordusunu artıq «Brest-Litovsk müqaviləsi»nin şərtləri qane etmirdi. Türk ordusunun şərq qüvvələrinin komandanı Xəlil paşa Axıska, Axalkalaki, Gümrü və Qars-Gümrü-Culfa dəmir yolunu əhatə edən əraziləri tələb etmiş və mayın 15-də Gümrünü tutmuşdu. Lakin gözlənilmədən türklər «Ermənistan dövləti»nin yaradılmasına razılıq verəcəklərini bəyan etdilər. Bu bəyanatla əlaqədar alman səfiri Bernsdorf öz təəccübünü gizlətmədən deyirdi: "Hələ 8 gün bundan qabaq «Ermənistan dövləti»nin yaradılması haqqında fikirləri eşitmək belə istəməyən Türkiyə indi «Ermənistan»ın yaradılması razılığını vermişdir" [124, s.234].

Qafqaz dövlətlərinin müstəqilliyini tanımaq məqsədi ilə Osmanlı hökuməti Xəlil bəyin başçılığı ilə Batumiyə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri ilə görüşmək üçün heyət göndərdi. Azərbaycan və Gürcüstanın müstəqilliyini qeyd-şərtsiz olaraq tanıyacağı təlimatını alan Xəlil bəy Ermənistan haqqında öz hökumətindən aşağıdakı təlimatı almışdır: «Türkiyə Qafqazda güclü olmalı və siyasətini gələcəkdə yaranan vəziyyətə uyğun qurmalıdır. Ermənilərin hökumət formalaşdırmaqlarına qətiyyətlə razı deyilik. «Ermənistan»a veriləcək ən kiçik hüquqlu muxtariyyət belə 5 il sonra əhalisi 5 milyon olan bir dövlətə çevriləcək və nəticədə Qafqazda hakim vəziyyətə gələrək "Şərqin Bolqarıstanı" olacaqdır. İran və Amerikada yaşayan bütün ermənilər oraya köçüb gələcək, İngiltərə və Fransadan yardımlar alacaq, xristian gürcülər və digərləri ilə bizim əleyhimizə çıxış edəcəklər. Buna görə də mümkün olduğu halda "Çibanı kökündən təmizləmək" ən faydalı iş olardı. Bu mümkün olmadığı halda yaradılacaq «Ermənistan» o qədər zəif və qüvvətsiz olmalıdır ki, onun ömrü uzun olmasın" [129, s.661-662]. Bu təlimat ermənilərə hərtərəfli diqqət edilməsini və onların

Qafqazda böyük bir qüvvə halında formalaşmasına imkan verilməməsini vurğulayırdı.

Öz müstəqilliklərini elan edən Qafqaz dövlətlərinin hər biri ilə ayrı-ayrılıqda 4 iyun 1918-ci ildə sülh müqaviləsi imzalandı. Gürcüstanla imzalanan sülh müqaviləsinə əsasən, Batumi şəhəri və onun ətrafı, Axıska və Axalkalaki əraziləri Türkiyə tərəfindən ilhaq olunaraq 1828-ci il sərhədinin bərpa edilməsi razılaşdırılmışdı. Osmanlı imperatorluğu ilə Ermənistan Respublikası arasında imzalanan "Sülh və dostluq müqaviləsi"nə (14 maddə, 3 qoşma) görə, Osmanlı hökuməti Yeni Bəyazid, Gümrü, İrəvan və Şərur-Dərələyəzi ermənilərə təhvil verirdi. Bunun qarşısında ermənilər ərazidə yaşayan müsəlman əhalisinin hüquqlarını tanımalı, dini və mədəni azadlıqlar verməli idi. Ermənistan hökuməti Türkiyəyə qarşı göndəhlmiş dəstələri ləğv etməli və Türkiyə ərazisinə keçməyin qarşısını almalıdır.

1918-ci ilin may ayının 27-də Xəlil və Vehib paşa Erməni Milli Şurası üzvləri Kaçaznuni və Xatisovu dəvət edərək Ermənistan dövlətinin yaranmasına Türkiyənin əngəl törətməyəcəyini bildirdi. Türkiyənin "Sabah" qəzetinə müsahibə verən Milli Şura üzvü Avetis Aqaronyan deyirdi: "İstanbula gələn erməni nümayəndəsi Türkiyədə yaşayan ermənilərin deyil, Qafqazda yaşayan ermənilərin məsələsini həll etmək üçün gəlmişdir. Lakin bu, yalnız o halda ola bilər ki, Türkiyə bu məsələni müsbət dəyərləndirsin. Avropa dövlətlərinin dostluğu və himayədarlığı bizə çox baha başa gəldiyindən onlardan heç bir fayda gözləmək düzgün olmadığına əmin olduq" [20, iyun 1918-ci il, № 10280 s. 661-662].

Mayın 26-da Milli Şuranın bütün üzvləri Ermənistanın müstəqilliyinin elan edilməsinin hələ tez olduğunu bildirdilər, məsələ səsə qoyulanda onlar "yox" dedilər. Milli Şuranın «Müvəqqəti hökumət» elan edilməsi təklifi də qəbul edilmədi. Nəhayət, eser L.Tumanovun aşağıdakı təklifi səsə qoyularaq qəbul edildi. "Gürcüstan və Azərbaycan özlərini müstəqil dövlət elan etdikdən sonra Qafqazın müstəqilliyi şəraiti yarandığını diqqətə alan Erməni Milli Şurası erməni əyalətlərinin idarə edilməsi funksiyasını öz üzərinə götürür" [124, s.236].

1918-ci ilin mayın 28-də Milli Şuranın səhər toplantısında daşnak X.Karsikyan türklərlə müharibənin davam etdirilməsini tələb etdi. «Erməni xalq partiyası»nın nümayəndəsi M.Papacanov hərbi əməliyyatların dayandırılması təklifini irəli sürdü. O, iddia edirdi ki, müvəqqəti sülh xalqı faciələrdən xilas edə bilər və sülh dövründə «Erməni məsələsi» ümumavropa konqresində öz həllini tapa bilər: "Sülhün mövcudluğu bizə imkan verər ki, biz kiçik da olsa öz milli ərazimizi yaradaq. Bu da gələcəkdə millətimizin inkişafına zəmin verəcəkdir" [124, s.191]. Milli Şuranın 2-ci toplantısı gecə saat 22.30-da keçirildi və Türkiyə ilə sülh imzalanması qərarını qəbul etdi. Müzakirələr nəticəsində Milli Şura hökumət funksiyalarını öz üzərinə götürdü və paytaxtın Yerevan olmasına qərar verərək oraya köçməyi qəbul etdi. Erməni liderləri müstəqilliyin elan edilməsi və Türkiyə ilə sülh müqaviləsi imzalanmasını tələb edirdilər. Mayın 30-da Erməni Milli Şurası

erməni xalqına müraciət edərək erməni əyalətlərinin hökuməti olduğunu bəyan etdi və milli hökumətin formalaşmasının yaxın zamanlarda mümkün olacağını bildirdi [156, s.605]. Milli Şura müvəqqəti olaraq erməni əyalətlərinin idarə edilməsi üzrə bütün səlahiyyətləri öz üzərinə götürdü. Hökumətin tərkibi Batumi danışıqlarından sonra müəyyən edilməliydi [124, s,192].

Aleksandr Xatisyan, Avanes Kaçaznuni və Mixail Papacanyandan ibarət yaradılmış heyət Türkiyə ilə danışıqlar aparmaq üçün Batumiyə gəldi. Danışıqları başa çatdırmaq üçün A.Xatisyanın başçılıq etdiyi heyətə böyük səlahiyyətlər verilmişdir. Mayın 29-da Batumidə axşam saat 20:00-da danışıqlar başlamışdır. Türkiyə heyətinə başçılıq edən Xəlil bəy A.Xatisyana bəyanat təqdim etdi (Əlavə XXXXVI) və «...Qardaşlarımız Bakıda, Dağıstanda, Türküstanda və Azərbaycandadır. Bu bölgələrə bizim yolumuz olmalıdır. Lakin siz ermənilər yolumuzun üstündə durmusunuz...Əslində bütün davalarımız bu bölgəyə görə davam edir...»- demişdir [156, s.609]. Yaradılacaq Ermənistan dövlətinin gələcəkdə Türkiyə üçün təhlükə ola biləcəyini ehtimal edən Ənvər paşa deyirdi: "Əgər bu gün Qafqazda 5-6 yüz min əhalisi olan və kafi miqdarda əraziyə malik kiçik bir Ermənistan yaranarsa, sonralar dünyanın müxtəlif ölkələrindən gələn ermənilər bu dövlətin əhalisinin sayını milyonlara çatdıracaqdır... bu da bizə Rusiyadan daha dəhşətli düşmənə çevriləcəkdir. Bu təhlükənin qarşısını indidən almaq üçün ermənilərin kiçik bir dövlət halında belə inkişaf etməsinə imkan vermək olmaz....xüsusilə müsəlmanların yaşadıqları bütün ərazilərin ermənilərə verilməməsini tövsiyə edirəm" [62a]. Vehib paşa demişdir: "Ermənilərin tələbini az da olsa qane etmək məcburiyyətindəyik. Hər halda onlara bir ərazi vermək məcburiyyətindəyik" [62a]. Ermənilər üçün düşünülən sahə Yeni Bəyazid və Eçmiədzin bölgələrindən ibarət idi. Türk heyəti 1918-ci ilin may ayının 30-da ermənilərlə apardıqları danışıqlar nəticəsində bu şərtləri tətbiq etməyə başladı. Buna qəti etirazını bildirən A.Xatisyan ermənilərə verilən torpaqların çox az olduğunu, təklif edilən bu sərhədlərin türk və erməni xalqları arasında daimi düşmənçiliyə səbəb olacağını bəyan etdi. O, bildirdi ki, Qafqaz müsəlmanlarının yaşadıqları ərazinin çox az bir hissəsini onlara verilərsə, müsəlmanlarla münasibətləri düzələcək və müsəlmanların haqları bu ərazilərdə ermənilər tərəfindən müdafiə ediləcəkdir. Vehib paşa ermənilərə daha çox ərazinin qala bilməsi üçün Ermənistan ərazisində yaşayan müsəlman əhalisini Türkiyəyə köçürülməsini təklif etdi. O, «Erməni məsələsi»nin beynəlxalq bir problem olduğunu qəbul edərək onun müstəqilliyinin Türkiyə tərəfindən tanınacağını bildirdi. Ermənilərin bu şərtləri qəbul etməkdən başqa bir çarəsi yox idi.

Hərbiyyə naziri Ənvər paşanın xəbərdarlıqlarına baxmayaraq, Xəlil bəy və Vehib paşa ermənilərə ərazinin verilməsinin tərəfdarı idilər. Tərəflər iyunun 2-də razılıq əldə etmiş və iyunun 4-də çərşənbə günü Batumidə Türkiyə ilə Ermənistan arasında "Dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalandı. Müqaviləyə əsasən, Ermənistan Yeni Bəyazid qəzası ilə Gümrünü bütünlüklə, Eçmiədzini,

İrəvan və Şərur-Dərələyəz ərazilərinin şərq hissələrini özündə birləşdirəcəkdi. Müqaviləni Türkiyə tərəfindən Xəlil bəy və Vehib paşa, Ermənistan tərəfindən isə A. Xatisyan, M. Papacanyan və A. Kaçaznuni imzaladılar. Müqavilə iyunun 6-da Erməni Milli Məclisinə təsdiq olunmaq üçün təqdim edilmişdi. Müqavilədə dövlətlərin siyasi, hüquqi, iqtisadi və elmi sahələrdə əməkdaşlıq etməsi, öz aralarında daimi sülh və əməkdaşlıq üçün şərait yaratması, Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri arasındakı sərhəd xətləri, Ermənistandan Osmanlı ərazilərinə silahlı dəstələrin keçməməsi, Ermənistanın öz ərazisində qanunsuz silahlı birləşmə yaratmayacağı barəsində, Ermənistan Respublikası ərazisində yaşayan müsəlmanların dininə, adət-ənənələrinə hörmətlə yanaşılacağı, mövcud nəqliyyat vasitələrindən müştərək istifadə ediləcəyi, Bakıdan bütün erməni silahlı birləşmələrinin çıxarılacağı kimi məqamlar öz əksini tapmışdır (Əlavə XXXXVII).

Batumidə imzalanan bu müqavilə Ermənistanın müstəqilliyini tanıyan ilk beynəlxalq sənəd idi və Türkiyə Ermənistanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. İmzalanmış müqaviləyə əsasən, Ermənistanın ərazisi 9 min km$^2$, əhalisi 326 min nəfər təşkil edirdi. Ermənistan ərazisi Basarkeçər quberniyası (Nor Bəyazid), Erivan quberniyasının 3/5 hissəsi, Eçmiədzinin bir hissəsi, İsgəndərunun bir hissəsini əhatə etməklə, əhalisini 230 min erməni, 80 min müsəlman, 5 min yezidi kürd və 11 min digər millətlər təşkil edirdi. Ermənistan Respublikası Qafqazda yaşayan bütün ermənilərin 1/9 hissəsini özündə birləşdirirdi [124, s.195]. Almaniyanın Türkiyədəki səfiri deyirdi: "Türkiyə Ermənistana yalnız Sevan gölünü verdi. Ermənilər çimmək üçün bu gölə girəcək, lakin qurulanmaq üçün boş torpaq sahəsi tapmayacaqlar" [124, s.239]. İyunun 8-də müvəqqəti hökumət Kaçaznuninin rəhbərliyi altında toplandı, hökumətin üç naziri - xarici işlər, müdafiə və maliyyə nazirləri elan edildi. İyunun 30-da Kaçaznuninin rəhbərliyi ilə toplaşan bu nazirlər hökuməti bütünlüklə formalaşdırdılar və iyulun 19-da hökumət Tiflisdən Yerevana köçdü.

Erməni dövləti yaradılacaq ərazidə müsəlmanlar çoxluq təşkil etdiyindən bu maneəni aradan qaldırmaq üçün Erməni Xalq Nümayəndələri Şurası təcili surətdə erməni ordusunu formalaşdırmağa başladı. Yaradılacaq ordu bu torpaqlarda müsəlman əhalisinin sayının azaldılması məsələsi ilə birinci növbədə məşğul olmalıydı. Ordu əsasən «Daşnaksutyun» üzvlərindən təşkil olunacaqdı. 1914-1917-ci illərdəki Şimali İran-Van hərəkatının rəhbəri general Tovmas Nazarbekov (Nazarbekyan) erməni ordusunun komandanı təyin edilmişdi. Rus - Qafqaz ordusu baş qərargah rəisi general Prejevalskinin təsdiqi ilə qurulan bu ordu üç divizyadan ibarət idi. 1-ci diviziyaya 1914-1915-ci illərdə erməni könüllüləri ilə osmanlıya qarşı savaşan general Drastamat Kanayan, 2-ci diviziyaya polkovnik Silikyan, 3-cü diviziyaya Andranik komandanlıq edirdi. Çar ordusunda hərbi xidmət keçən və Osmanlı ordusuna qarşı döyüşlərdə iştirak edən ermənilərdən ibarət əsgərlərdən yaradılan erməni ordusu Ermənistan yaradılan ərazilərdə müsəlman əhalisinin

sayını azaltmaq məqsədi ilə kütləvi qırğınlara başladı. İrəvan müsəlmanlarının Milli Şurasının sədri Əli xan Makinski İğdırdakı alay komandanı vasitəsi ilə İstanbula Osmanlı hökumətinə aşağıdakı səpkidə məktub göndərir və ermənilərin törətdikləri vəhşiliklərdən xəbər verir (Əlavə XXXXVIII).

Kiprdə hazır vəziyyətdə saxlanılan erməni legionu Suriya və Cənub-şərqi Anadolu torpaqlarını işğal etmək üçün fransız ordusunun tərkibində Türkiyəyə gətirildi. Bu legion 4 tabordan ibarət olub ümumi sayı 4.368 əsgərdən və 66 zabitdən ibarət idi. 1918-ci ilin noyabrında İsgəndərundan Türkiyə torpaqlarının dərinliklərinə doğru irəliləyən erməni legionu türk kənd və qəsəbələrini yandırmış və darmadağın etmişdir. Erməni legionu irəlilədikcə Türkiyədə yaşayan ermənilər ona qoşulurdular. Dağıntılar İsgəndərun və İslahiyədə başlamış, oradan Torpaqqala-Dördyol, Mərsin, Adana, Tarsus, Pozantı və Maraşa keçmişdir [98, s.66].

Fransız hərbi geyimli erməni əsgərlərinin türklərə qarşı etdikləri zülm İngiltərənin XİN-nin yazdığı hesabat raportunda öz əksini tapmışdır [13.11.1919. Birləşmiş Dövlətlər XİN Arxivi. Qovluq № 867, sənəd 4016/407].

Fransızların himayəsindəki ermənilər Adanaya gəldiklərində xalqa zülm etməyə başladılar. Əhalinin azadlığını təmin etmək üçün gəldiklərini elan edən fransızlar Adana vilayətində müsəlmanlara qarşı xaincə davranmışlar. Ermənilər müsəlman əhalisinə qarşı qanlı cinayətlər törədir, saxta məhkəmələr quraraq müsəlman əhalisinin əmlakını müsadirə edirdilər. Yalançı ittihamlarla günahsız xalqı ya həbs etdirir, ya da ailə başçıları ilə birlikdə sürgün etdirirdilər. Ermənilər Şeyx Murad, İnepli, Qayalı və Arapköyünü kəndlərini dağıdaraq insanları öldürmüşlər. Fransızlar Adananı işğal etdikdən sonra hər gecə ermənilər bir neçə müsəlman öldürürdülər. Din adamlarına hücum edirdilər. [07.12.1919. Birləşmiş Dövlətlər XİN Arxivi. Qovluq № 867, sənəd 2878/9]. DİN-nin Təhlükəsizlik üzrə Baş İdarəsinə Maraş vilayətindən göndərilən teleqramlarda ermənilərin və onları himayə edən fransızların vəhşilikləri öz əksini tapmışdır (Əlavə XXXXIX).

Suriya və Kilikiya (Çuxurova) sahillərində xidmət edən bir amerikalı zabit Şərqi Aralıq dənizi donanması komandanı və İstanbulda Amerikanın baş komissarı admiral Mark Bristola gördükləri haqqında raport verərək bəzi avropalı xristian missionerlərinin erməni komitəçiləri ilə əlaqədə olmasını göstərmişdir: «Türk polislərinin və hərbçilərinin axtarışları nəticəsində Anadolunun müxtəlif yerlərindəki amerikalı missionerlərin evlərində gizlədilmiş silah və sursatla birlikdə islama qarşı təbliğat yazıları tapılmışdır" [37].

Suriya və Kilikiya torpaqlarına cavabdeh olan fransız generalı Hamelen 1918-ci ildə Bakıdakı İngiltərə qüvvələri ilə birlikdə savaşan erməni bölmələrinin qorxaq və intizamsız olduqlarını, erməni birləşmələrinin ilk günlərdən problemlər yaradacaqlarını ingilislərin təxmin etdiklərini söyləyirdi. Ermənilər İsgəndəruna girər-girməz İslahiyə-Adana dəmiryolu boyunca mövcud olan Pozantı, Dördyol və Adana şəhərlərində qarşılarına çıxan hər müsəlmanı öldürürdülər [107, s. 153].

Misirdəki erməni komitəsinin rəhbəri öz nümayəndələrini göndərdi və erməni əsgərlərinə osmanlılara qarşı amansız olmağa və fransızlarla əlaqələri kəsməyə çağırdı. "Ermənilər Suriyadan Kilikiyaya gəldikdən sonra heç bir gün keçmədi ki, ingilislər ermənilərə qarşı törədilən silahlı basqın, quldurluq və cinayət tərkibli şikayət yazılarını bizlərə göndərdi" [General Hamelenin Fransız Ali Komissarlığına göndərdiyi 2 fevral 1919-cu il tarixli 2077/1 nömrəli məktubu. Müharibə Arxivləri, qovluq 5, səh.122].

Robert Zeydner fransız ordusu Kilikiyanı işğal etdikdən sonra erməni legionlarının işğal altında olan ərazilərdə dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri sənədlərlə əks etdirmişdir: "Əgər Allenbi və qərargahındakı qərb zabitləri fransız ordusundakı erməni hərbçilərinin Kilikiyada törətdikləri vəhşilikləri görüb, utanacaqlarını əvvəlcədən bilsəydilər, Şərq Legionunun genişlənib inkişaf etməsinə imkan yaratmazdılar...

«Erməni legionu» vəzifələrinin icrasından sonra tez-tez partlayışlar və gurultu çıxaran hadisələr yaradırdı. Fransız zabitlərinin fikrincə, çox intizamsız və radikal düşüncəli partiyalara üzv olan ermənilər çox təhlükəli qruplara bölünmüşdülər" [176, s.194].

Fransız komandanlığı erməni legionerlərinin Kilikiyada dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükdən sonra öz şərəfini itirdiyini hiss etdiyindən 1919-cu ilin fevral ayının axırlarından etibarən legionerlərini Anadolunun ortası ilə Suriya səhralarının ortasına, oradakı dəmiryol stansiyalarının mühafizə edilməsinə göndərməyə başladı. Amma erməni legionerləri «türklərə divan tutmaq üçün gəldiklərini, başqa heç bir vəzifə ilə çalışmayacaqlarını» deyərək əmrlərə itaət etməkdən boyun qaçırırdılar. Yaranmış vəziyyətdə erməni legionerləri birləşmələrindən fərarilik edərək Adana, Mərsin, Maraş və Həmidiyədə fəaliyyət gösdərən silahlı dəstələrə qoşulmuş və türk kəndlərini yandırıb-dağıtmağa davam etmişlər. 1920-ci ilin yanvarın 10-da Kiprdəki legion birliyinin ləğv edilməsi haqqında əmr verildi, avqustda «Erməni legionu» tam ləğv edildi [96, s.177]. Tərxis edilən erməni əsgərləri yüzlərlə türkü öldürərək kəndləri talan etməkdə davam edirdilər. Amerikanın İstanbuldakı baş komissarı M.Bristola verilən məlumata görə, "Fransızlar Suriya və Kilikiyanı işğal etdikdən sonra Türkiyədə yeni bir vəziyyət yaranmışdı. Fransızların ermənilərdən hərbçi olaraq istifadə etməsi və onları silahlandırması, yerli əhalinin qırğınlarına səbəb olmuşdur" [169.s.203].

İşğal edilmiş ərazilərdə ermənilərin sayını artırmaq məqsədi ilə erməni liderləri əməli fəaliyyətə başladılar. P.Nubar paşa İraq, Suriya və Misirdə toplaşmış qaçqınlardan, Avropa və Amerikada yaşayan erməniləri Kayseri, Ərzincan, Ərzurum, Samsun, İzmit və Adapazarına köçməyə məcbur etmişdir. Bu illər ərzində 120.000 erməni Kilikiyaya, 70.000-i Adanaya, 12.000-i Dördyola, 8.000-i Səlimbəyliyə köçürülmüşdür. Bundan başqa, İstanbul və Anadolunun başqa yerlərindən 50.000 erməni Antəp, Maraş və Zeytuna məcburən gətirilmişdir. Əsas

məqsəd Fransanın himayəsi altında Kilikiyada erməni dövləti yaratmaqdan ibarət idi [169, s.208].

13-cü Qafqaz alay komandiri yarbay Əhməd Rza 3-cü ordu komandanı Vehib Məhmət paşaya göndərdiyi raportda yazırdı ki, ermənilərin 15-16 yanvar 1918-ci il tarixində Ərzincanda, 15 fevralda Bayburtda törətdikləri cinayətləri ürək ağrısı ilə qeydə almışdır (Əlavə L).

«Tanin» qəzeti "Ərzurumun işğaldan azad edilməsi münasibətilə" adlı məqaləsində (13.03.1918) yazırdı ki: "Şərqi Anadoluda rus əsgərləri qiyafəsini geyinən və rus silah və sursatına sahib çıxan erməni dəstələri sistematik halda çox faciəli qətllərə başlamış, körpə, qadın və kişiləri, qocaları, rast gəldikləri islam dini mənsublu insanları ən faciəli surətdə qətlə yetirir, onları sürü ilə bir yerə toplayaraq diri-diri yandırır, qadın və qızların namusuna toxunduqdan sonra onları işgəncə ilə öldürürlər».... «çıxardılmış gözlərdən, kəsilmiş qulaqlardan zinət boyunbağıları düzəldirdilər..." (Əlavə LI). "Sabah" qəzeti "Quldurların cinayətləri" adlı məqaləsində (13.03.1918) yazırdı ki, "Erməni quldur dəstələrinin vilayətimizin şərqində törətdikləri cinayətlər haqqında müxtəlif dəhşətli xəbərlər alırıq...Himayəsiz və müdafiəsiz qalan xalqı o nədər vəhşiyanə bir tərzdə doğramışlar ki, bunları kağız üzərində oxuyarkən belə adamın tükləri biz-biz olur...Törədilən faciələrin başlanğıcı rus ordusu tərkibində xidmət edən erməni hərbçiləri tərəfindən qoyulmuşdu... Yüz illər boyu bu dövlətin çörəyini yeyən və onun sərvətlərindən istifadə edən ermənilər ilk fürsətdən hökumətə qarşı silahlı qiyama qalxmışdır" (Əlavə LII).

## 3.3. 1918-ci ildə Cənubi Qafqazda vəziyyətin mürəkkəbləşməsində erməni amilinin rolu

Rusiya imperiyasını parçalandığı dövrdə üç qüvvə Azərbaycan xalqının varlığına qənim kəsilmişdir. Onlardan birincisi, imperiyanı bərpa etməyə çalışan imperiya keşikçiləri idi. İkinci qüvvə, getdikcə vüsət alan bolşevizm idi. İmperiya daxilindəki xalqları əzən çarizmə qarşı istiqamətlənmiş hərəkat kimi - bolşevizm getdikcə öz əhatəsinə daha çox insanları cəlb etsə də, bir müddətdən sonra məlum oldu ki, bu hərəkat da milli azlıqların ümidində olduğu demokratik dəyərləri bəxş etməyəcəkdir. Neft sənayesinin inkişafı və fəhlə kütlələrinin sayının artması ilə bağlı olaraq XX əsrin əvvəllərində Bakıda bolşevizmin sosial bazası xeyli genişlənmişdi. Hər cür demokratik şüarlarla pərdələnməyə çalışsa da, bolşevizm Azərbaycan xalqının milli maraqlarını ödəməkdən uzaq idi. Bu hərəkatın rəhbərliyində ifrat bolşeviklərin və ermənilərin çoxluq təşkil etməsi Azərbaycan xalqının milli mənafelərinə qarşı daha kəskin mövqe tutmasına zəmin yaradırdı. Azərbaycan xalqının varlığına qənim kəsilən və fəaliyyəti ilə bölgədə hərbi-siyasi şəraiti mürəkkəbləşdirən üçüncü qüvvə erməni millətçiləri idi. Geniş ərazidə Ermənistan dövləti qurmaq arzuları ilə alışıb-yanan, bütünlükdə türkçülüyə qənim

kəsilən və bu yolda mübarizə aparan erməni millətçiliyi dünya dövlətlərinin, xüsusən də çar Rusiyasının və bolşevizmin əlində oyuncağa çevrilmişdi. Çar Rusiyası və bolşevizm geniş şəkildə erməni millətçiliyindən istifadə edirdi. Çünki erməni millətçilərinin ideologiyası antitürkçülük ideologiyası idi. 1905-ci ildə Azərbaycanda tüğyan edən qırğınlar da bu ideologiyanın acı nəticələri idi. Çarizm bu qırğınlara rəvac verməkdə öz mənafeyini güdür və əyalətlərdə genişlənməkdə olan etiraz dalğalarının qarşısını almağa çalışırdı. Seçilən vasitə erməni millətçilərinin antitürkçülük ideologiyası ilə üst-üstə düşdüyündən ermənilər böyük təşəbbüskarlıqla onun həyata keçirilməsi istiqamətində fəaliyyət göstərirdilər.

Rusiya çarizminin əməli yardımı ilə I Dünya müharibəsində erməni millətçilərinin fəallaşması və hərbiləşməsi çox geniş xarakter aldı. Qafqaz cəbhəsində olan çar hissələrinə çoxlu sayda erməni cəlb edildi, ermənilərdən ibarət silahlı dəstələrin yaradılması barədə rəsmi icazə alındı. Erməni millətçiləri bu dəstələrin Türkiyəyə qarşı aparılan müharibəyə göndərmək üçün yaradıldığını bəyan etsələr də, onlardan Azərbaycan xalqına qarşı istifadə ediləcəyini də nəzərdən qaçırmırdılar. Sonralar Azərbaycan ərazisində kütləvi qırğınlar törədən silahlı dəstələrin də çoxunun əsasını müharibə illərində qoyulan birləşmələr təşkil edirdi. Bu dövrdə cəbhələrdə rus qoşunlarının tərkibində 300 minə qədər erməni var idi [172, s.175]. Artıq 1915-ci ildə, Cənubi Qafqazda gürcülərin və azərbaycanlıların heç bir etnik hərbi hissələri olmadığı halda, ermənilərdən 9 drujina yaradılmışdı. Bununla da Cənubi Qafqazdakı hərbi-siyasi şəraitə təsir göstərmək üçün erməni millətçiləri çox güclü bir vasitəyə malik olmuşdular.

Türkiyə ərazisində böyük sayda qırğınlar törətmələrinə baxmayaraq, erməni millətçiləri öz məqsədlərinə, yəni Türkiyədən ərazi qoparmaq istəyinə nail ola bilmədilər. Ümidlərin puçluğu anlaşıldıqca erməni təcavüzkarlığının ağırlığı daha çox Azərbaycana doğru istiqamətləndi. Göyçə gölü ətraflarını, Naxçıvanı, Zəngəzuru və Dağlıq Qarabağı Ermənistan dövlətinin ərazilərinə çevirmək üçün erməni millətçiləri yeni planlar hazırlayırdılar. Erməni millətçiləri bir tərəfdən Qafqazdakı rus qoşunlarının tərkibində ermənilərin sayının çoxalmasına çalışır, digər tərəfdən də milli hissələrin gücləndirilməsinə cəhd göstərirdilər. Bölgədə keçirilən səfərbərlik zamanı 1917-ci il fevral ayının 1-nə qədər Cənubi Qafqazdan rus ordusuna çağırılanlar içərisində ermənilər çoxluq təşkil edirdi: 304164 çağırışçıdan 121921 erməni idi və bununla Qafqazdakı rus hərbi hissələrinin əksəriyyətində ermənilər böyük təsirə malik idilər. Xidmətə cəlb olunanlar arasında azərbaycanlılar isə cəmi 1314 nəfər idi [143, s.98].

Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə Gəncədə ermənilərin silahlı dəstələri mövcud idi. Azərbaycan Mili Şurası ilə Osmanlı dövləti arasında imzalanan müqaviləyə əsasən, Azərbaycana hərbi yardım göstərməyə gəlmiş türk qüvvələrinin ölkəmizdə apardığı ilk döyüş əməliyyatı da Gəncə ermənilərinin tərksilah edilməsi ilə bağlı idi.

Bakı qırğınlarından sonra bolşeviklər öz tabeliyində olan hərbi hissələrlə

daşnakların silahlı dəstələrini birləşdirdilər. Nəticədə Azərbaycanın müstəqilliyinin elan edilməsi ərəfəsində Bakı bolşeviklərinin tabeliyində 18 min nəfərlik hərbi qüvvə var idi və bu ordunun təşkilinin əsas məqsədi də Azərbaycanın milli azadlıq hərəkatını qan içində boğmaq və bolşevik-daşnak qüvvələrinin mütləq hakimiyyətini bərqərar etmək idi. Hərbi qüvvə 4 atıcı briqadada birləşdirilmişdi ki, onlar da Qırmızı ordunun 1-ci Qafqaz korpusunu (komandir Qazarov, qərargah rəisi Avetisov) təşkil edirdilər. Erməni millətçiliyi ilə bolşevik-daşnak cütlüyü Azərbaycan xalqının mövcudluğunu təhlükə altında qoymuşdu və bu təhlükənin aradan qaldırılması müvafiq qətiyyətli addımların atılmasını tələb edirdi.

Petroqradda Oktyabr çevrilişi xəbərini alandan sonra Türkiyə müharibənin dayandırılmasına tərəfdar olduğunu bildirdi. Qafqaz cəbhəsinin komandanı Vehib paşanın sülh bağlamaq təklifi haqqında noyabrın 12-də Zaqafqaziya Komissarlığının növbəti iclasında məlumat verildi. Nəticədə dekabrın 5-də tərəflər arasında müqavilə imzalandı [26, s.20]. Dekabrın 6-da Zaqafqaziya Komissarlığı Bakıda və Dağıstanda yaranmış vəziyyəti müzakirə edərkən bolşevizmə qarşı mübarizənin kəskinləşdirilməsi zəruriliyini vurğuladı. Qərara alındı ki, mövcud ayrı-ayrı hərbi hissələr milliləşdirilsin [30, s.100].

1918-ci ilin yanvarın ilk günlərindən Bakı Sovetinin İcraiyyə Komitəsi qərar qəbul etdi ki, yaradılmaqda olan bolşevik hissələrinin silahlandırılması üçün tərxis olunan hərbçilər Bakıdan keçərkən tərksilah edilsin, yerli qarnizonun əsgər və zabitləri Bakı Sovetinin sərəncamına göndərilsin və sovet hissələrində xidmətlərini davam etdirməyə razı olacaqları təqdirdə onlara silah verilsin. Bakı bolşeviklərinin möhkəmlənməsi, onların ehtiyaclarının ödənilməsi üçün Rusiyanın XKS öz köməyini əsirgəmirdi.

Cənubi Qafqazın inqilabi mərkəzinə çevrilən Bakıda cəmləşən bolşeviklər burada möhkəmlənmək üçün hər cür şəraitdən istifadə etməyə çalışırdılar. Mütləq əksəriyyəti qeyri-millətlər və çoxlu erməni olan bolşeviklər xalqın adından bəyanatlar versələr də, Azərbaycanın milli mənafeyini əks etdirən qüvvələrin məhv edilməsi üçün qeyri-bolşevik ideologiyanın tərəfdarı olan, lakin Azərbaycanın milli qüvvələrini məhv etməkdə maraqlı olan partiya və hərəkatlarla əməkdaşlıq etməkdən çəkinmirdilər. S.Şaumyanın rəhbərliyi altında Bakı Soveti Azərbaycanın milli qoşun hissələrinin yaradılmasının əleyhinə olduğu halda, özü qoşun hissələri təşkil edirdi. Müstəqil erməni dövlətinin yaradılması barədə Lenin və Stalinin imzaladığı 11 yanvar 1918-ci il tarixli dekreti olduğu halda, S.Şaumyan Rusiya müsəlmanlarının, o cümlədən Azərbaycan xalqının öz müqəddəratını müəyyənləşdirmək istəyini inqilabi Rusiyaya qarşı xəyanət kimi qiymətləndirdi. Azərbaycanda milli müqəddəratın həll olunmasına yol verməməsi elə bolşevizmin qələbəsi kimi qəbul edilirdi.

Bakı bolşeviklərinin qarşılarına qoyduqları ilkin vəzifələrdən biri Qırmızı ordunun beynəlmiləl dəstəsini yaratmaqdan ibarət idi. Beynəlmiləl dəstələr əsasən, ruslardan və ermənilərdən təşkil edilirdi. Qırmızı orduya çağırış işləri ilə

Avakyanın məşğul olması, onun mərkəzi qərərgahına erməni A.Bağdasarovun rəhbərlik etməsi cəlb edilmiş şəxslərin mənəvi keyfiyyətlərindən xəbər verirdi. 1918-ci ilin əvvəllərində Qırmızı qvardiyanın sayı 3500 nəfərə çatmışdı [128, s.95]. Bakı rayonlarında Qırmızı qvardiya dəstələri yerli sovetlərin ixtiyarında olub mərkəzi qərargaha tabe idi. Zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün xüsusi zabit məktəbi yaradılmış və onun işinə rəhbərlik hərbi inqilab komitəsinin üzvü, praporşik Solntsevə tapşırılmışdı. RSFSR XKS-nin qərarı ilə 1918-ci ilin fevralında Bakı Sovetinin sərəncamına 30,8 mln rubl göndərilmişdi və vəsaitin böyük hissəsi silahlı dəstələrin təşkilinə istiqamətləndirilmişdi [157, s.95].

Azərbaycanın milli hərəkatı və milli qoşun bölmələri ilə mübarizənin arzuolunan nəticələrlə başa çatdırılması üçün Bakı Soveti Xəzər donanmasının nəzarət altına alınmasına ciddi əhəmiyyət verirdi. İ.Stalin S.Şaumyana göndərdiyi teleqramda onu daha qətiyyətli hərəkət etməyə həvəsləndirir və həmin istiqamətdə XKS-dən lazımi kömək çatdırılacağını bildirirdi [134, s.15]. 1918-ci ilin martında Bakıda təşkil edilmiş bolşevik qüvvələrinin sayı 6 min nəfər idi, onların ixtiyarında 2 zirehli qatar və 1 zirehli avtomobil var idi [24, s.210]. Az sonra Moskvadan Bakıya bir dəstə döyüşçü, 2 təyyarə, 2 zirehli avtomobil, 5 min tüfəng və s. göndərilməsini qərara aldı [99, s.11].

Azərbaycan milli hərəkatına qarşı mübarizədə real qüvvələrdən biri Bakıda toplaşmış erməni-daşnak qüvvələri idi. Bir tərəfdən Bakıda və onun ətrafında olan ermənilərin səfərbər edilməsi, digər tərəfdən isə cəbhədən tərxis olunan erməni əsgərlərinin cəlb olunması nəticəsində 1918-ci ilin mart hadisələri ərəfəsində Bakıda xeyli erməni-daşnak qüvvələri (S.Şaumyanın məlumatına görə, 3-4 min nəfər) cəmləşmişdi. Erməni-daşnak qüvvələrinin qışda törətdikləri qırğın və faciələrin pərdələnməsi üçün S.Şaumyanın onların sayını xeyli azaltması şübhə doğura bilməz. Türkiyə ilə Rusiya arasında müharibənin nizamlanmadığı bir vaxtda silahlı dəstələrin yaradılmasının türkçülük kimi qiymətləndiriləcəyindən ehtiyat edən müsəlman ictimai təşkilatlarının fəalları süstlük göstərdikləri halda Erməni Milli Şurası bütün imkanları daxilində daşnak qüvvələrini yaratmaqda davam edirdi. Rus ordusunda xidmət edən erməni əsgərlərindən istifadə edilməsinə çalışması onların səylərinin nəticələrini daha da artırırdı. Erməni Milli Şurası 1918-ci ilin martında cəbhədən qayıdan erməni əsgərlərinə müraciət göndərərək onları Bakıda erməni-daşnak qüvvələrinin sıralarında birləşməyə, silahını kimsəyə təhvil verməyərək özündə saxlamağa və yeri gələndə millətin mənafeyi naminə onu təcavüzkara qarşı işlədilməsinə hazır olmağa çağırırdı [143, s.54].

Doğrudur, sovet tarixşünaslığında erməni-daşnak qüvvələrinin Bakı qırğınının təşkilindəki rolunu danmağa, bolşeviklərə nisbətən onların "Müsavat"la bağlılığının daha sıx olmasına, hətta, onların "Müsavat"la ilkin sövdələşmələri barədə mülahizələr yürütməyə çalışmışlar. Ancaq Bakı Sovetinin, onun yaratdığı qurumların erməni rəhbərləri ilə Erməni Milli Şurasının, daşnak fəallarının arasındakı yaxınlıq təkcə etnik bağlılıq deyil. Qafqaz türklərinin, Azərbaycan

xalqının məhvinə çalışmaq, Bakıda ermənipərəst diktaturanın yaradılmasına nail olmaq bu qüvvələri cütlük şəklində birləşdirən strateji platforma idi. "Daşnaksutyun"un liderləri də gizlətmirdilər ki, onlar Bakıda azərbaycanlıların hakimiyyətindən qorxaraq yerli bolşeviklərlə çox sıx əlaqə yaratmışdılar. Şübhəsiz ki, burada "yerli bolşeviklər" deyiləndə daha çox bolşevik pərdəsi ilə maskalanan Bakı Sovetinin erməni liderləri nəzərdə tutulurdu. Bu məqsədlə daşnak qüvvələrinin yaratmış olduğu silahlı dəstələr bolşeviklərin tam sərəncamına verilmişdi. Bunu S.Şaumyan özü də təsdiq edirdi [157, s.95].

Azərbaycanın milli qüvvələrinə ağır zərbə vurmaq niyyəti 1918-ci ilin mart hadisələrindən sonra yarandı. Bakıda tam hakimiyyətə malik olmaq üçün ilk növbədə burada milli hərəkatın dayağı olacaq milli qoşun hissələrinin formalaşıb möhkəmlənməsinə yol verməmək lazım idi. S.Şaumyan heç cür razılaşa bilmirdi ki, müsəlman millətçiləri Bakını Azərbaycanın paytaxtına çevirməyi arzulayırlar. O, Bakıda milli qüvvələrin möhkəmlənəcəyi təqdirdə bu şəhərin və bütünlüklə Cənubi Qafqazın Rusiya üçün (eyni zamanda, "Böyük Ermənistan" üçün) birdəfəlik itirilə biləcəyindən dəhşətə gəlirdi. Ona görə də S.Şaumyan Bakıda müsəlman qoşun hissələrinin hələ kifayət qədər möhkəmlənmədiyindən istifadə edərək qəti hərəkət etməyi lazım bilirdi. 1918-ci ilin martın sonlarında Azərbaycanda və Bakı ətrafında yetişmiş olan obyektiv və subyektiv şərait də onu buna vadar edirdi. Bir tərəfdən, Bakı Soveti şimalla əlaqələrini itirərək Rusiyadan kömək almaq imkanından, digər tərəfdən taxıl ehtiyat ərazisi sayılan Muğan torpaqlarından məhrum olmuşdu.

Bu iki strateji dayaq olmadan Bakı Sovetinin mövcudluğunu düşünmək mümkün deyildi. Və nəhayət, Azərbaycan milli qoşun hissələri Şamaxı və Hacıqabulda dayanaraq qərbə doğru uzanan yolları da Bakı Sovetinin üzərinə qapatmışdı. Onların irəli hərəkət etməsi isə Bakının şəriksiz hakimiyyətinə can atan və buradan "öz təsirini və gücünü bütün Zaqafqaziyaya yaymaq" istəyən S.Şaumyan və onun tərəfdarlarının mürtəce niyyətlərinə son qoya bilərdi. İfrat bolşevik və daşnak elementləri anlayırdılar ki, Bakını əllərində saxlamaq, onu bolşevikləşdirmək, erməniləşdirmək və azərbaycanlıların əlinə verməmək üçün yeganə şansları azərbaycanlılara "dərs verməkdir". Onları iflas olmaqdan yalnız zorakılıq tədbirləri xilas edə bilərdi. İdeoloji baxımdan Rusiya bolşevik hökuməti tərəfindən ilhamlandırılan Bakı ifrat bolşevikləri və daşnak qüvvələrinin törətdikləri kütləvi qırğın əməlləri həqiqətdə onların siyasi ömrünü bir neçə ay uzatdı. "Müsavat" partiyasının "Zaqafqaziyada ən güclü siyasi partiya"ya və eyni zamanda bolşeviklərə qarşı ən güclü siyasi rəqibə çevrildiyini böyük qorxu ilə etiraf edən S.Şaumyan rəhbərlik etdiyi qırğınlardan sonra bir neçə ay Bakının siyasi hakimiyyətini öz əlində cəmləşdirə bildi.

S.Şaumyan Azərbaycanın müstəqilliyi uğrunda mücadiləyə başlamış milli qüvvələrə müraciət edərək demişdir: "Sizə Azərbaycanın müstəqilliyi yerinə bir məzarlıq verəcəm" [100a, s.250]. Müraciət Bakının bütün müsəlman əhalisinə

ünvanlanmışdı. Məqsədi Bakını bütünlüklə müsəlmanlardan təmizləmək, onu Ermənistan tərkibinə daxil etmək idi. Şaumyan dinc əhali üzərinə hücuma keçmək üçün bəhanə axtarırdı. 1918-ci ilin martın 30-da Bakıda Azərbaycan milli qurtuluş hərəkatlarında iştirak edən zabitlər Lənkərandakı könüllü birləşmələrə silah göndərmək istəyirdilər. S.Şaumyanın başçılıq etdiyi Bakı Soveti bu silahları təslim etməyi əmr etdi. Milli qurtuluş hərəkatının zabitləri bu əmrə itaətsizlik göstərərək silahları «Evelina» gəmisinə yüklədilər. Gəmi hərəkət etməyə hazırlaşarkən bir qrup matros erməni hərbi dəstəsi ilə birlikdə gələrək silahları müsadirə etmək istədi. Azərbaycan zabitləri bu işə mane olmaq istəyərkən iki tərəfdən də odlu silahlardan atəş açılmış və hər iki tərəfdən tələfat olmuşdur. Bundan istifadə edən erməni Şaumyan daşnak və bolşevik qüvvələrini müsəlmanların üzərinə yeritdi. Bununla da Şaumyanın Bakının müsəlman əhalisinə qarşı tərtib etdiyi plan tətbiq edilməyə başlandı. S.Şaumyan və onun ətrafındakılar Azərbaycanın milli qüvvələrini məhv etmək üçün 1918-ci ilin martın sonunda Bakıda qırğın törətdilər. Bakıda 3 gün tüğyan edən qırğınların şahidlərindən birinin ifadəsinə görə həm müsəlmanlar, həm də daşnaklar silahların geri qaytarılması ilə bağlı danışıqları diqqətlə izləyirdilər. Gərginliyin dinc yolla aradan qaldırmaq ehtimalı ortaya çıxanda Şamaxı yolunda gizlənmiş ermənilər təxribata əl atdılar və bolşevik patrullarını atəşə tutdular.

Bu isə şəhərdə müsəlman əhalisinin qırılmasına başlamaq üçün işarə oldu. Elə həmin gecə S.Şaumyanın əmri ilə Əsiryansın silahlı dəstəsi müsavatçıların qərargahına basqın edib güclü atışmadan sonra qərargahı ələ keçirtdi. Əsiryansın ifadəsinə görə, bu qərargahda güllə və partladıcı maddələr hazırlanan xüsusi laboratoriya var idi. Martın 30-da axşam bütün şəhər «qaynar qazan»a çevrildi.

Erməni cəlladları hətta, bolşevik olan azərbaycanlılara da rəhm etmirdilər. Bildirirdilər ki, kimliyindən asılı olmayaraq, hansı əqidəyə və hansı partiyaya məxsus olmasına baxmayaraq, müsəlman olan məhv edilməlidir. Onlar İrandan gəlmiş fars tacirlərini də müsəlman olduğu üçün öldürürdülər. Bütün bunların nəticəsində bir neçə gün ərzində Bakıda minlərlə azərbaycanlı öldürüldü. Müxtəlif müəlliflər bu qırğınlar zamanı öldürülənlərin sayının 10-15 min arasında olduğunu göstərirlər.

Beləliklə, silah gücünə və faciələr hesabına Bakı bolşevikləri Bakıda sovet hakimiyyətini qurmağa müvəffəq oldular. Lakin bununla kifayətlənmək fikrində deyildilər. Milli qoşun hissələrinin hələ xeyli zəif olmasından və Zaqafqaziya seymindəki fikir ixtilafından istifadə edən bolşeviklər qərbə doğru irəliləmək niyyətini heç də gizlətmirdilər. Onların fikrincə, bir qədər qətiyyət nümayiş etdirsəydilər, 1918-ci ilin yazınadək daha böyük əraziləri öz təsir dairəsi altına ala bilərdilər. Şaumyan sonralar V.Leninə göndərdiyi məktubda belə yazırdı: "Biz Bakıdakı vətəndaş müharibəsindən sonra az bir qüvvə ilə ora (Gəncəyə) yerimiş olsaydıq, daha yaxşı olardı. O zaman vəziyyət xeyli əlverişli olardı" [24, s.366]. Bakı bolşeviklərinin liderlərinin fikrincə, hələ 1918-ci ilin yanvarında

Azərbaycanın milli qüvvələrinin cəmləşmiş olduğu Gəncəyə hücum etmək üçün yaxşı imkan var idi. Çünki o zaman Azərbaycanın milli qüvvələri hələ çox zəif idi. Onların Türkiyə ilə əlaqəsi yox idi. Cəbhədən qayıdıb Bakıda toplaşmış rus alayları isə Gəncəni almağa kömək edə bilərdi.

İnqilabi Müdafiə Komitəsi tərəfindən elan olunmuş hərbi səfərbərlik 1918-ci ilin may ayında Bakı XKS tərəfindən daha 6 ay uzadıldı. Azərbaycanın müstəqilliyinin elan edilməsi ərəfəsində Bakı XKS say etibarı ilə böyük olan orduya malik idi. Bu ordunun əsasını bolşevikləşmiş ruslar, ermənilər təşkil edirdilər. Topladıqları silahlı dəstələrə arxalanan Bakı Sovetinin rəhbərləri daha sürətlə hərəkət edərək nəinki Azərbaycanın bütün ərazisini, hətta tam Zaqafqaziyanı işğal etmək niyyətində idilər. Hərbi dəniz işləri üzrə komissar Q.Korqanov bildirirdi ki, Ermənistan və Gürcüstanda xalq kütlələri intizarla Qırmızı ordunun yolunu gözləyirlər və ona görə də sürətli hücum barədə düşünməlidirlər [24, s.385].

Bakı XKS sədri S.Şaumyan da bu mövqedə dayanmaqla bərabər, belə bir planın həyata keçirilməsinin ilhamçısı və təşkilatçısı idi. V.Lenin tərəfindən Zaqafqaziyanın fövqəladə komissarı təyin olunmuş S.Şaumyan Cənubi Qafqazın tezliklə ələ keçirilməsi üçün sürətlə irəli getməyin zəruriliyini bildirirdi. Qarşıya qoyulan planların mahiyyətini inqilabi bolşevik şüarlarla pərdələməyə çalışan S.Şaumyan milli niyyətlərinin reallaşdırılmasında ilk növbədə erməni-daşnak ünsürlərinə arxalanırdı. Ətrafına topladığı daşnak qoşun dəstələrinə üstünlük verməklə yanaşı, S.Şaumyan Yelizavetpolda (Gəncə), bu quberniyanın digər qəzalarında və Gürcüstanda yaşayan ermənilərin onunla həmfikir olacağına da şübhə etmirdi. O, Rusiya XKS-ə göndərdiyi məktubunda gizlətmirdi ki, Yelizavetpola doğru irəliləməklə burada və sonra isə digər yerlərdə ermənilərin üsyanını qaldırmaq və bununla da Zaqafqaziya hökumətinin devrilməsinə nail olmaq lazımdır. S.Şaumyan və Q.Korqanovun hazırladığı plana görə, onlar LBiçeraxovun İranda olan dəstəsi ilə bərabər iki istiqamətdən - Kürdəmir-Yevlax-Gəncə və Şamaxı-Göyçay-Kaxetiya-Tiflis istiqaməti ilə hücuma keçməli idilər. Gəncəyə və oradan da Tiflisə doğru hücumunda S.Şaumyan, eyni zamanda, cəllad Andranikin əməli yardımına bel bağlayırdı. Qeyri-insani əməlləri ilə silahsız azərbaycanlıların qanına rəvac verən bu cəllad Bakıdakı sovet hakimiyyətini tanımaqla Qafqazın yeni fövqəladə komissarının əmrini yerinə yetirməyə hazır olduğunu bildirirdi. Onun Zəngəzurdan Qarabağa, oradan da Yevlaxa doğru yürüşü isə S.Şaumyanın planlarının həyata keçməsinə zəmin yaratmalı idi.

Bakı şəhərinə nəzarəti əllərinə keçirəndən sonra bolşevik-daşnak qüvvələri ətraf bölgələrə doğru hücumlarını genişləndirdilər. Bununla da onlar bütün aprel ayı ərzində Azərbaycanı qana boyayaraq öz hökumətlərini qurmaq istəyirdilər. Aprelin 17-də bolşevik-daşnak qüvvələri başda T.Əmirov və S.Lalayev olmaqla Şamaxıya çatdılar. Azərbaycanlılara qənim kəsilən T.Əmirov, S.Lalayev kimiləri ətrafına topladıqları daşnak elementləri ilə S.Şaumyanın və ifrat bolşevik

rəhbərliyinin etimadını lazımınca "doğrultdular", Şamaxı əhalisinə qanlı divan tutdular. Hələ Şamaxıya çatmamış daşnak elementləri yol üstündə olan 8 azərbaycanlı kəndini yerlə-yeksan etdilər. Yerli erməni əhalisi də S.Lalayevin dəstəsinə qoşulub talan və qırğınlarda iştirak etdi. Yaşayış evləri ilə bərabər Şamaxının qədim Cümə məscidi də yandırılmışdı.

Bakıda olduğu kimi, Şamaxıda da daşnaklar tərəfindən törədilən faciələr elə böyük miqyas almışdı ki, bolşeviklər tərəfindən ora komissiya göndərilmişdi. Bu komissiyanın rəyindən sonra hadisələri tədqiq etmək üçün bolşeviklərin özləri tərəfindən fövqəladə hərbi xüsusi istintaq komissiyası yaradılmış, S.Lalayev təqsirkar bilinərək həbs edilmişdi. Lakin S.Şaumyanın işə qarışması nəticəsində əvvəlcə S.Lalayev həbsdən azad edilmiş, sonra da komissiya ləğv edilmişdir. Qırğın günlərində Şamaxı şəhəri yerlə-yeksan edimiş, 80 azərbaycanlı kəndi viran qoyulmuş, 15 min nəfər ev-eşiyindən didərgin düşmüşdü.

Aprelin 23-də bolşevik partiyasının nümayəndəsi David Qelovani 187 nəfərlik hərbi dəstəsi ilə birlikdə Quba şəhərinə gələrək orada sovet hakimiyyəti elan etdi və özünü Qubanın komissarı olduğunu bəyan edərək əhalidən tələb etdi ki, sovet hökumətini tanısınlar. Burada baş verən hadisələr Bakıdan Hamazaspın komandanlığı altında toplarla və pulemyotlarla silahlanmış dəstələrin Qubaya göndərilməsi, dinc əhalinin qırılması ilə nəticələndi. Şəhərdə 105 ev, ətraflarda 122 kənd viran qoyuldu.

Yaradılmış komissiyanın üzvü Novatski bu komissiyanın rəhbərinə göndərdiyi raportunda yazırdı: "Hamazaspın dəstəsi Qubaya digər komissarların razılığını almadan komissar S.Şaumyanın istəyi ilə göndərilmişdi. Dəstə «Daşnaksutyun» üzvləri arasından seçilərək komissar Korqanov tərəfindən təşkil edilmiş və onların sayı iki min nəfərə çatmışdı. Bu dəstə sırf cəza dəstəsi kimi təşkil edilmiş və adı da "Cəza dəstəsi" olmuşdur. Bunu Hamazasp qubalılara öz müraciət nitqində də təsdiq etmişdir. "Mən erməni xalqının qəhrəmanı və mənafelərinin müdafiəçisiyəm. Mən sovet hökumətinin bərpası və ya qayda-qanunun yaradılması məqsədi ilə gəlməmişəm. Mənə əmr ediblər ki, dəniz sahillərindən başlayaraq Şahdağın ətəklərinə qədər məskunlaşmış müsəlman əhalisini Şamaxıda olduğu kimi qətlə yetirim və onların evlərini viran qoyum" [32].

Bakı bolşevikləri nəinki Gəncəni, hətta Tiflisi tutmaq və bütün Cənubi Qafqazda sovet hakimiyyəti elan etmək niyyətindən əl çəkməmişdilər. Özünün 1 may 1918-ci il tarixli bəyanatında Bakı XKS elan edirdi ki, sovet hakimiyyətinin son təntənəsi və bu hakimiyyətin bütün Zaqafqaziyaya yayılması üçün qalibiyyətlə başlanmış vətəndaş müharibəsi davam etdirilməlidir. S.Şaumyanın silahdaşı və əməkdaşı A.Əmiryan da tezliklə Gəncəyə hücum etməyi və Azərbaycanın orada toplaşmış milli qüvvələrini məhv etməyi vacib sayırdı [24,s.48].

S.Şaumyan başlanan hücumun bolşeviklər üçün uğurla nəticələnəcəyinə əmin idi. 1918-ci il iyunun əvvəllərində V.Leninə göndərdiyi məktubunda

bildirirdi ki, biz özümüzü çox qüvvətli hesab edirik [158, s.8]. Bakı bolşeviklərinin lideri Yevlaxa çatıb Kür çayı boyunca müdafiə mövqeləri tutmağı kifayət saymır, buradan Yelizavetpol və sonra da Tiflis üzərinə hücum etməyi planlaşdırırdı. Türk-Azərbaycan qoşunlarına qarşı döyüşlərin başlanmasından az sonra V.Leninə yazdığı başqa bir məktubunda S.Şaumyan hərbi planları barədə yazırdı: "Əlbəttə, biz bunu gözləyirdik və özümüzü möhkəmləndirirdik. Ancaq zənn edirəm ki, Bakıdakı vətəndaş müharibəsindən dərhal sonra az qüvvələrlə ora (Gəncəyə) hərəkət etsəydik, daha yaxşı olardı. Onda vəziyyət daha əlverişli idi və biz Batumda və Batum danışıqlarından sonra bütün baş verənlərin qarşısını ala bilərdik... Biz fikirləşirdik ki, Yevlaxa qədər gedək, orada bir qədər dayanıb irəli Yelizavetpola gedək. Birbaşa Tiflisə getməyə cəsarət etmirdik. Ancaq axır vaxtlar bu barədə də söhbətlər gedir" [24, s.519].

Bolşeviklərin malik olduğu hərbi qüvvə bu planların həyata keçirilməsinə əsas verirdi. S.Şaumyan bolşevik-daşnak qüvvələrinin imkanlarını belə qiymətləndirirdi: "Hərb işindən xəbərdar olan adamların ordu haqqında ümumi təəssüratı belədir ki, bu adi sovet ordusu deyil, əsl nizami qoşunlardır. Rusiyadan gələn bütün yoldaşlar bu ordu ilə tanış olduqdan sonra heyrətlərini gizlədə bilmirlər" [24, s.519]. V.Leninə göndərdiyi məktubunda o, yazırdı: "Əgər qarşımızdakı yalnız Yelizavetpol quldur dəstələri olsaydı, onlar nə qədər çoxsaylı olsaydılar və onlara, hətta bütün menşevik gürcü qüvvələri qoşulsaydı belə, bizim üçün qorxulu olmazdı. Onlara, hətta türk qüvvələri qoşulsaydı belə, bizim üçün qorxulu olmazdı. Ancaq bizi almanlar qorxudur" [24, s.518].

S.Şaumyan əksəriyyətini ermənilər təşkil edən və Azərbaycan xalqını, onun müstəqil dövlətini qan içində boğmaq üçün toplaşan ordunu tərif edir, lakin əldə etdiyi nəticələrlə kifayətlənmirdi. Yeni hissələr yaradılır, Qırmızı ordunun 60-70%-ni ermənilər təşkil edirdi. Qafqaz Qırmızı ordusunun möhkəmləndirilməsi üçün Rusiya tərəfindən göndərilən hərbi yardımların ardı-arası kəsilmirdi. 1918-ci ilin iyunun ilk günlərində Rusiyadan 12 ədəd 4 düyümlük top, onların heyəti və təchizatı ilə yüklənmiş qatar Bakıya yola salınmışdı. Tula silah zavodundan pulemyot, tüfəng və patronlar göndərilmişdi. Xəzər hərbi donanmasının gücləndirilməsi üçün 3 keşikçi gəmisi və 3 minadaşıyan gəmi ayrıldı və göndərildi [29, s.39]. İyunun sonlarında Ter-Qabrielyan Rusiyadan 4 zirehli avtomobil, 13 təyyarə və çoxlu silah, sursat gətirdi. Elə bu günlərdə Rusiya Hərbi İnqilab Şurasına göndərdiyi xahişnamədə Bakı XKS 1-ci Qafqaz Qırmızı korpusunun ehtiyacları üçün 2-3 diviziyanın, 6 ədəd təyyarənin, 18 milyon tüfəng gülləsinin, 25 min dəst hərbi geyimin və s. ayrılması zəruriliyini vurğulayırdı [161, s.103]. Kifayət qədər qüvvə və ehtiyat yaradıldıqdan sonra Bakı XKS hərbi və dəniz işləri üzrə komissar Q.Korqanov 1918-ci il iyunun 4-də 1-ci Qafqaz Qırmızı korpusunun Zaqfqaziya dəmiryolu boyunca Hacıqabuldan qərbə doğru hücuma keçməsi barədə 8 saylı əmri imzaladı. Bu əmrə müvafiq olaraq Qırmızı ordu hissələrinin hücumu iyunun 6-da başlamalı idi. Qoşunların döyüş fəaliyyətinə ümumi rəhbərliyi

Q.Korqanov və onun yanında yaradılmış Hərbi Şura öz üzərinə götürdü. 1-ci briqadanın komissarı A.Qloyan, 2-ci briqadanın komissarı Ter-Sarkisov, 3-cü briqadanın komissarı A.Qabişev, artilleriya qüvvələri komissarı T.Şaumyan təsdiq edilmişdi. Təyin edilən 4 komissardan 3-ü milliyətcə erməni idi. Qoşun hissələrinin komissarlarının əsasən ermənilərdən təyin edilməsi onların milli-etnik tərkibinə və izlədiyi niyyətlərin mahiyyətinə tamamilə uyğun idi. Gəncəyə doğru hərəkətə başlamazdan əvvəl, iyunun 6-da Q.Korqanovun korpusun əsgər və zabitlərinə ünvanlanmış müraciət xarakterli əmri də başlanan hücumun nəyə xidmət etdiyini açıq göstərirdi. Əmrdə xüsusi olaraq aşağıdakılar vurğulanırdı: «Siz neft sənayesi mərkəzi Bakını bütün Sovet respublikası üçün xilas edəcəksiniz... Sizə Şimali Qafqazdan və Rusiyadan mümkün olan lazımi kömək gəlir və gələcəkdir» [24, s.508].

Türk qoşun hissələri Azərbaycana gəldiyi gündən qaynar döyüş şəraitinə düşdülər. Bolşevik-daşnak qüvvələri həm Şamaxı yolu ilə, həm də dəmiryol xətti boyunca qərbə doğru irəliləyirdilər. Belə bir vaxtda hər hansı bir ləngli̇k göstərmək əlavə böyük ərazilərin, qanlar bahasına geri qaytarılacaq mövqelərin əldən verilməsi demək idi. Ona görə də Qafqaz İslam ordusu komandanlığı türk qoşunları çatan kimi şərqə doğru hərəkətin başlanmasına qərar verdi. Ancaq 5-ci Qafqaz firqəsinin (diviziyasının) əsas qüvvələri gələnə qədər Nuru paşa Gəncə ətrafında mövcud olan təhlükəni aradan qaldırmağı, buradakı erməniləri tərksilah etməyi və beləliklə cəbhə arxasını möhkəmləndirməyi məqsədəuyğun bildi. Həmin vaxt Gəncədə 20 mindən artıq erməni şəhərin Gəncə çayı ilə ayrılan şərq hissəsində yaşayırdı. Ermənilər türk qoşunlarının Azərbaycana gəlməsi və Gəncədə qərargah yaratmaları ilə razılaşa bilmirdilər. Onlar Şaumyan ordusunun Gəncəyə doğru sürətlə hərəkətinin intizarında idilər.

Gəncə ermənilərinin tərksilah edilməsini 9-cu Qafqaz alayı və 2-ci süvari alayından ibarət olan Gəncə dəstəsi həyata keçirməli idi. İyunun 10-da gecə saat 23.30-da hərəkətə başlayan dəstə əvvəlcə Yelenendorfda (Helenendorf - indiki Xanlar) alman icmasının yaratdığı taboru tərksilah etdi, iyunun 11-də Gəncənin erməni məhəllələrini mühasirəyə aldı. Tərksilah təklifi ilə şəhərə göndərilən iki zabit ermənilər tərəfindən atəşə tutuldu. Daha sonra ağır döyüş baş verdi, Gəncə dəstəsindən 13 nəfər şəhid oldu, biri zabit olmaqla 7 nəfər isə yaralandı [152, s.28-29]. Ermənilər mühasirə halqasını yara bilmədilər, dəstə komandanlığı Yelenendorfdan olan bir alman vasitəsilə ermənilərə xəbər göndərdi ki, əgər atəşi dayandırıb təslim olmasalar erməni məhəlləsi toplardan bombardman ediləcək. Bu xəbəri alandan sonra ermənilər tərksilah olmalarını bildirsələr də, vaxtı uzadırdılar. İyunun 12-də atılan bir neçə xəbərdarlıq atəşindən sonra ermənilər tərksilaha razı olduqlarını bildirdilər. Elə həmin gün qoşun hissələri erməni məhəlləsinə girib silahların toplanmasına başladı. İyunun 12-14-də silahlar toplanılsa da, Nuru paşanın fikrincə, ermənilər öz silahlarının bir hissəsini gizlətmişdilər.

Qırmızı korpusun əsas qüvvələri Hacıqabul stansiyasına cəmləşdirildikdən

sonra iyunun 10-da hücuma başladılar. Bu zaman onların qarşısında Müsəlman korpusunun və Gürcü korpusunun müştərək qüvvəsi dayanmışdı. Həmin qüvvələrə qərargahı Ucarda yerləşən gürcü knyazı, polkovnik Maqalov komandirlik edirdi. Türk qoşunlarından kömək gəlməmişdi, onlar hələ tam şəkildə heç Gəncəyə gəlib çıxmamışdılar. İyunun 11-də Qırmızı ordu hissələri Kürdəmirin Sığırlı stansiyasını işğal etdi. S.Şaumyan V.Leninə teleqram göndərdi: "Bizim qoşunların ön dəstələri Sığırlı stansiyasını tutmuşdur. Bizim kəşfiyyat qatarımız Karrar stansiyası istiqamətindən düşmən topları vasitəsi ilə atəşə tutulmuşdur. Qoşunlarımız irəli hərəkət edir" [24, s.507].

İyunun 11-də Ucar stansiyasında olan podpolkovnik Həbib bəy Səlimov vəziyyətin mürəkkəbləşdiyi barədə Qafqaz İslam ordusu Ərkani-hərb (Baş qərargah) rəisi Nazim bəyə teleqram göndərib, qüvvələrin göndərilməsini xahiş edirdi. Bu haqda o, Müsəlman korpusunun komandiri Ə.Şıxlinskiyə də məlumat vermişdi [87]. Kürdəmir ətrafında baş verən növbəti döyüş bolşevik-daşnak qüvvələrinin uğuru ilə sona çatdı, Kürdəmir kəndi və stansiyası bolşeviklərin əlinə keçdi [24, s.507]. Türklərin 10-cu Qafqaz alayının hissə və bölmələri Ağstafadan qatarlara yüklənərək birbaşa Ucara gətirildi və buradan Qaraməryəm istiqamətinə göndərildi. Müsüslü-Kürdəmir istiqamətinə isə Müsəlman korpusunun zirehli qatarı və Qafqaz İslam ordusu Ərkani-hərb rəisi Nazim bəy göndərildi.

Qırmızı orduya Qaraməryəm və Göyçay arasındakı erməni kəndlərinin silahlı dəstələri də kömək edirdilər. İyunun 15-də Mollaishaqlı və Sultankənd kəndləri istiqamətində, iyunun 18-də Qaraməryəm ətrafında döyüşlər baş verdi. Hamazaspın komandir olduğu 3-cü briqadanın hissələri Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçay üzərinə uğurlu hücum üçün əlverişli mövqeləri ələ keçirdilər. Qaraməryəm ətrafında gedən döyüşlərdə İslam ordusundan 122 nəfər şəhid və itkin düşən, 121 nəfər yaralanan oldu. Çoxlu sayda hərbi sursat düşmən tərəfindən məhv edilmiş və ya qənimət olaraq ələ keçirilmişdi. İyunun 18-də Müsüslü yaxınlığında türk-Azərbaycan və bolşevik-daşnak qoşunları arasında döyüş baş verdi. Qırmızı ordu 21-ci taborunun 2 bölüyü əsasını Azərbaycanın milli qüvvələri təşkil edən Müsüslü dəstəsinin döyüşçüləri ilə qarşı-qarşıya gəldilər. Bolşevik-daşnak birləşmələrinin əsgərləri bu döyüşdə ciddi müqavimət göstərə bilməyərək mövqelərini tərk etməyə başladılar. Gəncəyə kimi dayanmadan irəliləyəcəklərinə əmin olan sovet komandirləri öz əsgərlərinin geri çəkilməsini xəyanət kimi qiymətləndirdilər və onları tərksilah edib tribunala verdilər [122. s.114].

İyunun 27-də bolşevik-daşnak birləşmələri Göyçay-Qaraməryəm istiqamətində hücuma keçdi. Ağır döyüşlərdən sonra Milli Ordunun hissələri bolşevik-daşnak birləşmələrinin hücumlarının qarşısını alaraq əks həmlələrlə düşməni geri çəkilməyə məcbur etdi. İyunun 29-da Qafqaz İslam ordusunun hissələri döyüşə başladı, Qaraməryəmin əsas hissəsini azad etdi, bolşevik-daşnak birləşmələri Ağsuya doğru geri çəkildilər.

İyunun 30-da Qırmızı ordu hücuma keçdi, bolşevik-daşnak birləşmələri Göyçayın şimal məhəllələrini işğal edə bildilər. Lakin Qafqaz İslam ordusunun komandanlığı Göyçay ətrafındakı milli qüvvələri səfərbər etdi və iyunun 31-də əks-hücuma keçərək düşməni 5-6 km bir məsafədə geri çəkilməyə məcbur etdi. Aparılan ağır döyüş zamanı düşməndən qənimət olaraq toplar və pulemyotlar ələ keçirildi (Əlavə LIII).

Göyçay ətrafında döyüşlər cərəyan etdiyi vaxt Kür çayı boyunca, Salyan yaxınlığında bolşevik-daşnak qoşunları ilə türk-Azərbaycan hissələri arasında döyüş baş verdi. İyunun 27-dən başlayan döyüşlər iyulun 2-də bolşeviklərin Bakıya doğru geri çəkilməsi ilə nəticələndi [174, s.90].

Göyçay ətrafındakı döyüşlərdən sonra tərəflər verilən itkiləri bərpa etmək, qarşı tərəflə müqayisədə daha böyük qüvvə üstünlüyü yaratmaq üzərində düşünürdülər.

Rusiyanın İran ərazisindəki kazak qoşunlarının rəhbəri polkovnik L.Biçeraxov bolşeviklərlə əlaqə yaradaraq Qırmızı orduya qatılmasına razı olduğunu bildirmişdi. Dəstəsində 1500 nəfər Kuban və Terek kazakı olan L.Biçeraxova bolşevik-daşnak cəbhəsinə komandanlıq etmək təklif olunmuşdu. Azərbaycana çatan kimi Biçeraxov dərhal cəbhəyə yollandı [110, s.146]. İyulun 6-da Biçeraxov Qafqaz İslam ordusuna qarşı bolşevik-daşnak qüvvələrinin komandanı elan edildi və sol cinaha göndərildi. Cəbhənin mərkəzi hissəsinin və sağ cinahının komandanlığı Q.Korqanova tapşırıldı.

Beləliklə, Göyçay-Qaraməryəm döyüşündən sonra türk-Azərbaycan qoşunları Müsüslünün şərqi və Ağsu-Qaraməryəm xətti boyunca mövqe tutmuşdular. Qafqaz İslam ordusunun komandanlığı yaxın vaxtlarda Şamaxının azad edilməsini əsas vəzifələrdən biri kimi qarşıya qoymuşdu. Şamaxıya çatmazdan əvvəl İslam ordusu komandanlığı Kürdəmir-Ağsu xəttinə çıxmağı planlaşdırırdı. Şamaxı üzərinə hücumun müvəffəqiyyətlə başa çatdırılması üçün Qarabağdakı erməni silahlı dəstələrinin fəaliyyətlərinin məhdudlaşdırılması və Culfa-Ordubad üzərindən Şuşaya silahlı dəstə göndərilməsinin məqsədəuyğunluğu barədə Qafqaz İslam ordusunun komandanlığı tərəfindən Osmanlı ordusunun Şərq Ordular Qrupunun Komandanlığına müraciət edildi [161, s.120]. Qafqaz İslam ordusu komandanlığını narahat edən təkcə Qarabağ erməniləri deyildi. Azərbaycanın müxtəlif məntəqələrində yaşayan ermənilər bu və ya digər dərəcədə əks-fəaliyyət göstərirdilər. Şəki, Qutqaşen (Qəbələ), Göyçay və Şamaxı ətrafındakı ermənilər təcavüzkar hərəkətlərini genişləndirməkdə idilər. Nuru paşa öz xatirələrində bu məsələnin diqqət çəkdiyini qeyd edirdi: «Qayabaşı və Söyüdlü məntəqələrinin erməniləri hələ Göyçay döyüşlərindən əvvəl fəallaşmışlar. İyulun əvvəllərində buradakı ermənilər darmadağın edildi. İyulun 12-də Ağdaş cəbhəsinin komandiri teleqram göndərərək Nic və Söyüdlü kəndlərinin nəzarət altına alındığı haqqında xəbər verdi. Silahı təhvil verməyən bir çox ermənilər qaçıb ətraf kəndlərə, meşələrə dağılmışdılar. Şəki-Qutqaşen istiqamətində erməni

millətçilərinin yarada biləcəyi təhlükəyə birdəfəlik son qoymaq üçün Qayabaşıdan qaçıb ətraf kəndlərdə dolaşan və silahı yerə qoymayan ermənilərin zərərsizləşdirilməsi haqqında cəbhə komandanlığına əmr verildi. Göyçay ətrafında olan erməni kəndlərinin tərksilah edilməsinə də xüsusi diqqət yetirilirdi, çünki onlar istənilən vaxt 5-ci Qafqaz diviziyasının arxasında təhlükəli vəziyyət yarada bilərdilər [84]. İyulun 4-də Qaraməryəm ətrafındakı kəndlərin erməni qüvvələrindən təmizlənməsi davam etdirildi və beləliklə Ağsu üzərinə irimiqyaslı hücumu həyata keçirmək üçün zəruri mövqelər tutuldu. Təmizləmə əməliyyatlarında itkilər də oldu [152, s.86]. İyulun 5-də Ağsu-Kürdəmir xəttinin tutulması üçün Qafqaz İslam ordusu hissələrinin hücumu başladı. Bu istiqamətdə döyüşlər 2 gün davam etdi və bolşevik-daşnak birləşmələri milli qüvvələrin hücum təzyiqinə tab gətirməyərək geri çəkilməyə başladı. İyulun 6-da düşmən mövqeləri bütünlüklə milli qüvvələrin əlinə keçdi, qənimət olaraq çoxlu silah alındı.

İyulun 7-də döyüşlər əsasən Kürdəmir ətrafında cərəyan etdiyi bir vaxtda Göyçayın şimalındakı erməni kəndlərindən bolşevik-daşnak qoşunlarının bir bölməsi Qafqaz diviziyasının arxasına zərbə vurmağa cəhd göstərdi. Burada döyüş axşama qədər davam etdi. 5-ci Qafqaz (firqəsi) diviziyası komandanlığı tərəfindən döyüşə əlavə qüvvələr gətirilməsi ilə bolşevik-daşnak bölməsinin müqaviməti qırıldı və onlar, şimala doğru geri çəkilmək məcburiyyətində qaldı [81]. İyulun 8-9-da Kürdəmir cəbhəsində tərəflər arasında ağır döyüşlər oldu. Bolşevik-daşnak qüvvələrinin bütün cəhdlərinə baxmayaraq, axşama doğru Kürdəmir düşməndən azad edildi [103, s.567]. Kürdəmirin azad edilməsi hərbi təşəbbüsün türk-Azərbaycan qoşunlarının əlində möhkəmlənməsinə kömək etdi. İyulun 13-də V.Leninə göndərdiyi teleqramda S.Şaumyan etiraf edirdi: «Cəbhədə vəziyyət pisləşir. Təkcə bizim qüvvələrimiz kifayət etmir. Rusiyadan ciddi kömək lazımdır. Mən Həştərxana və Saritsında olan Stalinə xəbər göndərmişəm. Siz də göstəriş verin. Vəziyyət çox qarışıqdır» [24, s.556].

Kürdəmir ətrafında döyüşlər getdiyi bir zamanda Salyanda hərbi şərait mürəkkəbləşdi və burada növbəti döyüş baş verdi. Tərkibində 50 süvari, 400 piyada, 12 pulemyot, 2 top və 2 gəmi olan Qırmızı dəstəyə öz daşnak fəaliyyəti ilə ad çıxarmış Ter-Avakimov başçılıq edirdi. Dəstənin Hacıqabulda olan 2 təyyarəsi havaya qalxaraq hər gün buradakı türk-Azərbaycan mövqelərini bombardman edirdi [152, s.102-103].

Qırmızı ordu hissələri Salyanı müdafiə edən milli qüvvələrin bölmələrinin üzərinə hücuma keçdi. Döyüşlər 3 gün davam etdi. Çox böyük üstünlüyə malik olmasına baxmayaraq, bolşevik qüvvələri Salyandan geri çəkildilər. Türk-Azərbaycan döyüşçülərinin müqavimətini qırmağa qadir olmadığını görən Ter-Avakimov əsasən ermənilərdən təşkil olunmuş dəstələrə mövqelərini tərk etmək əmrini verdi. Geriyə qaçan bolşevik-daşnak birləşmələri Bankə qəsəbəsində toplaşmışdılar. Ciddi hazırlıq tədbirləri görüldükdən sonra türk-Azərbaycan bölmələri iyulun axırında Bankə üzərinə hücuma keçdilər. Kür çayının mənsəbi

bolşevik-daşnaklardan azad edildi. Sovet gəmilərinin Kür çayı ilə irəliləməsinin qarşısının alınması üçün onun mənsəbində bir neçə gəmi batırıldı.

Qafqaz İslam ordusu tərəfindən iyulun 19-da Şamaxıya başlayan hücum iyulun 21-də müvəffəqiyyətlə başa çatdı. Şamaxı istiqamətindəki qüvvələrin komandiri A.Mikoyan mühüm strateji əhəmiyyət kəsb edən Şamaxının əldən verilməsində Hamazaspı günahlandırdı. Şamaxı istiqamətində başlanan elə ilk döyüşlərdən sonra bu daşnak komandirinin biabırcasına geriyə qaçması digər daşnak döyüşçülərinin də qaçmasına səbəb oldu [24, s.582].

Nizamdan çıxmış, mənəviyyatı pozulmuş Qırmızı ordu qısa müddət ərzində Kürdəmirdən Bakıya qədər geri çəkilməyə məcbur olmuşdu. «Daşnak» rəhbərləri vəziyyətdən çıxış yolunu ingilis qoşunlarının Bakıya çağırılmasında görürdülər. Erməni Milli Şurasının və daşnak liderlərinin təkidi ilə "Sentrokaspi diktaturası" hakimiyyəti əlinə aldığı andan ingilislərin Bakıya gəlməsinin sürətləndirilməsi üçün yollar axtarmağa başladı. Əslində Eməni Milli Şurası ilə daşnak elementləri İranda olan ingilis qoşunları komandanı ilə əlaqələr yaradaraq Bakıya qoşun yeridilməsi məsələsini dəfələrlə müzakirə etmişdilər [120, s.113].

Avqustun 3-də cəbhə komandanı Mürsəl bəy şəhərdəki qüvvələrə 2 məktub göndərdi. Məktubun biri rus, digəri isə türk dilində yazılmışdı: "...Şübhəsiz sizə aydındır ki, Bakı şəhəri ətrafında türk qoşunu döyüşür. Əgər siz şəhəri döyüşsüz təslim etməyə razı olsanız milliyətindən və məzhəbindən asılı olmayaraq hamının hüquqlarının qorunmasına zəmanət veriləcəkdir. Xüsusilə, siz ermənilərə zəmanət veriləcəkdir ki, arzuladığınız halda maneəsiz Bakıdan Ermənistana gedə biləsiniz. Əgər şəhər təslim edilməzsə, o, onsuz da alınacaq və bu zaman axıdılan qanların və dəyən ziyanların məsuliyyəti sizin üzərinizdə qalacaq. Şəhəri təslim etməyə razısınızsa, onda xahiş edirəm ki, dərhal nümayəndəniz vasitəsilə cavab göndərəsiniz..." [1, 15 sentyabr 1919-cu il,]. Erməni Milli Şurasının və "Daşnaksutyun"un fəalları bu məktuba cavab vermədilər, mübarizəni davam etdirməyi qərara aldılar.

Bakının azad edilməsi uğrunda ilk hücum avqustun 5-də başlandı. İlk zərbədən sonra "Sentrokaspi" qoşunları tədricən geri çəkilməyə başladı. Şəhərin içərilərinə doğru geri çəkilən düşmən burada qüvvələrini səfərbər edərək top və pulemyot atəşlərini daha sərrastlaşdırmağa başladılar. S.Şaumyanın əmri ilə cəbhə komandiri gəmilərdə mövcud topları sökərək şəhərə gətirdilər və batareya komandanı Bayıldan topların daha sərrast atəş açılmasına komandanlıq etmişdir. Nəticədə milli qüvvələr itkilər verərək saat 17 radələrində geri çəkilmək məcburiyyətində qaldılar. Onlarda top mərmiləri və hərbi sursat tükəndiyindən düşmən tərəfindən açılan top atəşlərinə cavab verə bilmirdilər.

Qüvvələrin mənəvi-psixoloji vəziyyətini bərpa etmək, onlara qələbə inamı qaytarmaq üçün 5 avqust hücumundan bir neçə gün sonra Qafqaz İslam ordusu döyüşçüləri arasında müraciətnamə yayılmağa başladı (Əlavə LIV). Azərbaycan xalqı Bakının azad edilməsini və bu şəhərin müstəqil Azərbaycan dövlətinin

paytaxtına çevrilməsini səbirsizliklə gözləyirdi. Bu məsələ Azərbaycanın taleyüklü məsələsi idi. 5 avqust döyüşündən 2 gün sonra İstanbulda olan M.Ə.Rəsulzadədən xarici işlər naziri M.H.Hacınskinin adına daxil olmuş məktubda Bakının nəyin bahasına olursa-olsun azad edilməsinin zəruriliyi vurğulanırdı. "Hansı yolla, nəyin bahasına olursa olsun Bakı tezliklə tutulmalıdır. Əks-təqdirdə baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalarıq". Digər məktubunda M.Ə.Rəsulzadə yazırdı: "Əgər Bakı alınmazsa, hər şey bitdi. Əlvida Azərbaycan" [120, s.117, 123].

Bakı şəhərində çox mürəkkəb bir ovqat hökm sürürdü. Şəhərin müsəlman əhalisi Qafqaz İslam ordusunun gəlişini səbirsizliklə gözləyirdisə, eser, menşevik və daşnak fəalları, Erməni Milli Şurasının üzvləri qorxu və təlaş içində idilər. Əhalinin əhval-ruhiyyəsini qaldırmaq üçün məqsədyönlü şəkildə təbliğat aparılırdı. Sentyabrın 14-də, gecəyarı Bakı üzərinə başlanan hücum səhərə yaxın düşmənin ilk müdafiə xətlərinin ələ keçirilməsi ilə nəticələndi. Səhər davam etdirilən hücumla "Sentrokaspi" və ingilis qoşunlarının 2-ci müdafiə xətti ələ keçirildi. İki müdafiə xəttini itirən "Sentrokaspi" və ingilis qüvvələri çaşqınlıq içərisində geri qaçmaqda idilər. Əlverişli mövqelərin tutulması və topçuların səmərəli fəaliyyətə başlaması "Sentrokaspi" və ingilis qoşunlarının müqavimət göstərmək imkanını məhv etmişdi. Sentyabrın 14-də, günortaya kimi əsas mövqelər ələ keçirildi. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam ordusunun hücumlarının qarşısının alınmasının qeyri-mümkünlüyü haqqında qəti əminlik əldə etdi. Ona görə də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. Axşam saat 10-da bütün ingilis qüvvələri "Krüger" gəmisinə yüklənmişdi. İngilislərin geri çəkilməsi "Sentrokaspi" liderlərini yenidən çaş-baş vəziyyətə saldı. Sentyabrın 15-də hücum davam etdirildi. Qurd qapısı yüksəklikləri üzərindəki mövqelərdən şəhərə top atəşləri açıldı. Güclü top hazırlığı atəşlərindən sonra şəhərin müdafiə edilməsinin mümkün olmadığını anlayan "Sentrokaspi" hökümətı şəhərin təslim edilməsi haqqında danışıqlara başlamağa hazır olduğunu Qafqaz İslam ordusunun komandanlığına bildirdi. Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam ordusunun nəzarəti altına keçdi. "Sentrokaspi Diktaturası"nın şəhərdəki dayaqları gəmilər vasitəsilə qaçıb canlarını qurtardılar.

Qafqaz İslam ordusu tərəfindən Qarabağa və Dağıstana göndəriləcək qüvvələr eyni vaxtda formalaşdırılırdı. Qarabağa göndəriləcək qüvvələr qarşısına bölgədə erməni təcavüzünə son qoymaq və separatçı qüvvələri məhv edərək onu Azərbaycan hökumətinin nəzarəti altına almaq vəzifəsi qoyulmuşdu. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra burada erməni separatizmi xüsusilə genişlənmişdi. Erməni millətçiləri hər vasitə ilə Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırmağa çalışırdılar. Şuşada ilk yaradılan idarəetmə orqanına həm erməni, həm də azərbaycanlıların milli komitələrindən bərabər sayda nümayəndələr daxil edilmişdi. Bu idarəetmə orqanı iyulun 2-ci yarısına kimi fəaliyyət göstərdi [31]. Ancaq çox güclü hərbi qüvvəyə malik olan erməni millətçi dairələri getdikcə Azərbaycanla hər cür bağlılığın

qırılmasına çalışırdılar. Onlar azərbaycanlıların Qarabağın idarə edilməsində iştirak etmələri ilə heç cür barışa bilmirdilər. Ona görə də müştərək idarəetmə orqanı tezliklə ləğv edildi. 1918-ci ilin avqustunda ermənilər Şuşada qurultay çağırdılar, 7 nəfərlik bir qurum seçib onu «Qarabağ hökuməti» adlandırdılar [31].

Erməni Milli Komitəsinin fəallarından təşkil edilən bu oyuncaq qurumun bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi. Ermənilər silahlı dəstələr yaradır, azərbaycanlıları, Azərbaycanın digər bölgələrindən təcrid etməyə çalışırdılar. Əsgərana, Ağdama və Qaryaginə gedən yollar kəsilməklə azərbaycanlıların Aran Qarabağla əlaqələri qarşısına çəpər çəkilmişdi. Erməni millətçiləri planlaşdırırdılar ki, payızın və qışın gəlməsi ilə yaşayışın çətinləşməsi, habelə ehtiyacların artması ilə bağlı olaraq azərbaycanlılara təzyiqi gücləndirsinlər, onları Qarabağ erməni qurumunu tanımağa məcbur etsinlər [1, s.1918, 21 oktyabr].

Özünümüdafiə xarakteri daşıyan tədbirlərlə Qarabağda güclənməkdə olan separatçılığın və milli zülmün qarşısını tamamilə almaq mümkün deyildi. Qeyri-insani vəhşiliklərlə ən murdar keyfiyyətlərin təcəssümü olan Andranikin dəstəsi ilə Zəngəzura gəlməsi Qarabağda şəraitin pisləşməsinə zəmin yaradırdı. 1918-ci ilin iyunun 22-də Osmanlı qoşunları tərəfindən ağır zərbə alan Andranik və onun tör-töküntüləri Naxçıvana çəkilib burada da öz vəhşiliklərinə davam etdirmişlər. Naxçıvana yaxın olan 4-cü türk korpusunun 11-ci Qafqaz firqəsi (diviziyası) Naxçıvana doğru irəlilədi və 3000 piyada 600 süvaridən ibarət olan erməni quldur dəstəsini məğlub etdi. İyulun 20-də Naxçıvan ətrafında aldığı ağır zərbədən sonra Andranik öz tör-töküntülərini Zəngəzura və Qarabağa topladı. Bu bölgədə baş verən proseslər müstəqil Azərbaycanın imdadına yetən Osmanlı dövlət rəhbərlərini və eləcə də Qafqaz İslam ordusu komandanlığını narahat edirdi.

Avqustun 9-da Qarabağ məntəqəsi komandanı İsmayıl bəy Qafqaz İslam ordusu komandanlığına göndərdiyi məktubunda bölgədə genişlənən təcavüzlərin qarşısının alınması üçün yerli qüvvələrin kifayət etmədiyini bildirdi. Onun sərəncamında olan qüvvələr də çox az idi. Buna görə də o, Qarabağa əlavə hərbi qüvvələr göndərilməsini xahiş edirdi [85]. Bununla əlaqədar avqustun 2-ci yarısında Qarabağda vəziyyətin xeyli mürəkkəbləşdiyi, erməni təcavüzünün xeyli genişləndiyi, erməni dəstələrinin kəndləri viran qoyaraq qadınlara və uşaqlara rəhm etmədiyi səbəbi ora əlavə qüvvələrin göndərilməsi üçün zəmin yaratdı. Avqustun sonu və sentyabrın əvvəllərində Qarabağ məntəqəsi komandanı İsmayıl bəydən Qafqaz İslam ordusu komandanının adına gələn teleqramlarda Zəngəzurda və Qarabağda erməni vəhşiliklərinin çox geniş bir miqyas aldığı açıqlanırdı. İsmayıl bəy onu da vurğulayırdı ki, əgər yaxın vaxtlarda təsirli tədbirlərə əl atılmasa, bölgədə salamat azərbaycanlı əhali qalmayacaq [73].

Bakı azad edildikdən sonra Qafqaz İslam ordusu komandanlığı Qarabağa hərbi qüvvələrin gondərilməsini məqsədəuyğun bildi. Ora qoşun hissələri yeridilməsi Azərbaycanın müstəqilliyinə olan təhlükənin aradan qaldırılması üçün

nəzərdə tutulan planın vacib halqalarından biri idi. Bölgədə genişlənən təcavüzün qarşısının alınması, qətl və qarətlərə son qoyulması formalaşmaqda olan 1-ci Azərbaycan korpusuna tapşırıldı. Qarabağ hərəkatını başlamaqla, habelə Gorusu erməni dəstələrindən təmizləməklə Qafqaz İslam ordusu komandanlığı Azərbaycanla Türkiyə arasında birbaşa və təhlükəsiz quru əlaqələrinin yaradılmasını da qarşısına məqsəd qoymuşdu [72].

Böyük bir qismi müsəlmanlardan ibarət olan Şuşa şəhərinin 40 min əhalisi var idi. Şəhərdə azlıqda olan, lakin yaxşı təşkilatlanan ermənilər Qafqaz respublikalarını tanımaqdan imtina edərək müstəqil «Qarabağ Respublikası»nı yaratmaq planlarını həyata keçirməyə başladılar. Ermənilərin müsəlman əhalisini öz tərəflərinə çəkmək cəhdləri baş tutmadı. Müsəlman əhalisini Azərbaycanın başqa bölgələrindən təcrid etmək məqsədilə ermənilər Əsgəranla Ağdam arasında olan yolu bağladılar, Qaryagin və Xulufluya gedən dağ yolları üzərində də nəzarəti öz əllərinə aldılar. Şəhərdən çıxmağa cəhd göstərən hər bir kəsi öldürürdülər. Andranik və Şahnazaryanın dəstələrinin tezliklə gəlməsi haqqında Şuşada şayiələr yayılmağa başladı. Azərbaycan hökuməti mayor Həsən Bəsri bəyi Şuşanın, Fəxri bəyi Ağdamın, Kazım bəyi isə Qaryaginin komendantı təyin etdi. Ermənilər öz qurultaylarını çağırdılar və bu qurultay iki həftə davam etdi [2, № 16, 23 oktyabr 1918-ci il].

Şuşa ermənilərinin güclü silahlandıqlarını və hərtərəfli hazırlıq işlərini apardıqlarını görən şəhərin müsəlman əhalisi də öz hazırlıqlarını görməyə başladılar. Bu məqsədlə Şuşada könüllülərdən ibarət 4 dəstə yaradıldı. Əhalinin silahlandırılması üçün 14 komitə yaradılmışdı və bu komitələr təhkim olunduqları ərazilərdə əhalinin siyahısını tərtib edir və onların silahlandırılması üçün varlı təbəqədən maliyyə vəsaiti toplayırdılar. Beləliklə, əhalinin bütün təbəqələri - varlılar və kasıblar silahlanmışdılar. Şəhərin erməni və müsəlman əhalisi yaşayan yerlərində sərhəd zolağı çəkilmiş və səngərlər qazılmışdı. Əhalinin döyüşə tam hazır olmaq məqsədilə əvvəlcədən hər bir dəstənin döyüş mövqeləri müəyyənləşdirilir, onlara ehtiyat qüvvələri təyin edilir və döyüşən dəstələrin hərbi sursat və ərzaqla təmin edilməsi üçün xüsusi qruplar yaradılırdı. Gənclər Şuşada olan zabitlərin köməyi ilə hərbi təlimlər keçirərək hərbi biliklərə yiyələnirdilər. Təlim görmüş gənclərin böyük qismi evlərinə buraxılır və onlara təlimat verilir ki, vəziyyət gərginləşdiyi halda hər kəs öz mövqelərində durmalıdırlar. Bu arada fövqəladə vəziyyətdə yaradılmış hərbi məktəbə bu gənclər arasından 50 nəfər seçilərək topçu və süvari təlimlərini davam etdirirdilər. Bununla yanaşı, zabitlərin rəhbərliyi altında səngərlər qazılır, şəhərin bir başından digər başına yeraltı yollar çəkilirdi. Ermənilərin hücumuna məruz qalan müsəlman əhalisi şəhərin dörd tərəfində qazılmış səngərlərdə müdafiə olunacaqdı. Şəhərin ən yüksək nöqtəsi olan "Üç Mıx" zirvəsində də səngərlər qazılmışdı [ 2, № 20, 28 oktyabr 1918-ci il ].

Yola salınan dəstələr sentyabrın 25-dən etibarən Qarabağ ərazisinə daxil olmağa başladılar. Cəmil bəy tərəfindən Qarabağ ermənilərinə tərksilah olmaları və

Azərbaycan hökumətinin qanunları ilə yaşamaları barədə ultimatum verildi. Erməni millətçi dairələri türk-Azərbaycan qoşunlarının Qarabağa gəlməsi ilə barışa bilmirdilər. Bütün niyyətlərinin puç ola biləcəyini anlayan millətçilər sentyabrın sonlarında növbəti qurultay çağırıb Azərbaycan hökumətini tanımayacaqlarını bildirdilər. Qurultayın qərarı 5 nəfər erməni vasitəsi ilə Ağdama, 1-ci Azərbaycan diviziyasının komandanlığına çatdırıldı. Cəmil bəy bu qərarla tanış olduqdan sonra qərarı gətirən ermənilərdən üçünü - Arşavir Kamalyansı, Aşot Melik-Osipovu və Gerasim Məlik-Şahnazaryanı həbs etməyi əmr etdi. Ayrapet və Danil adlı iki nəfər isə buraxıldı və onlara bildirildi ki, ən qısa vaxt ərzində ermənilər təslim olmasalar, Şuşaya doğru hücum başlayacaq [77]. Ermənilər onlara verilən ultimatum qarşısında çaş-baş qalmışdılar. Erməni Milli Şurası bu ultimatuma cavab verə bilmədi. Məsələnin ciddiliyi nəzərə alınaraq Qarabağ ermənilərinin 3-cü qurultayının çağırılması və ultimatumun burada müzakirə edilməsi qərara alındı. Hələ sentyabrın 29-da ultimatum alınan gün Erməni Milli Şurasının sədri Cəmil bəyə məktub göndərərək Qarabağ ermənilərinin növbəti qurultayı çağırılanadək hücuma başlamamağı xahiş etdi [77]. Erməni Milli Şurasının sədri Ağdamda girov saxlanılan erməni nümayəndələrinə də bir məktub göndərdi: azərbaycanlıların tələbinə Erməni Milli Şurası özbaşına cavab verə bilməz, girov ermənilərdən xahiş edilirdi ki, onlar vaxtın uzadılmasına çalışsınlar.

Oktyabrın 3-də Qarabağ ermənilərinin qurultayı çağırıldı. Üç iclasdan sonra qərara alındı ki, Azərbaycan hökuməti tanınsın, ancaq silahların yığılmaması barədə komandanlıq qarşısında məsələ qaldırılsın [33]. 1 noyabr 1918-ci il tarixli "Azərbaycan" qəzetinin verdiyi məlumata görə, ermənilərin müzakirələri bir neçə gün davam etmişdi. Onların qurultayı öz işini bitirən günün səhərisi Ağdamda saxlanılanlar da Şuşaya qayıtdılar və bildirdilər ki, şəhərin təslimi və silahların təhvili üçün 34 saat vaxt ayrılmışdır. Bunu eşidən kimi, Şuşa erməniləri şəhər komendantına 1 əldəqayırma top, 1 pulemyot, 80 tüfəng təhvil verib Azərbaycan hökumətinə təslim olduqlarını bəyan etdilər. Bu barədə Ağdamda olan Qarabağ məntəqə komandanı İsmayıl bəyə və Cəmil bəyə də xəbər göndərildi [76]. Oktyabrın 4-də Qarabağ dəstəsi Şuşaya doğru hərəkətə başladı və elə həmin gün Əsgəran ətrafında güclü döyüş baş verdi. Əsgəran keçidinin təbii şəraitindən istifadə edən ermənilər burada möhkəm müdafiə postları qurmuşdular. 2-ci Azərbaycan piyada alayı və 9-cu Qafqaz piyada (türklərin) alayı Şuşa yolunda əsas müqavimət ocağını aradan qaldırdı [76]. Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd erməniləri müqavimət göstərməyə çalışdılar. Oktyabrın 6-da Əsgəranla Şuşa arasındakı Əyrikənd ətrafında növbəti döyüş baş verdi. Burada xeyli erməni qüvvəsi toplaşmışdı. 1-ci Azərbaycan diviziyasının toplarının atəşindən sonra həmin qüvvələr qaçıb dağıldılar. Xanabad, Qılıncbaşı və Kətik kəndlərinin dağlara qaçmış əhalisi müqavimətin əbəs olduğunu anladıqca evlərinə doğru geri qayıdır və silahlarını təhvil verirdilər. Ancaq bu zaman mümkün qədər az silah verməyə çalışırdılar.

Şuşa istiqamətində oktyabrın 6-da davam edən döyüşlərdə 1 zabit və 32 əsgər şəhid olmuş, 65 nəfər yaralanmışdı. 16 min güllə və 276 top mərmisini qənimət kimi ələ keçirən milli qüvvələr Xankəndiyə doğru irəliləyişlərini davam etdirdilər. Əsas qüvvələr irəli hərəkət etdikcə arxada qalan yolun və məntəqələrin mühafizəsi də təmin edilirdi [75].

Oktyabrın 7-də digər məntəqələrdə də ermənilərin tərksilah olunması davam etdirildi. Həmin günə qədər Gəncə ətrafında 400 ədəd silah toplanmışdı. Tərtər ətrafında 2-ci süvari alayı dağ ətəklərinə qədər olan erməni kəndləri əhalisinin itaətinə nail olmuşdu. Ancaq yığılan silahların sayı çox az idi. Alay komandanlığından verilən xəbərə görə, Tərtərin erməni kəndlərinin silahlarının çoxu Talış və Mağadiz kəndləri ətrafında toplanmışdı. Goranboy istiqamətindəki Qaraçinar və Xarxaput erməni kəndlərinin gəncləri silahları ilə birlikdə dağlara qaçmışdılar [75]. Oktyabrın 8-də Goranboy istiqamətində göndərilmiş olan Süleyman əfəndinin dəstəsi Ağcakəndə daxil oldu. Ağcakənd, Ortakənd və Erməni Borisi kəndlərindən 110 ədəd müxtəlif silah növləri toplandı. Qaraçinar və ona yaxın olan kəndlərdən dağlara qaçan silahlılar geri dönməkdə davam edirdilər.

1-ci Azərbaycan firqəsinin oktyabrın 4-də Ağdamdan hərəkət edən qüvvələri oktyabrın 8-də Şuşaya daxil oldu. Oktyabrın 4-də Əsgəran ətrafında döyüşə girən bu qüvvələr yol üzərindəki kəndlərdən silah toplamaqla məşğul idilər. 1 noyabr 1918-ci il tarixli "Azərbaycan" qəzeti Qafqaz İslam ordusu hissələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi: "Məhərrəm ayının 1-də qoşunlar şəhərə yaxınlaşdılar. Onların qarşılanması üçün hamısı qara çərkəzi geyimində olan yerli gənclərdən ibarət 30 nəfərlik fəxri qaravul göndərildi. Şəhərin girişində məktəblilərdən ibarət olan orkestrlə bərabər, yerli könüllü hissələr dayanmışdı. Birinci zəfər qapısının yanında isə ruhanilər və beynəlmiləl komitə üzvləri əllərində şəhərin açarını tutmuşdular. Sonra isə şəhərin tanınmış adamları duz-çörək, şagirdlər bayraq, qadınlar əllərində çiçək dəstələri dayanmışdılar. Ermənilər tərəfindən də musiqi orkestri və 15 bayraqla 300 nəfərlik bir nümayəndə dəstəsi gəlmişdi. Səhər saat 10-da qoşunlar... şəhərə daxil oldular... Qoşunların arxasınca isə Qaladərə qəhrəmanları Sultan bəy və İldırım bəy Qarabağ süvariləri ilə hərəkət edirdilər. Azərbaycanlı qadınlar dəstə komandirlərinə qırmızı məxmər üzərində mirvarilərlə bəzədilmiş hədiyyə verdilər. Cəmil bəy şəhərə daxil olduqdan sonra əhali qarşısında çıxış edərək dedi: "Bizim məqsədimiz qan tökmək deyil. Əksinə sakitlik yaratmaqdır. Dövlətin bütün xalqları eyni hüquqa malik olacaqlar. Hamı öz hökumətinin hakimiyyətini tanımalı və dinc əmək fəaliyyətinə başlamalıdır."

Türk mənbələrinə görə, ermənilərlə azərbaycanlılar arasında münasibətlərin daha da kəskinləşməməsi üçün Cəmil bəy ermənilərə qarşı nisbətən mülayim mövqe tutmuşdu. Erməni millətçilərinin xasiyyətlərinə yaxşı bələd olsa da, o, çalışırdı ki, mümkün qədər dinc yolla qarşılıqlı anlaşma əldə edilməsinə nail olsun. Cəmil bəy nüfuzlu və sözükeçən azərbaycanlılarla bir daha söhbət etmiş və onların

qarşısında da müəyyən tələblər qoymuşdu. Bu söhbət zamanı Cəmil bəy demişdi: "Ermənilərə indi itaət təklif edəcəyəm. Qəbul etmədikləri təqdirdə bir orduya itaətsizliyin cəzası nə isə onlara verəcəyəm. İtaət edərlərsə həyat, namus və malları təhti-əmanımda olduğundan heç bir fərdin ufaq bir hərəkətinə müsaidə etməyəcəyəm" [65].

Cəmil bəy Şuşada yaşayan ermənilərdən tərksilah olmalarını tələb etdi. Ermənilər bu tələblə razılaşdıqlarını və silahları təhvil verməyə hazır olduqlarını bildirdilər. Danışıqlar zamanı bildirildi ki, ermənilər Türkiyə ərazisində böyük faciələr törətsələr də, Osmanlı dövləti bir daha humanistlik göstərib onları bağışlayır [174, s. 134-135].

Şuşaya daxil olduqdan sonrakı ilk günlər ərzində qoşunlar əsasən silah toplanması ilə məşğul olurdular. Oktyabrın 10-da müxtəlif kəndlərdən 152 ədəd silah toplanmışdı. Lakin ermənilər öz silahlarını yalnız məcburiyyət qarşısında qaldıqları üçün təhvil verirdilər, özü də çox yararsız və yüngül silahlar toplanırdı. Əslində isə onlar təslim olmaları barədə bir təsəvvür yaradaraq gizlində türk-Azərbaycan qoşunlarına qarşı hazırlıqlarını davam etdirirdilər. Bu məqsədlə onlar Ermənistandan çox böyük kömək alırdılar. Türkiyədən də 600 nəfərədək erməni Qarabağ ərazisinə gələrək burada Qafqaz İslam ordusu hissələrinə qarşı vuruşurdular. Bununla bərabər, türk qoşun hissələrinin Qarabağa girməsi ilə ermənilərin buna qarşı təbliğat fəaliyyətləri xeyli genişlənmişdi. Erməni millətçi dairələri müxtəlif dövlətləri və dünya ictimayyətini inandırmağa çalışırdı ki, Osmanlı qoşunları Qarabağdan Ermənistan ərazisinə yeridilmişdir. İslam ordusu Ərkani-hərb rəisi isə bildirirdi ki, bu, heç də belə deyil. Ermənistanla sərhəddə yalnız Azərbaycanın milli qoşun hissələri dayanmışdır [79].

Tədricən erməni silahlılarının müqaviməti güclənməyə başladı. Oktyabrın 15-də Cəmil bəy komandanlığa göndərdiyi teleqramda Tərtər istiqamətində 2-ci süvari alayının fəaliyyət sahəsində atəşlər baş verdiyini, Çaylı kəndi ətrafında silahlı erməni dəstəsinin mövcud olduğunu qeyd edir, ayın 17-də göndərilən teleqramda 2-ci süvari alayının fəaliyyət sahəsində döyüşlərin davam etdiyi vurğulanırdı [79]. Həmin günlərdə Zəngəzurda da vəziyyət mürəkkəbləşməyə doğru gedirdi. Erməni silahlı dəstələri Azərbaycan kəndlərinə hücum edir, silahsız insanlara qarşı kütləvi qırğınlar törədirdilər. Təkcə Sisyanda belə vəhşiliklər nəticəsində bir neçə gün ərzində 500-dən artıq azərbaycanlı öldürülmüşdü [79]. Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti rəhbəri, Qafqaz cəbhəsi müftisi Axundzadə Gəncəli 7 may 1918-ci il tarixli 3-cü ordu komandanlığına göndərdiyi məktubunda erməni vəhşiliklərini təsvir edir və onlar barəsində Türkiyənin səlahiyyətli şəxslərinə bildirməyi xahiş edirdi (Əlavə LV).

Oktyabrın 18-19-da isə Ağbulaq ətrafında itkilərlə nəticələnən döyüş baş verdi. Erməni silahlılarını tərksilah etməyə gəlmiş Azərbaycan hərbi hissəsi 2 mindən artıq döyüşçüsü olan erməni hərbi dəstələri ilə vuruşmalı oldu [78]. Kənardan alınan yardımlar ermənilərin daha yaxşı təşkilatlanmasına və təchizinə

kömək edirdi. Cəmil bəy oktyabrın 23-də yazırdı ki, Şuşanın erməni əhalisi silahları artıq təhvil vermir. O, ermənilərin qüvvələrinin artmasını təsdiq edirdi. Məsələn, Dovşanlı və Marağalıda 1000 nəfərlik bir silahlı dəstə Arşakın komandanlığı ilə toplanmışdı. Dəstənin kifayət qədər silahı, hərbi geyim və təchizatı var idi. Ağdərə ətrafında toplanan qüvvələr Ağdam-Dovşanlı yolunu kəsməyə çalışırdılar. Gorusda 700 piyadası, 200 süvarisi, 11 pulemyotu, 2 topu olan Andranik Şuşaya təzyiq etməyə cəhd göstərirdi. Erməni Şahnəzərovun tabeliyində 600 nəfərlik Gəncə alayı, 400 nəfərlik Şuşa alayı və 200 nəfərlik Samsun alayı var idi. Bu qüvvələrin müqavimətini qırmaq və Şuşa ətrafında vəziyyəti sabitləşdirmək üçün əməliyyatlar planı hazırlandı [78]. Cəmil bəy komandanlığa göndərdiyi teleqramlardan birində bölgədəki proseslərin Azərbaycanın əleyhinə inkişaf etməkdə olduğunu, ermənilərin verdiyi vədlərə inanmağın mümkünsüzlüyünü qeyd edirdi. Mövcud şəraitdə Qarabağa göndərilə biləcək əlavə qüvvələr artıq Azərbaycanda yox idi. Ermənilərə isə əlavə qüvvə və yardım gəlməkdə davam edirdi. Məsələn, canlı qüvvələrdən əlavə Qarabağdakı ermənilərə silah və sursat almaq üçün Ermənistandan 2 milyon rubl, Bakı və Şuşa ermənilərindən 200 min rubl vəsait toplanmışdır [78].

Bundan başqa, erməni millətçiləri beynəlxalq aləmdə səs-küy salaraq türk qoşunlarının Qarabağda "günahsız" erməniləri qırması barədə xəbərlər yayırdılar. Xüsusilə Osmanlı ordusu Baş Komandanlığının Ərkanı-hərbiyyə rəyasətini öz öhdəsinə götürmüş yeni sədr Əhmət İzzət paşanı Qafqazda və o cümlədən Azərbaycandakı vəziyyətə kifayət qədər bələd olmaması ermənilərin ona müəyyən təsir göstərməsinə yol açırdı. Onunla görüşmək imkanı olan erməni nümayəndələrinin hələ Bakının azad edilməsi zamanı 30 min erməninin öldürülməsi, indi isə bu qırğınların Qarabağda davam etdirilməsi barəsindəki hay-küyləri Əhməd İzzət paşanı Azərbaycanla bağlı əvvəlki hökumətin yeritdiyi siyasətdən geri çəkilməyə sövq etdi və artıq oktyabrın 23-də o, Qarabağ hərəkatının dayandırılmasını tələb etdi [74]. Ə.İzzət paşanın kabinetini belə addımlar atmağa bir tərəfdən müttəfiq dövlətlər məcbur edirdilər. Ermənilər öz təbliğatları ilə müttəfiq dövlətlərdən istifadə etməyə çalışdıqları kimi, bu dövlətlər də ermənilərdən istifadə etməyə çalışır və onların hay-küylərinin həqiqət olmasını qələmə verərək bu yolla Türkiyəni Qafqazdan tamamilə sıxışdırmağa cəhd göstərirdilər. Türkiyə müttəfiqlərinin I Dünya müharibəsində məğlub olması Türkiyəni Antantanın tələbləri qarşısında müqavimətsiz qoymuşdu. Bunu Ə.İzzət paşa özü də Azərbaycandan İstanbula gəlmiş diplomatik nümayəndə Əlimərdan bəy Topçubaşova etiraf etmişdi. Oktyabrın 21-də olan görüş zamanı Ə.Topçubaşov yeni sədr-əzəmə bir böyük qardaş kimi Türkiyənin göstərdiyi köməklərə Azərbaycan xalqının minnətdarlığını çatdıranda Ə.İzzət paşa ona belə cavab verdi: "Böyük qardaş bacardığı kimi həmişə kiçik qardaşa kömək etməlidir və edəcək. Ancaq siz özünüz görürsünüz ki, şərait dəyişmişdir. Bizim və bizim müttəfiqlərimizin vəziyyəti kəskin dəyişikliklərə məruz qalmışdır. İndi məsələləri

biz yox, Vilson və onun tərəfdarları həll edirlər» [162, s.20].

Türkiyənin Qafqazdan sıxışdırılması üçün müttəfiq dövlətlər Qarabağ məsələsindən bəhanə kimi istifadə edirdilər. Qarabağda ermənilərin kütləvi qırğınını bəhanə edərək təcili şəkildə oradakı türk qoşunlarının çıxarılması tələb edilirdi. Türkiyənin növbəti sədr-əzəmi Tofiq paşa noyabrın 16-da Ə.Topçubaşovla görüşündə bu məsələyə münasibətini belə açıqladı: "Biz sizin daimi təəssübkeşlərinizik. Ancaq siz özünüz görürsünüz ki, vəziyyət necə dəyişmişdir. Təəssüf ki, bu, bizi, sizi və sizin müstəqilliyinizi müdafiə etmək imkanından məhrum etmişdir. Bax, indi bizdən tələb edirlər ki, Qafqazdan öz qoşunlarımızı çıxaraq. Biz isə bunu yerinə yetirməliyik və yerinə yetirəcəyik. Belə qəti tələbin irəli sürülməsinə səbəb isə Qarabağ məsələsidir. Belə deyirlər ki, bizim qoşunlarımız Qarabağa getmiş və orada ermənilərlə qəddarcasına davranmışdır" [162, s.58].

İngilislərin ermənipərəst mövqedən çıxış etməsini və bunu dövlət siyasəti səviyyəsinə qaldırmasını İstanbulda Ə.Topçubaşovla görüşündə ingilis polkovniki Tamolun söylədikləri də sübut edirdi: "Biz eşitmişik ki, bu yaxınlarda Qarabağa ekspedisiya korpusu göndərmisiniz və o da çoxlu erməni qırmışdır. Bu hal türk-Azərbaycan birləşmiş qoşunlarının Bakını işğal etməsi zamanı da baş vermişdir. Erməni millətindən olan əhalinin demək olar ki, yarısı məhv edilmişdir" [162, s.67].

Bütün bu danışıqların hamısının erməni hay-küyünün nəticəsi olmasını, ermənilərin özlərinin hansı vəhşiliklər törətməsini Ə.Topçubaşov İstanbuldakı görüşləri zamanı sübut etsə də, Türkiyə artıq məcburiyyət qarşısında qalmışdı. Müttəfiq dövlətlər Türkiyədən qəti şəkildə tələb edirdilər ki, Qarabağda erməni əhalisinin "təhlükəsizliyi" təmin edilsin. «Təhlükəsizliyin təmin edilməsi» deyəndə isə müttəfiq dövlətlər Qarabağa göndərilmiş olan Qafqaz İslam ordusu hissələrinin geri çağırılmasını nəzərdə tuturdu [162, s.74]. Belə bir vəziyyətdə Qarabağda və Zəngəzurda genişlənməkdə olan erməni təcavüzünə qarşı nəinki əlavə yardım göndərmək mümkün oldu, əksinə, oradakı türk alaylarının geri çağırılması zərurəti yaranırdı. Qarabağ dəstəsinin erməni silahlılarına qarşı kifayət edəcək gücə malik olmadığı artıq aydın idi. Cəmil bəyin noyabrın ortalarında komandanlığa göndərdiyi teleqramından aydın olurdu ki, Şuşaya iki istiqamətdən çox güclü hücum gözlənilir. Biri Keşişkənd istiqamətindən - Karapetin dəstəsi tərəfindən gözlənilən hücum idi. Digəri isə Gorus istiqamətindən gözlənilirdi. Burada Qaladərəsi yaxınlığında 2 min nəfərlik bir erməni dəstəsi toplaşmışdı. Bu dəstə Şuşa-Gorus yolunu tutmaqla bərabər, Qaraqışlaq üzərindən Qaladərəsi və Şuşadakı taborlara hücum etməyə hazırlaşırdı. Cəmil bəy yazırdı ki, Qaladərəsidəki tabor üzərində mövcud olan təhlükənin aradan qaldırılması üçün erməni dəstələrinə qarşı əks-hücumun həyata keçirilməsi zəruridir. Onların fikrincə bir döyüşün keçirilməsi isə nə türklərin indiki siyasi vəziyyətinə uyğun idi, nə də Azərbaycandakı silah mövcudluğu buna imkan verirdi. Ona görə də Cəmil bəy 2-ci Azərbaycan alayının

Qaladərəsidə olan 3-cü taborunun Şuşaya qaytarılması barədə əmr verdi. Bu yolla Cəmil bəy taborun Qaladərəsidə çox təhlükəli bir vəziyyətdə qalmasının qarşını aldı [79].

«Mudros müqaviləsi»nin tələblərinə uyğun olaraq türk alayları bütünlüklə Qarabağı tərk etməli oldular. Qafqaz İslam ordusu komandanlığının əmri ilə Qarabağa göndərilmiş 9-cu və 106-cı türk alayları geri qaytarıldı. Bu alaylar digər türk qüvvələri ilə birlikdə Azərbaycanı tərk etməli idilər. 1-ci Azərbaycan firqəsi qüvvə etibarı ilə zəifləsə də, hələ də Qarabağda qalmaqda davam edirdi. General-mayor Usubov bu firqənin komandiri təyin edildi, dərhal Ağdama yollanaraq komandanlığı öz üzərinə götürdü [174, s.136]. Bununla da Qafqaz İslam ordusunun Qarabağ hərəkatı başa çatdı. Hərəkatın ilkin dövründə müəyyən uğurlar əldə edilsə də, beynəlxalq şəraitin, habelə Qarabağ ətrafındakı beynəlxalq münasibətlərin Türkiyənin və Azərbaycanın mənafeləri ziddinə kəskinləşməsi həmin uğurların daha da genişləndirilməsinə imkan vermədi.

Ermənilər hökumətlərini qurduğu gündən başlayaraq Naxçıvana qarşı təcavüzü genişləndirərək oraya tez-tez hücumlar edirdilər. Bu hücumları təsdiqləyən arxiv sənədləri mövcuddur və onlar azərbaycanlı əhalinin məqsədyönlü şəkildə məhv edilməsini sübut edir (Əlavə LXII)

Zəngəzur ilə Dərələyəz məntəqələri arasındakı 13 müsəlman kəndi Andranik və Paponun (Yapon) dəstələrinin bir aydan çox davam edən hücumuna müqavimət göstərmişdir. Sağ qalan əhali çılpaq vəziyyətdə Naxçıvandan Gəncəyə tərəf getməyə məcbur olmuşdu. Zəngəzurdakı müsəlman kəndləri bu bir ay ərzində 1000 nəfər şəhid vermişdi. Dərələyəz məntəqəsi, Golidos, Kəhnədar, Göy Abbas, Kotanlı, Navlı, Arqanun və Daylahlo kəndləri üç ay ermənilərin zülmlərinə məruz qalmış, Paponun (Yapon) dəstəsi bu kəndləri top və pulemyotlardan atəşə tutmuş və müsəlman əhalisi 400 nəfər şəhid verərək kəndlərini tərk etməyə məcbur olmuşdu.

Göyçə gölü yaxınlığındakı Ayrıca kəndi də eyni zülmə məruz qalmışdı. Aparılan tədqiqatlar nəticəsində 133 kənddən müsəlman əhalisinin qovulduğu müəyyən edilmişdir. Əsasən, İğdır, Sərdarabad, Naxçıvan məntəqələrindəki müsəlman kəndləri ermənilər tərəfindən bütünlüklə yandırılmış, əhalisi isə Türkiyə sərhədlərini keçərək boş qalmış erməni kəndlərində məskunlaşdırılmışdı [64a].

Ermənilərə müqavimət göstərmək üçün Naxçıvan əhalisi Osmanlı ordusunun 9-cu korpusunun komandanı Yaqub Şevki paşaya müraciət edərək, onlara silah və hərbi sursat verərək əhali arasında hərbi təlimlərin keçirilməsinin xahiş etdilər. Bu dəyişiklikləri izləyən Ermənistan XİN-i 1918-ci ilin 21 noyabr tarixində Osmanlı ordusunun İrəvandakı hərbi təmsilçisi Məhmət Əli paşaya etiraz notası verdi [69]. Məhmət Əli paşa Ermənistan XİN-ə aşağıdakı cavabı vermişdir: «Erməni əhalisinin başdan-başa silahlandığı və yerli müsəlman əhalisinə durmadan hücumlar etdiyi üçün burada yaşayan müsəlmanlar özlərini müdafiə etmək üçün silahlanmağa məcbur olmuşlar. Əhalinin bu silahların əldə edilməsinə Osmanlı

ordusunun heç bir aidiyyəti yoxdur. Əhali bu işdə bütünlüklə sərbəstdir" [70a].

Bu arada Ermənistan hökuməti bölgədə erməni əhalisinin sayını artırmaq məqsədi ilə digər ərazilərdən bu bölgəyə erməniləri köç elətdirirdi. 9-cu diviziya komandanı, podpolkovnik Rüştü bəy Baş Qərargaha 26.11 1918-ci il tarixli teleqramında yazırdı: "25.11.1918-ci ildə İrəvan şosesi ilə 622 erməni mühaciri, Eçmiədzin şosesi ilə isə 239 erməni mühacir göndərilmiş və verilən vəsiqələrə uyğun Cəfərəddin və Qurdqolu kəndlərində məskunlaşmışlar. Bölgədəki müsəlman əhali ermənilərin bu ərazidə yerləşməsinə Osmanlı hökumətinə hörmət bəslədiklərinə görə müqavimət göstərməmişlər. Çünki Osmanlı ordusu hələ ki, bu ərazilərdən çıxıb getməmişdi" [70]. Halbuki ermənilərin məqsədi tamamilə başqa idi. Onlar bu ərazilərdə yerləşərək sonralar törədəcəkləri soyqırımının təməlini hazırlayırdılar. Bölgəyə gələn ermənilər dinc yaşamaq üçün deyil, bu ərazilərdə yaşayan müsəlmanları qətlə yetirərək bu torpaqlarda erməni əhalisinin çox sayda yaşadıqlarını iddia etmək məqsədi ilə yerləşdirilirdi. Erməni hərbi komandirlərindən Sasun (və ya Sason) və muşlu Smbat Türkiyədən qaçan ermənilərdən dəstələr təşkil edərək hərbi əməliyyata başladılar. Nəticədə 1918-ci ilin noyabr-dekabr aylarında Dərələyəz bölgəsində müsəlman kəndləri boşaldılaraq bu kəndlərə 15.000-ə qədər erməni əhalisi yerləşdirildi. Şərur-Naxçıvan yoluna nəzarət edən türklər ermənilər üçün Zəngəzur-İrəvan yolunu bağlamışdılar. Bölgədə məskunlaşmaq istəyən erməni millətçiləri bu ərazilərdə hərbi təhlükəsizliyin əsas şərt olaraq müsəlman əhalisinə qəbul elətdirə bildilər. Bu ərazilərdə yerləşmək üçün Ermənistan hökuməti öz hərbi dəstələrini göndərdi. İrəvandan hərəkət edən erməni hərbi qüvvələri müsəlmanlar yaşayan Vedibasardan keçərək Dəvəli qəsəbəsinə qədər irəliləyərək Yerevan-Culfa dəmir yol xəttini ələ keçirdilər. Erməni hərbi qüvvələri 1918-ci ilin dekabrın ortalarına qədər İrəvan vilayətinin cənub hissəsini bütünlüklə zəbt etdilər və Şərur qəzasına tərəf irəliləmək üçün hazırlıq tədbirləri görməyə başladılar.

Lakin Borçalıda baş verən Ermənistan-Gürcüstan münaqişəsi Ermənistan müdafiə naziri Haqverdiyanı məcbur etdi ki, erməni hərbi qüvvələrinin Şərur-Naxçıvan istiqamətində irəliləməsini dayandırsın və bu qüvvələrin Dəvəlidən geriyə qayıtması barədə əmr versin. Məhz Ermənistan-Gürcüstan münaqişəsinin başlanması Naxçıvan ərazisində yaşayan müsəlman əhalisinə erməni basqınlarından sonra qısa bir müddət sərbəst nəfəs almalarına imkan verdi.

1919-cu ilin yanvarında Tiflisdəki İngiltərə hərbi ataşesinin işə qarışması nəticəsində Ermənistanla Gürcüstan arasında baş verən münaqişəyə son qoyuldu. Bundan istifadə edən ermənilər təkrar Naxçıvan tərəfə dönərək yarımçıq saxladıqları qırğınları davam etdirmək üçün fürsət əldə etdilər. Ermənistanın müdafiə naziri Haqverdiyan Şərur üzərinə daha əvvəllər başladığı hücumu bitirmək üçün Dəvəlidəki hərbi qüvvələrini hazırlıq vəziyyətinə gətirdi. 1919-cu ilin yanvar ayının 4-də Sərdarabad və İrəvandan Türkiyəyə köçən müsəlman əhalisinə hücum edən erməni hərbi dəstələri onları talan edərək böyük bir hissəsini qətlə yetirdi.

İğdır yaxınlığındakı Sarıçoban kəndinə hücum edən erməni silahlı dəstələri kəndi talan etdikdən sonra kənd əhalisini bütünlüklə qılıncdan keçirtdilər. 1919-cu ilin yanvarın 21-də Arpa çayını (Gümrüdəki) keçə bilməyən erməni silahlı dəstələri Gümrü və ətrafındakı müsəlman kəndlərinə hücum edərək onları talan etmiş və kənd əhalisinin 30 nəfərini öldürmüşdülər [153, s.364]. Ermənilər Şərur və Naxçıvana hücuma hazırlaşarkən, Naxçıvan əhalisindən seçilmiş nümayəndələr ermənilərə müraciət edərək sülh danışıqlara başlamaq istədiklərini bildirdilər. Ermənilər hücumlarına 10 gün ara verməyə razılaşdılar.

1919-cu ilin yanvarın 18-də on gün müddəti bitməmişdən qabaq ingilis polkovniki Lauton Naxçıvana gəldi. İngiltərə nümayəndəsi burada naxçıvanlılarla görüşdü və yanvarın 21-də ermənilərin baş qərargahına gələrək ingilis hökuməti adından bütün hərbi əməliyyatların dayandırılmasını tələb etdi. İngilislərin bu tələbinə ermənilər boyun əyməli oldular. Lakin onlar öz əməllərindən əl çəkmir və müsəlman əhalisinə qarşı zaman-zaman hücum edirdilər. Polkovnik Lauton əlində olan hərbi qüvvə ilə (2 bölük əsgər) ermənilərin hücumunun qarşını ala və müsəlman əhalisini müdafiə edə bilmədiyindən öz nüfuzunu tədricən itirməyə başladı. Ermənilərə qarşı savaşan müsəlman əhalisini cəzalandırmaq məqsədi ilə kənd-kənd gəzən polkovnik Lauton yerli sakinlərin təşkil edilmiş müqaviməti ilə qarşılaşdı və bu müqavimət nəticəsində istədiyinə nail olmadı. Bundan sonra əlavə hərbi qüvvəyə ehtiyacı olduğunu bildirən Lauton aprel ayında geri çağırıldı və Naxçıvana əlavə hərbi qüvvə ilə polkovnik-leytenant Simpson gəldi.

Ermənilərə qarşı igidliklə müqavimət göstərən müsəlman əhalisi vaxtaşırı general Andranikin hərbi dəstələrinin hücumuna məruz qalmış, lakin yeridilən soyqırımının qarşısını ala bilmişdi. Müxtəlif zamanlarda müsəlman əhalisinə qarşı qırğınlar törədilmiş və hökumət tərəfindən müəyyən edilərək bu qırğınlarda ölənlərin sayı rəsmiləşdirilərək sənədlərdə öz əksini tapmışdır (Əlavə LVI).

Ermənilər törətdikləri bütün bu qətllərə baxmayaraq, istədiklərinə nail ola bilməmişlər. Azərbaycan hökuməti qüvvətləndikcə Ermənistan hökumətinə layiqli cavablar verir, onların Arpaçayın (Naxçıvandakı) qərbinə keçmək istəklərinin qarşını alaraq geriyə doğru otuzdururdular.

# NƏTİCƏ

Aparılmış tədqiqat zamanı aşkar edilmiş tarixi faktların təhlili aşağıda göstərilən nəticələri əldə etməyə imkan vermişdir. Dissertasiyanın «Antanta dövlətləri tərəfindən ermənilərin Qafqazdakı hərbi-siyasi proseslərə cəlb edilməsi» adlı I fəslində əsasən «Erməni məsələsi» kimi uydurma problemin meydana çıxması izlənilmişdir. Fəslin 1-ci paraqrafında I Dünya müharibəsində iştirak etmiş tərəflərin Qafqaz və həmsərhəd bölgələrilə bağlı niyyətlərinin müəyyənləşməsində erməni amilinin yeri araşdırılır. XIX əsrin ortalarından Osmanlı imperiyasına Avropa dövlətlərinin təzyiqləri güclənmişdir. Təzyiq formalarından biri milli azlıqların hüquqlarının pozulması iddiaları ilə bağlı idi. Osmanlı dövlətində türklər azsaylı xalqlara qarşı hər zaman xoşməramlı olmuş və onların haqlarını tanımışdır. Avropalılar səfirliklər və konsulluqlar vasitəsi ilə azsaylı xalqları himayə altına almağa başlamış, milli azlıqlarda millətçi hissləri oyadıb, qiyamlar qaldırmağa və imperiyanı parçalamağa çalışırdılar. İmperiyanın parçalanmasında Rusiya, İngiltərə, Fransa, Avstriya və Almaniya öz maraqlarını güdürdülər. Osmanlı imperatorluğunda yaşayan milli azlıqlar arasında avropalılar getdikcə böyük diqqəti ermənilərə yönəltdilər. Rusiyanın məqsədi Türkiyənin şərq vilayətlərini zəbt etmək idi. İngiltərə «muxtar Ermənistan» dövləti vasitəsilə Rusiyanın təsirini azaltmaq istəmişdir. Fransa ermənilər vasitəsi ilə Kilikiyanı əldə etməyə çalışırdı. Osmanlı dövlətində əhəmiyyətli rol oynayan və müəyyən imtiyazlara malik olan ermənilər bununla belə dövlətin parçalanmasına can atırdılar. İngilis lordu Salisbur: "Ermənistanda müstəqillik üçün şərtlər əlverişli deyil. Əhali arasında azlıq təşkil edən ermənilər üçün müstəqillik mümkünsüz bir şeydir", - deməklə sübut etmişdir ki, erməniləri dəstəkləməkdə avropalılar öz məqsədlərini güdürdülər. Avropalıların erməniləri dəstəkləməsi «Şərq məsələsi»nin tərkib hissəsi kimi «Erməni məsələsi"ni ortaya gətirdi.

Fəslin 2-ci paraqrafında Qafqaz cəbhəsindəki əməliyyatlara qoşulmaqda erməni millətçilərinin məqsədləri araşdırılır. Ermənilər arasında millətçi ideyaların yayılması ilə ilk növbədə Erməni Qriqorian Kilsəsinin din xadimləri məşğul olurdular. Onlar dini işlərdən çox, siyasətlə məşğul idilər; Avropa dövlətləri ermənilərlə əlaqələri ilk növbədə dini kanallar vasitəsi ilə yaratmağa başladılar; erməni kilsə xadimlərinin fəaliyyətini Avropa səfir və konsulları ilə bərabər missionerlər də dəstəkləyirdi. Ermənilər təşkilatlandıqca «Hnçak», «Daşnak», «Ermənistan» cəmiyyətlərini yaratmağa başladılar; türklərə və müsəlmanlara qarşı nifrət, kin-küdurət hissləri təbliğ edilirdi; Osmanlı dövlətində ermənilərin inkişafı üçün yaradılmış fondlar əslində millətçi cəmiyyətləri maliyyələşdirməyə başlamışdılar; bu fondlara pullar təkcə dünyanın müxtəlif yerlərində yaşayan ermənilər tərəfindən deyil, həmçinin birbaşa xarici dövlətlərdən keçirilirdi. Avropalılar və Rusiyanın köməyi ilə ermənilər öz tələblərini konkretləşdirmiş və Türkiyənin 6 vilayəti (Ərzurum, Van, Diyarbəkir, Sivas, Bitlis, Xarput) ərazisini

əhatə edən torpaqlarda Ermənistan dövlətini yaratmaq niyyətini bildirmişdilər. Ermənilər arasında olan məzhəb ayrı-seçkiliyinə son qoymaq məqsədi ilə 1847-ci ildə Eçmiədzində "Milli Nizamnamə" tərtib edilmiş və Eçmiədzin bütün erməni qriqorian xristianlarının mərkəzi elan edilmişdi. 1863-cü ildə Osmanlı imperiyasındakı "Nizamname-i Milləti Ermənıyan" tərtib edilmişdir. Bu sənəd Erməni Patriarxlığına ermənilərə rəhbərlik etmək səlahiyyətlərini vermiş, bundan başqa ermənilər «Ümumi Məclis» adlanan bir dini məclis yaratdılar. Erməni katolikos və patriarxları avropalıları Türkiyəyə qarşı müharibəyə başlamağa, ermənilərin hüquqlarını qorumağa çağırırdılar.

Fəslin 3-cü paraqrafında müharibə ərəfəsində erməni təşkilatlarının Osmanlı dövlətinin siyasi proseslərində iştirakı məsələsinə aydınlıq gətirilir. Mənbələrə əsasən, ermənilərin imperiyasının müxtəlif ərazilərində məskunlaşması, türklərə nisbətdə azsaylı olması göstərilmişdir. Ermənilərin Şərqi Anadoluda əhalinin ancaq 1/5-ni təşkil etdiyini, dövlətdə ən çoxu 1,3 milyona qədər ermənininin yaşadığı müəyyən edilmişdir. Say baxımından çox olmayan ermənilər ticarət və sənətkarlıqda aparıcı yerləri tutur, ictimai və yüksək dövlət vəzifələrində çalışırdılar. 1878-ci ildə Ayastefanos (San-Stefano) və Berlin konfranslarında «Ermənistan dövləti»ni yarada bilməyən ermənilər bu dövlətin yaradılmasının təkcə Rusiya ilə bağlı olacağını bildirmişlər. Artıq 1879-cu ildən başlayaraq erməni kilsələrində Osmanlı dövlətinə qarşı silahlı qiyam çağırışları eşidilməyə başlandı. Sivas vilayətində mövcud olan vəziyyət əsasında ermənilərin hansı formada tədbirlər həyata keçirilməsi dissertasiyada göstərilmişdir. Avropa dövlətlərinə göndərilən türklərə qarşı iftira dolu məktub və şikayətlərin sayı artırılmış, Osmanlı dövlətinə qarşı böhtan kampaniyası gücləndirilmiş, ermənilərə yardım adı ilə toplanmış pullar komitələrin yaradılması və silahlanması işinə xərclənməyə başlanmışdır. Osmanlı dövlətinin reallıqlarını qiymətləndirən millətçi təşkilatlar fəaliyyətlərini gücləndirmişdir. Onlar aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirdilər: silah və sursatın toplanması; hərbi təlimlərin keçirilməsi; təbliğatın genişləndirilməsi; Osmanlı dövlətinə qarşı təxribatların həyata keçirilməsi; silahlı dəstələr təşkil edərək qiyama hazırlanması. "Türk, kürd - kim olursa olsun vur, hər cür şəraitdə öldür. Erməni xəfiyyələri və xainlərini öldür. İntiqamını al!" şüarı populyarlaşır. Dissertasiyada erməni təşkilatlarının yaranma tarixi, strukturu, fəaliyyət sahələri təhlil edilmişdir. Erməni komitə və cəmiyyətləri xarici dövlətlərlə əlaqələr yaradılmasına xüsusi əhəmiyyət verirdilər.

Dissertasiyanın «Erməni təşkilatlarının xarici dövlətlərlə əlaqəsi və erməni silahlı qurumlarının Qafqaz cəbhəsində fəaliyyəti» adlı II fəslində erməni təşkilatlarının fəaliyyəti ətraflı araşdırılır. Fəslin 1-ci paraqrafında erməni təşkilatlarının xarici dövlətlərlə əlaqələri müəyyənləşdirilir. 1912-ci ildə ermənilərin I ümummilli qurultayında (Tiflis) «Erməni məsələsi»nin həlli üçün tədbirlər planı hazırlandı. Erməni təşkilatlarının ən sıx əlaqələri Rusiya ilə idi. «Erməni məsələsi»nin Rusiyada gündəliyə gətirilməsində və onun həll

olunmasında Qafqazın general-qubernatoru Vorontsov-Daşkov əvəzsiz rol oynamışdır. Rusiya çarı erməni katolikosu ilə görüşdükdən sonra «Erməni məsələsi»nin həllini öz üzərinə götürməsini bəyan etdi. Rusiya diplomatiyası bir tərəfdən Avropa ölkələrini Şərqi Anadolunun Rusiyanın təsir dairəsinə salınmasına inandırmağa çalışır, digər tərəfdən erməniləri Osmanlı dövlətinə qiyamlara sövq edirdi. Erməni liderləri öz mövqelərini belə açıqlamışdılar: "Ümumiyyətlə, ermənilər gələcəklərinin Rusiya ilə bağlı olduğunu düşünür və Türkiyəyə qarşı nələr edəcəkləri haqqında Rusiyadan təlimat gözləyirlər". Erməni nəşrlərində Ararat dağlarından İsgəndəruna qədər ərazilərin Rusiya tərəfindən işğal edilərək «Ermənistan» muxtariyyətinin yaradılması məsələsi geniş müzakirə olunurdu. Rusiya ermənilərə Şərqi Anadolu (Van, Baqeş, Diyarbəkir, Xarbed, Sivas, Qarin və Trabzon) əyalətlərində, həmçinin Kilikiyanın 5 sancağında (Maraş, Sis, Cəlal, Bərəkət, Adana) muxtariyyət verəcəyini və eyni zamanda Rusiya erməniləri üçün islahatlar keçirəcəyini vəd etmişdir. Dövrün sənədləri göstərir ki, artıq 1913-cü ildə Rusiyanın səfir və konsullarının Türkiyənin Bitlis, Ərzurum və Van ərazilərində ermənilərin türklərə qarşı soyqırımına hazırlaşmasından xəbərləri var idi. Rusiya səfirliyinin əməkdaşı A.Mandelştam tərəfindən Osmanlı hökumətinin devrilməsi planının layihəsi hazırlandı. Layihənin qısa məzmunu "Osmanlı hökumətinə tabe olmayacaq valinin rəhbərliyi altında Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput və Sivas bölgələrində Ermənistan əyaləti yaradılacaq" ifadəsi ilə bildirilirdi. Layihə Avropa dövlətlərinin səfirlərinin Yeşilköy toplantısında müzakirə edildi. Layihəni qəbul etdirmək üçün Avropa dövlətləri Türkiyəyə təzyiqləri artırır, lakin Türkiyənin I Dünya müharibəsinə qoşulması layihənin ləğvinə gətirdi.

Fəslin 2-ci paraqrafında Qafqaz cəbhəsində erməni silahlı qurumlarının təşkili və formalaşdırılması məsələsi araşdırılır. Osmanlı dövləti səfərbərlik elan etdiyi vaxt Eçmiədzin katolikosu Gevork Vorontsov-Daşkova riyakarlıqla dolu məktub yazaraq erməniləri himayə etməyini xahiş edir və bunun əvəzində ermənilərin ruslarla birlikdə Osmanlı dövlətinə qarşı savaşacaqlarına söz verirdi. Hələ döyüşlər ərəfəsində Şərqi Anadolunun bir çox yerlərində erməni komitələri fəaliyyətlərini artırmış, bomba istehsalı emalatxanaları yaratmış, silah anbarları təsis etmişlər. Çar Rusiyası Qafqazda məskunlaşan və Anadoludan Rusiyaya qaçan erməniləri silahlandıraraq birləşmələr yaratmağa başladı. Dünyanın hər yerindən bu hissələrə ermənilərdən maddi yardım olunurdu. Rusiyanın himayəsi ilə erməni dəstələri İranın Xoy və Dilman vilayətlərində təlimlər keçirdilər. Səfərbərlik elanından sonra əsgərliyə gedən ermənilər silah və sursatlarını da götürərək fərarilik edir və komitəçilərin dəstələrinə qoşulurdular. Ərzurumda daşnak konfransında erməni təşkilatlarının müharibə dövründə necə davranmaları haqqında qərar qəbul edildi: müharibə elan edilənə qədər boyun əymək, Rusiyadan gələn silahlarla silahlanaraq hazır vəziyyətdə gözləmək; türk ordusu irəlilədiyi halda sükutu mühafizə etmək; türk ordusu geri çəkildiyi halda təlimatlara uyğun olaraq arxada diversiyalara başlamaq. Osmanlı hərbi komandanlığı ermənilərin bu

hazırlıq tədbirləri haqqında ətraflı məlumat toplamış, hökumətə məlumat vermiş, lakin «Gənc türklər» hökumətinin tərəddüd etməsi, xristian əhali ilə mülayim davranması lazımi tədbirlərin keçirilməməsinə səbəb oldu.

Fəslin 3-cü paraqrafının tədqiqat mövzusu Qafqaz cəbhəsində erməni silahlı qurumlarının Osmanlı ordusu arxasında fəaliyyəti olmuşdur. Müharibə başlayan kimi erməni komitələri rus ordusu tərəfinə keçərək silahsız və müdafiəsiz müsəlman əhalisinin üzərinə basqınlar edərək günahsız adamları qətlə yetirmişdir. Rəsmi idarələr, hərbçilər və jandarmlara hücumların sayı artmışdı. Bütün bunlara kilsə xadimləri, Osmanlı Milli Məclisinə üzv olan erməni millət vəkilləri, komitəçilər, ziyalılar rəhbərlik edirdi. Rəsmi sənədlərdə olan məlumatlar, həmçinin erməni liderlərinin yazışması və müraciətlərindən aydın olur ki, türk ordusunda xidmət edən erməni əsgərlərinin silahla birlikdə fərarilik etməsi kütləvi formada və məqsədyönlü həyata keçirilirdi; fərarilər təxribatçı dəstələrə birləşirdilər. Erməni dəstələri boşaldılacaq kəndlərdə kilsələri, evləri, kənd təsərrüfatı məhsullarını yandırır; müttəfiq dövlətlərin xeyrinə casusluq edir; türklərin mənəvi birliyini pozmaq üçün təbliğat aparırdılar. Erməni-rus əməkdaşlığı Körpüköy, Azap, Sarıqamış əməliyyatlarında osmanlı qüvvələrinin məğlubiyyətinə aparan şərtlərdən olmuşdur. Ermənilər özlərinin törətdiyi qanlı hadisələrin türklər tərəfindən törədildiyini «sübut etdirmək» üçün saxtalaşdırmalara əl atırdılar.

Fəslin 4-cü paraqrafında Qafqaz cəbhəsində Osmanlı ordusu arxasında erməni qiyamları təhlil edilir. Ermənilərin türk-müsəlman dinc əhalisinin qanını tökməsini təsdiqləyən rəsmi sənədlər bütün vəhşilikləri təsvir edir. Van, Bitlis, Sivas, Muş ərazilərində minlərlə erməni sakini qiyam qaldıraraq türk ordusuna arxadan zərbə vurmuş, təchizat məsələlərinin həllini çətinləşdirmişdir. Arxada Osmanlı hərbi hissələrinin azlığından istifadə edən erməni komitələri rus ordusunun növbəti hücumu başlayanda strateji məntəqədə qiyam qaldırır və bununla bu məntəqənin tutulmasını asanlaşdırırdı. Belə qiyamlar türk-müsəlman əhalisinin məqsədyönlü qətlləri ilə müşayiət olunurdu. Osmanlı dövlətinin komitəçilərə və Patriarxlığa göndərdiyi xəbərdarlıqlar nəticəsiz qalmışdır. Ən qanlı qiyamlar Rusiya ordusunun hücum istiqamətində təşkil edilmişdir - Zeytun, Van, Bitlisdə. Ermənilər Van bölgəsində say üstünlüklərinə malik olduqlarını iddia edirlər. Dissertasiyada göstərilən statistik məlumatlar bunun yalan olmasını, erməni əhalisinin müsəlman əhalisinə nisbətən 2-3 dəfə az olmasını təsdiqləyir. Dissertasiyada Van qiyamı timsalında erməni qiyamlarının hansı ardıcıllıqla həyata keçirilməsi açıq göstərilmişdir.

Fəslin 5-ci paraqrafında rus, ingilis, fransız qoşunları tərkibində erməni dəstələrinin hərbi fəaliyyəti araşdırılır. Ruslar İran və Qafqazdakı erməniləri toplayaraq 4 alay yaratmışlar; Sibirə sürgün edilən 180-ə qədər erməni inqilabçısı çar tərəfindən əfv edildi və Türkiyəyə göndərildi; erməni könüllülərini toplamaq üçün Rusiyada xüsusi tədbirlər həyata keçirilirdi: dəmiryolları və dəniz nəqliyyatı vasitəsi ilə ermənilər Rusiya dövləti hesabına Amerika və Avropadan Qafqaza

gətirilir, Azərbaycan ərazisində hərbi hissələr təşkil edilirdi. Artıq 1914-cü ildə hərəsində 1000 nəfər olan 4 könüllü drujina formalaşdırılmış, sonralar Rusiya ordusu tərkibində təxminən 80 min erməninin olması göstərilir. Erməni hərbi hissələri Şərqi Anadoluda gedən döyüşlərdə iştirak etmiş, dinc əhaliyə qarşı onların törətdikləri vəhşiliklər hətta, rus zabitlərini də hiddətləndirmişdir. Erməni hərbi hissələrinin yaradılmasına çar hökuməti, sonra Müvəqqəti Hökumət və nəhayət, bolşeviklərin hökuməti diqqət yetirirdi.

Fransa ordusu tərkibində 5 min erməni Leqion d'Orient (Şərq Legionu) tərkibində olmuş, sonra ermənilərin sayı 70 minə çatdırılmışdır. Fələstin və Kilikiyaya göndərilən ermənilər dinc əhaliyə qarşı vəhşiliklər törətmişdilər. "Ərəbçilik türk islamçılığına cavab olduğu kimi, erməni məsələsi də həqiqətən turançılığa qarşı qüvvətli bir tədbirdir" şüarını rəhbər tutan İngiltərə də erməni hərbi hissələrinə köməklik göstərirdi.

Dissertasiyanın III fəsli "I Dünya müharibəsi illərində Qafqazdakı hərbi-siyasi şəraitin mürəkkəbləşməsində erməni amilinin rolu» adlanır. Fəslin I paraqrafında 24 aprel 1915-ci il «Təhcir qanunu» və ermənilərin koçürülməsi məsələsi təhlil edilir. 1915-ci ilin fevralın 25-də Osmanlı rəhəbərliyi tərəfindən erməni komitəçilərinin nəzarət altına alınması, erməni əsgərlərinin döyüşən hərbi hissələrdən xaric edilməsi, yaradılacaq hərbi məhkəmələrin qiyam və quldurluq işlərinə baxacağı barəsində əmr göndərilmişdir. Görülmüş tədbirlər nəticəsində yüzlərlə qiyamçı həbs edilmiş, minlərlə silah, partlayıcı maddə, təbliğat vasitələri, təlimatlar müsadirə edilmişdir. Şərqi Anadoluda erməni qiyamlarının başqa vilayətlərə keçməsinin qarşısını almaq üçün Osmanlı hökuməti gördüyü tədbirlərlə yanaşı, erməniləri başqa yerlərdə məskunlaşdırmaq üçün köçürmə tədbirlərinə başladı. Van qiyamı məcburi yerdəyişmə əməliyyatını sürətləndirdi. Xəbərdarlıq yazıları erməni komitələrinin liderlərinə göndərilmiş və göstərilmişdir ki, bu hallar davam etdiyi təqdirdə xoş olmayan tədbirlər görüləcək. Lakin bu cür xəbərdarlıqların verilməsinə baxmayaraq, komitələr və Patriarxlıq dinc əhalinin qırğınlarının törədilməsinə davam etmişlər. 24 aprel 1915-ci il tarixində komitələrin və cəmiyyətlərin bağlanması, onların sənədlərinin müsadirə edilməsi və rəhbərlərinin həbs edilməsi ilə əlaqədar «Təhcir» (köçürmə) fərmanı imzalanmışdır. Bəzi tarixçilər bu kəlməni "deportasiya" mənasında işlədirlər, lakin «Təhcir» ilə sürgün arasında fərq vardır: «Təhcir» fərmanı ilə yerini dəyişən şəxs köçdüyü yeni ərazidə sərbəst yaşaya bilər. Tarixi faktlar sübut edir ki, hal-hazırda ermənilərin iddia etdikləri kimi, «Təhcir» soyqırımı siyasəti deyil. Xüsusi qanun, əmr və göstərişlərlə ermənilərin təhlükəsizliyini, səhhətini, əmlaklarını qoruması da bunu təsdiqləyir. Ermənilərin köçürülməsi zamanı köçürülənlərin təhlükəsizliyi təmin edildi; məskunlaşma üçün kreditlər verildi; hamilə qadınlar, xəstələr və onlara xidmət edənlər köçürülmədi; Livanda, Urfada, Dəməşqdə yetim evləri açıldı; yetim erməni uşaqları təhsillərini davam etdirmək üçün məktəblərə göndərildi; ehtiyaclarına görə əmlak və torpaq verildi; sağlamlıqları daim nəzarət

altında saxlanıldı; yollarda iaşə məntəqələri açıldı; daşınan və daşınmaz əmlakları təhlükəsizlik altına alındı; məskunlaşma yerlərinə müfəttişlər göndərildi; müxtəlif dövlətlərin nümayəndələrindən formalaşan komissiyalar vəziyyəti nəzarət altında saxlayırdılar. 1915-ci ilin mayından başlanan köçürülmə 1916-cı ilin 15 mart tarixində başa çatmışdır. Hazırda ermənilər köçürülmə zamanı milyonlarla erməninin öldüyünü iddia edirlər. Tədqiqata cəlb edilən statistik mənbələrdən köçürülmə qanunu tətbiq edilərkən Qafqaza 345 min, Suriyaya 140 min, Yunanıstan və Egey adalarına 120 min, Bolqarıstana 40 min, İrana 50 min, Liviyaya 50 min, Misirə 40 min, İraqa 25 min, Fransa, ABŞ və Avstriyaya 35 min olmaqla cəmi 845.000 erməninin köçdüyü aydınlaşır.

Fəslin 2-ci paraqrafında Cənubi Qafqazda Ermənistan dövlətinin yaradılması göstərilir. 1917-ci il Fevral burjua inqilabından sonra Rusiyada hakimiyyətə gələn Müvəqqəti Hökumət erməni hərəkatını dəstəklədi. 9 may 1917-ci ildə "Türkiyə Ermənistanı» haqqında qərar ermənilərin lehinə qəbul edilmiş oldu və Rusiya protektoratlığı altında "Türkiyə Ermənistanı" adlı dövlətin yaradılmasına yönəlmişdi. Qərara görə, Rusiyanın işğalı altında olan Şərqi Anadolu torpaqlarına 150 min erməni köçürülməsi və ərazilərin idarə edilməsinə ermənilərin cəlb edilməsi məqsədəuyğun bilinirdi. Tiflisdə keçirilən erməni qurultayında Qafqazı və Şərqi Anadolunu əhatə edəcək "Böyük Ermənistan" yaratmaq planı qəbul edildi. 1917-ci il Oktyabr çevrilişindən sonra hakimiyyətə gələn bolşeviklər ermənilərə münasibətlərində Müvəqqəti Hökumətin siyasətini davam etdirdilər. Bolşeviklər çar ordusu tərəfindən işğal edilmiş Şərqi Anadolu torpaqlarını ermənilərə təhvil verərək oradan çıxdılar. Burada erməni əhalisini yerləşdirdikdən sonra idarəetmə orqanları qurmaq, erməni əhalisinin sayı artırılaraq referendum vasitəsi ilə Rusiyanın himayəsinə keçmək planlaşdırılmışdı. 1917-ci ilin dekabr ayının 29-da (1918-ci ilin yanvarın 11-də) Rusiya XKS-in «Türkiyədə yaradılacaq «Erməni dövləti» haqqında» 13 №-li Dekreti imzalandı. Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar Stepan Şaumyanın hərtərəfli köməkliyi ilə müvəqqəti «Erməni milli hökuməti» yaradılmalı idi. Rusiya ilə Almaniya arasında 1918-ci il martın 3-də «Brest-Litovsk müqaviləsi» imzalandı. Müqavilədə Osmanlı torpaqlarının şərq bölgələri haqqında deyilirdi: "Rusiya dövləti Şərqi Anadolunun boşaldılması və Osmanlı hökumətinə mərhələli şəkildə təhvil verilməsi üçün bütün lazımi tədbirləri həyata keçirəcəkdir". Erməni Milli Məclisi «Brest-Litovsk müqaviləsi»ni tanımadığını və müharibəyə davam edəcəyini bəyan etməsinə baxmayaraq, türk ordusunun əks-hücumunun qarşısını ala bilmirdi. Belə şəraitdə Türkiyə Qafqazda Azərbaycan və Gürcüstanla bərabər Ermənistan dövlətinin də yaradılmasına etiraz etmədiyini bildirdi. Osmanlı imperatorluğu ilə Ermənistan Respublikası arasında imzalanan "Sülh və dostluq müqaviləsi"nə (4 iyun 1918-ci il) görə, Yeni Bəyazid, Gümrü, İrəvan və Şərur-Dərələyəz ermənilərə təhvil verilirdi. Ermənilərin bu ərazidə yaşayan müsəlman əhalisinin hüquqlarını tanıması, dini və mədəni azadlıqlar verməsi, həmçinin Bakıdan bütün erməni silahlı birləşmələrinin

çıxarılacağı kimi məqamlar müqavilədə öz əksini tapmışdır. Müqavilə Ermənistanın müstəqilliyini tanıyan ilk beynəlxalq sənəd idi və Türkiyə Ermənistanın müstəqiliyini tanıyan ilk dövlət olmuşdur. İmzalanmış müqaviləyə əsasən, Ermənistanın ərazisi 9 min km$^2$, əhalisi 326 min nəfər təşkil edirdi. Ermənistan ərazisi Basarkeçər quberniyası (Nor Bəyazid), Erivan quberniyasının 3/5 hissəsi, Eçmiədzinin bir hissəsi, İsgəndərunun bir hissəsi əhatə edilməklə, əhalisi 230 min erməni, 80 min müsəlman (türk), 5 min yezidi kürdlər və 11 min digər millətlər təşkil edirdi.

Fəslin 3-cü paraqrafında 1918-ci ildə Cənubi Qafqazda vəziyyətin mürəkkəbləşməsində erməni amilinin rolu müəyyən edilir. 4 iyun 1918-ci il müqaviləsini pozaraq erməni ordusu Ermənistana verilən torpaqlarda müsəlman əhalisinin sayının kütləvi qırğınlar yolu ilə azaldılmasına başladı. Bu dövrdə Azərbaycan xalqı bir neçə təhlükə ilə üzləşmişdi: parçalanan Rusiya imperiyasının varisləri onu öz tabeçiliyində saxlamağa çalışır, yaranmaqda olan bolşevik qüvvələri və onlarla sıx əlaqə quran erməni millətçiləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü haqqında eşitmək belə istəmirdilər. Cənubi Qafqazda bolşevizmin mərkəzi Bakı şəhəri idi. Proseslərin inkişafı göstərdi ki, ermənilər tərəfindən istiqamətlənən bolşevizm Azərbaycan xalqına sonsuz qırğınlar və faciələr gətirdi. Erməni millətçilərinin türk xalqları ilə mübarizə üçün yaratdığı silahlı dəstələrdən həm çar Rusiyası, həm də bolşeviklər istifadə etməyə çalışırdı. Göyçə gölü ətraflarını, Naxçıvanı, Zəngəzuru və Dağlıq Qarabağı gələcək Ermənistan dövlətinin ərazilərinə çevirmək üçün erməni millətçiləri yeni-yeni planlar hazırlayırdılar.

Bakıda bolşeviklər öz tabeliyində olan hərbi hissələrlə daşnakların silahlı dəstələrini birləşdirdilər. Nəticədə Bakı bolşeviklərinin tabeliyində 18 min nəfərlik hərbi qüvvə var idi və bu ordunun təşkilinin əsas məqsədi Azərbaycanın milli-azadlıq hərəkatını qan içində boğmaq idi. Osmanlı dövləti ilə sülh müqaviləsi imzalayan Zaqafqaziya Komissarlığı 1917-ci ilin dekabrın 6-da Bakıda və Dağıstanda yaranmış vəziyyəti müzakirə edərkən bolşevizmə qarşı mübarizənin kəskinləşdirilməsi zəruriliyini vurğuladı. S.Şaumyanın rəhbərliyi altında olan Bakı Soveti Rusiyadan daim hərbi yardım alırdı.

Müstəqil erməni dövlətinin yaradılması barədə Lenin və Stalinin imzaladığı 11 yanvar 1918-ci il tarixli dekreti alqışlandığı halda, Rusiya müsəlmanlarının, o cümlədən Azərbaycan xalqının öz müqəddəratını müəyyənləşdirmək istəyi inqilabi Rusiyaya qarşı xəyanət kimi qiymətləndirilirdi. Azərbaycanın milli qüvvələrinə ağır zərbə vurmaq niyyəti ilə hərəkət edən S.Şaumyan müsəlman qoşun hissələrinin hələ kifayət qədər möhkəmlənməməsindən istifadə edərək qəti hərəkət etməyi lazım bilirdi. 1918-ci ilin martın 31-də əməliyyata başlayan və bir neçə gün ərzində şəhərin azərbaycanlı hissəsini viranəyə çevirib əhaliyə divan tutan erməni daşnak dəstələri bolşeviklərlə əlbir hərəkət edirdilər. Dissertasiyada mart hadisələri təhlil edilir. Müsəlman əhalisinin qırğınları Şamaxıda, Qubada və digər

Azərbaycan ərazilərində baş verdi.

1918-ci ilin mayın 28-də müstəqil Azərbaycan dövlətinin yaradılması xəbəri bolşevik-daşnak qüvvələrini təlaşa saldı. Gəncəyə və oradan da Tiflisə doğru hücumunda S.Şaumyan Andranikin əməli yardımına bel bağlayırdı. Bu cəllad Bakıdakı sovet hakimiyyətini tanımaqla, Zəngəzurdan Qarabağa, oradan da Yevlaxa doğru yürüş etməklə S.Şaumyanın bütün planlarının həyata keçməsinə kömək etməli idi. Gəncədə ermənilərin silahlı dəstələri mövcud idi. Azərbaycan Mili Şurası ilə Osmanlı dövləti arasında imzalanan müqaviləyə əsasən, Azərbaycana hərbi yardım göstərməyə gəlmiş türk qüvvələrinin Azərbaycan ərazisində apardığı ilk döyüş əməliyyatı da Gəncə ermənilərinin tərksilah edilməsi ilə bağlı idi. Gəncə ermənilərinin tərksilah edilməsi əməliyyatı müqavimətlə üzləşsə də, uğurlu oldu, iyunun 10-14-də erməni silahlı dəstələri buraxıldı və tərksilah edildi. Bolşevik-daşnak qüvvələri həm Şamaxı yolu ilə, həm də dəmiryol xətti boyunca qərbə doğru irəliləyirdi.

İyunun 10-dan bolşevik-daşnak qüvvələri Hacıqabul stansiyasına cəmləşdirildikdən sonra Gəncə istiqamətində yürüşə başladılar. Dissertasiyada döyüş əməliyyatlarının gedişi ətraflı təhlil edilir. Döyüşlərdə dönüş Qaraməryəm - Göyçay-Müsüslü istiqamətində baş verdi. Burada baş verən qanlı toqquşmalarda türk-Azərbaycan qüvvələri bolşevik-daşnak qüvvələrinin əsas hissələrini darmadağın etməyə müvəffəq oldu. Daşnak rəhbərləri vəziyyətdən çıxış yolunu ingilis qoşunlarının Bakıya çağırılmasında görürdülər. Erməni Milli Şurasının və daşnak liderlərinin təkidi ilə "Sentrokaspi diktaturası" hakimiyyəti əlinə aldığı andan ingilislərin Bakıya gəlməsi reallığa çevrildi. Avqustun 3-də cəbhə komandanı Mürsəl bəy Bakıdakı qüvvələrə məktublar göndərərək təslim olmağı təklif etdi. 5 avqust döyüşündə Bakını azad etmək mümkün olmadı. Sentyabrın 14-də həyata keçirilən 2-ci yürüş ingilis qoşunlarının Bakını tərk etməsi, «Sentrokaspi diktaturası» qoşunlarının təslim olması ilə nəticələndi.

Qarabağ ermənilərinin yaratdığı silahlı dəstələr daim xəyanətkar tədbirlər planlaşdırırdılar. Türk-Azərbaycan hissələrinə Qarabağda erməni təcavüzünə son qoymaq və bölgədəki separatçı qüvvələri məhv edərək onu Azərbaycan hökumətinin nəzarəti altına qaytarmaq vəzifəsi qoyulmuşdu. Erməni millətçiləri hər vasitə ilə Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırmağa çalışırdılar. 1918-ci ilin avqustunda ermənilər Şuşada qurultay çağırdılar, 7 nəfərlik bir qurum seçib onu «Qarabağ hökuməti» adlandırdılar. Bu oyuncaq qurumun bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi.Azərbaycanlıların əlində olan Şuşada özünümüdafiə dəstələri yaradıldığından, hərbi təlimlər keçirildiyindən, səngərlər qazıldığından erməni quldurları bura soxula bilməmişdilər. Lakin Şuşaya gedən yollar erməni kəndləri yaxınlığında xəndəklər və pusqularla kəsilmişdi. Əsgərana, Ağdama və Qaryaginə gedən yollar kəsilməklə azərbaycanlıların Aran Qarabağla əlaqələri qarşısına çəpər çəkilmişdi. Andranikin

dəstəsi ilə Zəngəzura gəlməsi Qarabağda da hərbi şəraitin pisləşməsinə zəmin yaradırdı.

1918-ci ilin payızında Osmanlı qoşunları tərəfindən ağır zərbə alan Andranik və onun tör-töküntüləri Qarabağdan vurulub çıxarıldı. Qarabağda genişlənən erməni təcavüzünün qarşısının alınması, qətl və qarətlərə son qoyulması formalaşmaqda olan 1-ci Azərbaycan firqəsinə tapşırıldı. İlk milli dəstələr Qarabağa sentyabrın 25-dən daxil olmağa başladı. Əsgəran, Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd yaxınlığında ermənilərlə toqquşmalar baş verdi. Azərbaycan milli hissələri Şuşaya gedən yolda pusquları məhv edir, silahları yığırdılar. Bu hissələr Şuşanın blokadasını aradan qaldırdıqdan və şəhər əhalisi tərəfindən təntənəli sürətdə qəbul olunduqdan sonra Qarabağ ermənilərinin qurultayı çağırıldı və erməni dəstələri silahları təhvil verməyə başladılar, lakin əsasən, köhnə və yararsız silahlar təhvil verilirdi. Silah yığmaq üçün keçirilən əməliyyatlar, hətta, toplardan belə istifadə edilən döyüşlərlə müşahidə olunurdu.

Qarabağ əməliyyatlarından sonra erməni millətçiləri beynəlxalq aləmdə səs-küy salaraq türk qoşunlarının Qarabağda "günahsız" erməniləri qırması barədə xəbərlər yayırdılar. Avropa dövlətlərinin təzyiqi altında olan Osmanlı hökuməti öz qoşunlarına tədricən Qarabağdan çıxmağa hazırlaşmağı əmr etdi. Türkiyənin Qafqazdan sıxışdırılması buradakı erməniləri ruhlandırırdı, çünki Azərbaycan hökumətinin əl-qolunu Bakıya daxil olmuş ingilis qoşunları bağlamalı idi. «Mudros müqaviləsi»nin tələblərinə uyğun olaraq türk alayları bütünlüklə Qarabağı tərk etməli oldular. General-mayor Usubovun başçılıq etdiyi 1-ci Azərbaycan firqəsi Qarabağda sabitliyi təkbaşına təmin etməli oldu.

Ermənistan dövlətinin yarandığı andan ermənilər Naxçıvana qarşı tez-tez hücumlar edərək müsəlman əhalisini amansızcasına qətlə yetirməyə başlamışdılar. Ermənilərin bu hücumlarını təsdiqləyən arxiv sənədləri dissertasiyada ətraflı təhlil edilir. Erməni vəhşilikləri Zəngəzurda, Göyçə gölü ətrafında yaşayan azərbaycanlılara qarşı da yönəlmişdir. Naxçıvan əhalisi silahlanmağa başladıqda Avropa dövlətlərinin təzyiqi ilə üzləşən Osmanlı hökumətindən bunun qarşısının alınması tövsiyə edildi, çünki «günahsız» ermənilər Avropa ölkələrinə müraciətlər göndərirdilər. Eyni zamanda, erməni əhalisi bölgəyə köçürülməyə başlamışdı. Bölgəyə gələn ermənilər dinc yaşamaq üçün deyil, bu ərazilərdə yaşayan müsəlmanları qətlə yetirərək bu torpaqlarda erməni əhalisinin üstün sayda yaşadıqlarını söyləmək məqsədi ilə yerləşdirilirdi. Azərbaycan əhalisinin erməni quldur dəstələrinə müqavimət göstərməsi burada olan ingilis polkovniki Lautonun qəzəbinə səbəb olmuş və o, müsəlman əhalisindən silahları yığmağa cəhd göstərmiş, lakin uğursuzluqla üzləşmişdir. Ermənilər törətdikləri bütün qətllərə baxmayaraq, istədiklərinə nail ola bilməmişlər. Azərbaycan hökuməti qüvvətləndikcə Ermənistan hökumətinə layiqli cavablar verir, onların Arpaçayın qərbinə keçmək istəklərinin qarşısını alaraq geriyə doğru otuzdururdular.

Beləliklə, araşdırılan mövzu indiki dövrdə çox aktual olduğundan bu

mövzunun daha da təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə böyük ehtiyac vardır. Çünki nə qədər ki, mənfur qonşularımız Azərbaycan dövlətinə qarşı öz ərazi iddialarından əl çəkməyiblər, Azərbaycan torpaqları hesabına öz ərazilərinin genişləndirilməsi istəkləri müxtəlif formalarda özünü büruzə verəcəkdir.

Dissertasiyanın əsas məqamlarını əks etdirən tarixi sənədlərin mətnləri, həmçinin fotoşəkillər əlavələr şəklində verilmişdir.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. JURNAL VƏ QƏZETLƏR


1. «Azərbaycan»
2. «Azərbaycan» (ərəb əlifbası ilə)
3. «Ayrenik»
4. «Areve»
5. «Askeri mecmua»
6. «Aşehedank»
7. «Ararat»
8. «Bulliteni Du Komite De L`asiye France»
9. «Der Kristliche Orient»
10.«Deutsche Allegemeine Zeitung
11. «Die Velt Des İslam»
12. «Genelkurmay Başkanlığı Askeri Tarih Belgeleri Dergisi»
13. «Hayastan»
14. «Koçnak»
15. «Известия Бакинского Совета»
16. «Mışak»
17. «Новое время»
18. «Orizon»
18 a. «Правда»
19. «Pro Armenia»
20. «Sabah»
21. «Şampur Asparez»
22. «Tanin»


## II. SƏNƏDLƏR TOPLUSU


23. Arşiv belgelerle ermeni faaliyeti (1914-1918), c.I, II, Ankara, Genelkurmay Basım Evi, 2005. s. 653, 551

24. Большевики в борьбе за победу советской революции в Азербайджане. Документы и материалы (1917-1918). Баку. Изд-во АН Аз ССР. 1957. 420 с.

25.Декреты Октябрьской революции, т.I. Москва, Политиздат, 1933.

26. Документы и материалы по внешней политике Закавказья и Грузии, Тбилиси, Саброма Сакартвело, 1919. 234 с.

27.Genelkurmay Başkanlığı. Belgelerle ermeni sorunu, Ankara, Genelkurmay yayınları, 1983.

28. Сборник дипломатических документов. Реформы в Армении, Петроград, Изд-во МИД России, 1915, 288 с.

29. Военные моряки в борьбе за победу Советской власти в Азербайджане и Прикаспии, Баку, «Элм», 1971, 389 с.
30. Победа Советской власти в Закавказье. Тбилиси, Мецниереба, 1971,682 с.

## III. ARXİV MATERİALLARI

### Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivi

31.F.276, s.9, iş 65. v.38.
32. F.1061,s.1.,iş 95., v.5-8.
33. F.276.s.9.,iş 1,v.l6.
33.Türkiyə Cumhuriyyəti Başbakanlıq arşivi.
34. Dahiliye Nezareti. Giden; 331, Halep 146.
35. Dahiliye Nezareti. Şifre dosya n0:55, Belge LII
36. Dahiliye Nezareti. Gelen;332, genel;98/601,1915.
36a. Dahiliye Nezareti. Gelen 98/601
37. Dahiliye Nezareti, D.30.k. 10/206, d.406.s.3.
38. Dahiliye Nezareti, Şifre dosyası n0:53.
38a. Dahiliye Nezareti, Şifre dosyası n0 :54.
39. Dahliye Nezareti, şifre defteri n0:41. Dahiliye nezaretinden Adana vilayetine, 1914.
40. Dahiliye Nezareti. Emniyet Müdürlüğü, d.44, 844/51.
41. Dahiliye Nezareti. şifre defteri, n0:48, 846-151214.43.
42. Dahiliye Nezaretinin faaliyetlerinin yekunları 1916.
43. İçişleri Bakanlığı, şifre D. Sivas defteri. Mühime kalemi, perakende, 7-12.
44. Dahiliye Nezareti Hazine-i Evrak Müdürlüğü, Kls.37. D.2/12,iş n0:63.
44a. Dahiliye Nezareti Hazine-i Evrak, 42746/146, karton 178, d.23,

### Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Strateji Etüt Başkanlığı Arşivi

45.Kls.2287,d.l2,f.1-9.
45a. Kls.2287,d.12,f.1-15.
46.Kls. 13, d.63,f.11.
46 a. N0:1/2, kls.4, d.23,a.f.4
47. Kls.2287,d.32/12,f.1-10.
47a. N0.1/2, kls.520, d. 2024, f.5

48. Kls.2811,d.26, f.15-1.
48a.Kls.361,d.l445,f.3-3
49. Kls.2818,d.59, f.2-19
49a. Kls.520, d.2024, f.29-1
50.Kls.2818, d.59, f.2-23, 2-24.
50a.al-4, kls.536, d.26-163, f.5
51.Kls.2818,d.59,f.2-35.
51a. Kls.2835,d.127,f.1-12
52. Kls.3671, d.12, f.2-43,44
53. Kls.4608,d.1,f.l9-6.
54. Kls.521, d.2024, f.3.
54a.Kls.401,d.1580,f.1-3
55. Kls.521,d.2029,f.2.
55a Kls. 521, d.12, f.1112-5, 20-2.
56.n0:1/l,kls.113,d.3,f.2.
56a.n0:1/1,kls.4,d.23a,f.5.
57.n0:l/l, kls.44, d.207, f.2-1.
57a. N0: l/l,d.101, k.13, d.62, f.4-2,4-3
58. n0:1/3, kls.523, d.118, f.5-13.
58a. N0:4/3671, kls.2818, d.59, f.1.
59. n0:4/3671, kls.2818, d.59, f.2-54.
59a. n0:4/3671, kls.281, d.39.
60. n0:4/3671,kls.2811,d.59, f.2-19.
60a. n0:4/3671, kls.2811, d.59, f.2-36.
61. n0:4/3671, kls.2818, d.59, f.2-5.
61a. N0:4/3671, kls.2811, d.59, f.2-45.
62. n0:4/3671, kls.2820, d.69, f.3-45.
62a. n0:4/3671, k.2919, d.61-499, f. 3-31
63. n0:4/3671, kls.3918. d.797, f.6.
63a. A.3671, k.2930, d.555, f.15;15-9.
64. Kls.1, a-1/3, d.126 , f.-43.
64a.Kls.1,a-1/3,d.126,f.-95.
65. Kls.1141, d.582, f.1-7.
65a, kls.44, d.207, f.2-3
66. Kls.1141, d.582, f. 46-81,84,86.
67. Kls.23, a-1/3, d.151,f.-8.
68. Kls.251, a.48314, d.-2,f.2-30.
69. Kls.251,A-4/8320, d.4-1, f.36
70. Kls.252,a-4/8314, d-3, f.3-1.
70a. Kls.252,a-4/8314, d-3, f.1-16.
71. Kls.3819, d.6, f.46-12.

72. Kls.3822,d. 18. f. 1-47
73. Kls.3822,d. 18, f.76-77.
74. Kls.3823, d.22, f.6-26.
75. Kls.3823, d.23, f.46.
76. Kls.3823, d.23, f.88.
77. Kls.3824, d.26, f.6-4,6-5.
78. Kls.3827, d.39, f.46-116.
79. Kls.3827, d.39, f.46-63.
80. Kls.5309, d.51, f.72.
81. Kls.3827,d. 38, f.18-1
82. Dış Polilika Bölümü, 371/3060/220908/175608/17.
83. General Henry Uilsona gönderilen rapor, d.2.k.10.d.64.
84. Kls.3827,d.38, f.16.
85. Kls.3822, d.18, f.25.
86. Kls.2930, d.555, f.15;-09
87. Kls.3827, d.40. f.8-3.
88. n0:1808, yer; 1/2/113/4/528/2061/21, 21-18.
89. n0:25737/2146/70404/.
89a. PRO. FO. 371/2146/70404, sənəd n0: 257

**United States National Archives**
**90.M.3536, n0:867.00761**

## IV. ƏDƏBİYYAT

91.Apak R. Yetmişlik Bir Subayın Hatıraları, Ankara, Milliyet yayınları, 1957, 425 s.

91a. Akçora E. Van ve Çevresindeki Ermeni İsyanları (1896-1916), Türk Dünyası Araştırmalar Vakfı yayınları, İstanbul, 1996, 174s.

92. Arfa H. The kurds, London, 1968.

93. Армяно-татарская смута на Кавказе как один из фазисов армянского вопроса, Баку. «Шур». 1993. 45 с.

94.Арутюнян А.О. Кавказский фронт. 1914-1918. Ереван. «Айастан». 1971. 413 с.

95.Arıman O. Çarlık Rusiyasının Türkiyedeki oyunları, Ankara, Türk Tarih Kurumu, 1967, 275 s.

95a. Aslan K. Ermenistan ve ermeniler, İstanbul, Türk Dünyası Araştırmaları Vakfı, 1994, 402 s.

96. Ataöv T. Osmanlının son döneminde ermeniler, Ankara, Kultur, Sanat və Yayın kurulu yayınları, 2002, 343 s.

97. Avakyan S. Ermenistanda devrimler, (12 Kasım 1912-10 Mayis-1914), Tiflis, Sabroma Sakartvelo. 1915, 93 s.

98. Aytekin H. Kıbrısta Monarga (Boğaztepe) ermeni legionu kampı, Ankara, Türk Tarih Kurumu, 2000, 175 s.

99.Bağırov M.C. Bakı və Azərbaycan bolşevik təşkilatının tarixindən, Bakı, «Elm», 1950, 172 s.

99a. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900 - 1997). Баку. «Элм». 1997.335 с.

100.Parmaksızoğlu İ. Ermeni komitelerinin ihtilal hareketleri ve besledikleri emeller, Ankara, DSİ Basım və Fotofilm İşletme Müdürlüğü, 1981,201 s.

100a. Baykara H. XX əsrin əvvəllərində Azərbaycanda istiqlal mücadiləsi tarixi, Ankara, «Genclik» Basım Evi, 1975, 329 s.

101. Bayur Y. Türk inkilap tarihi, c.III/3. Ankara, Türk Tarih Kurumu, 1957, 620 s.

102. Bildirici Y.Z. Adanada ermenilerin yaptığı katliamlar ve fransız-ermeni ilişkileri, Ankara, Kök Sosyal ve Stratejik Araştırmalar, 1999, 237 s.

103.Birinci dünya harbinde türk harbi Kafkas cebhesi. 3-cü ordu harekatı, c.II. Ankara, Genelkurmay basım evi, 1993. 820 s.

104. Борян Б.А. Армения и международная дипломатия, Москва. 1929. Политиздат, т.2. 213 с.

105. Cavad A. Yabancılara göre eski türkler, İstanbul, Aydınlar ocağı yayınları, 1978, 283 s.

106. Cobban A. The nation state and national self-determinition, New-York, 1969.

106a. Çanakkale ruhu nasıl doğdu ve Azerbaycan savaşı, İstanbul, Baha matbaası, 1972. 179 s.

107. Çelik K. Milli mücadelede Adana ve havalisi 1918-1922, Ankara, Türk Tarih Kurumu, 1959, 138 s.

108. Deliorman A. Türklere karşı ermeni komiteleri, İstanbul, Türk Dünyası Araştırmalar Vakfı yayını, 1973. 193 s.

109.Demiroğlu F. Vanda ermeni mezalimi 1895-1920, Ankara. Türk tarih kurumu, 1985, 138 s.

110. Денстервиль. Британский империализм в Баку и Персии. 1917-1918. Тбилиси, Советский Кавказ. 1925. 281 с.

111. Есаян Е. Армянский вопрос и международная дипломатия. Ереван. Советакан Айастан. 1965. 225 с.

112. Evans L. Türkiyenin paylaşması 1914-1924. Tercume T.Alanay, İstanbul, Milliyet Yayınları, 1972, 424 s.

112a. Eroğlu H. Türk inkilap tarihi, Ankara.Türk Tarih Kurumu,1974.443 s.

113.Gazigiray A. Ermeni terörünün kaynakları, Ankara, Kök Sosyal Stratejik Araştırmalar, 1982. 159 s.

114. Granvill E. Çarlık Rusiyasının Türkiyedeki oyunları, Tercume O.Arıman, Ankara, Yayın yayınları, 1967, 95 s.
115. Güngör E. Kültür değişmesi ve milliyetçilik. //Yeni Batı Trakya Dergisi, İstanbul, 1984. s 191-202.
116. Gürün K. Ermeni dosyası, Ankara, Türk tarih kurumu Yayınları. 1983. 365 s.
117. Gürün K. Ermeni sorunu yahut bir sorun nasıl yaratılır, Ankara, Türk Tarih Kurumu Yayınları,1983, 312 s.
117a. Gökdemir A.E. Cenub-i Garbi Kafkas hükumeti, Ankara. Türk Tarih Kurumu. 1989, 581 s.
118.Gökgöz N. XIX yüz yılda Anadoluda ermeni nüfusu. İzmir. Toplumsal Dönüşüm, 1983, 139 s.
119. Xatisyan A. Erməni dövlətinin doğuşu və irəliləməsi. Tərc. Hüseyn Aykut, Ankara, Genelkurmay ATASE yayını, 1993, 435 s.
120. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində, 1918-1920, Bakı. «Azərnəşr», 1993. 362 s.
121. Hovvanisyan R.G. Armeniya on the road to independence 1918, Los-Angeles. 1967, Part V.
122. Кадышев А.Б. Интервенция и гражданское война в Закавказье. Москва. Воениздат. 1960. 510 с.
123. Карапетян С.Х Коммунистическая партия в борьбе за победу октябрьской революции в Армении. Ереван. Советакан Айастан, 1959, 253 с.
124. Киракосян Дж. Младотурки перед судом истории. Ереван. Айастан, 1986, 256 с.
125. Киракосян Дж. Западная Армения в годы Первой мировой войны, Ереван. Изд-во Ереванского ГУ. 1971. 457 с.
126. Kırzıoğlu M.F. Kars ili ve çevresinde ermeni mezalimi (1918-1920), Ankara, Kök Sosyal ve Stratejik Araştırmalar, 1999, 136 s.
126a. Корганов О. Участие армян в Первой мировой войне на Кавказском фронте, Париж. Белое движение. 1927. 65 с.
127. Kozaş M.S. Tarihte ermeniler ve türk ermeni ilişkileri, İstanbul, Kaştaş AS yayınları, 1990, 313 s.
128. Кочарли Т.К. Исторический поворот в судьбах азербайджанского народа. Баку. «Азернешр». 1980. 271 с.
129. Kurat A.N. Türkiye ve Rusiya, 1789-1919. Ankara, Türk tarih kurumu, 1975, 483 s.
130. Галоян Г. Рабочие движение и национальный вопрос в Закавказье, Ереван. Айастан, 1969, 508 с.
131. İlter E. Ermeni kilsesi ve terör. Ankara, Kök Sosyal ve Stratejik Araştırmalar Vakfı, 1999, 123 s.

132. Imbert P. Osmanlı iraperatorluğunda yenileşme harekatları; Türkiyenin meselesi, İstanbul, Kaştaş AS yayınları, 1981, V cild, 378 s.
133. История дипломатии, т.2, Москва, «Политиздат», 1963. 820 с.
134. 26 Bakı komissarlarının güllələnməsi, Bakı, «Azərnəşr», 1968, 203 s.
135. de Maleville G. 1915 osmanlı-rus-ermeni trajedisi, Tercüme N.Bakkaloğlu, İstanbul, Toplumsal Dönüşüm yayınları, 1991, 146 s.
136.Мамедова Л. Февраль 1917 года - новая фаза подъема армянского экстремизма. Баку. «Азернешр», 1995, 61 с.
137.Mc Carthy J. The arab vold, Turkey and the Balkan 1878-1914.
137a. Mc Carthy. J. The Anatolian Armenias 1912-1922, İstanbul, 1984.
138.Mc Carthy J, Mc Carthy C. Türkler ve ermeniler. Terc. Yalçın Tırlıoğlu, İstanbul, Boğaziçi Universitesi, 1984, 135 s.
139. Международные отношения в эпоху империализма. Серия 3. т.7, Москва. Соцэкгиз. 1964. 571 с.
140. Metel A.B. Ermeni mezalimi ve gerçekler, İstanbul, «Yeni Batı Trakya» Dergisi, 2002, 207 s.
141. Məhərrəmov N. Daşnaksutyun və Azərbaycanın taleyi, Bakı, «Azərbaycan» nəşriyyatı, 1995, 96 s.
142. Morgentau H.C. Uluslararası politika. Ankara, Yayın yayınları, 1970,1 cild, 228 s.
143.Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX-начале XX веков, Баку. Элм. 1994, 392 с.
144.Нерсесян М.Г. Из истории русско-армянских отношений. Ереван, Айастан, 1956, 349 с.
145. de Nogales R. Four year beneath the cescent, New York, 1926.
146. Nogales R. Hilal altında dört sene ve buna cevap. Terc. Nazmi Gökgöz, İslanbul, Milliyet yayınları, 1931, 346 s.
147. Nurşen M. Belgelerle uluslararası rekabette ermeni sorunu, İstanbul, Baha Matbaası, 1987, 230 s.
148. Osmanlı devleti Dahiliye Nezareti. Ermeni komitelerinin amal ve harekatı ihtilaliyesi, İstanbul, Dahiliye Nezareti yıllık raporu, 1916, 458 s.
149. Orel Ş., Sureyya Y. Ermenilerce Talat Paşaya atfedilen telegrafların gerçek yüzü, İstanbul, Türk Tarih Kurumu yayımı, 1983, 147 s.
150. Philips Price M.N. A history of Turkey, London, 1956.
151. Рорбах П. Война и германская политика, Москва. Новое время, 1915, 312 с.
152. Rüştü Türkcan. Büyük harpta Bakü Yollarında. 5-ci Kafkas fırkası // 93 sayılı askeri mecmuanın tarih kısmı, 1934. №34.
153. Sakarya İ. Belgelerle ermeni sorunu, Ankara, St atejik Araştırmalar Vakfı, 1984, 273 s.
154. Sonyel S. Yeni belgelerin İşığı altında ermeni tehcirleri, Ankara, Türk

Tarih kurumu yayınları, 1972, 303 s.
155. Süslü A. Van, Bitlis, Muş ve Karstaki ermeni katliamları, Ankara, 100-cü yildönümü yayınları, 1994.
155a.Süslü A. Ermeniler və 1915 il Tehcir olayı, Ankara, 100-cü yildönümü yayınları, 1995, 183 s.
156. Şahin E. Trabzon ve Batum konfransları ve anlaşmalar, Ankara, Türk Tarih Kurumu yayınları, 2002, 817 s.
157. Şahgəldiyev H. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi, Bakı, «Azərnəşr», 1960, 204 s.
158. Шаумян Л.С. Расстрел 26 Бакинских комиссаров английскими интервентами, Москва. Изд-во Правда. 1949, 31 с.
159. Talat Paşanın gurbet hatıraları,İstanbul, Genclik Basım evi,1983,187s.
160. Tağma Ç. Günümüze kadar strateji ve taktik anlayışı, İstanbul, Kök Sosyal ve Stratejik Araştırmalar, 1983, 190 s.
161.Токаржевский Е.А. Из истории иностранной интервенции и Гражданской войны в Азербайджане. Баку. Изд-во АН Аз ССР. 1957. 332 с.
162. Топчубашев А. А. Дипломатические беседы в Стамбуле. Баку. Эргюн. 1994. 160 с.
163. Tunaya. Türkiyenin siyasi hayatında batılaşma harekatları, İstanbul, Türk Dünyası Araştırmalar Vakfı yayını, 1961, 438 s.
164. Türk Silahlı Kuvvetleri tarihi, c.III, 1908-1920, Ankara, Genelkurmay ATASE yayınları,1996, 362 s.
165. Uras E. Tarihte ermeniler ve ermeni meselesi, İstanbul, Boğaziçi Üniversitesi, 1976, 378 s.
166. Öke M.K. Ermeni meselesi, İstanbul, Aydınlar ocağı yayınları, 1984, 362 s.
167.Öke M.K. Ermeni meselesi 1914-1923. İstanbul, Atatürk İlkeleri və İnkilap Tarihi Enstitüsü, İstanbul,1986, 375 s.
168. Özkan Z. Terörden politikaya ermeni meselesi, Ankara 100-cü yıl Üniversitesi Yayını, 2001, 183 s.
169. de Veou P. La passionde la Cilicie,1919-1922, Paris 1954.
170.Внешняя политика России XIX начала XX века. Москва. Политиздат. 1970. 846 с.
171.Восточный вопрос во внешней политике России (конец XVIII-начало XX веков), т.2. Москва. Наука, 1950. 434 с.
172. Yıldırım H. Ermeni iddiaları ve gerçekler. İstanbul, Kaştaş AS yayınları, 1992, 158 s.
173. Ященко А. Русские интересы в Малой Азии. Москва, Новое время. 1916. 216 с.
174. Yüccer N. Birinci dünya savaşında osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı, Ankara, Genelkurmay ATASE yayınları, 2002, 208 s.

175. de Zara Ph. Mustafa Kemal. diktateur, Paris, 1936.
176. Zeidner. Fransız bayrağı Toroslarda. Paris, 1994.

## QEYDLƏR

Qeyd 1. XİN abreviaturu ilə mətndə müxtəlif dövlətlərin Xarici İşlər nazirlikləri və nazirləri bildirilir.

Qeyd 2. «Ermənistan» anlayışını işlətdikdə şərti mənada başa düşülür.

Qeyd 3. Erməni Qriqorian Kilsəsində ruhani dərəcələr bunlardır: katolikos, yepiskop, vardabed, keşiş.

Qeyd 4. DİN abreviaturu ilə mətndə müxtəlif dövlətlərin Daxili İşlər Nazirlikləri bildirilir.

Qeyd 5. «Milli büro» Erməni Milli Şurasının icraedici orqanı idi. Bu Şurada daşnaklar həlledici təsirə malik olduqlarından məhz onların təklifi ilə 1912-ci ildə "Milli büro" yaradıldı. Yaradılan büronun vəzifəsi çar hökuməti ilə danışıqlar aparmaq və ermənilərdən ibarət könüllü döyüşçü dəstələri yaratmaq idi. "Milli büro"nun bütün üzvləri ya daşnaklar və ya onları dəstəkləyən şəxslər idi. «Milli büro»nun bütün işlərinə «Daşnaksutyun» partiyası rəhbərlik edirdi.

Qeyd 6. XKS abreviaturu ilə mətndə bolşeviklərin yaratdıqları hökumət orqanı - Xalq Komissarları Soveti bildirilir. Mətndə Rusiya XKS və Bakı XKS terminləri mövcuddur.

## ƏLAVƏLƏR

**<u>ƏLAVƏ I</u>**

### Erməni heyətinin Berlin konfransı (1878-ci il) iştirakçılarına təqdim etdiyi layihədə Osmanlı torpaqlarında «Ermənistan dövləti» yaratmaq planı (maddələrlə):

**I**

Osmanlı Ermənistanı əlavədə göstərilən xəritəyə görə formalaşmalıdır. Bu xəritədə Ərzurum və Van əyalətləri bütünlüklə Diyarbəkirin şimal hissəsi, yəni Xarputun şimal qismi tamamilə və qərb tərəfdən Fərat çayının sahilləri, Erqani ərazisi, Siirtin şimal qisimləri sərhəd kimi göstərilmişdir. Həmçinin, Trabzon ilə Batumi arasında mövcud olan Rizə limanı da buraya daxil edilmişdir.

Ermənistan, zəmanət verən dövlətlərin təsdiqi ilə Osmanlı dövlətinin təyin etdiyi bir erməni tərəfindən idarə ediləcək və bu rəhbər Ərzurumda oturacaq. Bu rəhbər icra hakimiyyətinin bütün səlahiyyətlərindən istifadə edərək ərazidə

qaydaların riayət edilməsinə nəzarət edəcək, vergilərin yığılmasını və məmurların təyin edilməsini öz səlahiyyətinə daxil edəcək. Məhkəmə hakimlərini seçib və təyin edəcək.

Beş il ərzində vəzifəsini icra edən bu rəhbər yalnız zamin dövlətlərin razılığı ilə vəzifəsindən çıxarıla bilər.

Bu əraziyə başçılıq edəcək liderin rəhbərliyi altında idarəedici məclis yaradılacaq. Bunun üzvləri: 1) maliyyə işləri müdiri, 2) tikinti işləri müdiri, 3) ədliyyə müşaviri, 4) baş inzibati komandan, 5) xristian məktəbləri müfəttişi, 6) islam müfəttişi olacaq.

Bu böyük ərazi rayonlara və qəsəbələrə bölünəcəkdir. Bunların rəhbərləri başçı tərəfindən təyin ediləcək. Rayon və qəsəbələrin idarə olunmasında məmurlar və müşavirlər də iştirak edəcəklər.

## II

Qaydalara riayət edilməsi, ümumi təhlükəsizliyin mühafizəsi işini ərazi rəhbərliyi özü həyata keçirəcəyindən hər il əldə edilən gəlirlərin 20%-i dövlət xəzinəsinə veriləcək. Gəlirlərin digər qismi isə ədliyyə, jandarm, milis təşkilatı və mülki işlərə xərclənməklə yanaşı, 80%-i yolların çəkilməsi və ümumi faydalı işlərə, 20%-i məktəblərin tikilişinə, təmir və bərpasına, ali məktəblərə ayrılacaq maliyyə xərclərindən sonra, qalan maliyyə əhalinin sayına görə müsəlman və xristian məktəblərinə ortaq şəkildə paylanacaq.

## III

Bölgə ərazisində bütün din məhkəmələrinə müfəttişlik etməklə Padşah tərəfindən din məhkəməsi sədri təyin olunacaq. Şəriət məhkəmələri ancaq müsəlmanlar arasında davaları ayırd etmək üçündür. Bütün hüquq, ticarət və cinayət araşdırmaları, istər xristianlar və istərsə də müsəlmanlarla xristianlar arasında baş vermiş anlaşmazlıqlar ədliyyə məhkəməsində baxılacaq. Bu məhkəmə biri sədr olmaqla üç hakimdən formalaşacaq. Məhkəmələrin sədr və hakimləri ərazi rəhbərləri tərəfindən təyin edilir. Adi məhkəmələrin və şəriət məhkəmələrinin qurulması, bunların hüquq və səlahiyyətləri, qaydaları xüsusi qanunlar və nizamnamələrlə tənzim olunacaq. Avropada qüvvədə olan hüquq və əsaslara görə hüquq və cəza qanunları tətbiq ediləcək.

## IV

Din və məzhəblər mütləq sərbəst olacaq. Dini qurumların yaradılması, ruhanilərin vəzifəyə götürülməsi işini hər təriqət özü həll edəcək.

## V

Ərazi-inzibati qüvvələr: 1) jandarm qüvvələri, 2) könüllü dəstələrə əsaslanır. Könüllü əsgərlər ermənilərdən və ərazidə beş ildən az olmayaraq yaşayan digər millətlərin nümayəndələrindən formalaşdırılacaq.

Jandarm bütün bölgə ərazisində təhlükəsizliyin və sabitliyin qorunub saxlanmasını təmin edəcək. Jandarm komandanı bütün ərazinin başçısı tərəfindən təyin edilir və dərhal onu öz əmri altına alır.

Könüllü əsgərlər Baş Komandanlığın əmrində olacaq və lazım olarsa, jandarmlara köməyə gələcək. Adi hallarda polis qüvvələri dörd min nəfərdən formalaşacaq və Osmanlı hökuməti bunları başqa vilayətlərə göndərmək səlahiyyətlərinə sahib olmayacaq.

## VI

Baş Məclis aşağıdakı şərtlərlə yaradılacaq.

Hər ərazi vahidi müsəlman və xristianlardan iki nümayəndə seçəcək. Bunlar da, rayon mərkəzlərində yığışaraq biri müsəlman, digəri erməni xalqını təmsil edəcək. Bunlar seçmək və seçilmək məsələsində bərabər hüquqa malikdirlər: 25 yaşı tamam olmuş işləyən və ya müəyyən bir miqdarda vergi verən rayon sakini, müxtəlif məzhəblərə mənsub ruhani rəhbərləri və ruhanilər, müəllimlər və məktəb müdirləri.

Tanınmış dinlərə mənsub hər bir xalqın liderləri məclisin üzvləri olaraq qəbul edilir. Məclis ildə bir dəfə olmaqla rayon mərkəzində toplanaraq bölgənin büdcəsini, vergilərin toplama tərzini və maliyyənin paylaşdırılması əsaslarını təyin edir. Baş rəhbərlik tərəfindən hər il maliyyə işləri haqqında məclisə məlumat verilir. Vergilərin toplanması, bölgə sakinlərinin həyat səviyyəsinin yüksəlməsi məqsədi ilə ümumi qaydalar tərtib ediləcək. Hər beş ildən bir baş idarə ilə Baş Məclis yuxarıdakı maddələrə görə Osmanlı hökumətinə veriləcək təzminatın miqdarını təyin edəcək.

## VII

Protokol imzalandıqdan üç ay sonra bu maddələri tətbiq ediləcək ərazidə zəmanət verən ölkələrin nümayəndələrindən bir komissiya formalaşdırılacaq. Layihəyə ərazinin əhali sayını göstərən statistik məlumatlar əlavə edilmişdir ki, bunu da aşağıda göstərəcəyik.

# ƏLAVƏ II

## Erməni heyətinin Berlin konfransı (1878-ci il) iştirakçılarına təqdim etdiyi layihədə əhali sayı haqqında statistik məlumatlar

Ərzurum və Van vilayətləri, «Ayastefanos (San-Stefano) müqaviləsi»nə görə Rusiyaya verildiyindən əhalinin sayı statistik məlumatlara daxil edilməmişdir. Bu ərazilərin əhalisi sayca daha çox olan mərkəzləri: Bayburt, Ərzincan, Malazgirt, Muş, Bitlis, Vandır. Bu, iki milyon altmış altı min (2.066.000) əhalini əhatə edir. Bu rəqəmdən Rusiyanın işğal altında olan ərazinin əhalisinin sayını çıxdıqda (366.000) 1.700.000 nəfər qalır. Bu əhalinin müxtəlif millətlərə görə sayı aşağıdakı kimi göstərilmişdir:

| | |
|---|---|
| Erməni | 1.150.000 |
| Türk | 400.000 |
| Köçəri kürdlər | 80.000 |
| Zaza və dimbiliklər | 35.000 |
| Köçəri yezidilər | 13.000 |
| Köçəri qaraçılar | 3.000 |
| Yunanlar və yəhudilər | 5.000 |
| Assurilər | 14.000 |
| | 1.700.000 |

Bu iki vilayətdə 109 kilsə vardır.

Diyarbəkir əyalətinin şimal qismi, yəni Xarputun şərqi, Erqani və Siirtin şimal bölgələrinin əhali sayı:

***Rəsmi məlumatlara görə***

| | |
|---|---|
| | ***60.300*** |
| Diyarbəkirdə | 302.000 |
| | 362.000 |
| Bunlardan müxtəlif millətlərin sayı: | |
| Erməni | 180.000 |
| Türk | 130.000 |
| Köçəri kürd | 40.000 |
| Zaza | 2.300 |
| Yezidi | 2.000 |
| Assuri | 8.000 |
| | 362.300 |

Bu ərazidə 48 kilsə vardır.

**Ümumi siyahı**

| Rayonlar | Erməni | Türk | Kürd | Yunan | Assuri | Zaza | Yezidi |
|---|---|---|---|---|---|---|---|
| Erzurum, | *1.150.000* | *400.000* | *80.000* | *5.000* | *14.000* | *35.000* | *13.000* |
| Van, Diyarbəkirin şimalı | 180.000 | 130.000 | 40.000 | ----- | 8.000 | 2.000 | 2.000 |
| | 1.330.000 | 530.000 | 120.000 | 5.000 | 22.000 | 37.000 | 15.000 |

Ərzurum və Vanda 3.000 köçəri qaraçı vardır.

Nəticə etibarı ilə

Erməni 1.330.000

Türk 530.000

***Kürd 120.000***

Müxtəlif millətlər 82.000

2.062.000

**[Mənbə-165, s.227-235]**

## ƏLAVƏ III

### Erməni patriarxı Nersesin 27 iyul 1878-ci ildə Erməni Milli Məclisində çıxışından fraqment:

"Nə qədər ki, Bosniya-Herseqovina məsələsi və Bolqarıstanın siyasi vəziyyəti gündəlikdə yox idi «Erməni məsələsi» aktual idi. Gözlənilməyən halda Bosniya-Herseqovina və Bolqarıstan məsələləri gündəliyə gəldi. Bu iki problem ilə yanaşı, haqsızlıq və milli müstəqillik məsələsi gündəliyə çıxarıldı. Osmanlı hökuməti müharibə nəticəsində çox böyük itkilərə məruz qalmış və böyük məğlubiyyətlərə düçar olmuşdur. İndi bu hökumət xristianlıq kəlməsi eşidər-eşitməz çox böyük həyəcanlar keçirməyə başlayır. İndi daha ehtiyatlı davranmaq və gələcəyi daha aydın şəkildə görməyimiz tələb olunur. Osmanlı hökuməti Ədirnəyə öz nümayəndələrini göndərməmişdən qabaq belə mən və ideya silahdaşlarım lazımi işlər görməyə başladıq.

«Ayastefanos müqaviləsi»nin 16-cı maddəsi qəbul edildikdən sonra yeni ruh və qüvvə ilə çalışmağa başladıq. Lakin baş verən yeni siyasi hadisələr nəticəsində bu maddə mütləq dəyişiləcəkdi. Fərat çayı əraziləri də İngiltərənin maraqları daxilindədir və bu hadisələr arasında birbaşa əlaqə vardır, İngiltərə bu maddəni imza edən dövlətlərdən xüsusilə birinin mənafeləri baxımından Fərat çayı ərazisində yeni bir vilayət hazırlandığını görürdü. İngiltərə bunu əsla qəbul etməzdi...

Hər hansı bir tərəfsiz araşdırmalar göstərir ki, Asiyada yaşayan xristianlar üçün islahat layihəsi İngiltərə və Türkiyə hökumətlərinin Müqaviləsində nəzərə

alınmışdı. İştirakçı dövlətlər bu layihənin qəbul edilməsinə qərar verdilər. Əgər bu maddədə bizim xoşumuza gəlməyən bir şey varsa, o da bizim məsələmizin həllini qismən gecikdirir, millətin ümidlərini təmin etməmiş və gələcək üçün də xoş bir şeylər gözləmək olmaz. Hansı bir millət öz arzularını birdən-birə əldə etmişdir?...

Buna görə də səfirlər və Berlində nümayəndələrə şikayət etməyi lazım bildim. Başladığımız işi davam etdirməliyik.

Bu cür işlər nə bir gün ərzində, nə də bir adamın əliylə həll edilməz. Gələcək üçün hazırlıqlarımızı görməliyik. Heç bir yerdə qalmadan Ermənistana getməliyik. Millətimizin içində bacarıqlı adamları, vətənsevərləri, elm adamlarını, kilsə adamlarını Ermənistana göndərməliyik. Tərbiyəçilərimiz, müəllimlərimiz və atəşli gənclərimiz Ermənistana getsinlər...

**[Mənbə-165, s.256]**

## ƏLAVƏ IV

### 1879-cu ildə Erməni Patriarxlığının yepiskopluqlara göndərdiyi çağırış:

1. «Ermənistan məsələsi»nin daim gündəlikdə qala bilməsi üçün qriqorian, protestant, katolik və başqa məzhəblərdən olan ermənilər birləşməlidirlər.
2. Məktəblərdəki uşaqların düşüncələri «Ermənistan məsələsi»nə yönləndirilməlidir. Kəndlərdə təhsil almağa imkanı olmayanlara keşişlər ən azından imza atmağı öyrətməlidir. Şəhərlərdə və kəndlərdə oxumağı və yazmağı bacarmayan nisbətən yaşlı adamlar da yazmağı öyrənməlidirlər. Heç olmasa, imzalamağı bacarmalıdır. Çünki bu bizə gələcəkdə lazım olacaq.
3. Vilayətlərdəki erməni məclisləri və rəisləri xarici konsullar ilə tez-tez görüşməlidirlər. Ermənilərin tələbləri konsullara açıq şəkildə bildirilməli və konsullarla çox yaxın əlaqələr yaradılmalıdır.
4. Avropa bütün ermənilərin hüquqlarını tanıyır və onları müdafiə edir. Avropanın mədəni dövlətləri buna hazırdır. Xristian ermənilərin dərdlərini bilmək və onlara kömək etmək, Berlin konfransının 61-ci maddəsində göstərilmişdir. İndidən biz bu vəziyyəti konsullara sübut etməyə başlamalı, ermənilərin bacarıqlı, namuslu olduğunu göstərməli, islahat və təhlükəsizliyimizi, arzu etdiyimizi qəbul etdirməliyik.
5. Harada olursa olsun qarşınıza çıxan avropalını gülərüzlə qarşılayıb qonaqpərvərlik göstərin. Onlara qədim erməni dastanları danışaraq «Erməni davası»na (Hai Tahd) köməklik göstərməsini istəyin.
6. Bu məqamlar kilsə cəmiyyətlərinə, keşişlərə və kilsəyə ibadətə gələnlərə bildirilməlidir.
7. Osmanlı dövləti sizin avropalılar ilə yaradacağınız əlaqələrə mane olmayacaq. Əgər bunun üçün polis tərəfindən təzyiqlərə məruz qalacaqsınızsa, vəziyyət dərhal yerli hökumətə və ən yaxın konsula bildirilməli, Patriarxlığa da bu

hadisə haqqında yazılı məlumat verilməlidir.

**[Mənbə-131, s.31].**

## ƏLAVƏ V

### «Hnçak» komitəsinin minimum proqramı:

a. «erməni milləti türk idarəçiliyindən xilas olaraq kommunist olmalıdır;
b. mətbuat və təbliğat yolu ilə ölkə miqyasında qiyamları genişləndirmək;
c. ölkədəki digər xristianlara istiqlal fikrini yeritmək;
ç. bu məqsədlərə nail olmaq üçün birinci yol qiyamdır;
d. Şərqi Anadoludakı müəssisələri alt-üst edərək xalqı ümumi üsyan yolu ilə türk hökumətinə qarşı qaldırmaq.

Bunun üçün:

Təbliğatda: mətbuat vasitəsi ilə, kitablar çap etdirmək, şifahi olaraq millət arasında, ən başlıcası isə fəhlələr arasında «Hnçak» qiyam fikirlərini təbliğ etmək, qiyam təşkilatlarını təsis etmək və üsyançı alayları formalaşdırmaq.

Terror: türk dövləti rəhbərlərinə, agentlərə, türkü sevən xainlərə, xəyanət edənlərə qarşı terror əməliyyatı keçirilməlidir.

Partizan alaylarının təşkili: hərbçilərin və polislərin hücumuna qarşı müqavimət göstərən qüvvədir. Ümumi üsyan halında bu alaylar birinci dərəcəli əhəmiyyət kəsb edəcək.

Ümumi Üsyan Təşkilatı: bir-birinə bağlı və bütövlük təşkil edən, müştərək istiqamətdə hərəkət edən, eyni taktikanı tətbiq edən qruplardan formalaşan bir qüvvə «Türkiyə Ermənistanı»nın bütün ərazisində təşkilatlanmalıdır. «Hnçak» komitəsinin Nizamnaməsinə uyğun hərəkət etməlidir.

Üsyan Alayları Təşkilatı qurulmalıdır. Xarici dövlətlərdən biri Türkiyəyə qarşı müharibə elan etdiyi halda minimum məqsədin tətbiqi üçün bu vəziyyət nəzərdən keçirilməlidir.

**[Mənbə-113, s.105-106]**

## ƏLAVƏ VI

### «Hnçak» komitəsindən Poqos və Vahab Mkırtıçyan adlı keşişlərinin yazıb imzaladıqları sənədlər:

**Sənəd 1**

İstanbul «Hnçak» komitəsinə 18 noyabr 1914.

Təlimatda tələb olunan kimi dostlarımız vasitəsilə silah almaq istəyirik. Silahların qiymətini bilmək istəyirik. Birinci - üç bilərzikli «Martin», ikinci - «Mauzer», üçüncü - qoşalüləli qırma-doldurma, dördüncü - «Amerika simit» qırma

tapanca, beşinci -«Brauninq» güllələri ilə birlikdə 200 ədəd.

«Daşnak» komitəsi təbliğatçıları buraya gəldilər. Halbuki «hnçak»çılardan heç kim hələlik gəlmədi. Həyat Naminə.

Sədr Mildrosyan

Baş katib Keşiş Poqos Kalemyan

**Sənəd 2**

İstanbul «Hnçak» komitəsinə 25 dekabr 1914.

Qardaşlar, ....silah məsələsinə gəlincə, təsəlli verə biləcək heç bir tədbir olmadı.

Zıraat (kənd təsərüffatı) Bankı toxumluq verməsəydi alınacaq pulların 1/3-i bu məqsədlə (silah almaqla) xərcləmək niyyətindəydik. Burada biz türk kəndləri ilə əhatəli olduğumuzdan bütünlüklə silahlanmalıyıq. Mümkünsə, bizə pulunu sonra ödəmək şərtiylə silah verin:

Heyət adından:

Birinci rəis Vahab Mkırtıçyan

Rəis Y.Bakıryan

Baş katib Merker Portağalyan

Kişi qəsəbəsi

**[Mənbə - 27, c.84]**

## ƏLAVƏ VII

### "Mühüm dəqiqələr ərəfəsində" məqaləsindən fraqment (Bakıda çap olunan "Areve" qəzeti, 11 sentyabr 1914-cü il)

"Sabah və ya ertəsi gün sərhədlərdə tarixi hadisələr baş verə bilər və dünya müharibəsinin gurultuları «Ermənistan dövləti»ni yarada bilər. Ermənilər həmin günə hazır olmalı və onu sadəcə birləşmək sözləri ilə deyil, real hərəkatları ilə qarşılamalıdırlar. Bu günə qədər özünü fəda edən, bütün təhlükələri və əzabları öz üzərinə alanlar erməni xalqının ancaq kiçik bir hissəsi idi. Dörd bir tərəfdən komitələri tənqid edənlər nəhayət, birbaşa meydanlara çıxaraq milli vəzifələrini yerinə yetirməlidirlər.

Ermənilər! Şanlı atalarımızın qəhrəman ruhları bu gün bizə baxır. Bunu dərk edə biləcəyikmi? Bu ağır günlərdə, daha təhlükəli bir zamanda və daha ağır şərtlər altında mübarizəyə başladığımız işi həyata keçirə biləcəyikmi?"

**[Mənbə-108, s.148]**

**ƏLAVƏ VIII**

## «Hnçak» komitəsi Mərkəzi Şurasının bəyannaməsi

"Erməni millətini xilas etmək üçün 25 ildən artıq mübarizə aparan sosial-demokrat «Hnçak» komitəsi üsyan və mübarizə zənglərini çalmaqla mövcud siyasi vəziyyətlərdən istifadə etməklə Osmanlı hökumətini qanlar içində boğmaq üçün Torosun zirvəsindən və Ermənistanın ən ucqar sərhədlərindən başlayaraq mübarizə meydanına atılır.

«Hnçak» komitəsi bütün maddi və mənəvi qüvvələrini toplayaraq üsyan qaldırmaqla millətin varlığı uğrunda mübarizədə iştirak edəcək və Üçlər İttifaqının, xüsusilə də rus ordusunun müttəfiqi olaraq əlində olan bütün qiyamçı və siyasi vasitələrlə Ermənistanda, Kilikiyada və Azərbaycanda qələbə əldə etmək üçün Üçlər İttifaqına yardım edəcəkdir. Həyatlarını ermənilərin xilası naminə fəda etməyə hazır olan qəhrəmanlar bütün maddi və mənəvi qüvvələri ilə ortaya atılmalıdırlar. Üsyan naminə tökdükləri qanla iftixar edərək ermənilərin sabahkı günlərdə yer tuta bilmək, həyat və siyasi azadlıq hüquqlarını irəli sürməklə vətənlərinin və Üçlər İttifaqının himayəsi altında istiqlaliyyətini qazana bilərlər. Müharibənin şəfəqi doğulsun və işığı ilə haqq, ədalət, azadlıq işıqlansın. Ermənilər! Bu halda irəli və iş başına! Öz ölümümüzlə Ermənistanı təhlükə altında saxlayanları öldürək, qoy Ermənistan əbədiyyətə qovuşsun!"

**[Mənbə - 40, D. 44. Belge 844/51]**

**ƏLAVƏ IX**

## Bitlisdəki Rusiya konsulunun İstanbuldakı Rusiya səfirliyinə yazdığı 602 №-li raportundan fraqment (3 dekabr 1910-cu il)

"Muşun kəndlərində məktəblər üçün pul topladığını şifahi olaraq bildirən erməni qiyamçısı Karnik, «Daşnak» komitəsinin üzvü olmamışdan əvvəl keşiş idi. Əsil adı Dacad Vartapetdir. Sonra ruhani işlərini buraxaraq «Daşnak» komitəsinin üzvü olmuşdur. Bundan sonra digər erməni qiyamçıları kimi özünə bir ləqəb götürmüşdür. İndi «Karmen» adı ilə tanınır. Erməni əhalisi və ruhani idarələri tərəfindən maddi yardım edilən məktəblərə daşnaklar müfəttiş adı ilə girirlər. «Daşnak» komitəsi üzvlərinin ermənilərin dini işlərinə qarışması keçən il ərzində və bu ilin əvvəllərində əhəmiyyətli dərəcədə artmışdır. Daşnakların Muşdakı dini işlərə həddindən artıq qarışmaları hiss edilir və buradakı ruhaniləri istədikləri kimi idarə edirlər. Daşnakların Muşun dini işlərinə qarışmaları o qədər böyümüşdür ki, erməni din adamları bu vilayətdən başqa bir vilayətlərə köçdükləri halda belə onların işlərinə müdaxilə edə bilirlər. Erməni ruhaniləri ilə daşnakçıların

münasibətləri, siyasi və digər mövqeləri bir-birlərinə uyğundur"

**[Mənbə].**

**ƏLAVƏ X**

### General Mayevski Rusiyanın erməni qiyamlarındakı rolu barədə:

"1895-1896-ci illərdə gənc ermənilər Rusiya səfirliyində böyük bir otaqda toplanaraq orada hərbi təlim və atış təcrübəsini öyrənirdilər. Vanda missionerlərin fəaliyyəti genişlənirdi. İstər gizli toplanan, istərsə də ingilis konsulluğu vasitəsilə Londondan gətirilən pullar bunlara təhvil verilir və humanitar cəmiyyətlərə yardım adı ilə paylanırdı. İngilislər bu yardımlarla ermənilərə tərəfdarlıq edərkən bunlardan açıqca erməni qanının nə qədər ucuz almağın mümkünlüyünü göstərirdilər."

**[Mənbə-114, s.85]**

**ƏLAVƏ XI**

### İsgəndərundakı rus müşaviri Rusiyanın ermənilərlə bağlı Manifesti barədə:

"Ermənilərə təntənəli surətdə demək lazımdır ki, rus çarı onları yüz illərlə məhkum olmuş istiladan xilas etmək niyyətindədir və onlara muxtariyyət verməyi düşünür. Heç şübhə yoxdur ki, bu cür bəyanatın olmaması Türkiyə və Almaniya tərəfinin diqqətindən yayınmamış və Rusiyanın əleyhinə istifadə ediləcək. Bizə məlumdur ki, Almaniya erməniləri öz tərəfinə çəkmək üçün çox böyük canfəşanlıq göstərir və bu cür manifestin Almaniya tərəfindən katolikosa verilməsi erməniləri öz tərəflərinə cəlb edə bilər. Gözlənilən rus manifesti yerinə əgər türk manifesti verilərsə bu ermənilərin içərisində çaşqınlığa səbəb ola bilər və rus maraqlarına böyük zərbə vurmuş olar. Bəlkə də bizim ordunun bu bölgədə uğurlu əməliyyatlarına böyük maneə ola bilər".

**[Mənbə-139, s.216]**

**ƏLAVƏ XII**

### İsgəndərundakı rus səfirinin müşaviri Qulkeviçin Qafqazın general-qubernatoruna məktubundan:

«Ermənistan»ın Türkiyə tərkibində muxtariyyət alması və ya Rusiya protektoratlığı altında olacağı məsələsi hələlik öz həllini tapmayıb. Lakin hər iki halda «Ermənistan» bizim təsir dairəmiz altında olmalıdır və bu halda müttəfiq

dövlətlərin maraqları nəzərə alınmayacaq. Gələcəkdə yaradılan muxtar vilayətin əraziləri Rusiya dövlətinin maraqlarına uyğun olaraq bizim tərəfimizdən müəyyən edilməlidir. Biz gərək hər vəchlə çalışaq ki, gələcəkdə yaradılan «Ermənistan»ın və əlbəttə ki, bizim Aralıq dənizinə çıxışımız olsun. Biz heç bir yolla razılaşa bilmərik ki, «Böyük və Kiçik Ermənistan» bölünsün və Avropa ölkələrindən birinin himayəsi altına keçsin ...Ermənilərin içərisindən ifratçı millətçilərin köməyinə arxalanaraq «Türkiyə Ermənistanı»na muxtariyyət qazandırmaq; Rusiya erməniləri kimi bu muxtariyyəti Aralıq dənizindəki Mərsin limanı ilə Rusiyanın müstəmləkəsinə çevirmək. Bu məsələdə müttəfiqlərin mənafelərinə əhəmiyyət vermədən Rusiya müstəqil siyasət yürütməlidir".

**[Mənbə-139,s.215-216]**

## ƏLAVƏ XIII

### Qafqaz general-qubernatoru Vorontsov-Daşkovun ermənilərə münasibət göstərilməsi ilə bağlı tövsiyələrindən fraqment:

"Rusiya qarşısında dayanan alternativ - Qafqaz ermənilərinin Rusiyaya olan məhəbbətini daha da artırmaq və bununla da qərb ermənilərinin hörmətini qazanmaq, ya da onları Rusiyadan uzaqlaşdırmaq fikirləri mütləq birincinin xeyrinə həll olunmalıdır. Türkiyə ermənilərinin ruslara qarşı simpatiyalarının artması Rusiya mövqelərini Qafqaz erməniləri arasında daha da qüvvətləndirə bilər, əksinə Qafqazla sərhəd zonalarında yaşayan erməniləri özümüzdən uzaqlaşdırmaqla Rusiyada və Qafqazda yaşayan ermənilərin hökumətimizdən narazılığını yaratmış olarıq. Tamamilə aydındır ki, Türkiyə Balkanlarda məğlub olduqdan və böyük dövlətlər «Şərq məsələsi»nə müdaxilə etməyə başladıqdan sonra ermənilər dinc durmayacaqlar. Ermənilər qorxurlar ki, hazırkı dövrdə onlar əsaslı və real islahatlara nail olmasalar, yenə də uzun illər türklərin özbaşınalıqlarına məruz qalacaqlar. Mənim fikrimcə, yaranmış vəziyyət tələb edir ki, imperator hökuməti təxirə salmadan və böyük bir qayğıkeşliklə «Erməni məsələsi»nə müdaxilə etsin. Bu da öz növbəsində erməniləri sakitləşdirər və Rusiyanın tərəfkeş bir dövlət olduğunu ermənilərə əyani surətdə göstərər. Əgər imperator hökuməti Türkiyə ermənilərinə şəxsi və mülki toxunulmazlıq zəmanətini verə bilərsə, o zaman onlara silah verilməyə də bilər və silahsızlıq onları hər hansı düşünülməmiş addımlar atmaqdan çəkindirər. Əgər belə bir zəmanət verə bilməyəcəyiksə, o zaman doğurdan da ermənilərin kütləvi surətdə qırğınları törədilə bilər, bu da ki, Türkiyədə və Qafqazda yaşayan ermənilərin narazılığına səbəb olacaq, onları Rusiyadan uzaqlaşdıraraq Avropada yardım axtarmağa məcbur edəcək. Qafqaza hakim olmağımız bizi məcbur edir ki, bütün qüvvələrimizlə Kiçik Asiyaya sahib olaraq əsas məsələ olan «Erməni məsələsi»ndə ancaq Rusiyanın aparıcı mövqe tutmağına çalışmalıyıq. Mənim fikrimcə, bu xalqın

məhəbbətini və inamını qazanmaq bizim üçün son dərəcə vacibdir".

**[Mənbə-114, s.83]**

**ƏLAVƏ XIV**

## M. Pavloviçin «Rusiya və ermənilər» məqaləsindən fraqment:

"Katolikosun təşəbbüsü ilə 1913-cü ilin fevralında Parisdə "Türkiyə Ermənistanı"ndakı qiyamları nəzarət altında saxlamaq məsələsi ilə bağlı yığıncaq keçirildi. Katolikos ancaq Rusiya hökumətinin təsdiqini aldıqdan sonra belə bir yığıncağın keçirilməsi məsuliyyətini öz üzərinə almışdır. Çarın nümayəndəsi İzvolski nümayəndələrlə müxtəlif görüşlər keçirmiş və yığıncaqda "Erməni məsələsi"nin yalnız Rusiya tərəfindən həll edilə biləcəyini" diqqətə çatdırmışdır. Bunlara uyğun olaraq yığıncaq nümayəndəsindən yüksək rütbəli Yatyuşan adlı bir keşiş Türkiyədə Rusiya hökumətinin nəzarəti altında həyata keçirilə biləcək bir qiyam proqramının hazırlanmasını təklif etmişdir. Burada diqqəti cəlb edə biləcək ən əhəmiyyətli məsələ «Ermənistan»a Rusiyanın himayəsi altında muxtariyyətin verilməsi idi.

**[Mənbə-17, 1914 il, may].**

**ƏLAVƏ XV**

## Almaniyanın Moskvadakı səfiri Betman Holveqin 1913-cü ilin 23 yanvar tarixində baş nazirə göndərdiyi raportundan fraqment:

"Cənab Sazonovla son danışıqlarımızda Balkan müharibəsinin davam edəcəyi halda baş verə biləcək ehtimali təhlükələri müzakirə edərkən bir neçə dəfə «Ermənistan»ı xatırlatmış və orada xristianlara qarşı qətllər törədilə biləcəyini dediyində mənim diqqətimi çəkdi. Sazonov buna əlavə olaraq dedi: "Sərhədlərimizin yaxınlığında qarışıqlıqlar baş verərsə, biz laqeyd qala bilmərik, bu halda müdaxilə etməmək əlimizdən gəlməz. Xarici İşlər Nazirliyinin münasibətlərini təcəssüm etdirən bir sıra qəzetlər «Ermənistan» lehinə və oradakı xristianları qorumaq məqsədilə lazım olarsa, Rusiyanın müdaxilə edəcəyini açıqdan açığa işarə edirdilər".

**[Mənbə -Die Grosse Politik, cild 38, sənəd 15284]**

## ƏLAVƏ XVI

### Yeşilköydə (San-Stefano, Ayastefanos)1913-cü il iyunun 30-da Avropa dövlətlərinin səfirlərinə təqdim olunmuş rus-ingilis-fransız ekspertlərinin hazırladığı layihə

1. Ərzurum, Van, Bitlis, Diyarbəkir, Xarput və Sivas vilayətləri vahid vilayət halında birləşəcək. Bunların bəzi ətraf əraziləri yaradılacaq yeni vilayətdən kənarda qalacaq. Bu yeni vilayətin əhalisinin eyni millətdən olmasına diqqət edilməlidir.

2. Bu "Erməni vilayəti"nin baş valisi böyük dövlətlərin təklifi ilə Sultan tərəfindən 5 il müddətinə təyin ediləcək. Baş vali Osmanlıda yaşayan xristian və ya avropalı olmalıdır.

3. Bu baş vali vilayətin icra başçısı olub rəhbərliyi altında olan idarələrə bütün məmurları vəzifəyə təyin edib, işdən çıxarmaq səlahiyyətinə sahib olacaq. Polis və jandarm ona birbaşa tabe olacaq. İstədiyi halda asayişin möhkəmləndirilməsi üçün ordu da ona tabe ediləcək. Məmur, polis və jandarmlar müsəlman və xristianlardan yarı-yarıya təyin ediləcək. Polis və jandarmlara komandanlıq Osmanlı ordusunda xidmət edən xarici zabitlərə həvalə ediləcək.

4. Baş valinin rəhbərliyi altında bir məclis yaradılacaq. Onun üzvləri: a) müxtəlif idarə rəhbərləri; b) müxtəlif millətlərin dini rəhbərləri; c) idarə rəhbərlərinin texniki müavinləri; ç) 3 müsəlman və 3 də xristian olmaqla vilayət məclisi üzvləri tərəfindən seçilmiş 6 müşavir.

5. Vilayət Məclisi bərabər sayda müsəlman və xristian üzvlərdən ibarət olacaq. Müxtəlif müsəlman və xristian millətinə veriləcək Məclis üzvlüyü hər bölgə üçün ayrıca müəyyən ediləcək. Onların sayı əhalinin sayına uyğun nisbətdə müəyyənləşdiriləcək. Məclisin büdcə və qanun qəbul etmək məqamında böyük səlahiyyəti olacaq. Qəbul edəcəyi qanunlar üçün Sultanın rəyi iki ay ərzində bildirilməli və ya qanun qəbul edilməməlidir. Bu müddət ərzində hər hansı bir cavab gəlmədiyi halda qanun qüvvəyə minmiş hesab ediləcək.

6.Ərazilərin sərhədləri elə çəkilməlidir ki, ərazidə yaşayan əhali eyni bir millətdən olsun. Ərazidə sakinlər tərəfindən seçilmiş bir məclis olacaq. Bu məclis də öz üzvləri arasından ərazi rəhbərini və onun müavinini seçəcəkdir. Lider sayca çox olan millətin içindən, müavini isə az olanın içindən təyin ediləcək.

7. Hər ərazi mərkəzində baş vali tərəfindən təyin olunmuş hakim olacaq. Ərazidəki hakim çoxluğun dinindən olmalıdır. Məhkəmələrdə hakimlərin sayının proporsional olaraq yarı-yarıya müsəlmanlardan və xristianlardan olmasına diqqət yetiriləcək.

8. Sülh dövründə vilayət əhalisi əsgərliyini vilayət içində keçirəcək. Kürdlərin süvari alayları ləğv ediləcək.

9. Müxtəlif seçkilərdə seçmək və seçilmək hüququ yalnız yerli əhaliyə

məxsusdur (köçərilər bundan məhrumdurlar).

10. Bütün qanun, nizamnamə və s. 3 dildə yazılacaq (türkcə, kürdcə, ermənicə). Məhkəmələrdə şəraitə uyğun olaraq bu 3 dildən istifadə etmək olar.

11. Vilayətdə yaşayan hər millət bütün səviyyədə özəl məktəb aça və bu məqsədlə öz üzvləri arasından ayrıca vergi toplaya bilər. Bu özəl məktəblərdə türk dili məcburi olacaq.

12. Ermənilərin əllərindən alınmış torpaqların qaytarılması üçün baş vali komissiya təşkil edəcək.

13.1863-cü ildə erməni xalqına verilmiş hüquqlar qüvvədən düşməyəcək.

14. Vilayətdə köçkünlər məskunlaşdırılmayacaq.

15. Yuxarıdakı əsaslara uyğun olaraq vilayət xaricində qalan və bilavasitə Kilikiyada yaşayan ermənilərin vəziyyətini düzəltmək üçün tədbirlər görüləcək.

16. Osmanlı hökumətinin və böyük dövlətlərin nümayəndələrindən formalaşan bir komissiya konstitusiyanı müəyyən edəcək.

17. Böyük dövlətlər bütün bu maddələrin həyata keçirilməsi ilə maraqlanacaq və bunu təmin edəcəklər.

**[Mənbə - Die Grosse Politik. Alman Arxivi, cild 38, sənəd 15344 (tərcümə Hikmət Bayur]**

## ƏLAVƏ XVII

### Yeşilköydə (San-Stefano, Ayastefanos) 1913-cü il iyunun 30-da Avropa səfirlərinin toplantısı barəsində Almaniya səfirinin qeydləri:

"Səfirlərin keçirdiyi bugünkü yığıncaqda cənab Girs aşağıdakı izahatları verdi: 1. Bu yığıncaq Rusiyanın təhriki ilə həyata keçirilir; 2. Rusiya Şərqi Anadolu və «Erməni məsələsi»ndə başqa millətlərə nisbətən daha maraqlıdır; 3. Müzakirələr mümkün olduğu qədər sürətlə aparılmalıdır.

Bundan sonra Girs Mandelştamın layihəsini təqdim etdi. Bu layihəyə əsasən, 6 vilayət Sultan tərəfindən təyin ediləcək və ya daha məqsədəuyğun olan avropalılar tərəfindən seçilən baş valinin nəzarətində bir əyalət halında birləşdirilməlidir. Bu əyalət idari və hərbi tərəfdən Osmanlı hökumətindən ayrılacaq. Məmurlar və hakimlər belə baş vali tərəfindən seçilib təyin ediləcək. Hərbi birləşmələr yalnız ermənilərdən təşkil ediləcək. Bu layihənin həyata keçməsi ilə Anadolunun yarısından çox hissəsinə Sultan zəif nəzarət edəcək və «Ermənistan»ın yaranması reallaşacaq. Ermənilərin ikinci böyük bir qismi Rusiyada yaşadığından Rusiya bu maddələrin yerinə yetirilməsini tələb edir. Bu iş Osmanlı Asiyasının bölünməsinin başlanğıcı deməkdir. Fransa bu hərəkatı Suriyada tətbiq edəcək və əgər biz Anadolunu itirmək istəmiriksə, Osmanlıda müvafiq bir rejimin yaradılmasını tələb edəcəyik. Rusiya bizim nəzarətimiz altında

olan Diyarbəkir bölgəsini də «Ermənistan»a daxil etmək istəyir. Avstriya səfiri bütün səfirliklərin iştirakı ilə qarışıq bir komissiyanın yaradılmasını təklif etdi. Səfirliyimizdəki türkcə tərcüməçi Ginberq vasitəsi ilə özümü bu komissiyada təmsil etdirmək niyyətindəyəm. Mən bizim vəkillərimizə əsas məsələlər üzərində heç bir şəkildə münaqişələrə girməməyi, lakin bununla yanaşı, Rusiya layihəsindəki əsas məqamları və Türkiyə təkliflərinin detallı təhqiqindən sonra bunları görüşdürüb aralarında həll edilməsi haqqında təlimat verirəm. Hər şeydən əvvəl əsas mövzu olaraq ordu hissələrinin «Ermənistan»a yenidən girə bilməsi və bununla da İngiltərənin tutacağı mövqe üçün lazımi vaxt qazandırmaqdır. Əgər İngiltərə Rusiyanın təklifini qəbul edərsə, bununla sübut edəcəkdir ki, İngiltərə bölüşdürməni gecikdirmək arzusunda deyil".

**[Mənbə - Die Grosse Politik. Alman Arxivi, cild 38, sənəd 15344 (tərcümə Hikmət Bayur]**

## <u>ƏLAVƏ XVIII</u>

### Rusiya nümayəndəsi ilə Osmanlı nümayəndəsi arasında 8 fevral 1914-cü il tarixində imzalanmış razılaşma

"Osmanlı imperatorluğu hökuməti ilə Rusiya hökumətinin nümayəndəsi əlahəzrət Konstantin Qulkeviç arasında Şərqi Anadolunun iki qisminə (sektor) göndəriləcək iki baş müfəttişlikdən sonra Osmanlı hökumətinin böyük dövlətlərə aşağıdakı notanı göndərəcəkləri haqqında razılığa gəlmişlər. İki xarici baş müfəttiş Şərqi Anadolunun iki hissəsinə rəhbərlik edəcək. Cənab A... Ərzurum, Trabzon və Sivas, cənab B... isə Van, Bitlis, Xarput və Diyarbəkir vilayətlərini əhatə edən ərazilərə rəhbərlik edəcək. Baş müfəttişlər təhkim olunduqları qisimlərin idarə, ədliyyə, polis və jandarmını yoxlayacaqlar. Oradakı ümumi təhlükəsizlik qüvvələrinin lazımi səviyyədə olmadığı müəyyən edilərsə, hərbi qüvvələr də bu müfəttişin səlahiyyətinə veriləcək... Baş müfəttişlər bacarıqsız və ya davranışlarının düzgün olmadığı bütün məmurları işdən çıxara bilər və tələb olunduğunda qanunlara uyğun cəza verilməsini məhkəmələrdən tələb edə bilərlər. Aşağı təbəqədə işdən çıxardıqları adamın yerinə məsləhət bildikləri adamı işə götürəcəklər. Yuxarı təbəqədə işdən çıxarılan adamın adını Sultana təqdim edə bilərlər. Baş müfəttişlər işdən çıxardıqları adam haqqında teleqramla dərhal əlaqəli yerlərə bildirməli və daha sonra səkkiz gün ərzində ətraflı yazılı məlumatla onun səxsi işini eyni yerlərə göndərəcək... Təcili tədbirlərin görülməsi lazım olduğunda və xüsusi hallarda baş müfəttişlər arzu olunmayan ədliyyə işçilərini dərhal işdən çıxarmaq hüququna malikdirlər, lakin bu halda dərhal Ədliyyə Nazirliyinə məlumat verilməlidir... Əgər valilər tərəfindən baş müfəttişlərin işlərinə mane olacaq tədbirlərin alınması müəyyən edilərsə, baş müfəttişlər bunu teleqrafla Daxili İşlər Nazirliyinə bildirəcək və o da öz növbəsində Məclisə bu haqda məlumat

verəcək... Torpaq işləri ilə bağlı olan bütün mübahisələr baş müfəttişlik tərəfindən həll ediləcək... Baş müfəttişlərin vəzifə və səlahiyyətləri haqqında daha sonra, yəni onlar bu işə təyin olunduqdan sonra detallı şəkildə təlimatlarda yazılacaq. Əgər on ildən sonra baş müfəttişliklərdə bir boşluq yaranarsa, Osmanlı hökuməti yenidən seçilməsi üçün böyük dövlətlərin köməyinə arxalana bilər... Qanun, nizamnamə və rəsmi məlumatlar hər bölgənin dilinə uyğun olaraq dərc ediləcək. Baş müfəttiş bunu mümkün hesab edərsə, hər bir millət məhkəmədə öz dilindən istifadə edəcək. Məhkəmə hökmləri türkcə olacaq və imkan daxilində başqa dillərə də tərcümə ediləcək. Hər vilayətdə hər millətin maarif büdcəsindəki payı maarif üçün alınan vergilərlə mütənasib olacaq. İmperatorluq hökuməti hər millətin dini məktəblərinə edəcəkləri humanitar yardımlara heç bir yolla mane olmayacaq... Sülh və stabillik dövrlərində əsgərlik vilayət sərhədləri daxilində keçiriləcək. Bununla yanaşı, imperator hökuməti yeni bir qərar çıxarıncaya qədər imperatorluğun bütün ucqar ərazilərinə quru qoşunlarının hərbi birləşmələri göndəriləcək, dəniz qüvvələri üçün isə bütün imperatorluqdan çağırışçılar toplanacaq. Bölgələrdə təşkil olunmuş alaylar ehtiyat süvari kimi saxlanılacaq. Silahları isə hərbi anbarlarda qalacaq və yalnız səfərbərlik zamanı onlara veriləcək. Bu alaylar bölgədə mövcud olan korpus komandirlərinin əmrində olacaq. Sülh dövründə bu alayların bölük və taqım komandirləri ümumi ordunun zabitləri arasından təyin ediləcək. Alayda xidmət edən əsgərlər 1 il müddətində xidmət keçəcək, alaya öz atlarını gətirəcək və təchizatını özləri təmin edəcəklər. Bölgədə yaşayan və bu şərtləri qəbul edən, dinindən və millətindən asılı olmayaraq hər bir şəxs bu alaylara qəbul ediləcək. Təlim (manevr) və ya səfərbərlik üçün toplandıqları zaman bu alaylar nizami birliklərlə bərabər səviyyədə yaşayacaq... Vilayət Məclisinin səlahiyyəti 26 mart 1913-cü ildə təsdiq edilmiş qanunların prinsiplərinə görə müəyyən edilmişdir... 1 ili keçməmək şərti ilə baş müfəttişlərin müşahidəçiliyi altında dinlərin və millətlərin say nisbəti müəyyən ediləcək. Bu müəyyən edilincəyə qədər Van və Bitlis vilayətlərinin sakinləri öz məclislərində yarıbayarı nisbətində təmsil olunacaqlar. Əgər əhalinin sayı 1 il ərzində müəyyən edilməzsə, Ərzurum vilayətində də eyni sistem tətbiq ediləcək. Sivas, Xarput və Diyarbəkir vilayətlərində bu gündən mütənasiblik prinsipləri əsasında seçiləcək. Bunu tətbiq etmək üçün əhalinin siyahıyaalınması aparılana qədər qədər müsəlmanların sayı son seçkilərdə olan nisbətdə, müsəlman olmayanların sayı isə cədvəllərə görə müəyyən ediləcək. Ancaq maddi çətinliklər ucbatından seçkilərin keçirilməsi mümkün olmazsa, baş müfəttişlər Sivas, Xarput və Diyarbəkir vilayət məclislərinin üzvlərinə müxtəlif millətləri təmsil edə biləcək nümayəndələrin seçməsi hüququna malik olacaqlar... Məclisə seçilən üzvlər əvvəllər olduğu kimi mütənasiblik prinsipləri əsasında müsəlman və qeyri-müsəlman əhalisi arasından yarıbayarı seçiləcəklər.

...Baş müfəttişlər bunda bir nöqsan görməsələr, polis və jandarm işinə qəbul müsəlmanlarla müsəlman olmayanlar arasında bərabərlik prinsipləri əsasında tətbiq

ediləcək. Bu prinsip başqa işlərdə də həyata keçiriləcək.

Bütün bunları həyata keçirmək üçün yuxarıda adları göstərilən şəxslər bu Müqaviləni imzalamış və möhürləmişlər».

**ƏLAVƏ XIX**

## Ərzurumda «Daşnaksutyun» partiyasının konfransının materiallarından

"Türkiyənin sonunun yaxınlaşdığı haqqında hər həftə elan verilməyə başlandı. İstanbulda keçirilən böyük konfransın nəticəsini bilən və lazımi tədbirləri hazırlamaq üçün millət vəkili Papazyanla Varamyan Ərzuruma gəldilər. Ərzurumda Qafqazdan gələn daşnak nümayəndələri ilə birlikdə böyük bir konfrans keçirildi. Ərzurum konfransında rusların Türkiyədən zəbt edəcəkləri əraziləri ermənilərə verərək müstəqilliklərini təmin etmələri haqqında ruslarla imzalanacaq müqavilənin maddələri razılaşdırıldı. Konfransda rus-erməni müqaviləsi təsdiqləndi və komitələrə bildirmək şərti ilə aşağıdakı yazılı maddələr qəbul edildi:

1. Müharibə elan edilənə qədər sakitliyə riayət edərək tabeçilik göstərmək, lakin bu müddət ərzində Rusiyadan gələn və daxildən tədarük edilən silahlarla silahlanaraq hazır vəziyyətdə gözləməlidirlər.
2. Müharibə elan edildiyi andan türk ordusundakı erməni əsgərləri silahlarla birlikdə rus ordusuna keçməlidir.
3. Türk ordusu irəlilədiyi halda sabitliyi mühafizə etmək lazımdır.
4. Türk ordusu geri çəkildiyi və ya irəliləmədiyi halda erməni silahlı dəstələri dərhal əllərindəki təlimatlara uyğun olaraq ordunun arxasında diversiya fəaliyyətinə başlamalıdırlar.

Konfrans qərarları qəbul edib dağıldıqdan sonra millət vəkili Varamyan Ərzurum valisinin yanına gedərək aşağıdakı təklifləri yazılı şəkildə bildirmişdir:

"Osmanlı hökuməti Rusiyaya müharibə elan edərsə və Osmanlı ordusu Qafqaza hücum edərsə, oradakı ermənilərin türklərlə əməkdaşlıq edə bilmələri üçün Osmanlı hökuməti «Ermənistan dövləti»nin yaranması ilə əlaqədar etibarlı təminat verməli və bunun yerinə yetirilməsini təmin etməlidir."

**[Mənbə - 23, c.I, s.97-98].**

**ƏLAVƏ XX**

## Müharibə ərəfəsində 3-cü Osmanlı ordu komandanlığının ermənilərin hazırlıq tədbirləri haqqında topladığı materiallardan:

1. Sərhədin şərqində yerləşən (Rusiya ərazisində) kənd və qəsəbələrdə yaşayan müsəlmanların evlərində axtarışlar aparılaraq tapılan silahlar müsadirə

edilsin və silahlar ermənilərə paylanılsın.

2. Sərhədin qərbində (Türkiyə ərazisində) və xüsusilə sərhədə yaxın kənd və qəsəbələrdə yaşayan erməniləri silahlandırmaq, Oltu, Sarıqamış, Kağızman, İğdır yaxınlığında çoxlu miqdarda silah və sursat anbarları yaratmaq lazımdır. Rus generalı Loris Melikovun oğlu ilə birlikdə daşnak rəhbərlərindən Malkon və Ohannes Abaçı vasitəsi ilə 1914-cü ilin oktyabrın 10-da Vana göndərmək gərəkdir.

3. İrandakı ermənilərə də Türkiyədən zəbt ediləcək yerlərdə «Ermənistan dövləti» yaradılması vədini verərək İran ermənilərini və xüsusilə Urmiyə və Səlmasdakı ermənilərin silahlandıraraq Türkiyə ərazisinə göndəriləcəyi başa düşülür.

4. Qafqaz və Türkiyədəki daşnak komitələri rəhbərlərindən bir qismi sərhəd yaxınlığında aşağıda göstərilən erməni silahlı dəstələri formalaşdırır:

a. Əksəriyyət təşkil edən Pasinlər, Ərzurum, Ələşgirt, Xınıs, Malazgirt ermənilərindən və fərarilərdən ibarət 6000 erməni Kağızmanda Rusiya hökuməti tərəfindən silahlandırılmış və rus məmurları, erməni rəhbərləri vasitəsilə müsəlman əhalidən ərzaq toplandıqdan sonra silahlı dəstənin 3500 nəfəri 1914-cü ilin 31 oktyabr tarixində İran Azərbaycanına göndərilmiş, qalan hissəsi isə Kağızmanda qalmışdır.

b. Oltu, Qars, Sarıqamış, və Trabzondan fərarilik edən ermənilərdən 1500 nəfərlik süvari dəstəsi təşkil olunaraq Oltuya göndərilmişdir.

c. Əksəriyyəti Bəyazid, Van və Bitlis ermənilərindən, fərarilərdən və İğdır ətrafında yaşayan ermənilərdən olmaqla 6000 erməni İğdırda sihlandırılmışdır.

Makunun Kni tərəflərində yerləşən Beyecek kilsəsində erməni silahlı dəstələrinin təşkil edilərək Vana göndəriləcəyi aydınlaşdırılmışdır.

**[Mənbə - 23, c.I, s.99].**

**ƏLAVƏ XXI**

## Fransa ermənilərinin 5 avqust 1914-cü il tarixli bəyannaməsi

"Rusiyada yaşayan ermənilər qardaşlarımızın cəsədləri üzərində edilən təhqirlərin intiqamını almaq üçün borclarını və vəzifələrini Moskva ordusu cərgələrində icra edəcəklər. Türkiyə ermənilərinə gəlincə, heç bir ermənənin silahı ikinci vətənimiz olan Fransaya və ya onun müttəfiqinə qarşı çevrilməməlidir. Türkiyə səfərbərlik elan edib, bizi kimə qarşı olduğumuzu demədən orduya çağırır. Rusiyaya qarşımı? Qafqazlı qardaşlarımıza, simpatiya bəslədiyimiz Balkan ölkələrinə qarşı atəş açmayacağıq. Türk bəylər, səhv ünvana gəldiniz.

Ermənilər, kimə qarşı olduğunu söyləmədən Türkiyə sizi orduya çağırır. 300.000 qardaşımızın intiqamını almaq, II Vilhelm ordusunu əzmək üçün Fransa və onun müttəfiqlərinin ordularına könüllü yazılın".

**[Mənbə-116, s.198].**

**ƏLAVƏ XXII**

## Ermənilərin qiyam zamanı türk kəndlərinə hücum etmələrinin qaydalarını göstərən təlimatdan:

1. Düşmən kəndlərinin istehkam mövqelərini bilmək lazımdır;
2. Hücum xətti əvvəlcədən müəyyən edilir və təhlükəsizlik altına alınır;
3. Düşmənin haradan hücum edə biləcəyini müəyyənləşdirərək orada maneələr yaradılır;
4. Hücuma məruz qalacaq kənd yalnız üç tərəfdən mühasirəyə alınır. Mühasirədə qalanların qaça bilmələri üçün 4-cü tərəf boş buraxılır. Çünki dörd tərəfdən mühasirəyə alınmış düşmən hər şeyi nəzərə alaraq daha şiddətli müqavimət göstərə bilər və nəticədə bəlkə də qələbə əldə edə bilər. Hücum edənlərin bir hissəsi düşməni yaxından qüvvətli atəş altında saxlamalıdır. Qaçanları daha çox məhv edə bilmək üçün onları boş qalmış istiqamətə tərəf yönəltmək lazımdır. Kəndin bir tərəfinin mühasirəyə alınmamasına əsas səbəb düşmənə qaçmaq imkanı verməkdən daha çox onun müqavimətini qırmaq və beləliklə qələbəni daha sürətlə əldə etməkdən ibarətdir.
5. Düşməni çaşdırmaq üçün hücum şəfəq vaxtı seçilməlidir. Daha tez edilən hücum qaranlıq olduğundan zəif olacaq və artıq qan tökülməsinə səbəb olacaqdır.
6. Düşmən arasında təlaş və qarmaqarışıqlıq yaratmaq üçün bir çox yerləri atəş altında saxlamaq və bunun üçün lazım olan tədbirləri əvvəlcədən planlaşdırmaq lazımdır.
7. Hücum edən qüvvələr arasında süvarilər yoxdursa, bir neçə atlı yaradılmalıdır. Bunlar ölüləri və yaralıları arxaya doğru daşıyacaqlar.

**[Mənbə-113, s.51]**

**ƏLAVƏ XXIII**

## Qafqaz cəbhəsinin baş komandanı general-mayor Lebedinskinin imzaladığı 1 №-li əmrdən çıxarış (10 yanvar 1918-ci il):

1918-ci ilin yanvarın 10-da Qafqaz cəbhəsinin baş komandanı general-mayor Lebedinskinin imzaladığı 1 №-li əmrdə deyilirdi: "Millətlərarası Şuranın və cəbhə komissarının razılığına əsasən, erməni komandanlığına aşağıdakı erməni korpusunun yaradılmasına icazə verilmişdir:

1. Erməni atıcı alayı, 1915-ci ildə № 292-li əmrlə təsdiq olunan ştat cədvəlinə uyğun olaraq; Alayın adı- Lori, formalaşdırma yeri- Şulaver;
2. Erməni atıcı alayı, 1-ci maddədə göstərilən əmr ştatına uyğun.

Formalaşdırma yeri - Şuşa şəhəri;

3. Alay ştat cədvəlinə uyğun olan əlahiddə atıcı batalyonu. 1-ci maddədə göstərilən ştat cədvəlinə uyğun. Formalaşdırma yeri - Nuxa qəzasının Vartaşen ərazisi;

4. Ştata uyğun olaraq əlahiddə atıcı batalyonu. Formalaşma yeri-Axalkalaki;

5. Erməni piyada ehtiyat batalyonu. 1916-cı ildə təsdiq olunmuş ştat cədvəlinə uyğun olaraq Naxçıvan şəhərində formalaşdırılsın;

6.1917-ci ilin dekabrın 17-də verilən 162 №-li əmrin dəyişdirilməsi ilə əlaqədar olaraq Yelizavetpolda yerləşən 2-ci erməni piyada alayının adı dəyişdirilərək Əlahiddə ehtiyat piyada batalyonu adlandırılsın.

**[Mənbə-116, s.205].**

## ƏLAVƏ XXIV

### "Daşnaksutyun" partiyası liderlərinin Van görüşü barəsində (Papazyanın "Vem" jurnalında dərc olunan "Ümumi müharibə və Muş bölgəsində 1914-1915-ci illərdə Rusiya-Türkiyə müharibəsinin ilk illəri" məqaləsindən)

"Bu görüşdə iki məsələ müəyyən edildi:

1. Türk-rus müharibəsi başlanarsa, ruslar türkləri məhv etmək üçün güclü zərbə endirəcəklər. Ermənilər rus ordusunun ayrılmaz bir hissəsi olduğundan türklərin ermənilərə verə biləcəkləri zərərin qarşısını almaq üçün «Ermənistan» saydıqları ərazilərin hərbi strateji mövqelərini ələ keçirməlidirlər. Bundan başqa, siyasi istəyimizi müəyyənləşdirib katolikos vasitəsi ilə rus hökumətinə bildirməlidir. Ermənilərin İstanbulda təsis etdikləri şöbə şəxsi müdafiə təşkilatı haqqında yaydıqları sənəddə gizli təlimat verirdi. Bu təlimata görə, təhlükə zamanı daxilə doğru geri çəkilən erməni alayları dərhal birləşməlidir. Bu fikri Haqok, Armen Karo, Sarkis Paşayan müdafiə edirdilər.

2. İkinci məsələ isə daha ehtiyatlı idi. Bunu müdafiə edənlər Qərb cəbhəsində qüvvətli, böyük rus birləşmələrinin lazım olacağına inanmır və rusların vəziyyətə düzgün qiymət verərək Qafqaz ordusu komandanlığının sürətlə irəli gedəcəklərinə şübhə ilə yanaşırdılar. Bu adamların fikrincə, Anadoluda yaşayan ermənilər üçün təhlükə mütləq olacaq. Şəxsi müdafiə hazırlıqları üçün təlimat, əmr vermək lazımdır. Bundan başqa, Qafqaz sərhədləri çərçivəsində bəzi yerlərə erməni qüvvələri yerləşdirilməlidir. Bu qüvvələr gözləmə vəziyyətində qalacaqlar. Türklərin geri çəkilməsi halında dərhal irəliyə doğru hücuma keçəcəklər. Təşkilatı könüllü olaraq ruslara tabe etməkdə böyük fayda olduğunu düşünürdülər. Bu şəkildə hərəkət edildiyi halda ermənilərə hücum etmək üçün türklərin əlində heç bir səbəb olmayacaq. Ermənilərə qarşı hər hansı addım atmazdan əvvəl ermənilər

sərhəd boyunca yığılmış və asanlıqla gizli yollarla daxil olaraq türk ordusuna arxadan və yandan zərbələr vuracaq, onları narahat edəcək, anarxiya yaradacaqlar. İkinci fikri müdafiə edənlər daxildə erməni millətinə zərər verə biləcək hər hansı bir hadisələrin olmayacağı haldə ermənilərin sərhədi keçməyəcəklərini Osmanlı rəhbərlərinə xəbər verilməsinin tərəfdarı idilər. Bu fikri irəli sürən S.Minasyan, Vartkes, Şahrikyan və Zöhrab idi.

Bir-birilərindən fərqli bu iki fikri müzakirə etmək üçün mərkəzi komitələrə təqdim edildi və mənim vasitəmlə Şərq şöbəsinə (Qafqaza) göndərilməsi və qurultay nümayəndələri tərəfindən müzakirə edilməsi qərarı verildi. Tiflisdə hər şey bir-birinə qarışmışdı. Türk-rus müharibəsinin başlanması artıq real bir fakt olmuşdu. Xalq bu məsələlərlə əlaqədar müxtəlif toplantılar keçirirdi. Xaç yürüşünə bənzər baş verəcək müharibələr üçün hazırlıq işləri görülürdü. Digər tərəfdən isə, Türkiyə və Rusiya «Daşnak» komitəsinin ermənilərin özləri tərəfindən müstəqil idarə etmələrini istəyirdilər. Qurultaydan qayıtmış nümayəndələr içərisində ən fəalı Hamazasp idi. O öz fikir və ideyalarını reallaşdırmaq üçün hərəkata rəhbərlik etmək istəyirdi. Bu vəziyyət bizə imkan verir ki, Qafqaz erməni könüllü alayları ilə rus ordusuna birləşək və türklərdən intiqam alaraq torpaqlarımızı azad edək. Ümumi vəziyyət belə idi və günü-gündən pisləşməyə doğru gedirdi. Siyasi tələblərimizi bildirmək üçün Peterburqa nümayəndə heyətinin göndərilməsi təklif olunur. Orada da Babacanyan bu məsələlər ətrafında fəaliyyətini davam etdirirdi".

**[Mənbə-27, s.318].**

**ƏLAVƏ XXV**

**Osmanlı imperatorluğu Daxili İşlər Nazirliyinin 1914-cü ildəki statistik məlumatlarına əsasən, Van vilayətində əhalinin sayı**

| Vilayət və qəzalar | Türk əhalisi | Erməni əhalisi | Cəmi |
|---|---|---|---|
| Van və mərkəz qəzası | 45.119 | 33.789 | 79.736 |
| Ərciş qəzası | 27.323 | 8.083 | 35.406 |
| Şitak (Çataq) qəzası | 8.132 | 4.292 | 12.717 |
| Adilcevaz qəzası | 10.820 | 4.849 | 15.669 |
| Gevaş qəzası | 18.123 | 10.520 | 28.643 |
| Hakkari-mərkəz | 21.848 | 3.461 | 27.680 |
| Çöləmərik qəzası | 7.450 | 297 | 9.004 |
| Mahmudi qəzası | 10.230 | 528 | 12.959 |
| Şemdinan qəzası | 9.873 | ----- | 11.740 |
| Hoşap qəzası | 7.691 | 1015 | 8.706 |
| | 166.609 | 66.834 | 242.260 |

**[Mənbə - 58]**

**ƏLAVƏ XXVI**

## Van üsyanı zamanı qiyam rəhbərlərinin ermənilərə müraciəti:

"Vətəndaşlar! Düşmənin vəhşi və ümidsiz halında yüzlərcə toplarına qarşı dörd gün qəhrəmanlıqla müdafiə olunaraq, daha çox mətinlik və qəhrəmanlıq göstərərək qələbə çalmaq əzmindəyik. Küçə döyüşlərində əsgərlərimiz aslan ürəkli və bacarıqlı olmuşlar, başlarında və başlarımız üzərində qanadlarını açan ölümün gözünə qorxmadan baxmışlar. Atdığınız güllələr düşmənə böyük tələfat verdiyi kimi, əsgərimiz valinin vətənimizi xarabaya çevirmək istədiyini başa düşdükdən sonra səbri tükənmiş və nəyin bahasına olursa olsun məqsədlərinə nail olmaq istəyirlər.

İndi qələbədən qələbəyə doğru gedirik. Bütün könüllülər vətəni ilahi atəşlə müdafiə edir və ölümə hazır olduqlarını bildirirlər.

Ey erməni milləti, sənin üçün ölmək, sənin yaşamağın üçün ölmək, sənin xoşbəxtliyin, azadlığın üçün ölmək. Bizi düşmənin çoxluğu, bu gün, və ya sabah öləcəyimiz qorxutmur.

Xeyr! Biz ölümü cövhəri ilə görmək istəyirik. İstəyirik ki, millətlərin bu mübarizəsində, Şərqin dərinliklərində yüz illər boyunca bir ağac olan erməni milləti də əlində silah düşmənin saysız cəsədləri üstündə nə cür öləcəyini göstərsin.

Ermənilər! Başladığımız bu mübarizəni qanımızın son damlasına qədər və xüsusilə canavar düşmənimizin yıxılıb can verəcəyinə qədər aparmağa məcburuq. Cəsur olun, nə olursa olsun bacaracağıq. Ürəklərimiz əsgərlərimizdəki cəsarətlə dolsun. Onlar kimi mətin olun, onlar kimi mübariz olun.

Bu mübarizəni təkcə əsgərlərimizə buraxmayın. Hər kəs öz vəzifəsini icra etməlidir. Yaşlılar, qadınlar, qızlar, uşaqlar da bu mübarizədə iştirak etməlidirlər. Bu mübarizə sadəcə yaşamaq üçün deyil, azadlıq uğrunda savaşdır. Cəsur olun, mərd olun, daha başqa qələbələr üçün bir vücud olaraq hamımız bir məqsəd uğrunda birləşək.

Düşmənin yanıb-yaxılmış ordu birləşmələrinə, saysız tələfatına baxın, əsgərlərimizin igidcəsinə savaşmalarına baxın. Cəsarət və ümidlə könlünüzü dolduraraq millətin yenidən həyata dönüşü bayramına hazırlaşın.

Yaşasın erməni əsgərləri, yaşasın erməni milləti.

Van, 10 aprel
Milli Müdafiə Komitəsi"

**[Mənbə - 38a]**

## Van qiyamı zamanı erməni qəzetlərində çap edilən materiallardan:

### «Hayastan», № 12, 13 mart 1915-ci il

"On gündür ki, millətin azadlığı uğrunda düşmənə qarşı mərdliklə mübarizə aparırıq və bu mübarizəmiz daha igid, daha müqəddəs, daha yayğın və sevimli olmağa başlamışdır. Ümumi düşmənimiz bu dəfə bizi bütünlüklə məhv etmək və «erməni» adını millət adları içindən silmək istəyir. Amma bu dəfə biz həyatımız, şərəfimiz, dinimiz üçün savaşmağa və namusu tapdalanmış analarımıza, bacılarımıza görə intiqam almağa, millətimizi yaşatmağa qəti qərar vermişik. Altı yüz ildir ki, bu hökumətlə mübarizə edirik və bu mübarizəmizi qələbəyədək davam etdirəcəyik.

Onlar Dünya müharibəsində iştirak etdiklərini söyləsələr də, yurd içində qadınları, uşaqları, qocaları, gəncləri, xəstələri, yaralıları kütləvi şəkildə öldürürlər.

Vasporagan erməniləri, on gündür ki, milli və şəxsi varlığımızla, bütün gücümüzlə mübarizə edirik. Bu mübarizə tariximizdə birinci nümunə deyil. Lakin budəfəki mübarizəmiz millətlərin heyrətini və sevgisini özünə cəlb edəcək. Bütün dünya bir ovuc qəhrəmanın haqq və ədalət üçün nə cür döyüşdüyünü öyrənəcək. Yaradıcı olan ALLAH bizimlədir. Qəhrəmanlarımızın şan və şərəfləri bizim mükafatımız olacaq».

**24 may 1915-ci il**

"Bu məktubu iki-üç gündən sonra Rusiyaya gedəcək bir dostumla sizə göndərirəm. Bu günə qədər poçtla bir şey göndərmək fikrində deyildik. Burada türklərlə ermənilər arasında aprelin yeddisində başlayan savaş iyirmi üç gündən sonra bitdi. Allahın köməyi ilə biz ermənilər türklərə qalib gəldik. Qalanı ələ keçirdik. Aygestandakı hərbi birləşmələri, 8-10 top və çoxlu sayda sursat qənimət aldıq. Bütün hökumət binaları dağıdıldı. Üç gün sonra erməni könüllülərindən formalaşan birləşmələr və bir gün sonra rus ordusu bura gəldi. Savaş əsnasında türklər şəhərə on iki min mərmi atdılar. Dükanlar bütünlüklə dağıdılmış vəziyyətdədir. Mən özüm şəhərə getdim. Bizim dükanı tapmadım. Şəhərdəki evlərin üst mərtəbələri bütünlüklə dağıdılmışdı. İndi hamımız işsizik. Vanda 1500-ə qədər qadın və uşaqdan başqa türk qalmamışdır. Onları Amerikaya aid ərazidə saxlayırlar. Bu adamlar rus ordusu tərəfindən ərzaqla təmin edilir. İndi Aram Van valisidir. Bütün işlər ermənicə aparılır. Kənd və qəsəbələri erməni məmurları idarə edir" [36].

**«Şampor Asparez» 24 sentyabr 1915-ci il, № 372**

"Mərmilərinizdən və güllələrinizdən ehtiyatla istifadə edin. Erməni

könüllüləri Andranik, Vartan və digərləri intiqam üçün silahlarınızı hazırlayın, dərd və kədərlərimiz artıq bütün hədlərini keçmişdir. Bu günə qədər erməni anaları nə qədər ağlayıblarsa, qoy türk anaları bir o qədər ağlasın, nə qədər erməni ocağı söndürülübsə, o qədər türk ocağı söndürülsün. İntiqam və yalnız intiqam. Qoy bütün dünyadakı ermənilər əsla zəif görünməsinlər. Son erməniyə qədər hər kəs qanlı andiçmə ilə tərbiyə olunsunlar. Həddindən çox düşmən qanı axıtsınlar. Mərhəmət, alicənablıq göstərən hər bir erməni cəza alacaq. Artıq erməni kəlməsi ilə erməniçilik sinonim olmalıdır, bizə intiqamdan başqa heç nə qalmadı".

**«Hayastan» 6 iyul 1915-ci il № 25**

"Şəhər işğal edildikdən sonra ermənilər generalın şərəfinə ziyafət verdilər. General, ziyafətdə aşağıdakıları demişdir: «Ruslar 1626-cı ildən başlayaraq «Ermənistan»ı xilas etməyə cəhd göstərmişlər. Lakin siyasi vəziyyət buna imkan vermədi. İndi dövlətlər elə bir siyasi vəziyyətə gəlmişlər ki, onların yeni vəziyyəti «Ermənistan»ın xilas edilməsinə köməklik göstərəcək». Generalın nitqinə cavab olaraq Aram belə demişdir: "Bir ay bundan əvvəl qiyamı başlatdığımız zaman rusların gəlməsinə ümid edirdik. Vəziyyətimiz çox təhlükəli idi. Ya təslim olmalı, ya da ölməliydik. Biz ölümü göz önünə almışdıq. Lakin gözləmədiyimiz bir halda siz imdadımıza gəldiniz. Bu qələbənin əldə edilməsinə görə sizə borcluyuq".

**Vanda çap edilən «Aşehedank» qəzeti, 8 may 1915-ci il**

"Qafqaz general-qubernatoru Vorontsov-Daşkovun göndərdiyi teleqrama görə, bu bölgədə yaşayan xalq içərisində «Aram paşa» adı ilə tanınmış Aram Manukyan Van əyalətinin rəhbəri təyin edilmişdir. Aram Manukyana rəhbərliyi tam komplektləşdirmək məqsədi ilə milliyyətcə yalnız ermənilərdən ibarət olan məmurların işə cəlb edilməsi səlahiyyəti verilmişdir. Qafqaz qüvvələrinin baş komandanı Nikolayevin əmrinə görə, Van vilayətinin hərbi rəhbərliyinin əmrində olduğunu və komandanlıq tərəfindən veriləcək əmrlərin Aram Manukyanın vasitəsi ilə xalqa çatdırılacağı bildirilirdi".

**"Le Temps" qəzeti (Paris), 13 avqust 1915-ci il**

«Rus hökuməti bütün erməniləri sevindirən bir qərar qəbul etdi. Van vilayəti rəhbərliyinə qiyamın başçısı Aram Manukyan təyin edildi. Aram Manukyan 1877-ci ildə Qafqazda, Şuşa şəhərində doğulub. Aram bu vilayətin lideridir. Erməni məktəblərində təhsilini aldıqdan sonra universitetə daxil olmağa hazırlaşarkən Vanda qiyamçı dəstələrlə tanış olmuş və onların rəhbərinə çevrilmişdir. Aram döyüşkənliyi ilə türkləri qorxutmuş və göstərdiyi şücaətləri ilə dillər əzbəri olmuşdur. Nəhayət, 1908-ci ildə dəstəsi ilə yaxalanaraq edam cəzasına

məhkum olunmuşdur. Meydanda dar ağacı qurulmuşdu. Aram edama gətirilərkən İstanbulda Məşrutiyətin (Çağdaşlaşma) elan olunduğu xəbəri gəldi. Xalq əsgərlərə hücum edərək həbs olunmuşları azad edə bildi. Bundan sonra Aram ixtisasını dəyişdirdi. Əvvəlcə müəllim, bir az sonra isə Ağdamar məktəbinin direktoru oldu. Nəhayət, müharibə başladığında Aram bu sakit işindən çıxaraq bir daha silaha sarıldı və Van qiyamçılarının başçısı oldu. İndi vilayəti zəbt edən Rusiya Türkiyəyə qarşı müharibədə müttəfiqi olan erməniləri razı salmaq üçün Aramı Van vilayətinin rəhbəri təyin etmişdir".

**[Mənbə -13, 21, 36; 38a; Mehmet Hacıoğlu, səh.644].**

## ƏLAVƏ XXX

### Osmanlı Ordusu Baş Komandanlığından erməni patriarxına göndərilən məktub (08.04.1915)

Ermənilərin fəaliyyəti haqqında
Patriarxa yazı — 26 mart 1331
Xüsusi — Erməni patriarxı zati-alilərinə

Hörmətli cənab, verdiyiniz məlumat və ətraflı izahatlarınız əlimizdəki sənədlərə uyğun gəlmir. Bununla yanaşı, bildirdiyiniz hadisələr haqqında komandanlar təhqiqat aparmalıdırlar. Əhaliyə qarşı davranışlarda ədalətli olunması hökumətin prinsipial xəttidir və bunu Sizə daha əvvəllər yazdığımız məktublarda da bəyan etmişdik. Erməni millətinin vətəndaşlıq mövqelərinə və Osmanlı vətəninə sədaqətli olmasına inanır və lazımi səviyyədə qiymətləndiririk. Bu əsaslı inam bu günə qədər davam edir və bu qərarımızdan daşınmayacağıq. Ancaq dövlətimizin ən yüksək təbəqəsinə qədər yüksəlmiş və bacarıqlı insanlar xaricilərin yalançı vədlərinə inanaraq dövlətə qarşı xəyanət etməyə başlamışlar. Bunların fikirlərini reallaşdırmaq üçün kobud vasitələrə əl atdıqları görünür. Onlara qarşı hökumət tərəfindən sərt tədbirlər görüləcəkdir. Dövlətin mənafeyi və müqəddəratı bizdən tələb edir ki, biz bu cür sərt tədbirlərə əl ataq. Tətbiq olunan tədbirlər zamanı hiss edəcəyimiz ağrıları və kədərləri izah etmək mümkün olmayacaq. Millətin liderləri tövsiyyələrimizi düzgün qəbul edərək xarici emissarların təbliğatına uymasalar və hökumətimizə hərtərəfli köməklik etsələr, heç bir ziyan görmədən həyatlarını sakit davam edə bilərlər.

Ağlını başına toplayaraq düzgün yolu göstərmək üçün vətən övladları arasındakı eyni düşüncə və vətən sevgisini yüksəltmək üçün şəxsən Sizin fəaliyyətlərinizin dəyəri ölçüyəgəlməzdir. Bu cür xidmətlərin davam etməsinə və daha böyük nailiyyətlər əldə edilməsinə inanır və böyük hörmətlərimi Sizə bildirirəm".

**[Mənbə - 57a].**

**ƏLAVƏ XXXI**

## Erməni Milli Müdafiə Komitəsinin 10 aprel 1915-ci il tarixli xəbəri:

«Erməni millətinə. Vətəndaşlar! Düşmənin vəhşi və kədərli bağırtılarına, toplarına, tüfənglərinə qarşı dörd gün davam edən qəhrəmancasına mübarizəmiz daha mətin və əzmkarlıqla davam etməkdədir. Qiyam qaldırılan bütün ərazilərdə əsgərlərimiz qorxmadan, ölümün gözünün içinə dik baxaraq, mərdlik göstərərək qalib gəlirlər. Düşmənin nə sayca çoxluğu, nə də ölmək vahiməsi bizi qorxutmur. Xeyr, biz ölümü görmək istəyirik. İstəyirik ki, Şərqin dərinliklərinə qədər yüzillər boyunca ermənilərin ağalıq etdikləri ərazilərdə erməni millətinin əlində silah, düşmənlərinin saysız cəsədləri görünsün. Düşmənin qan gölü olmuş hərbi birləşmələrinə, sayılmaz dərəcədə itkilərinə baxın! Əsgərlərimizin qəhrəmancasına mübarizələrinə baxın! Qəlbimiz cəsarətlə, ümidlə dolmuşdur. Millət öz bayramını təntənə ilə qeyd etməsinə hazırlaşsın».

Van, 10 aprel 1915-ci il,
Milli Müdafiə Komitəsi

**ƏLAVƏ XXXII**

## Van Erməni Hərbi Komitəsinin gündəliyindən:

13 aprel, səhər.

Şənbə günü "Hacı Bəkir" kazarmasının qarşısında bir türk əsgərini öldürdük. Dünən "Ararak"ın qarşısında iki türk əsgərini öldürdük. "Aziz" mövqelərimizdə bir türk öldürdük. Dünən bir türk, şənbə günü də Şahbəndər məhəllәsində bir türk öldürüldü.

13 aprel, günorta.

a. Şahbağı mövqelərinin qarşısındakı Həmzənin evini yandırdıq. Türklər müqavimət göstərdilər. Buna baxmayaraq, düşmən itki verərək qaçdı.

b. Dünən «Tütüncüyan» mövqelərimizdə bir türk öldürüldü.

c. Dünən axşam "Ararotez"in mərkəzində daha üç mövqe ələ keçirdik. Çoxlu türk öldürdük. Gecə də bir neçə mövqelərini yandırdıq.

14 aprel.

a. Dünən «Posdağ» mövqeyimizdə bir türk öldürdük.

b. «Şimavonyan» mövqelərimizdə bir mülki türk öldürdük.

c. Tarman kəndinin erməni silahlıları Drovenez kəndinə hücum etdilər. Türk süvariləri vaxtında gəldiklərindən əsgərlərimiz qaçdı.

Van, 15 aprel, 1914-cü il
Erməni Hərbi Komitəsi

## ƏLAVƏ XXXIII

### Qafqaz general-qubernatoru Vorontsov-Daşkovun müharibə ərəfəsində ermənilərə müraciəti:

"Türkiyə ermənilərinə! Xristian millətini əsrlər boyu əsarətdə saxlayan Türkiyə Rusiyaya hücum etmişdir. Buna cavab olaraq biz əlimizdə silah yüz illər boyunca erməni torpağı sayılan ölkəyə daxil olduq.

Ermənilər! Artıq uzun müddətdir ki, siz türklərin əsarəti altında inləyirsiniz, lakin indi rus əsgərlərinin şanlı yürüşü nəticəsində sizə azadlıq gətiririk. Rus torpağının böyük çarı Rusiyanın protektoratlığı altında Kilikiya daxil olmaqla 6 vilayətdə «muxtar Ermənistan» yaradacağına zəmanət verir. Digər millətlərlə yanaşı yaşayaraq onların hüquqlarına hörmət edən erməni milləti yeni milli müstəqillik erasına daxil olur. Ermənilər! Siz çox əzab çəkmisiniz, lakin azadlığın gələcəyi saat yaxınlaşır".

**[Mənbə -95, s.63]**

## ƏLAVƏ XXXIV

### Həsənqaladan İstanbula verilən məlumatlar

Erməni Patriarxlığı haqqında
"Şifrə" Həsənqala Baş Komandanlığına
Sənəd №: 2004 09.12.31. (22 may 1915)

Sizin 26 mart 1331 (08 aprel 1915)-ci il tarixli yazınıza cavab olaraq bildirirəm.

Erməni Patriarxlığının iddiaları haqqında təhqiqat icra edildi. Yazıda göstərilən Biçare Çeto könüllü olaraq Azərbaycana getmiş və üç ay əvvəl şəhid olmuşdur. Məhmət Emin isə Azərbaycana gedərkən ermənilərin pusqusuna düşmüş və bu gün də həbsxanada oturmaqda davam edir. Van vilayəti daxilində heç bir kənd əhalisi jandarmlar tərəfindən qətlə yetirilməmişdir. Çeto adında bir uşağın öldürüldüyü iddia olunsa da, bu uşağın cəsədi tapılmamışdır. Erməni liderlərindən üç nəfərin öldürülməsi və Bayburtda ermənilərə müxtəlif təzyiqlər göstərərək onlardan pul tələb edilməsi məsələsi yoxlanılmışdır. Deyilənlərin yalan olduğu aşkarlanmışdır. Belə ki, Bəkir Sıtkı bəy komandanlığı altında könüllü tabor Bayburtun Pülür nahiyəsində dörd kənddə axtarışlar aparmış və 52 silah müsadirə etmişdir. Suşəhrin Pşrek kəndində 12 fevralda (25 fevral 1915-ci il) oradan keçən könüllü əsgərlərə və silahsız adamlara hücum edərək iki nəfəri yaralamışlar. Vilayətdən göndərilən təhlükəsizlik qüvvələrinin köməyi sayəsində bu dəstələr oradan uzaqlaşdırılmış və onlardan 139 tüfəng, 25 mauzer müsadirə edilmiş və 95 fərari əsgər həbs edilmişdir. Digər iddialar isə yalan və uydurmalardan ibarət olub,

hökuməti günahlandırmaq məqsədi güdür. Patriarx Əfəndinin iddiaları isə həqiqətəuyğun deyil.

Ermənilər Sivas vilayətində qismən və Van vilayətində tamamilə qiyam qaldırmışlar. Digər vilayətlərdəkilər də münasib vaxtda onlara qoşulacaq. Göstərilən vilayətlərdə gündəlik törədilən hadisələr haqqında göndərdiyim teleqramlar ermənilərin iddia etdikləri kimi, özlərini müdafiə etmək məqsədi ilə deyil, bizlərə düşmən münasibəti bəslədiklərindən hadisələr törətmişlər.

Bütün bu planlar əvvəlcədən «Daşnaksutyun» və digər komitələr tərəfindən hazırlanmış və lazım olan silahlar alınaraq gizlədilmişdir. Müxtəlif qəzalarda qiyamçı təşkilatlar yaradılmış və ordunun arxasında xaos törədəcəkləri Sivas vilayətində apardığımız təhqiqatlardan başa düşülmüşdür. Orduda xidmət edən erməni mənşəli əsgərlərin bütünlüklə düşmən tərəfinə və ya evlərinə fərarilik edəcəkləri öyrənilmişdir. Van vilayətində baş verən son hadisələr isə öz doğru təsdiqini tapmışdır. Van vilayətində baş verən qiyam və Sivas vilayətində ermənilərin qiyama hazırlaşması onların hökumətə xəyanət edərək düşmənlə əməkdaşlığa başladığı və düşmənə hərtərəfli kömək etmələri öz sübutunu tapmışdır. Vətənə xəyanət edərək qiyam qaldıranları bu bölgələrdən uzaqlaşdırmaq lazım olduğunu göndərdiyimiz 7 və 8 aprel tarixli teleqramlarda Sizə məlumat vermişdik. Əli silah tuta bilən bütün əhalini silahlandırmışlar. Bu haqda bütün komandanlıqlara məlumat verilmiş və hökumətə xəyanət edən əli silahlı hər kəsi məhv etmək əmri verilmişdir. Uyğun gördüyünüz halda göstərilən məsələlər erməni patriarxına izah edilsin və uydurma xəbərləri ilə hadisələri şişirtmək yerinə öz vəzifə borcunu icra etsin və səhv yolla gedənləri doğru yola qaytarmağa cəhd göstərsin.

İmza: İzzət Sami İmza: Mahmud Kamil

**ƏLAVƏ XXXV**

**24 aprel 1915-ci il fərmanından**

(11 Nisan 1331 (24 aprel 1915-ci il)

"İllərdən bəri erməni komitələri Osmanlı ölkəsində qiyam və siyasi fəaliyyətlərlə özlərinə xüsusi bir idarəçilik rejimi yaratmaq istəyiblər. Müharibə başlandıqdan sonra «Daşnak» komitəsi Rusiyada yaşayan erməniləri dərhal əleyhimizə qaldırmış və Osmanlıda ermənilərin də ordunun zəif olacağı məqamları gördükləri halda bu dövlətə qarşı mübarizəyə qalxmağa çağırmışlar. Zeytun, Bitlis, Sivas, və Vanda baş verən son üsyanlar bunları bir daha sübut etmişdir. Əsasən mərkəzi qərargahları xarici ölkələrdə yerləşən və adlarında belə qiyamçılıq simasını təcəssüm etdirən bu komitələrin fəaliyyətləri hökumət əleyhinə müxtəlif çıxışlar etməkdən ibarətdir. Kayseri, Sivas və başqa yerlərdə bombalar tapılmış, rus ordusunda könüllü alayları formalaşdıraraq birlikdə ölkəyə hücum etmək, əslən

Osmanlı xalqından olan erməni komitə rəhbərlərinin Osmanlı ordusuna arxadan təhlükə yaratmaq məqsədini əhatə edən planları müəyyən edilmişdir.

Osmanlı hökuməti ona həyati təhlükəli bir problem yaradan bu cür işlərin davam etdirilməsinə heç bir vəchlə göz yummayacaqdır. Bütün bu işlərin sonu xoşniyyətli olmadığından bu komitələrin siyasi fəaliyyətlərinin tezliklə dayandırılması məqsədəuyğun hesab edilmişdir.

Bu səbəblə «Hnçak», «Daşnak» və buna bənzər komitələrin bölgədəki şöbələri dərhal bağlanmalı, şöbə mərkəzlərində mövcud sənədlər müsadirə edilməli, komitələrin rəhbərləri və fəal üzvləri dərhal həbs edilməli, yaşadıqları yerdə təhlükə törətdikləri halda onları başqa yerlərə köçürməli, silah axtarılmasına başlayarkən komandanlara məlumat verməklə hər cür təhlükəsizlik tədbirləri görülməli, həbs edilən şəxsləri hərbi məhkəməyə verməlidir. Onların sayı və barəsində görülən işlər haqqında raportla məlumat verilməsi tövsiyə olunur.

Bitlis, Ərzurum, Sivas, Adana, Maraş və Hələbdə fəaliyyət göstərən erməni komitələrinin özbaşınalıqlarının qarşısını almaq üçün aparılan əməliyyatlarda müsəlman xalqının erməniləri öldürmələrinə yol verilməməsi tövsiyə olunur».

**[Mənbə - 54a].**

**ƏLAVƏ XXXV**

**Ordu baş komandanının Daxili İşlər Nazirliyinə 2049 M saylı məxfi yazısından:**

"Van gölü ətrafında və Van valiliyində ermənilər qiyam qaldırmaq üçün bir yerə toplanmışlar. Bu xalqın o ərazilərdən köçürülərək qiyam yuvasının dağıdılması düşüncəsindəyəm. 3-cü ordu komandanlığının verdiyi məlumata görə, ruslar aprelin 20-də öz sərhədləri boyunca yerləşən müsəlmanları tamam soyunduraraq sərhədlərimizdən keçirmişlər. Həm buna cavab olaraq, həm də yuxarıda göstərdiyim məqsədləri yerinə yetirmək üçün bu erməniləri Rusiya sərhədlərinə qovmaq, ya da bu erməniləri və ailələrini müxtəlif yerlərə dağıtmaq lazımdır. Bunlardan birinin seçilərək tətbiq edilməsini rica edirəm. Əgər başqa təklif yoxdursa, erməni ailələrini və üsyançıları sərhədlərimizdən uzaqlaşdıraraq onların yerinə Rusiya sərhədindən gələn müsəlman xalqını gətirməyi təklif edirəm».

19 Nisan 1331 (2 may 1915-ci il)
**[Mənbə - 57].**

**ƏLAVƏ XXXVII**

**3-cü ordu komandanı Mahmud Kamil paşanın 19 iyun 1915-ci il tarixində Müdafiə Nazirliyinə göndərdiyi raportundan:**

"Şərqdə Ərzurum, Trabzon, Van, Bitlis, Elazığ, Diyarbəkir və Sivas əraziləri müharibə sahəsinə daxildir. Bu ərazilərdə müharibə aparıldığından ordunun ehtiyacı olduğu ərzaq məhsulları bu ərazilərdən təchiz edilir. Ərzurum, Van və Bitlis ərazilərində yaşayan ermənilər bütünlüklə düşmən tərəfinə fərarilik edərək, quldur dəstələri yaradaraq yolları kəsir, əhalini soyub, anbarları talan edərək iç üzlərini göstərirlər. Sivas, Diyarbəkir, Elazığ ərazilərində yaşayan ermənilər də bu hərəkətləri təkrar edərək ələ keçirilən silah, bomba, partlayıcı maddələr və leqallaşan təşkilatlarıyla ortaya çıxmışlar. Ordunu qida maddələri ilə təchiz edən bu ərazilərdə düşmən ünsürlərinin və törədilən cinayət hadisələrinin sayı artdığından ordunun ərzaqla təmin edilməsinin çətinləşəcəyini təxmin edirəm. Ordu xarici düşmənlərə qarşı çətinliklə mübarizə apardığı bir vaxtda daxildə yaradılan bu quldur dəstələrinin hərəkətləri ordumuzu böyük çətinliklərə məruz qoyur. Buna görə də gələcəkdə ordunun daha da çətin vəziyyətlərdə qala bilməməsi üçün ermənilərin Hələb və Mosul ərazilərinə göndərilməsini məqsədəuyğun hesab edirəm".

**[Mənbə-23, c.I, s.187]**

## ƏLAVƏ XXXVIII

### "Müharibə və fövqəladə siyasi vəziyyətlə əlaqədar başqa yerlərə göndərilən ermənilərə aid mülk və torpaq sahələri haqqında təlimat" (10 iyun 1915-ci il)

1) Göstərilən ermənilərin mülklərinin qeydiyyatı üçün xüsusi komissiyalar təşkil ediləcək.

2) Ermənilərin boşaltdığı binalar dərhal möhürlənərək mühafizə altına alınacaq.

3) Mühafizəyə alınacaq əşyaların növü, miqdarı və qiymətləri sahibləri tərəfindən müəyyən edilərək qeyd dəftərlərinə yazılacaq və bunlar həm yerli idarəetmə orqanları tərəfindən, həm də komissiya tərəfindən aktlaşdırılacaq.

4) Sahibləri müəyyən edilməyən daşınan əmlak olduğu ərazidə qeydə alınaraq mühafizə ediləcək.

5) Mövcud daşınan əmlak içində xarab olan əşyalar və heyvanlar komissiyanın məqsədəuyğun gördüyü bir təşkilat tərəfindən açıq satışa qoyulacaq və əldə edilən gəlir xüsusi dəftərdə qeydə alınacaq.

6) Kilsələrdə mövcud olan əşya və rəsmlərlə qanuni kitablar müəyyən edilərək qeydə alınacaq və aktlaşdırılaraq yerlərdə mühafizə ediləcək.

7) Götürülməmiş mülk və torpaqdan toplanacaq məhsullar təşkilat tərəfindən satılaraq əldə ediləcək gəlir sahibinin adına yazdırılıb təhvil veriləcək və bu vəziyyət aktlaşdırılacaq.

8) Boşaldılan kəndlərə müsəlman köçkünlər yerləşdiriləcək və bu köçkünlər bina və bağçalara lazımi səviyyədə qulluq göstərməsələr, kənddən və köçkün statusundan çıxarılacaqlar.

9) Satılmayan əmlak və torpaq hər hansı bir zərərə məruz qalarsa, buna cavabdeh olanlar zərəri ödəyəcəklər.

Dükan, fabrik və anbar kimi gəlir gətirən binalarla köçkünlərin məskunlaşmasına müvafiq olmayan binalar təşkilat tərəfindən satışa çıxarılacaq.

10) Satış və kirayədən əldə edilən gəlir sahibi adına yazılaraq sonradan onlara ödənəcək.

11) Götürülə bilməmiş malların qorunması üçün Daxili İşlər Nazirliyindən icazə alınaraq mühafizəçi ilə təmin ediləcək.

12) Təşkil edilmiş komissiyalar araşdırmalarını detallı olaraq ən geci on beş gün içində nazirlik və ya hər hansı bir rəhbərlik səviyyəsində bildirməyə cavabdehdir.

**[Mənbə - 38a].**

## ƏLAVƏ XXXIX

### Köçürülmə zamanı ermənilərin hüquqlarının qorunmasını təmin edən sənədlər

30 iyul 1915-ci il teleqramında "Ermənilərə məxsus malların çox ucuz qiymətə satıldığını və mal sahiblərinə qarşı haqsızlıqlar edildiyi öyrənilmişdir. Bunun qarşısını almaq üçün aşağıdakı tədbirlər həyata keçirilsin:

1. bölgələrdə yad adamların sərbəst hərəkətinin qarşısı alınsın;
2. gülünc qiymətlə malların satışı ləğv edilsin:
3. ermənilərin istədikləri əşyaları götürməsinə icazə verilsin;
4. mallarını satmaq istəyənlərə icazə verilsin.

Tələt paşanın imzaladığı bu teleqramda ermənilərin maraqları yüksək səviyyədə müdafiə edilir və köçürüləcək ermənilərə də eyni qayğı göstərilməsi tələb edilirdi. Bununla əlaqədar göndərilən teleqramda deyilirdi: "Köçürüləcək erməni qruplarını xüsusi səlahiyyəti olanlar müşahidə etməlidirlər. Erməniləri istədikləri ilə təmin edin. Bu məqsədlə çəkilən xərclər köçkünlərə veriləcək" **[Mənbə - 35].**

31 iyul 1915-ci il tarixində baş komandan vəzifəsini icra edənin adından göndərilən teleqramda deyilirdi: "Ölkə daxilində yaşayış yerləri dəyişdirilən ermənilərin mühafizəsi daha da qüvvətləndirilsin və əşyalarının qorunması haqqında məsələ bir daha nəzərdən keçirilsin" **[Mənbə - 48a].**

2 və 4 avqust 1915-ci il tarixdən Tələt paşanın imzaladığı teleqramda deyilirdi: "Erməni zabitlər, hərbi həkimlər və dəmiryolunda çalışan mülki vətəndaşların köçürülməsi fikrindən daşınılsın, onların yerlərində qalmaları üçün

hər cür yardım göstərərək sayları müəyyən edilsin" **[Mənbə - 35].**

Osmanlı dövləti tərəfindən imzalanan 28 avqust 1915-ci il tarixli yeni bir təlimat yayıldı. Bu təlimatın qısa məzmunu aşnğıdakılardan ibarətdir:

- köçürülənlər ən yaxın dəmiryol stansiyalarına toplanmalıdır;
- ailə başçısı olmayan, protestant, qadın və yetim olanlar köçmək istəmədikləri halda stansiyalara yaxın qəsəbələrdə yerləşdirilsin;
- xalq üçün faydalı əşyalar istehsal edən fabriklərdə, dəmiryolunda və stansiyalarda işləyən fəhlələr yerlərində qalacaqlar. Qatarlar stansiyalara gələn kimi gecikdirilmədən vaqonlara mindirilmə işləri sürətlə aparılmalıdır;
- zəngin ermənilər növbə gözlətdirmədən öz hesablarına bilet aldırılaraq ilk növbədə yola salınmalıdır;
- köçürülənlərin bütün təhlükəsizlik və istirahət tədbirləri görülməli, ehtiyacı olanlar yeməklə təmin edilməli, həkimlər tərəfindən müayinə edilməlidir;
- köçmə hallarında qayda-qanunlara riayət edilməsi üçün əlavə məmurlar cəlb edilməli, bu məmurlar həmin vilayətlərdə vəzifələrini icra etməlidirlər;
- Ereyli və Pozantı məntəqələri arasında köçürülmə qatarla olduğundan bunların mühafizəsi üçün hərbi dəstələr ayrılmalı, köçürmə zamanı qadın və uşaqlara birinci dərəcəli əhəmiyyət verilməlidir;
- Ereyli-Pozantı-Tarsus arasında köçürmə nəqliyyat vasitəsi ilə icra edildiyindən bütün lazımi nəqliyyat təmin edilməlidir;
- nəqliyyat vasitələri üçün ödəniləcək pulun yarısı nağd, digər yarısı getdikləri yerdə köçkünlərin bildirdikləri təşkilat tərəfindən ödəniləcək;
- istər köçürülmə mərkəzlərində, istərsə də göndərmə əsnasında köçkünlərə qarşı hər hansı bir hücum olarsa, hücum edənlər dərhal həbs edilərək sənədləri ilə birlikdə Hərbi Məhkəməyə göndərilsin;
- köçkünlərdən rüşvət, hədiyyə alan, hədə-qorxu gələn, namuslarına toxunan və ya qanunu pozanlar dərhal işdən çıxarılıb ən ciddi qaydada cəzalandırılsın;
- köçkünlərin göndərilməsində laqeydlik göstərənlərə ilk cəza olaraq maaşı kəsiləcək, təkrarlandığı halda işdən çıxarılacaq;
- köçürülmənin qaydalı şəkildə icra edilməsi üçün bölgənin rəhbərləri məsuliyyət daşıyacaqlar;

Bütün bu teleqramlar və təlimnamələr ermənilərin fiziki və maddi təhlükəsizliyini, ehtiyaclarını ödəmək üçün yazılmışdır.

**[Mənbə- 36a].**

**ƏLAVƏ XXXX**

**Osmanlı hökuməti tərəfindən köçürülmə zamanı ermənilərin ölümünə səbəb olanların və cəzalandırılanların siyahısı**

| | |
|---|---|
| Sivas vilayətindən | 648 nəfər |
| Mamuretülaziz vilayətindən | 223 nəfər |
| Diyarbəkir vilayətindən | 70 nəfər |
| Bitlis vilayətindən | 25 nəfər |
| Əskişəhərdən | 29 nəfər |
| Şebinqarahisardan | 6 nəfər |
| Niydədən | 8 nəfər |
| Ankara vilayətindən | 32 nəfər |
| Kayseridən | 69 nəfər |
| Suriya vilayətindən | 27 nəfər |
| Xudavəndiyar vilayətindən | 12 nəfər |
| Konya vilayətindən | 12 nəfər |
| Urfadan | 189 nəfər |
| Canıkdan | 14 nəfər |

Cəmi 1397 nəfər olub, bunlardan ermənilərə qarşı qəddarlıq göstərdiklərinə görə 62 nəfər edam cəzasına layiq görülmüşdür.

**[Mənbə - 44a].**

**ƏLAVƏ XXXXI**

**Erməni kilsəsinin erməni komitələrinə dövlət əleyhinə apardığı işlərdə köməyi («Tanin» qəzeti (türkcə), 11 avqust 1916-cı il, № 194)**

11 avqust 1916-cı il tarixli "Tanin" qəzeti dövlət içində dövlət sayılan Erməni Milli Məclisi ilə patriarxları və rahibləri erməni komitələrinə köməklik göstərməkdə təqsirləndirirdi (ƏLAVƏ XXXXI). Qəzet yazırdı: "Patriarxlığa bu məclisi təsis etmək hüququ verildikdən sonra erməni məclisi siyasi təşkilata çevrilmişdir. Erməni partiyaları təsis edilməyə başlanmış, təbliğatlar genişlənmiş, küçə döyüşləri, məclisdə qalmaqallar olmuş, dini işlər bir tərəfə buraxılaraq siyasi proqramlar yazılmağa başlanmışdır. Bu erməni partiyaları əsaslı qiyam proqramları yaratmış, bəziləri ingilislərin, bəziləri isə rusların tərəfinə keçmişlər, digər bir qismi isə öz düşüncələrinə dalaraq müstəqillik uğrunda mübarizə aparırdılar. Patriarxlar öz vəzifələrini davam etdirmək üçün bu partiyalarla əlaqə yaratmaq məcburiyyətində qalmış, Patriarxlıq məclisləri də dini işləri buraxaraq siyasətlə məşğul olurdular. Dünyanın heç bir yerində belə bir məclis yoxdur. Patriarxlıq

artıq dağıdıcı qüvvələrin əlinə keçmiş və onlardan bir alət kimi istifadə edilməyə başlanılmışdır. Beləliklə, bir sıra dağıdıcı qüvvələr bir yandan rahibləri öz tərəflərinə cəlb etməklə sıralarının sayını artırır, digər tərəfdən də bu rahiblərlə birlikdə terror əməliyyatları və təşkilatlanma işlərini davam edirdilər".

**[Mənbə - 22, 11 avqust 1916-cı il, № 194]**

## ƏLAVƏ XXXXII

### İngiltərənin fövqəladə səfiri M.Syukesin 1916-cı il təklifləri:

«1. Mənə elə gəlir ki, erməni silahlı dəstələrinin vəhşiliklərini və mərhəmətsizliklərini gördükdən sonra «Ermənistan» bölgəsini Osmanlı imperatorluğunun hakimiyyətinə tabe etmək lazımdır. Hətta, Osmanlı hökuməti islahatlar həyata keçirsə, bu islahat layihələri İngiltərədə və Amerika Birləşmiş Ştatlarında müsbət qarşılanacaq.

2. Buna görə də «Ermənistan» məsələsinin aşağıdakı şəkildə həll oluna biləcəyini düşünməkdəyəm:

a) Türkiyənin idarəçiliyi altında «Ermənistan» dövlətini yaratmaq: bu da ikinci bir Bolqarıstan yaratmaq deməkdir. Belə bir «Ermənistan» Qafqazda intriqalar yaratmağa başlayacaq. Ermənilər kürdlərlə bir-birilərini başa düşməyəcəklər. Bu halda bu plan uyğun deyil.

b) Tərəfsiz idarəçilərin rəhbərliyi və beynəlxalq nəzarət altında erməni dövləti yaratmaq. Bu həll yolu da bir çox intriqa və problemlərə mənbə olacaq, bu vəziyyətdə də Almaniya özünə uyğun mənafelərinin tapılması yollarını həll edəcək.

c) Yaranacaq «Ermənistan»ı bütünlüklə Rusiyanın tabeçiliyinə vermək - bu da başdan başa qiyamçı cəmiyyətlərlə dolu olan Qafqazdakı və İrandakı qiyamçı təşkilatlarla sıx əlaqəsi olan ərazilərin rus siyasi idarəsinə tabe etmək deməkdir.

Əvvəllər erməni «Daşnak» komitəsinin üzvlərindən biri ilə görüşümdə mənə bunları demişdir: «Əgər ermənilərlə məskunlaşmış bütün ərazilər Rusiyaya verilərsə, o zaman Qafqazda, Azərbaycanda və Türkiyədəki qiyamçı cəmiyyətlər birləşərək qüvvətlənər və bu da ideal bir həll yolu olardı». Bununla yanaşı, Rusiyanın idarə edilməsi çətinləşər və narazılıq son dərəcə artar.

«Kiçik Ermənistan» hissəsinin Fransaya verilməsi və digər qisminin də Rusiyaya birləşdirilməsi - bu alternativi ən çox razı salan bir yol olaraq görür və çoxdan bəri bu həll yolunu düşünürəm. Lakin bu günə qədər bunu təklif etməmişdim. Çünki Rusiya hökumətinin Sivas bölgəsini istədiyini təxminən bilirdim. Bu həll yolunun faydaları bunlardır:

1. Rusiya ermənilərin ən az məskunlaşdığı Ərzurum, Van və Bitlis bölgələrini alır. Çünki Ərzurum əhalisinin əksəriyyəti türklərlə, Van bölgəsi bütünlüklə kürdlərlə, Bitlis bölgəsi isə lazlarla məskunlaşmışdır.

2. Fransa «Ermənistan» bölgəsini alır. Beləliklə bu bölgə erməni milli hisslərinin mərkəzi olur. Bu vəziyyət Rusiya üçün də faydalı sayılır. Əgər Ərzurum erməni milli hisslərinin mərkəzi olarsa, sosialist erməni əsgərləri «Ermənistan»ın bütün mexanzimlərini öz əllərinə alaraq bu mexanizmi daha da qüvvətləndirəcəklər. Bu halda, hətta, sülhsevər ermənilər də öz milli duyğularını göstərəcəklər. Sülhsevər ermənilərin məqsədi öz sərhədləri çərçivəsində inkişaf etməkdir. Onlar Qafqazda və Azərbaycandakı sosialist ermənilərlə birləşmək istəmirlər. Bunlar onlarla heç bir zaman bərabər hərəkət etməmişdilər".

**[Mənbə-102, s.163]**

## ƏLAVƏ XXXXIII

### Rusiya Müvəqqəti Hökumətinin «Türkiyə Ermənistanı» haqqında qərarları" (9 may 1917-ci il)

1. İşğal olunmuş torpaqlarda mülki idarəçilik formalaşana qədər "Türkiyə Ermənistanı" ərazisi Müvəqqəti Hökumətin nəzarəti altında Rusiya hərbi qüvvələri tərəfindən idarə ediləcək.
2. 1916-cı il iyunun 18-də imzalanmış qanunla "Türkiyə Ermənistanı"nın idarə edilməsi üçün baş valiyə verilən səlahiyyətlərlə birlikdə 1-ci maddədə göstərilən səlahiyyətlər Müvəqqəti Hökumət tərəfindən "Türkiyə Ermənistanı" üçün təyin edilmiş baş komissara həvalə edilsin.
3. "Türkiyə Ermənistanı" baş komissarının mülki vətəndaşlarla əlaqələndiricisi olan müavini ştatı yaradılsın.
4. Baş komissar mülki vətəndaşlarla əlaqədar müavinindən məlumat alarkən "Türkiyə Ermənistanı" ərazilərinin idarəsi haqqında 18 iyun 1916-cı il tarixində imzalanmış müvəqqəti qanuna əlavələr və ya dəyişikliklər etmək istərsə, bu haqda Müvəqqəti Hökumətə məlumat verməlidir.

Rəsmi qəzet olan "Vestnik Vremennoqo Pravitelstva"da dərc edilən bu qərarı Müvəqqəti Hökumətin sədri Lvovla xarici işlər naziri Milyukov imzalamışlar.

**[Mənbə- 156, s. 65]**

## ƏLAVƏ XXXXIV

### Rusiya Xalq Komissarları Sovetinin Türkiyədə yaradılacaq «Erməni dövləti» haqqında» 13 №-li Dekreti (29.12. 1917-ci il (11.01.1918-ci il).

"Rusiya Xalq Komissarları Soveti rus ordusu tərəfindən Osmanlı dövlətinin

işğal edilmiş torpaqlarında erməni millətinin «Türkiyə Ermənistanı»nın müstəqilliyini elan etmək hüququnu tanıdığını bəyan edir. Xalq Komissarları Soveti bu haqqın burada yaşayan xalqların iştirak edəcəyi referendumun keçirilməsi vasitəsilə reallaşacağının mümkün olacağını qəbul edir. Ancaq Xalq Komissarları Soveti bunun qismən də olsa aşağıdakı şərtlər daxilində reallaşacağını məqsədəuyğun görür:

1. «Türkiyə Ermənistanı» ərazisində olan bütün xarici hərbi qüvvələr bu əraziləri dərhal tərk edəcək və ermənilərin təhlükəsizliyini təmin etmək üçün dərhal Erməni Təhlükəsizlik Qüvvələri (milis) yaradılacaq;

2. Erməni silahlı dəstələrinin və dünyanın müxtəlif ölkələrinə səpələnmiş ermənilərin «Türkiyə Ermənistanı»na qayıtmasına heç bir məhdudiyyət qoyulmayacaq;

3. Müharibə dövründə Osmanlı hökuməti tərəfindən dövlətin ucqarlarına sürgün edilmiş ermənilərin «Türkiyə Ermənistanı»na qayıtmalarına maneçilik yaradılmayacaq;

4. «Türkiyə Ermənistanı»nda demokratik əsaslara istinadən xalq nümayəndələrindən formalaşan müvəqqəti «Erməni milli hökuməti» yaradılacaq. Hökumətin yaradılması şərtləri Türkiyə ilə sülh danışıqları aparıldığı zaman həll ediləcək;

5. «Erməni müvəqqəti hökuməti»nin yaradılmasına Qafqaz işləri üzrə müvəqqəti fövqəдадə komissar təyin edilmiş Stepan Şaumyan hərtərəfli köməklik göstərəcək;

6. Ermənilərin yaşadıqları ərazilərdən xarici qüvvələrin çıxarılması yaradılacaq Beynəlxalq Komissiyanın nəzarəti altında həyata keçiriləcək. «Türkiyə Ermənistanı»nın sərhədləri erməni və müsəlman xalqının demokratik yollarla seçəcəkləri nümayəndələri və komissar Şaumyan tərəfindən müəyyən ediləcək.

Rusiya Xalq Komissarları Sovetinin sədri Lenin, milli məsələlər üzrə xalq komissarı Stalin, Xalq Komissarları Sovetinin katibi Bonç-Buriyeviç.

**[Mənbə - 25, s.394]**

## <u>ƏLAVƏ XXXXV</u>

### «Brest-Litovsk müqaviləsi»nin əsas hissəsinə Osmanlı-Rusiya əlavəsi

Maddə I

1. Rus hərbi qüvvələri tərəfindən Şərqi Anadolunun 6-8 həftə ərzində boşaldılması.

2. Türk ordusu gələnə qədər ruslar bu bölgədə təhlükəsiziiyi təmin etməli, qisasalma və soyqırımı hadisələrinin qarşısını almalıdırlar.

3. Sərhədləri mühafizə etmək üçün ruslar 150 km-lik məsafədə bir diviziya yerləşdirəcəklər.

4. Erməni silahlı dəstələri tərki-silah edilərək buraxılmalıdır.

5. Böyük Sülh Müqaviləsi imzalanana qədər Rusiya Qafqazda bir diviziyadan artıq silahlı qüvvə saxlamayacaq. Əgər vəziyyət silahlı qüvvələrinin sayının artırılmasını tələb edərsə, o zaman dörd müttəfiq dövlətə bu haqda əvvəlcədən xəbərdarlıq edilməlidir.

6. Türkiyə başqa dövlətlərlə müharibə vəziyyətində olduğundan öz ordusunu səfərbər halda saxlamaq məcburiyyətindədir.

Maddə III

İmzalanan Müqavilə təsdiq olunduqdan üç ay sonra təşkil olunmuş Türk-rus Komissiyası İran sərhədindən başlayaraq Ərdəhan, Qars və Batum bölgələrini əhatə edəcək şəkildə yeni sərhəd xəttini müəyyən edəcək. Yeni sərhəd xətti 1877-1878-ci il müharibəsindən əvvəl mövcud olan sərhəd xətti olacaq.

## ƏLAVƏ XXXXVI

### Ermənistan-Türkiyə danışıqlarında (may 1918 il, Batumi) Türkiyə tərəfinin bəyanatı:

«Türkiyənin qərbdən şərqə doğru çəkildiyini görürsünüz. Artıq Afrikanı da tərk etməyə başlamışıq. Lakin şərqdə genişlənmək fikrindəyik. Qanımız, dinimiz, dilimiz oradadır və bunların çox böyük cazibədarlığı var. Qardaşlarımız Bakıda, Dağıstanda, Türküstanda və Azərbaycandadır. Bu bölgələrə bizim yolumuz olmalıdır. Lakin siz ermənilər yolumuzun üstündə durmusunuz. Vanı tələb edirsiniz, bununla da İrana gedən yolumuzu kəsirsiniz. Naxçıvan və Zəngəzuru tələb edərkən Kür vadisinə girişimizi bağlayırsınız. Qars, Axalkələk, Qazax və Gəncəyə olan çıxışımızı əngəlləyirsiniz. Kənara çəkilməlisiniz və bizə yol verməlisiniz. Əslində bütün mübarizəmiz bu bölgəyə görə davam edir. Ordularımızın irəliləməsinə və özümüzü müdafiə etməyə görə iki yola ehtiyacımız var. Bunlardan biri - Gəncəyə gedən Qars-Axalkələk-Borçalı-Qazax, digəri - Kür vadisinə tərəf Şərur-Naxçıvan-Zəngəzur yollarıdır. Siz Yeni-Bəyazid və Eçmiədzin arasında qalmalısınız."

**[Mənbə-156, s.609]**

## ƏLAVƏ XXXXVII

### Osmanlı hökuməti ilə Ermənistan Respublikası arasında sülh və dostluq müqaviləsi

Osmanlı dövləti tərəfindən ədliyyə naziri Xəlil bəy və Qafqaz cəbhəsi ordusu baş komandanı Vehib Məhmət paşa, Ermənistan Respublikası adından isə

müsyö Aleksandr Xatisov, müsyö Ruben Kaçaznuni və müsyö Mixail Papacanyan dövlətləri tərəfindən səlahiyyət alaraq, bir tərəfdən Osmanlı hökuməti, digər tərəfdən isə müstəqilliyini elan etmiş Ermənistan Respublikası öz aralarında siyasi, hüquqi, iqtisadi və elmi sahələrdə əməkdaşlıq etmək haqqında aşağıda göstərilən maddələr əsasında razılığa gəlmişlər:

Maddə 1

Osmanlı dövləti və Ermənistan Respublikası öz aralarında daimi sülh və əməkdaşlıq üçün şərait yaradacaq.

Maddə 2

Aşağıda göstərilən istiqamətlər Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri arasındakı sərhəd xətlərini müəyyən edir:

Sərhəd Şoluk çayının Bəhri-Siyah nöqtəsindən başlayaraq 1877-ci il Rusiya-Türkiyə sərhədi boyunca gedərək Şavnabud dağı ətəklərində birləşərək zirvələr xətti boyunca Halhama və Mepiskaro dağlarına keçir. Oradan cənuba doğru dönərək Pirsaqad dağının, zirvəsindən və Abasdumanın iki kilometr cənubundan şimal-şərqə dönərək Kahrol dağının zirvəsinə birləşir. Buradan on beş kilometrə qədər şimal-şərqə və cənub-şərqə tərəf gedərək Qurkel mövqeləri ilə birləşir. İskurinin iki kilometr cənubunda Kür çayı boyunca gedərək Qayabağı, Ortatav, Qaraqaya zirvələri xəttindən keçərək Molita monastrının cənubundan Tapishorska gölünə daxil olur və gölün şimal nöqtəsinin cənubi qərbindən 1,5 kilometr məsafədən qarşıdakı sahildəki Molita monastrının cənubundan keçən xətt gölün bir qismini Osmanlı ərazisinə daxil edərək Tavkoteli dağını əhatə edir. Bu xətt cənuba doğru enərək Şavnabud, Qaraquzu, Samar dağlarının zirvələrindən şərqə tərəf dönərək Dəvəqıran silsilə dağlarından keçərək Ağrıqar, Başqıran, Nurrəhman dağlarını əhatə edir və buradan cənuba tərəf əyilərək Nurrəhman dağından sonra cənub istiqamətində davam edir və daima zirvələrdən keçərək Ağbulaq mövqeyinin 5 kilometr qərbindəki Aleksandropol-Tiflis dəmir yoluna birləşir, buradan zirvələr xətti ilə Hanvalı mövqelərinə daxil olur, oradan bir xətlə Alagöz dağının ən yüksək nöqtəsinə qədər gedir və oradan bir xətt boyunca Eçmiədzinin 7 kilometr qərbində məlum bir nöqtədə Eçmiədzin-Sərdarabad yolunu keçərək bu yolu 7 kilometrə qədər özündə birləşdirir, buradakı dəmiryolundan təqribən 6 kilometr və Başqıran qəsəbəsinin cənubi-qərbindən 16 kilometr məsafədə Aleksandropol-Culfa dəmiryolu boyunca Başqırandan keçmək şərtiylə oradan cənub-şərqə dönəcək, Aşağı Qarabağlar dərəsindən və Şaqablu, Qaraqaş, Aşağı Çanakçı məhəllələrinin 1 kilometr qərbindən dönərək, Elpiçayı əhatə etməklə Arpa qəsəbəsinə qədər davam edərək və bu son yerdən başlayaraq Arpaçayla birləşərək Qayalı mövqelərinə gəlir və Kayd çayı boyunca Ağdaban dağı zirvəsinə daxil olaraq Qaradurna, Aragin, Qaranlıq dağları zirvələrini keçir.

Göstərilən bu xətlər tərəflərin təyin etdikləri komissiya tərəfindən

müəyyənləşdiriləcək dövlət sərhəd xətləri kimi qəbul ediləcək.

Maddə 3

Sərhəd xətlərinin müəyyənləşdirilməsi zamanı Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanan Müqavilə Osmanlı hökumətinə də təqdim ediləcək.

Maddə 4

Osmanlı dövlətinin daxili asayişi və təhlükəsizliyi üçün Ermənistan Respublikası öz ərazisindən Osmanlı dövlətinin ərazisinə silahlı dəstələrin keçməməsinə zəmanət verir.

Maddə 5

Ermənistan Respublikası öz əraziləri daxilində heç bir qanunsuz silahlı dəstələrin formalaşmasına imkan verməyəcək və bu ərazilərdən qonşu dövlətlərin ərazisinə qanunsuz silah keçirilməsinin qarşısını alacaq.

Maddə 6

Ermənistan Respublikası ərazisində yaşayan müsəlman əhalisinin dininə, adət-ənənələrinə hörmət ediləcək. Müsəlmanlar digər millətlərlə yanaşı eyni hüquqa malik olacaq, öz dillərində danışıb, təhsil ala biləcəklər.

Maddə 7

Osmanlı dövləti ilə Ermənistan Respublikası arasında imzalanan bu Müqavilə əsas müqavilə olaraq qəbul ediləcək və iqtisadi, siyasi və mədəni münasibətlərin inkişafı üçün əlavə müqavilələr qoşulacaq. Müqavilə 30 iyun 1919-cu il tarixinə qədər qüvvədə qalacaq. Tərəflərdən hər hansı biri bu müqaviləni qabaqcadan ləğv etmək istərsə 6 ay əvvəlcədən yazılı surətdə xəbərdarlıq etməlidir.

Maddə 8

Tərəflər mövcud nəqliyyat vasitələrindən müştərək istifadə etmələri və bu vasitələrin təhlükəsizliyinə zəmanət vermələrinə dair öhdəlik götürür.

Maddə 9

Ermənistan Respublikasının poçt və teleqraf sistemlərinin Osmanlı hökumətinin poçt və teleqraf sistemlərinə qoşula bilmələri üçün əlavə danışıqlar aparılacaq.

Maddə 10

Tərəflərdən birinin vətəndaşı münaqişə əsnasında digər dövlətin ərazisinə keçərsə, qaldığı ölkənin hüquq və qanunlarından istifadə edərək öz daşınmaz

əmlakının və ona dəyən ziyanın ödənilməsini tələb edə biləcək. Heç kim bu hüquqlardan məhrum edilməyəcək.

Maddə 11

Ermənistan Respublikasının hökuməti bu Müqaviləni imzaladıqdan sonra Bakı şəhərini tərk edəcək və orada yerləşən silahlı qüvvələrini bütünlüklə çıxaracaq. Erməni silahlı qüvvələri şəhərdən çıxdığı zaman Bakı daxilində heç bir çaxnaşmaya yol verməyəcəkləri barədə öhdəlik götürür.

Maddə 12

Osmanlı dövləti müttəfiqləri ilə birlikdə Brest-Litovskda Rusiya ilə sülh müqaviləsini razılaşdırmış və tərəflər bu müqavilənin maddələrini icra edəcəklər.

Maddə 13

Bu Müqavilə ilə sərhədləri müəyyən edilən dövlətlər öz sərhədləri xaricində silahlı qüvvələri varsa dərhal onları başqa dövlətlərin ərazisindən çıxarmalıdır.

Maddə 14.

Bu Müqavilə imzalandıqdan sonra bir ay (və ya daha tez) ərzində təsdiq olunacaq və təsdiqnamələr mübadilə ediləcək.

Bu Müqavilə təsdiq edildikdən sonra tərəflər onun icrasına başlayacaqlar.

Tərəflərin səlahiyyətli nümayəndələri bu Müqaviləni imzalamaqla sülh və dostluq münasibətlərini icra etməyə başlayacaqlar.

1918-ci ilin 4 iyun tarixində Batum şəhərində iki nüsxədə imzalanmışdır.

**[Mənbə -63a]**

## ƏLAVƏ XXXXVIII

### İrəvan müsəlmanlarının Milli Şurasının sədri Əli xan Makinskinin Osmanlı hökumətinə məktubundan:

"Sevdiyimiz və həsrətlə gözlədiyimiz türk ordusunun Qafqaza gəlməsi xəbəri bizi sonsuz dərəcədə sevindirdi. Səmimi-qəlbdən gələn dualarımızı, bu ordunun müvəffəqiyyətinə həsr edirik. Erivan vilayətində ermənilər tərəfindən müsəlmanlara qarşı tətbiq edilən qətliamların qarşısını almaq üçün padşahımıza müraciət edirik. Başqa bir ümidgahımız və sığınacaq yerimiz yoxdur. İki yüzdən artıq kəndimizi və məscidlərimizi dağıdıb yandıraraq əhaliyə olmazın işgəncələr verdilər. Bu zalım siyasətlərini hələ də davam etdirirlər. Türk ordusu müvəffəqiyyətlə irəlilədikcə onlar da bu vəhşiliklərini daha da artırırlar. Bizi məhv olmaqdan xilas etmək üçün sizi səbirsizliklə gözləyirik. Əks təqdirdə bütünlüklə məhv olmağımıza şübhə yeri yoxdur."

**[Mənbə- 50a]**

**<u>ƏLAVƏ XXXXIX</u>**

## Daxili İşlər Nazirliyinin Təhlükəsizlik üzrə Baş İdarəsinə Maraş vilayətindən göndərilən teleqramlar

"Fransızlar ermənilərlə birlikdə mövqelərindəki kilsələrdən müsəlmanlara pulemyotlardan atəş açdıqdan sonra onları əl qumbaraları ilə bombardman etmişdilər. Müsəlman əhalisinin tələfatı çox böyükdür. Şəhərdə yanğınlar tüğyan edir" **[Mənbə - 13 noyabr 1919. Birləşmiş Dövlətlər Xarici İşlər Nazirliyi Arxivi. Qovluq № 867, sənəd 2544/7].**

"150 nəfərlik fransız əsgərləri aralarına erməniləri də alaraq Antəp ətrafındakı Böyükərəblər kəndinə gəlib evlərin qapılarını sındıraraq zorla içəri girmiş, qadınları zorlamış və evləri talan etmişlər. Müsəlman kəndliləri dağlara qaçmış, səhəri günü evlərinə dönən kəndlilərə pulemyotlardan atəş açılmışdır. Maraşda ətrafa top atəşləri açıldığı üçün qaça bilməyən yerli əhaliyə divan tutmaqda ermənilər fransızlara kömək etmişlər. Maraşa köməyə gələn insanlara fransızlar toplardan və pulemyotlardan atəş açaraq onların şəhərə yaxınlaşmasına imkan verməmişlər. Adanada və ətraf kəndlərdə həyat müsəlmanlar üçün dözülməz hala gəlmişdir. Bu kənd əhalisinin çoxu öldürülmüşdür. Erməni kəndliləri müsəlmanlara qarşı qətllərdə iştirak etmək məqsədilə fransızlar tərəfindən silahlandırılır. Maraşda baş verən dəhşətli, türkürpədici qətliamlar nəticəsində müsəlmanlar hiddətlənmiş və narazılıqlarını bildirmək üçün bir neçə nümayiş keçirmişlər."

**[Mənbə - Birləşmiş Dövlətlər Xarici İşlər Nazirliyi Arxivi. Qovluq № 867, sənəd № 8964/66].**

Digər teleqramda deyilirdi: «Dəvəliyə qaçan 500-dən çox qaçqının verdikləri məlumata görə, ermənilərin Kozandan apardıqları adamların aqibəti məlum deyil. Küçələr boğazları kəsilmiş müsəlman meyitləri ilə doludur, bir çox müsəlman qadınları zorlanmışdır. Ermənilər planlaşdırdıqları bu kütləvi qırğınları əvvəllər Maraşda da tətbiq etmişdilər. Kütləvi qırğınların qarşısını almaq üçün təcili tədbirlər görmək lazımdır" **[Mənbə - Birləşmiş Dövlətlər Xarici İşlər Nazirliyi Arxivi. Qovluq № 867, sənəd № 2556-2/25, 26)].**

**ƏLAVƏ L.**

## 13-cü Qafqaz alay komandiri yarbay (polkovnik) Əhməd Rzanın 3-cü ordu komandanı Vehib Məhmət paşaya göndərdiyi raportdan:

1. Ermənilər 15-16 yanvar 1918-ci il tarixində Ərzincanda silah axtarmaq bəhanəsi ilə axtarışlara başlamış və nəticədə 1500-ə yaxın uşaq, qadın və qocaları qətlə yetirmişlər. Yolları düzəltmək adı ilə 650 kişini naməlum yerə apararaq onları da eyni şəkildə öldürmüşlər. Ərzincana girərkən şəhərə qədər yerləşən bütün kəndlərin darmadağın olunduğunu gördüm. Şəhər içində öldürülüb, dəfn edilməmiş cənazələri toplatdıraraq basdırdıq. Öldürülən bu günahsız və təqsirsiz camaat arasında südəmər uşaqlar, doxsan yaşını keçmiş qocalar, parça-parça edilmiş qadınlar var idi.
2. Dünən saat 16:30-da Bayburta çatdıq. Bu gün aparılan araşdırmalar və xalq arasında keçirilən sorğular nəticəsində ermənilərin Bayburtda müsəlmanlara rəva gördükləri və birbaşa şahid olduğum vəhşilikləri, törətdikləri cinayəti aşağıda nəzərinizə çatdırıram.
3. Ermənilər Bayburtu tərk etdikləri gün qəsəbənin ən gözəl qonaq evləri və mağazalarından 400 qədərini yandırmışlar.
4. Ermənilər 15 fevral 1918-ci il tarixində un paylamaq adı ilə yerli əhalinin bir hissəsindən qadınları, kişiləri, uşaqları bir binaya yerləşdirərək onları qəddarcasına yandırmışlar. Eyni zamanda, küçələrdə rast gəldikləri uşaq, qadın, qız və kişiləri də süngü və güllə ilə öldürərək meyitlər üzərində müxtəlif alçaldıcı hərəkətlər etmişlər.
5. Ermənilər xalqı yandırarkən onlardan çıxan kömək fəryadlarını musiqi kimi dinləmişlər, bununla kifayətlənməyərək pəncərələrdən qumbara atmaq, qapılardan gülləbaran etməklə öz cinayətlərini açıqca göstərmişlər. İnsanlığın və mədəniyyətin bu günə qədər görmədiyi və tarixin yazmadığı bir şəkildə yandırılan, qətlə yetirilən və müxtəlif işgəncələrlə öldürülən müsəlmanların sayı 250-ni keçir.

**[Mənbə-23, s.191-192]**

**ƏLAVƏ LI**

## "Ərzurumun işğaldan azad edilməsi münasibətilə" («Tanin» qəzeti, 13 mart 1918-ci il)

"Rusiya ilə sülh razılığı əldə edildikdən sonra rus əsgərləri Şərqi Anadolunu tədricən tərk etməyə başlayıblar. Şərqi Anadolu vilayətlərində rus əsgərləri qiyafəsini geyinən və atılan rus silah və sursatına sahib çıxan erməni quldur dəstələri sistematik şəkildə çox faciəli qətliamlara başlamışlar. Bu qətliamlar

müxtəlif növ metodları törədir: kəndləri bütünlüklə darmadağın edir, körpələri, qadın və kişiləri, qocaları, rast gəldikləri islam dini mənsublu insanları ən faciəli surətdə qətlə yetirir, onları kütləvi şəkildə bir yerə toplayaraq diri-diri yandırır, qadın və qızların namusuna toxunduqdan sonra onları işgəncə ilə öldürürlər. Bəzi yerlərdə isə quyular sayılması mümkün olmayan cəsədlərlə doldurulmuşdur. Bəzi yerlərdə isə qadınların cinsi orqanları kəsilərək cəsədləri üzərində müxtəlif işgəncə verildiyi görünürdü. Çıxardılmış gözlərdən, kəsilmiş qulaqlardan zinət boyunbağıları düzəldirdilər. Bir müddətdir ki, ermənilər bizim torpaqlar üzərində xam xəyallar qurmuş və bu xəyallarını həyata keçirmək üçün daima bu cür faciələr törədirlər. Qafqazda və bizim torpaqlarımızda az sayda olmalarına baxmayaraq, erməni xalqının xəyalında yaratdıqları «Ermənistan» uğrunda silahlı mübarizəyə qalxmış və sadəlövhlüklə aldanaraq yoldan çıxan erməniləri öz ətrafında birləşdirərək tez-tez faciələr törətməyə başlamışlar. Heç bir səbəb, heç bir bəhanə olmadan bu cür faciələrin törədilməsi şübhəsiz ki, heç bir zaman unudulmayacaq və bu gün olduğu qədər sabah da onların cəzası veriləcək".

**[Mənbə - 22, 13 mart 1918-ci il, № 3324]**

**<u>ƏLAVƏ LII</u>**

## "Quldurların cinayətləri"
## («Sabah» qəzeti, 13 mart 1918-ci il)

"Erməni quldur dəstələrinin vilayətimizin şərqində törətdikləri cinayətlər haqqında müxtəlif dəhşətli xəbərlər alırıq. Bu cinayətlər çox faciəli şəkildə törədilmiş və olduqca çox qanlar axıdılmışdır. Rus ordusu torpaqlarımızdan çəkilməyə başlayan andan meydanı boş görən quldurlar müsəlmanların üzərinə quduz kimi hücum etmişlər. Himayəsiz və müdafiəsiz qalan xalqı o qədər vəhşiyanə bir tərzdə doğramışlar ki, bunları kağız üzərində oxuyarkən belə adamın tükləri biz-biz durur. Vanda Morel və Murad adlı quldur dəstə rəhbərləri bu faciələrə rəhbərlik etmiş və xüsusi qəddarlıqları ilə fərqlənmişlər. Mədəni Avropanın gözündən uzaq bir ərazidə baş verən faciələr erməni qəddarlığının bizə qədər gəlib çatan xəbərləridir və törədilən bu qəddarlıqlar bütün insanların diqqətini cəlb etməyə layiqdir. Törədilən bütün bu faciələr bizi öz yolumuzdan döndərməməli və biz məqsədimizə nail olmalıyıq. Törədilən faciələrin başlanğıcı rus ordusu tərkibində xidmət edən erməni hərbçiləri tərəfindən qoyulmuş və türk ordusu hücuma keçdikdən sonra geriyə çəkilən ermənilərin qafqazlı olmasına şübhə yeri qalmamışdır. Yüz illər boyu bu dövlətin çörəyini yeyən və onun sərvətlərindən istifadə edən ermənilər ilk fürsətdən hökumətə qarşı silahlı qiyama qalxmış, qonşularına qarşı canavar kimi münasibət bəsləmişlər. Bu cür cinayətlər heç şübhəsiz ki, cəzasız qalmayacaq. Canilərə, quldurlara qarşı amansız olmaq son dərəcə ədalətlidir".

**[Mənbə-20, 13 mart 1918-ci il, №:10173]**

## ƏLAVƏ LIII

### S.Şaumyanın Moskvaya, V.Leninə və Saritsın şəhərində olan Stalinə göndərdiyi teleqram (2 iyul 1918 il)

"Göyçay ətrafında iyunun 27-30-dək olan dördgünlük döyüşlər başa çatmışdır. Mühasirə üçün göndərilən dəstə Göyçayı bombardman etmişdir. Qoşunlar düşmənin arxasına keçmişdi. Bir sıra əlverişsiz şərtlərə görə cəbhəboyu mövqe tutan qoşunlarımız Qaraməryəmə doğru geri çəkilmişdir. Düşmən əhatə edilib, darmadağın olunmaq təhlükəsi altından çıxaraq öz növbəsində bizi mühasirə etməyə başladı. Yaranmış vəziyyətə görə qoşunları gələcək döyüşlər üçün qorumaq niyyəti ilə sağ cinahımız geri çəkilməli oldu. Süngü həmlələri ilə müşayiət olunan qanlı döyüşlər baş verdi. Lakin sol cinahdakı bir bölmə düşmənin çoxsaylı süvarisinin mühasirəsi altına düşməkdən qorxub geri çəkildi. Bu hal bütün cəbhəyə təsir göstərdi. Hər iki tərəfdən itki çoxdur. Düşmən sıralarında nizami türk hissələri var. Topçuların və pulemyotçuların komandir heyətinin əksəriyyəti türklərdir. 6 ədəd zirehli avtomobil döyüşün sonuna gəlib çatdı. Onlardan biri döyüşdə iştirak edə bildi. Düşmənin arxasına keçdi. Bu zirehli avtomobil öz vəzifəsini məharətlə yerinə yetirdi və bəzi hissələri çətin vəziyyətdən xilas etdi, habelə geri çəkilməsini asanlaşdırdı. İyulun 1-də axşam saat 5:15-də Kürdəmirdən teleqram alınmışdır. Orada bildirilir ki, bizim cəbhədəki vəziyyətimiz bərpa olunmuşdur. Yenicə məlumat alınmışdır ki, Göyçay Əmirovun dəstəsi tərəfindən tutulmuşdur.

**[Mənbə - 24, s.536-537]**

## ƏLAVƏ LIV

### Bakı hücumu ərəfəsində türk-Azərbaycan döyüşçülərinə müraciət

"Bakı deyilən milyon və milyard şəhərinin qapıları önündə günlərdən bəri zəfər quşunun qanadını tutmaq istəyən Türk ordusuna!

Bu gözəl könül qapısı şəhərini əgər siz zəbt etməsəniz, türkün və ordusunun şərəfini xəndəklərə göməcəksiniz. Əgər siz bu sərvət və qızıl şəhərini zəbt etməsəniz, sevgili böyük vətənimizə ən qiymətli bir hədiyyə etmək fürsətini qaçırmış olacaqsınız. Əgər siz yaşıl dənizin bu məşhur şəhərini zəbt etməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının qəlbinə saplanmış olacaq xəncərin üzərinə "Eyvah ki, türk bizə imdada gəlmədi" cümləsi yazılmış qalacaqdır. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaqdır. Əgər siz bu böyük İslam şəhərini zəbt etməsəniz, «Allah» deyənlərin varlığını ortadan qaldıran və qaldırmaq istəyən düşmənlər öndən və arxadan sizi saracaq və qıcanmış dişlər yeni zülmlər üçün itilənmiş olacaq. Əgər siz dəmir oluklardan dünyaya sərvət axıdan və sülhün tərəzisində çox ağır meyar olan bu hərb şəhərini zəbt etməsəniz, tarixin hüzurunda

məhcubanə yerə baxacaqsınız. Və bu gün dost-düşmən məmləkətlərində ən kiçik hadisəsi türklərin pozğunluğuyla bitmiş olacaq. Düşmənlər əzmli bir zəfərin açarını əllərinə keçirmiş olduqlarını bəlkə də az haqlı olaraq elan edəcəklər.

Dostlar belə bir zayədən hasil olacaq hatıflarını gizləməyəcəklər və bizi şəmləriylə qəhr edəcəklər.

Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən əlbisəni düşmən geyəcəkdir. Sənin üçün verilən vədlər yerinə yetirilməyəcək, sənin ayağına kəsilən qurbanlar düşmənə qalacaq. Sənin üçün hazırlanan altın kisələrini düşmən yağma edəcək. Əgər sən bu şəhəri almasan, İslam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək islam qanları qırmızı şərablar kimi vəhşi işgəncələr uğrunda axacaq. Sənin zəfərin üçün duaya qalxan əlləri zalımlar kəsəcək.

Əgər sən bu sarı işıqlı qızıl şəhəri almasan qadınlar saçlarını yolacaq, ağıllarını itirəcəklər. İndiyə qədər axan qanlar boş yerə axıdılmış olacaq. Sən də bu tozlu-torpaqlı yerlər içində pərişan və səfil qalacaqsan. Türkün gözlərini oyub ipliklərə düzən düşmənlərə bayramlar hazırlayacaqsan.

Fəqət sən, ey türk əsgəri, ingilislərin gücünü öz güvvənlə Çanaqqalada qırdın. Ən böyük hərb gəmilərinin böyük mərmilərinə sinə gərdin. Qarşıdakı düşmənin çoxunu önünə qataraq bu şəhərə qədər qovdun. Türk adını böyüdən Çanaqqala, Qalitsiya, Rumıniyadan sonra Qafqaza gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır. Al Bakını! Vətəninə bir qızıl ərmağan apar."

**[Mənbə- 80]**

## ƏLAVƏ LV

### Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbəri, Qafqaz cəbhəsi müftisi Axundzadə Gəncəlinin 3-cü ordu komandanlığına göndərdiyi məktubundan(07.05.1918):

"İki aydan artıqdır ki, davam edən erməni-müsəlman çaxnaşmaları nəticəsində Erivanda müsəlmanlarla ermənilər arasında düşmənçilik artmağa başlamışdır. Bu günə qədər erməni silahlı dəstələri müsəlmanları kəsməkdə, kəndləri yandırmaqda davam edirlər. Erivanda erməni qəddarları tərəfindən 30-dan artıq müsəlman kəndinin əhalisi doğranmış, kəndlər isə yandırılmışdır. Bu fəlakət ucbatından Erivandakı müsəlmanların vəziyyəti çox faciəli bir haldadır. Deyilənlərə görə, Erivan (İrəvan) şəhərindəki müsəlmanlara ermənilər hücum etmişlər. Hər gün Erivan tərəfindən çox sayda xəstə, yaralı, qoca və qadınlar köçürlər. Köçənlərin çoxu aclıqdan və taqətsizlikdən yollarda ölürlər. Köçkünlər yollarda rast gəldikləri adamlara bir parça çörək üçün yalvarırlar. Erməni hərbi hissələri Erivan ətrafındakı kəndlərə girərək orada yaşayan müsəlmanları bütünlüklə qətlə yetirmişlər. Ermənilər Sədərəyin cənubundakı Hanihalara tərəf

irəliləyərək qarşılarına çıxan müsəlman kəndlərini yandırır, əhalini isə qılıncdan keçirirlər. Ermənilərdən Payon adlı biri başına topladığı 1200 nəfərlik silahlı dəstə ilə Naxçıvan ətrafındakı müsəlmanlara qarşı qəddarlıqlar törətməyə başlayıb. Naxçıvanın Almalı kəndində 688 nəfər, Ağus adlı kəndində isə 516 nəfər xüsusi qəddarlıqla öldürülmüşdür. Gənc qızları ayırdıqdan sonra 2000 nəfəri toplayaraq onları öldürmüş və ayrıca 40 nəfər qadın və uşaqları bir otağa yığaraq diri-diri yandırmışlar. Erivanda Təpəbaşı, Hacıturçaları və Qayrıbulaq adlı müsəlman məhəllələrinin yandırıldığı məlumatı alınıb. Erivandakı müsəlman əhalisinin bu vəziyyətini Türkiyədə səlahiyyətli şəxslərə bildirməyinizi xahiş edirəm".

**[Mənbə - 23, s.243-244**

## ƏLAVƏ LVI

### 1918-ci il də ermənilərin hücumları nəticəsində Naxçıvanın dinc əhalisinin itkiləri

Ermənilər tərəfindən qətlə yetiriliblər: Hacı Xəlil kəndi 600 nəfər, Yuxarı Kotanlı 350 nəfər, Aşağı Kotanlı 320 nəfər, Sünhanazad Qırx 150 nəfər, Qaraçayır- bütünlüklə 200 nəfər, Asbuqa 50 nəfər, İğdır 300 nəfər, Əli Sofu 490 nəfər, Ağpınar- bütünlüklə 300 nəfər, Akyar 300 nəfər, Oluklu 200 nəfər, Qırxpınar 50 nəfər, Karnaqaz 400 nəfər, Qarahəmzə 200 nəfər, Qatranlı 600 nəfər, Dıhnız 560 nəfər, Sibkor 350 nəfər, Ağdərə-Kağızman 305 nəfər, Kömürlü 50 nəfər, Yalğızşam 50 nəfər, Purut 100 nəfər, Bayam 100 nəfər, Camışlı 200 nəfər, Qızılkilsə 10 nəfər, Təknəli 40 nəfər, Koloköyü 600 nəfər, Aynalı 40 nəfər, Berdik 30 nəfər, Məscidli 25 nəfər, Külverən 120 nəfər, Daynalıq 65 nəfər, Subatan 700 nəfər, Qaraqaş 600 nəfər.

**[Mənbə- 117a, s. 145-146]**

## ƏLAVƏ LVII

### Erməni əsgərlərinin silahları ilə birlikdə Rusiya tərəfinə fərarilik etmələrini təsdiqləyən bəzi sənədlər

1. "Səfərbərlik zamanı hərbi xidmətə çağırılan və kəndlərdə yaşayan erməni gəncləri İğdıra gələn Surenin dəstəsinə qoşulmuş və bütünlüklə Rusiyaya qaçmışlar" (Ərzurum valiliyinin 3-cü ordu komandanlığına 31.10.1914 tarixli 740 №-li raportundan) [12, № 1899]; 2. "29-cu alayın baytarı Aleksandr oğlu Kirkor Bayburtdan Rusiyaya qaçaraq erməni dəstələrinə qoşuldu" (3-cü ordu komandanlığının Baş Komandanlığa 24.05.1915 tarixli məlumatından) [55a]; 3. "Ruslar erməniləri silahlandıraraq dəstələr formalaşdırır. Hərbi hissələrdə erməni fərarilərinin sayı durmadan artır. Erməni partizan dəstələri tərəfindən baş verən

hadisələrin qarşısını almaq üçün qərar verilməsi vacibdir" (3-cü ordu komandanlığının 01.10.-1914 tarixli raportundan) [48]. 4. "Sərhədlərimizdə görülən tədbirlər nəticəsində ermənilərin təxribatlarının təsiri azalmış və onlar bugünkü siyasətlərini davam etdirib-etməyəcəklərinə şübhə ilə baxırlar. Erməni könüllülərindən 250 nəfər Erivan vilayətindən Tiflisə qayıtmışlar. Andranik Culfa bölgəsində Azərbaycan və Qafqazdan gələn erməni nümayəndələrinə başçılıq etmək üçün Tiflisdən yola çıxdı və burada əleyhimizə olan hərəkətləri sürətləndirmək və ya münbit vaxtı gözləmək lazım olduğuna qərar verəcəyi öyrənildi" (XİN-nin Milli Müdafiə Nazirliyinə 03.11.1914 tarixli 1634/54487 №-li məlumatından) [54]; 5. "Pork kəndində aparılan sorğular və araşdırmalar nəticəsində «Mauzer», «Qra», «Martin» və «Şnayder» markalarından ibarət 150 silah ələ keçirildi. 95 fərari tutuldu. Şebin və Suşəhrindəki 16 erməni kəndi «Daşnak» cəmiyyəti tərəfindən üsyan ərazisi olaraq seçilmişdir. Hər bölgəyə tanınmış ermənilərdən komandir təyin edilir. Osmanlı ordusunun rusların qarşısında bacarıqsız olduğunu bildirir, vilayətdəki ermənilər digər ermənilərlə birləşərək Osmanlı ordusuna arxadan təhlükə yaratmaq niyyətindədirlər. Ermənilərin bu və buna bənzər tədbirlərin qarşısını almaq üçün mərkəzin hər hansı bir qərarının olduğunun bildirilməsini rica edirəm" (Sivas valiliyinin DİN-nə 21.03.1915 tarixli teleqramından) [43]; 6."Pork kəndində ələ keçirilən silahlarla əlaqədar həbs edilən ermənilərin dindirilməsi üçün vilayət ədliyyə müfəttişinin göndərilməsini istəyirik» (Sivas valiliyinin DİN-nə göndərdiyi teleqramdan) [43]. 7. "Cəbhəboyu ruslar ermənilərdən olanları öz hərbi hissələrinə cəlb edərək əsgərlərin sayını artırırlar" (Ərzurumdakı səyyar jandarm diviziya komandanının 05.09.1914 tarixli 1484 №-li raportundan); 8. "Qars bölgəsindəki düşmən əsgərlərinin çoxu erməni könüllülərindən formalaşmışdır" (06.09.1914, sənəd № 1525); 9. "Qafqazdakı ermənilərin və xüsusilə komitə üzvlərinin ailələri Rusiyanın içərilərinə doğru göndərilmiş və Rusiyadakı ermənilər orada yaşayan müsəlmanları üsyanlara təhrik etmişdir. Erməni liderlərinə Qafqaz general-qubernatoru tərəfindən müxtəlif hədiyyələr verilmişdir" (Ərzurumdakı 9-cu korpus komandanlığının 15-16.08.1914 tarixli 354 №-li raportundan) [27, s.175]; 10. «Zeytun erməniləri səfərbərlik çağırışına riayət etməyib hərbi xidmətdən qaçırlar. Hərbi xidmətdə olanlar isə silahları ilə birlikdə fərarilik edirlər" (Hələb bölgəsindən DİN-ə göndərdiyi 26.08.1914 tarixli raportundan) [45]; 11. "Ruslar erməniləri öz tərəflərinə cəlb edərək Şərqi Anadoluda üsyan qaldırmaq niyyətindədirlər. Bunun üçün onlar çoxlu miqdarda maliyyə vəsaiti ödəmişlər" (Ərzurum bölgəsindən 3-cü ordu komandanlığına göndərdiyi 14.09.1914 tarixli 651 №-li raportundan) [48]; 12. «Kağızmanda Osmanlı mənşəli 8.000 erməni fərarisi toplanmışdır. Onları rus hökuməti silahlandırmış və Kağızmandakı silahlı qüvvələrin sayı 15.000 nəfərə çatmışdır" (Karakilsədəki (Ağrı) 2-ci ehtiyat süvari diviziya komandanlığının 24-25.10.1914 tarixli 359 saylı raportundan) [52].

**ƏLAVƏ LVIII**

## Ermənilərin təşkilatlanması prosesinin 1914-cü ilin sentyabr-oktyabr aylarında sürətlənməsini sübut edən bəzi raport və teleqramlar

11 oktyabr 1914-cü ildə 3-cü ordu komandanlığı Baş Komandanlığa aşağıdakı məzmunda teleqram göndərir: "Ruslar Qafqazda rus və Osmanlı erməniləri ilə yunanları silahlandıraraq dəstələr təşkil etmiş, onları bizim tərəfə göndərərək ölkəmizdə formalaşmış dəstələri daha da qüvvətləndirmək istədikləri müəyyən edilmişdir. Bölmələrimizdəki erməni fərarilərinin sayı durmadan artır" [59a]. 18 sentyabr 1914-cü ildə Bitlis valisi Mustafa bəy 3-cü ordu komandanlığına göndərdiyi raportda yazırdı: "Son günlərdə erməni ərazilərinin sakinlərinə müharibə başlayacağı halda ordudakı erməni əsgərlərinin silahları ilə birlikdə düşmən tərəfə keçmələri, Osmanlı ordusu hücuma keçdiyi halda sakit qalmaları, geri çəkildiyi halda dəstələr yaradaraq cəbhəyə əngəllər törətmək haqqında qərarlar çıxarılmışdır" [60]. 8 oktyabr 1914-cü ildə Trabzon valisi Camal Əzmi bəy DİN-ə göndərdiyi teleqramda yazırdı: "Rusiyadakı Osmanlı və rus ermənilərindən 800 nəfərlik bir dəstə ruslar tərəfindən silahlandırılaraq Artvin tərəfinə göndərilmişdir. Bunların Artvin-Ardanuc arasında dağılaraq yerli sakinləri öz aralarına cəlb etməklə saylarını 7.000 nəfərə çatdırılacağı, Osmanlı ölkəsində sabitliyi və təhlükəsizliyi pozmaq üçün istifadə ediləcəyi haqqında xəbər alınmışdır" [61]. Bəyazid rəhbərliyi 14 oktyabr 1914-cü ildə DİN-ə aşağıdakı məzmunda raport göndərir: "Sentyabrın 26-da Rusiyadakı erməni komitəçilərindən Smbatın 600 nəfərlik dəstə ilə Xoy şəhərindən Səlmas şəhərinə getdiyi öyrənilmişdir. Bu ermənilərin əksəriyyəti Van, Muş, Bitlis, Qars və Gümrü bölgələrinin sakinləridir. Dəstəyə Andranik komandan təyin edilmişdir. Van bölgəsində, Ərcişdə yaşayan Ruben Mkırtıçyan, Toros Karakaşyan və Portağalyan, Bəyaziddə ticarətlə məşğul olan Suren İğdır və İrəvan bölgələrində topladıqları dəstələrlə birlikdə Səlmasa getməliydilər. Melkon və Ohannes adlı ermənilər isə təbliğat yaymaq üçün Xoydan Vana getdikləri öyrənilmişdir" [60a]. Oktyabrın 23-də 3-cü ordu komandanlığı Baş Komandanlığa göndərdiyi raportda yazırdı: "Kağızmanda fərarilik etmiş Osmanlı ermənilərindən 800 nəfərlik bir dəstə toplanmışdır. Rusiyaya keçən bəyazidli Suren ilə Halik Sirup adlı ermənilərin hər biri ətrafında 2000-ə yaxın adamı olan dəstə toplanmışdır» [61 a].

**ƏLAVƏ LIX**

## Müharibənin ilk dövründə erməni-rus əməkdaşlığını sübut edən bəzi sənədlər

1."Qafqazdakı «Hnçak» və «Daşnak» komitələrinin üzvləri müharibə vəziyyətində Osmanlı ermənilərini üsyana təhrik etmək üçün Rusiya ilə razılaşmış və Qafqaz ermənilərindən çoxlu sayda könüllüləri müharibədə iştirak etmək üçün hazırlamışlar» (Baş komandanlığın 3-cü ordu komandanlığına 25-26.09. 1914 tarixli məlumatından) [61]; 2. "Rusiyada Osmanlı və rus ermənilərindən 800 nəfərlik partizan dəstəsi rus hökuməti tərəfindən silahlandırılaraq Batumdan Artvinə doğru hərəkət edir. Buradakı silahlıların sayı 7.000 nəfərdən ibarətdir. Bizimlə müharibəyə başlayacaqları təqdirdə bu qüvvələrə müstəqillik veriləcəyi vəd edilmişdir» (Trabzon valisinin DİN-ə 08.10.1914 tarixli 19527/1294 sayılı raportundan) [50]; 3. «Bölmələrimizdəki erməni fərarilərinin artması və rusların Qafqazdakı rus və Osmanlı ermənilərinin silahlandırılaraq partizan dəstələrini yaratması və bu dəstələrin türklərin üstünə göndərilməsi" (3-cü ordu komandanlığının Baş Komandanlığa 11.10.1914 tarixli raportundan) [46]; 4. "26 sentyabr 1914-cü ildə Rusiyadan gəlmiş komitə üzvü Samson və muşlu Smbat 600 erməni könüllü ilə Xoya gedərək oradan Səlmasa keçdi. Bu erməni könüllülərinin əksəriyyəti Van, Bitlis, Qars və Gümrü əyalətindəndir. Ruslar İran ermənilərinə də Muş və Bitlis vilayətləriylə Azərbaycan əyalətlərini alıb onlara verməyi vəd etmişdir" (Bəyazid bölgəsindən DİN-ə 14.10.1914-cü il tarixli raportundan) [51]; 5. "Bitlisdə erməni əsgərləri ordudan fərarilik edərək quldurluğa başlamışlar. Quldurlar Hələb və Dördyolda hərbçilərə və jandarmlara hücum etmişlər. Kaysəridə çoxlu miqdarda bomba və şifrələr tapılmışdır. Ölkədə qiyam hazırlığı olduğu görünür" (Baş Komandanlığın əsas döyüş birləşmələrinə göndərdiyi 25.02.1915-ci il tarixli 8682 №-li əmrindən) [47]; 6. "Qadağan edilmiş avtomatik silahlarla silahlanmış 40 nəfərlik bir erməni dəstəsi Zeytun qəsəbəsinə yaxın bir yerdə 21 nəfəri soyaraq 12.000 quruşdan artıq pullarını zorla almışlar, bu hadisənin şişirdilərək yayılması nəticəsində ətraf kəndlərdən hərbi qulluqda olan 30 əsgər öz kəndlərini müdafiə etmək məqsədi ilə hərbi qulluqdan geri qayıtmışdır [47].

**ƏLAVƏ LX**

## Van valisi Cövdət bəyin və jandarm diviziyası komandanlığının Van qiyamınının gedişində Baş Qərargaha göndərdiyi bəzi teleqramlar

Noyabrın 30-da Van valisi Cövdət bəy Baş Komandanlığa göndərdiyi teleqramda deyirdi: "Ermənilərin hadisə çıxarmamalarına çalışıram. Rus qüvvələri Qoturdan irəliləyir. Jandarm diviziyasının bu qüvvəyə uzunmüddətli müqavimət

göstərə biləcəyinə inanmıram. Ailələri Bitlisə göndərməyə başlayacağam" [46a]. Dekabrın 2-də DİN-ə göndərilən teleqramda deyilirdi: "Ermənilər mərkəzdə və digər yerlərdə hələlik sakitdirlər, ancaq Səlmas bölgəsindəki bütün ermənilər ruslarla əlbirdirlər. Vaxtı ilə Taluri (II Sasun) üsyanına rəhbərlik edən, indi isə sərhəd boyunca yerləşən dəstələrə komandanlıq edən Andranikin dəstələrinə fərarilik edənlər də qoşulurlar" [47a]. 15 dekabrda DİN-dən Van valisinə göndərilən teleqramda yazılmışdı: "Rəşadiyə və Qarlıqan teleqraf xətlərinin bəzi hissələrinin ermənilər tərəfindən məhv edilməsi və bəzi poçtları öz nəzarətləri altına alması haqqında xəbərlər əldə edilmişdir" [41]. Ərzurum valisi Tahsin bəy dekabrın 20-də Baş Komandanlığa teleqram göndərir: "Vanın Qarlıqan və Gevaş qəzalarında ermənilərin üsyan etmək ehtimalı vardır. Bölgədəki teleqraf xətlərini kəsmişlər. Qüvvələrimiz az və silahlarımız kifayətedici olmadığından əlavə qüvvəyə ehtiyac hiss edirik" [56a]. Bitlis valisi DİN-ə göndərdiyi teleqramda yazırdı: "Haksefdə ermənilər üsyan etdilər. Muş mərkəz qəzasına bağlı Siranun kəndində nümayəndəmizə atəş açılmış və 2 saat silahlı toqquşma olmuşdur. Akan bucağına bağlı Kümeş kəndində jandarmların evinə atəş açılmış, silahlı mübarizə 8 saat davam etmişdir. Akan bucağının Kumeş kəndində atəş açan ermənilər arasında Muş «Daşnak» nümayəndəsi Ruben, Zovin və Muş «Daşnak» rəhbərlərindən Eşron məni şübhələndirir"[62]. Van valisi 20 martda vilayətin hər tərəfində toqquşmaların davam etdiyini və daha da qüvvətləndiyi haqqında məlumat verirdi. "Üsyançıların sayı 2.000 nəfərdən artıqdır. Üsyanı yatırtmağa çalışırıq" [59]. Van jandarm komandanlığı Baş Komandanlığa 23.03.1915 tarixli teleqramda yazırdı: "Van vilayətinin Şitak qəzasında ermənilər jandarm şöbəsinə basqın etmişlər. Osep adlı bir dəstə komandirinin dəstəsini tərksilah edərkən qüvvələr arasında silahlı toqquşma baş vermişdir". Vali martın 23-də yazırdı: "Bayrık, Alaköy, və Buqanis kəndlərinin sakinləri kənd ətrafındakı hakim yüksəklikləri ələ keçirmişlər. Üsyançıların sayı min nəfəri keçir" [59]. Van valisi 3-cü ordu komandanlığına 20.04.1915 tarixli teleqramda yazırdı: "Üsyançılar Vanın erməni məhəllələrinə yaxın olan jandarm şöbələrinə hücum etmiş və müsəlmanların evlərini atəşə tutmağa başlamışlar. Onlardan müdafiə olunuruq. Dünən axşama qədər Atalan kəndi ətrafında baş verən toqquşmada üsyançıların bir qismi məhv edilmişdir. Gevaş teleqraf xətti bərpa edilmiş, rabitə açılmışdır. Bu gün Başqala, Memortki, Sersat teleqraf xətləri kəsilmişdir. Şəhərdə toqquşmalar var qüvvəsi ilə davam edir. Üsyançıların sayı getdikcə artır. Top göndərilməsini xahiş edirik" [59].

Vali aprelin 24-də Daxili İşlər Nazirliyinə aşağıdakı teleqramı göndərir: "Bu günə qədər bölgəyə ətrafdan 4.000-ə qədər üsyançı erməni gəlmişdir. Üsyançılar yol kəsir və ətraf kəndlərə hücum edərək onları dağıdırlar. Onlara müqavimət göstərmək getdikcə çətinləşir. Artıq bir çox ailə evsiz-eşiksiz qalmışdır. Bu ailələri qərb vilayətlərinə göndərmək mümkündürmü?» [57]. "Top və mitralyoz (pulemyot növü - N.Q.) ilə ruslar Dəyərə hücuma başladılar. Bu hücumla koordinasiyalı olaraq ermənilər Vanda üsyana başladılar. Vanda qüvvələrimizin kifayət qədər

olmadığını nəzərə alsaq, bu üsyanın bizi müşkül vəziyyətdə qoyacağını təsəvvür etmək çətin deyil» (Əlahiddə diviziya komandanı Kazım Özalpın 3-cü ordu komandanlığına 29 noyabr 1914-cü il tarixli 4073 saylı şifrəsindən) [50-51].

## ƏLAVƏ LXI

### Ermənilərin türk düşmənləri ilə əməkdaşlıq etdiyini təsdiqləyən bəzi sənədlər

1. "Rusiya ermənilərlə türklər arasındakı gərgin əlaqələrdən sui-istifadə edərək öz torpaq iddialarından əsla çəkinmirdi" (İngiltərə səfiri Louis Malletin xarici işlər naziri Edqard Qreyvə 14 mart 1914-cü il məktubundan);

2. "Bu intriqalarda əsas məqsəd bir yandan ermənilərin narahatçılığını artırmaq, digər tərəfdən türklərin nüfuzunu azaltmaqdır" (İngiltərə xarici işlər naziri müavini E.Krou 13 iyul 1914-cü il tarixində rusların ermənilərlə əlaqələri barəsində);

3. "Erməni şahzadəsi türklərdən intiqam ala bilmək üçün Rusiya ilə Türkiyə arasında müharibənin başlanmasını ermənilərin «dörd gözlə» gözlədiklərini belə ifadə etmişdir: Ermənilər ruslardan dəstək görə biləcəklərini başa düşdükləri vaxt «Ermənistan» və Türkiyədəki ermənilər arasında böyük bir üsyan baş verəcək" (Rostovdakı ingilis konsulunun köməkçisi B.Kirbi erməni şahzadəsi ilə görüşünün nəticələrini Xarici İşlər Nazirliyinə 6 noyabr 1914-cü il raportla bildirmişdir);

4. "Kilikiya erməniləri İsgəndərun, Mərsin və Adanada törədilməsi etimal olunan hər hansı bir hadisəni dəstəkləmək üçün könüllü yazılmağa hazırdılar. Başqa məntəqələrdəki ermənilər də çox əhəmiyyətli yardımlar edəcəklər. Silah və sursatla təchiz edilərlərsə, türklərə qarşı ayağa qalxacaqlar" (Qahirədəki İngilis diplomatik təmsilçisi M.Çithemin P.Nubara 20 iyul 1914-cü il məlumatından);

5. "Sevgili valideynlərim, bu son məktubumdur. Mən də artıq vətən qarşısında borcumu vermək və türkün başını əzmək üçün erməni könüllüləri ilə müharibəyə gedirəm. Rusiya, İngiltərə və Fransa türk və almandan intiqam almaq üçün qəti qərar vermişdir. Ermənilər müstəqil və azad olacaqlar. Əmin ola bilərsiniz, qurtuluş çox yaxındadır" (erməni əsgəri Bedros Harutunyanın valideynlərinə yazdığı məktubdan) [112, s.83].

ERMƏNİ ÜSYANÇI TƏŞKİLATLARINDAN BİRİNİN EMBLEMİ



"BÖYÜK ERMƏNİSTAN"ın YARADILACAĞI ƏRAZİLƏR



# ERMƏNİ QULDURLARININ LİDERLƏRİ



İSTİFADƏYƏ HAZIR ƏL QUMBARALARI



ERMƏNİLƏRİN GİZLİ SİLAH EMALATXANASI



ERMƏNİLƏRİN EMALATXANASINDA HAZIRLANAN DÖYÜŞ SURSATI



HƏBS EDİLƏN EMALATXANA FƏHLƏLƏRİNDƏN MÜSADİRƏ EDİLƏN ƏL QUMBARALARI



QULDURLARIN BAYRAQDARI



## ERMƏNİ QULDUR DƏSTƏLƏRİNDƏN MÜSADİRƏ EDİLƏN SİLAHLAR



## VANDAKI ERMƏNİ DÖYÜŞÇÜLƏRİ



**Belge No.54.** *Van Taşnakrutyun çetelerinden bir grup. Van ısyanında bilfiil çarpışmalara katılmıştır.*

## «HNÇAK» DÖYÜŞÇÜLƏRİ




## ERMƏNİ QULDUR DƏSTƏLƏRİNDƏN MÜSADİRƏ EDİLƏN SİLAHLAR



## ERMƏNİLƏR VƏ YUNANLAR RUS ORDUSUNUN TRABZONA DAXİL OLMASINI TƏNTƏNƏ İLƏ QARŞILAYIRLAR




## ERMƏNİ NİZAMİ ORDU HİSSƏLƏRİ



TO EXACT VENGEANCE: THE ARMENIAN CONTINGENT IN THE CAUCASUS

ERMƏNİ DÖYÜŞÇÜLƏRİNDƏN MÜSADİRƏ
EDİLƏN HƏRBİ SURSAT



ERMƏNİ MİLLİ ORDUSUNDA ANDİÇMƏ MƏRASİMİ



[illegible]

**Nazim QƏHRƏMANOV**

# I DÜNYA MÜHARİBƏSİNDƏ QAFQAZ CƏBHƏSİNDƏ ERMƏNİ AMİLİ

**Bakı-2008**


Yığılmağa verilmişdir: 10.06.2008
Çapa imzalanmışdır: 03.07.2008
Ofset kağızı. Format 60x84 1/16
Şərti çap vərəqi: 18,5
Nüsxə 500

Kitab "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Dərnəgül Sənaye Zonası, 3105-ci məhəllə.

Tel: 562-83-03; 563-54-42
**Direktor: Cəfər Əziz oğlu Bağırov**